

Vahid Qazi

# ETİRAZ HAQQI

Azadlıq hekayətləri

Vahid Qazi

# E T İ R A Z  H A Q Q I

**A z a d l ı q  h e k a y ə t l ə r i**

Karikaturaların müəllifi sovet dissidenti V. Sısoyevdir.

İsveç 2024

*Etiraz azadlığın birinci şərtidir!*

*Etiraz etmədən azad olmaq, azad olmadan da layiqli ömür sürmək mümkün deyil!*

İÇİNDƏKİLƏR

Müəllifdən ........................................................................................................ 6
2+2=5 .............................................................................................................. 9
Qırıq talelərin pazl tablosu ........................................................................... 11
"Le Concert", yaxud azadlıq duyğusunun səsli izahı .................................... 18
İbrahimbəyovun qorxulu kinosu ..................................................................... 21
Azadlıq qiymətinə foto .................................................................................... 23
Ozon adamlar .................................................................................................. 25
Cahillər və snoblar .......................................................................................... 29
Azadlıq, ya xoşbəxtlik... .................................................................................. 31
Təməldən bir də qurulmaq .............................................................................. 33
Güvən mənə, inanım sənə dövlətim ................................................................ 37
Əlili əlində tutan ölkə ...................................................................................... 39
Yolda o(qa)lan yolçuluqlar .............................................................................. 40
Vətənim Yalandiya .......................................................................................... 44
İşğalçılar .......................................................................................................... 46
Qarabağ atıyla demokratiya dalınca ............................................................... 48
Azərbaycan vektoru ......................................................................................... 50
Bizim saziş ...................................................................................................... 51
Təcrübəli təcrübəsizlər .................................................................................... 54
Azərbaycanda vətəndaş cəmiyyətini kim öldürdü? ......................................... 56
Üstümüzdəki Soros ləkəsi ................................................................................ 62
Etiraz hüququ .................................................................................................. 64
Etiraz – ləyaqətin bir başqa adı ....................................................................... 66
Məğrur yaltaqlıq məktəbi ................................................................................ 69
Şərq hüzuru ..................................................................................................... 72
Yaratmaq azadlığı ............................................................................................ 75
Susmaq hüququ ............................................................................................... 77
"Susmaq hüququ"na referendum əlavəsi ......................................................... 78
Söymək haqqı – sonuncu insan hüququ .......................................................... 80
Seçki xatirələrindən ......................................................................................... 83
Seçki süfrəsi .................................................................................................... 84
Etiraz şərqisi .................................................................................................... 86
"Bizimdir hürr küçələr!" ................................................................................. 88
Hərəkət azadlığı ............................................................................................... 90
Özünü axtaranlar ölkəsi ................................................................................... 92
İntibah təməlçiləri ........................................................................................... 96
Əmanət amanatı .............................................................................................. 98
Bayramın mübarək, "qum dənəsi"! ................................................................. 99
Elçibəyə etimad referendumundan 25 il sonra ............................................... 101

Bir hakimiyyətdən artıq ... 103
Tüstüdən dumana ... 106
Bütün zamanların lideri ... 109
Hədəflərə çatmağın köçəri quşlar yolu ... 111
Kontrabas adamlar ... 113
Çiçək qoxulu yuxu-parlament ... 115
Oyundankənar mətbuat ... 118
Söz oyuncağı ... 120
Axsaq mətbuATla müharibəyə getmək ... 121
Sözün nifrət çaları ... 123
Bizim sirli-sehrli Güney ... 126
Güney və Quzey Azərbaycanda milli kimlik məsələsi ... 129
Qumla London arasında Bakı ... 133
Türkiyədə islam inqilabı? ... 135
Avropada yeni kabus dolaşmaqdadır! ... 137
İsveçin Rusiya qorxusu ... 139
Rus ordusu haqda mifin sonu ... 141
Rusiya sindromu ... 143
Dərkolunmaz Rusiya ... 147
Rusiya səfirinə məktub ... 149
Çernobıl, xilaskar ata, bir də mən ... 151
"Erməni soyqırımı" – 103 yaşlı siyasi oyun aləti ... 153
Demokratiyanın yarımçıq təbəssümü ... 156
Pavian diktaturası ... 158
Görünənin görünməyən üzü. *Yaxud B.Yeltsinlə görüşü xatırladan "Satqınlar"* ... 160
Həyatdakı "Vətəndaş A"lar ... 162
Əraf *Fantasmaqorik hekayə* ... 163

# Müəllifdən

Azadlıq, müstəqillik, demokratiya, insan haqları, bu qəbildən olan neçə-neçə məfhum 1988-ci il mitinqlərindən, ələlxüsus da 20 yanvar qırğınından sonra bizim nəslin həyat kredosuna çevrilmişdi.

Hər şey etirazdan başlamışdı!

Əvvəl Qarabağa, sonra Azərbaycana görə etiraza qalxdıq.

Etirazımız müstəqillik qazandıqdan sonra da səngimədi, bu dəfə ədalətli seçki, insan hüquqları, söz, mətbuat, toplaşmaq, birləşmək kimi azadlıqlara görə davam elədi.

İnanırdıq ki, etiraz azadlığın birinci şərtidir! Etiraz eləmədən azad olmaq, azad olmadan da ləyaqətli ömür yaşamaq mümkün deyil!

Sonra gördük ki, etiraz hüququnun bitdiyi yerdə susmaq haqqı uğrunda mücadilə başlayır! Etirazın hədəfə çatmadığı toplumlarda belə olur. Bunu bolşevizmin, faşizmin qurduğu, beyinlərin total yuyulduğu cəmiyyətlər haqda kitablardan, filmlərdən bilirdik. Sovetin son illərinə düşən ömrün şüurlu çağında özüm də görüb duymuşdum, gəzib dolaşdığım Kuba, Özbəkistan, Belarus kimi azadlıqların boğulduğu ölkələrdə ictimai-siyasi fəallarla, keçmiş siyasi məhbuslarla, dissidentlərlə söhbətlərdən də anladım.

Susmaq hüququ etiraz haqqı alınmış, istəmədiyini deməyə məcbur edilən adamın sonuncu sığınacağıdır. O sığınacağa da əl qoyan Zorun son diqtəsi isə bu olur: "istədiyin kimi susa bilməzsən, istədiyim təki danışacaqsan!"

Kitaba, bir sözlə ifadə edəsi olsam, demokratiya problemləri adlandıracağım yazıları toplamışam. Müxtəlif illərdə, yerlərdə, situasiyalarda yazdıqlarımı. Geniş giriş sözü yazmaq istəyirdim. Son kərə oxuyub tərtibatı bitirəndə gördüm ki, yeni sözə ehtiyac yoxdur, elə Kuba səfərlərindən ərsəyə gələn "Çamayra. Kuba dəftəri" kitabındakı "Söz yolu" essesinin girişinə yazdıqlarım demək istədiklərimin hamısını ehtiva edir.

***

"Tanrı gildən adam yaradıb nəfəs verəndən sonra hər şeydən qabaq bəndəsinə yol bağışlayıb, axırını göstərməsə də, yolun başlanğıcını nişan verib, taleyini də elə bu yola yazıb. Yol Tanrının "Ol!" əmrindən sonra ikinci böyük hadisədir.

Adamlar bir-birinin qəlbinə yol salmazdan öncə bir-birinin mağarasına yol tapıb. Sonra birlikdə bəşəriyyətin ilk ovuna çıxıblar. Ov yolu insanın çıxdığı ilk düz yoldur.

Ovdan dönəndə, yeyib doyanda, doyub rahatlayanda gözlərdən gözlərə yollar baş alıb gedib. Gözdən başlayan yol qəlbə keçəndə dünyanın ilk sevgisi yaranıb.

Görən mağara dünyasının ilk sevəni kim idi, onun ilk kəlməsi nə olub?..

Dünyanın ilk sevgi yolu çəkilən gün ona paralel bir yol da başlayıb – nifrət yolu. Mağara əhli dünyanın ilk aşiqini həzm eləməyəndə burunlamağa başlayıb. Beləcə qaydalara ilk etiraz yaranıb. Dünyanın ilk azad sözü azad sevgi üçün deyilib. Və dünyanın ilk aşiqi elə dünyanın ilk azad söz cəfakeşi olub.

Mağara başbilənləri dərhal duyublar ki, azad söz təhlükəli virusdur, onu deyən də bu virusu daşıyan xəstə. Odur ki, onu mağaradan qovublar. Dünyanın ilk dissidenti bax beləcə yaranıb. İnanmayanlar inansınlar, hal-qəziyyə belə olub: insan özünü dərk edən kimi özünü ifadəyə başlayıb, bununla da öz sözünün qurbanına çevrilib.

O vaxtdan başlayan proses hələ də davam etməkdədir…

Mağaradan qovulan aşiq əvvəl əmin idi ki, tənha azadlıq birgə asılılıqdan yaxşıdır! Sonra qurd-quşdan, məsələn, dinozavrdan, aclıqdan, soyuqdan, tənhalıqdan qorxur, xiffətdən havalanır. Fikri dəyişir, qayıdır mağaraya – şərtlərin ən ağırını qəbul edir. O andan dünyanın ilk köləsi yaranır. İnsan xislətinə yeni çalar qatılır – köləlik.

Köləliyin canı yarınmaqdadır. Min illərdi insan bu vərdişindən əl çəkə bilmir, çünki kölə təkcə yarınan yox, həm də bu yarınmanı qəbul edəndir.

O vaxtdan başlayan proses hələ də davam etməkdədir…”



1981

# 2 + 2 = 5

*Corc Oruellin “1984” romanı haqda*

*“Azadlıq iki üstəgəl ikinin dördə bərabər olduğunu demək haqqıdır.*
*Əgər buna imkan yaradılırsa, qalan hər şey öz yerini tapacaq”.*
*C. Oruell*

150 cildlik “Dünya ədəbiyyatı kitabxanası” seriyasından nəşr olunan kitabların tərtibat, poliqrafiya keyfiyyətinə söz yoxdu. Aşağı səviyyəli tərcümələr barədə fikrimi bəzi müəlliflərin özünə dediyimdən burda yazmağa ehtiyac duymuram. Amma yaddaqalan tərcümələr də az deyil, hazırkı yazının mövzusu bu olmadığından bəyəndiklərimdən yalnız ikisini qeyd edəcəm.

Biri Amerikanı Azərbaycan dilinin sehriylə “kəşf edən” Tehran Vəliyevin Cerom Selincerdən çevirmələri, xüsusilə onun “Çovdarlıqda uçurumdan qoruyan”ıdırsa, o biri Vilayət Quliyevin mükəmməl bir dildə Azərbaycancaya çevirdiyi Corc Oruellin seçilmiş əsərləridir.

***

... Dünyada ən çətin mübarizə köləliyə qarşı azadlıq dirənişi, haqsızlığa qarşı ədalət savaşı, cəhalətə qarşı maarifçi inqilab, total zülmə qarşı fərdi inad deyil, ən ağır dava insanın şüurunda, qəlbində özüylə apardığı davadır.

Ən dözülməz işgəncə türmə, “psixbolnitsa”, həbs düşərgələrindəki zülm deyil, vicdanın “qaranlıq kamera”sında verilən amansız mühakimə suallarıdır. Bəzən o, İsanın çarmıx ağrılarından da dözülməz olur. İsanın işi asandır: Atası başı üstündə... Dərgahın darvazaları açıq... Aparıb qanı daman yarasını sarıyacaq...

Şüurların, qəlblərin daim basqıda qaldığı rejimlərdə insanlar vicdanın ağrı dərəcəsinə görə növbə ilə qurban gedir. İlk qurban vicdanı daha çox ağrıyandır. Vicdan ağrısı bitən adam sağdırsa, demək, onda çevrilmə baş verib. Dünyanın ən qorxulu çevrimi insanın manqurta dönməsi deyil, vicdanın o biri üzünə çevrilməsidir.

Mən Kafkanın Qreqor Zamzasından, Aytmatovun Jolamanından yox, Corc Oruellin Smitindən danışıram.

“1984” romanının qəhrəmanı Uinston Smit. Öz düşüncələrinin labirintində azan Smit. *“Keçmiş ölmüşdü. Gələcəyi təsəvvürə gətirmək mümkün deyildi”.* Keçmişi, gələcəyi olmayan bu gün?! Həqiqət nazirliyinin əməkdaşı kimi işi yeni həqiqət yaratmaq olan, sonunda “2 +2 = 5” həqiqətinə inanan qəhrəman.

*“Məsələ seksual aclığın isteriya yaratmasında idi. Bu isteriya Partiyanın işinə yarayırdı. Çünki onu asanlıqla müharibə ehtirasına, yaxud rəhbərə pərəstiş hissinə çevirmək olurdu”.* Həyatını dəyişən Culiya ilə bu gen dünyada azad bir öpüşə yeri olmayan Smit, kitaba ön sözdə yazıldığı kimi, sevgilisiylə *“elmi-psixoloji əsaslara söykənən istintaq-işgəncə prosesi nəticəsində Sevgi Nazirliyinin binasını dəyişmiş halda – partiyaya inam, Böyük Qardaşa məhəbbət hissi ilə tərk edirlər”...*

Total beyinyuma mexanizmi şüur, fikir, düşüncənin ən dərin qatına belə müdaxilə edir. Müdaxilənin ən dəhşətlisi şüurlara yox, qəlblərə müdaxilədir. Atam Stalinin ölümünü belə xatırlayırdı: *"Adamlar çaş-baş qalmışdı. Stalinsiz həyatı təsəvvürə gətirmək olmurdu. Küçələrdə arvadlar "şaxsey" deyir, "Stalinim, oyyy" deyə ağlaşırdı".*

Şüurlara total nüfuz edən rejimlər həm də ona görə təhlükəlidir ki, oradakıları pozub ağ səhifəyə öz mətnini yazmaqla yanaşı qəlblərə də girir, onun formasını, məzmununu dəyişib istədiyi hala salır.

"1984" insan çevrilişi haqda romandır. "1984" romanı "2 +2 = 5" həqiqətinə inanan insanlardan bəhs edən əsərdir. Orada bir xeyli tanış səhnə gördüm, tanış sözlər oxudum. Əsərdən seçdiklərimi sən də oxu:

- "Onlar şüurlu olmayana qədər üsyan etməyəcəklər. Üsyan etməsələr isə heç vaxt şüurlu olmayacaqlar";

- "Kiçik qaydalara əməl eləmək böyük qaydaları pozmağa imkan yaradır";

- "İyerarxik cəmiyyət yalnız yoxsulluq və cəhalət bünövrəsi üzərində yüksələ bilər";

- "... indi onlara intellektual azadlıq da vermək olar. Çünki heç bir intellektləri yoxdur";

- "Prinsip etibarı ilə hərbi xərclər əhalinin minimal tələbləri ödənildikdən sonra yerdə qalan vəsaitin hamısının mənimsənilməsinə hesablanır";

- "Müharibə vəziyyətinin mövcudluğu və onun doğurduğu təhlükələr bütün hakimiyyətin kiçik qrupun əlində cəmlənməsini təbii hala, hətta labüd xilas yoluna çevirir";

- "Müharibə uzun müddət davam edəndə təhlükəliliyini itirir. Hədsiz uzanan müharibədə hərbi zərurət anlayışı yoxa çıxır";

- "Bizim qurduğumuz dünya... qorxu, xəyanət və işgəncə dünyası olacaq, tapdalayanların və ayaq altda əzilənlərin dünyası olacaq, insanın kamilləşdikcə daha da amansızlaşdığı dünya olacaq".

***

İki üstəgəl iki beş eləmir ki?!

"Toplum"demokratiya jurnalı, 1(5), Qış, 2012

# Qırıq talelərin pazl tablosu

*Svetlana Aleksiyeviç və onun “Время секонд хэнд” kitabı*

Ondan başlayım ki, İsveç Kral Akademiyasının üzvlərini hansısa “qaranlıq” məqsədlər güdməkdə suçlayanlardan deyiləm. Onlar Nobel mükafatını kimə verdiklərini yaxşı bilirlər. Mənim bildiyim isə odur ki, mükafat onu təsis edənin vəsiyyətinə uyğun – siyasi-ideoloji motiv nəzərə alınaraq, uğur qazanmış ədəbiyyata verilir.

Svetlana Aleksiyeviçin bu mükafatı almasını adı hələ iki il əvvəl namizədlər siyahısında olanda gözləyirdim.

Özü haqqında, yazdığı kitabların mövzusu barədə bildiyimdən ona qarşı bir yaxınlıq duyurdum – başqa namizədlərin adı mənə heç nə demirdi. Bir vaxtlar eyni ölkənin vətəndaşı olmağımız, sonra ayrı-ayrı ölkələrdə yaşasaq da bənzər həyatımız bu yaxınlığın əsas səbəbi idi, belə bilirəm.

Mükafat ona onillər boyu yazdığı beş kitablıq “Utopiyanın səsi” adlı bədii-sənədli xronikaya görə verilib. Öz taleyini özü danışan “balaca adamlar”ın kiçik tarixçələrindən böyük tarix salnaməsi yaratdığına görə.

Təqdimat törənində çıxışı, sonra İsveçin SVT-2 kanalının Nobel mükafatı alan başqa qaliblərlə birgə təşkil elədiyi dəyirmi masada dedikləri onu dinləyən hər kəs kimi məni də təsirləndirmişdi. Elə bilirdim, məndən danışır; eşidib-gördüklərimdən, xatirə-düşüncələrimdən, taleyimdən danışır.

Dəyirmi masada Svetlana Aleksiyeviç yazıçı ilə jurnalist, bədii əsərlə publisistika arasında əla paralellər apardı. Bilirsiniz, mükafatın ona verilməsi birmənalı qarşılanmadı – yazdıqlarına “publisistikadır” deyənlər oldu (Bizim son Milli Kitab Mükafatı müsabiqəsində bəndənizin “Çamayra. Kuba dəftəri”ni də eynən bu cür ittiham edənlər vardı). Bu ittihamlara isə onun cavabı qısa idi:

*”Mərməri yonan vaxtı Rodeni daşyonan sayarsan, amma sonda yaratdığına baxıb ona heykəltaraş deyəcəksən. Jurnalist kimi danışdırdığım adamlar da belədə, əsərlərimin material-qəhrəmanlarıdır, “balaca adamlar”dan mən əsər qəhrəmanı düzəltmişəm”.*

Verilişin səhəri günü yaşadığım Karlskrona şəhər kitabxanasına gedib Svetlana Aleksiyeviçin rusca kitabını istədim. “Yoxdu, amma istəsən sifariş verib ala bilərik, 3-4 həftə çəkəcək”, dedilər. İstədim. Azərbaycan oxucusu üçün qəribə gələr, amma İsveçdə belədir – kitabxana oxucunun arzusuyla xarici ölkədən kitab alıb fonduna daxil edə bilir.

Bir ay sonra telefonuma sms gəldi: “Kitabı götürə bilərsiniz”. Gedib götürdüm. “Sekond hənd zamanı” (“Время секонд хэнд”) – Moskvada elə təzəcə, 5-10 gün olar nəşr edilib.

Onu qarlı bir həftəsonunda oxuyub bitirdim. Bir zamanlar vətənimiz olmuş SSRİ-nin mən görməyən üzü, vətəndaşlarının xarakteri və sovetdən sonrakı “azadlıq peşmanlığı” elə adamların öz diliylə bittə-bittə nəql olunur.

…Kitabı bizə maraqlı edən həm də hadisələrin zaman-məkan paralellərində Azərbaycanın dünəni və bu gününün boy verməsidir.

## “İnsan özünü tanımır, tanısa – qorxar”

Kitabın elə ilk səhifələrindən adamı Milan Kunderanın “Zarafat” romanının nəfəsi vurur. Oxşarlıq eyni ideologi-siyasi məkanda yaşayanların taleyindədir. Fərq isə ondadır ki, Kunderanın qəhrəmanları ümumiləşdirilmiş obrazlardısa, Aleksiyeviç canlı şahidləri əsərə gətirib.

Mövzudan yayınmayım, bircə onu deyim ki, Kunderanın başqa əsərləri kimi “Zarafat” da totalitar rejimlərin insan həyatında, mənəviyyatında oynadığı eybəcər rol haqda mükəmməl bir romandır. Başıbəlalı qəhrəmanların yaşadığı acı həyatın bir baş səbəbkarı var – sosialist sistemi! “Sekond hənd zamanı”nda isə yüzlərlə “Zarafat” qəhrəmanı var. Və Aleksiyeviçin bu yüzlərlə qəhrəmanı həm də sosializm yolunda fəda olmuş milyonların əvəzinə danışır.

…Oxuyanda elə bilirsən, əlindəki kitab deyil, güzgüdür. Oxumursan, güzgüyə baxırsan. Səni göstərir, sənə bağlı olan – babandan balanacan – adamları göstərir. Yaşadığın sovet və sovetsonrası ölkəni, orada əhatələndiyin adamları göstərir.

Kitab SSRİ-nin yaranışından çöküşünəcən, süqutundan bu günümüzəcən yaşanmış insan taleləri haqda elə o insanların öz dedikləri həqiqətlərdən ibarətdir. Müəllif epizodik hallarda görünür, o da izahlar, əlavə qeydlər gərək olanda. O, qəhrəmanlarıyla dialoqa girmir, müdaxilə etmir, sadəcə onların monoloquna şərait yaradır.

Bunlar isə adi monoloq yox, etiraf-çıxışlardır. Biri günahların etirafı – cəllad tövbəsidirsə, o biri bir ömürlük dərdin göyərən üzünü, nəhayət, açıb göstərmək məqamının yetişməsindən həyəcanlanan qurbanın şahidlik ifadəsidir.

Yazıçının ustalığı qəhrəmanlarını tövbə anına gətirə, onları inandıra bilməsindədir, mənəvi boşalması üçün onları öz aurasına çəkməsində, ruhi kontakt yaratmasındadır. *“Sovet adamını yalnız sovet adamı anlaya bilər. Başqasına bunları danışa bilməzdim…”,* – bunu sıradan biri yox, yüksək çinli Kreml məmuru deyir.

Svetlana Aleksiyeviçin istedadı həm də bu portret və səhnələri pazl parçaları kimi toplayıb sovet adamının bütöv bir rəsmini yaratmasındadır!

*“Adi kommunalka… Bir mənzildə beş ailə – iyirmi yeddi nəfər yaşayır. Bir mətbəx, bir tualet… İki qonşunun dostluğu tutur: birinin beş yaşlı qızı var, o biri təkdi. Kommunalkalarda bir-birini güdmək adi hal idi. Dinləyirdilər, pusurdular. On metrlik otağı olanın gözü iyirmi metrlikdə yaşayanı götürmürdü. Bu da belə həyatdı… Və bir gecə “qara qarğa” gəldi. Balaca qızı olan qadını həbs etdilər. Qapıdan çıxanda rəfiqəsinə bunları deyə bildi: “Qayıtmasam, qızımı özünə götür, uşaq evinə vermə!” O da qızı götürdü. İkinci otağı da ona verdilər. Qız ona ana dedi – “Anya ana”.*

*On yeddi ildən sonra əsl ana qayıtdı. Rəfiqəsinin əlini, ayağını öpdü. Nağıllar adətən bu yerdə bitir, amma həyatda başqa sonluqlar da olur. “Həppi end”siz. Qorbaçov vaxtı arxivlər açılanda keçmiş düşərgə sakinindən soruşurlar: “İşinizə baxmaq istəyirsiniz?” – “İstəyirəm”. O da qovluğunu alır… açır… Elə üstəcə ondan yazılan danos idi… tanış xətdi… qonşu… “Anya ana”…imiş danosu yazan…*

*Siz bir şey başa düşürsünüz? Mən – yox. O qadın da heç nə anlaya bilmədi. Evə qayıtdı və özünü asdı… Mən ateistəm. Mənim Allaha çoxlu suallarım var… Atamın sözlərini xatırlayıram: "Həbs düşərgəsini dözüb yaşayarsan, amma adamları sinirə bilmək olmur".*

Kitab belə ağrılı tale səhnələriylə doludur.

## "Allah bilmir, balaca adam olmaq nə deməkdir!"

*Homo soveticus* yekcins deyil. Onun iki tipi var: "cəlladlar" və "qurbanlar". Aleksiyeviçin kitabı başqa sovetoloji əsərlərdən həm də onunla fərqlənir ki, burada "cəlladlar" da "qurbanlar" kimi səmimi etiraf edirlər.

Onu da deyim ki, "cəlladlar" deyəndə tək NKVD, KQB, milis orqanlarındakı stajlı işgəncə əməkdaşlarını nəzərdə tutmuram. Bu sıraya sovet tarix kitablarında haqqında bəhs olunmayan yeni bir sinfi – "nomenklatura sinfi"ni də əlavə edirəm. Sovet siyasi sisteminin fəhlə və kəndlilərdən yaratdığı bu yeni sinfin əsl mahiyyəti Mixail Voslenskinin *"Nomenklatura. Sovet İttifaqının hakim sinfi"* (*Восленский М. С. "Номенклатура. Господствующий класс Советского Союза"*) adlı kitabında xırdalıqlaracan açılıb.

90-cı illərin ortalarında xarici səfərlərin birində amerikalı dostum İrena Lasota Londonda rusca nəşr olunmuş bu kitabın bir nüsxəsini mənə bağışlamışdı. Bakıya qayıdanda elə yoldaca birnəfəsə oxumuşdum.

Elə ilk günlərdən bolşevik inqilabı partiya daxilində sovet cəmiyyətinin xüsusi imtiyazlı bir təbəqəsini yaradır. Sonrakı proseslərdə öz mövqeyini möhkəmlədən və nəhayətdə hakim sinfə çevrilən bu təbəqə özünü xalqdan təcrid edir. Ucqar kəndlərdən Kremləcən bir-birinə zəncirvari bağlılığı olan təbəqə öz içində xüsusi sosial baryer, məmur iyerarxiyası qurur. Bu nomenklatura sinfinə bəzən "partokratiya", "siyasi bürokratiya" da deyilirdi.

Aleksiyeviçin "Apokalipsis təsəllisi" adlandırdığı birinci fəsildə ikinci tip sovet adamı – "qurbanlar" öz etirafları ilə sosialist sisteminin əsl mənzərəsini incəliyinəcən çəkirlər. Göz önündə barmaqlarının ucunda dikəlib qabağa, gələcəyə – xoşbəxt həyat vəd edən kommunizmə boylanan sadə insanlar canlanır. Amma ömür sona yetsə də o xoşbəxt gələcək gəlib çıxmır.

*"Yoxsul və sadəlövh böyüdük, ağlımıza da gəlməzdi bu, kiməsə həsəd aparmazdıq. İnanırdıq ki, sabah bu gündən, o biri günsə dünəndən yaxşı olacaq. Bizim keçmişimiz də, gələcəyimiz də vardı. Hər şeyimiz vardı!"*

Kommunizmdən əli üzülənlərin tək təsəllisi Apokalipsis idi. Qiyamət günündə İlahi Ədalət bərqərar olacaq! Əlacı hər yandan kəsilən gücsüz qurbanın ümidi yalnız cəlladını Allaha tapşırmağadır.

Bəs, Allah üçün elə cəllad da qurbandısa, onda necə?!

*"Fikirləşirsən ki, Allah var?" – "Əgər varsa, demək, ölüm hələ son deyil. Mən Onun olmağını istəmirəm",* – özünü düşərgə baraklarında toz dənəsi kimi duyan milyonlardan biri deyir.

Ədalətin yetim qalan dövrüdür bəşərin ən qara tarixi!

…Müəllif kitabda insan xarakterini bəzən bir cümlə, bir abzas, bəzənsə bir bölmə ilə açır. Elə bilirsən, pazl parçalarının hərəsi bir insan siması, taleyidir:

16 yaşlı Roza yəhudi qızıdır. Partizan dəstəsinin komandirləri hər gecə növbə ilə onu zorlayır. Faşist təbliğatı kommunistlərə də sirayət eləmişdi. Yəhudiylə hər şey etmək olardı. …Hamilə qaldığı bilinəndə aparıb meşədə güllələyirlər;

87 yaşlı Vasili Petroviç 1922-ci ildən partiya üzvü olub. Deyir ki, yaşlı qadınların göz yaşlarına əhəmiyyət verməyərək kilsəni partladıb yerində ictimai tualet tikəndə də, o tualeti keşişlərə təmizlədəndə də bunu kommunist ideyasına sədaqət bilirmiş. *"Marks allahım, Leninin, Stalinin portretləri ikonam idi".* 37-ci ildə əvvəl atvadını tutublar, sonra özünü. Bir il dayanmadan işgəncə veriblər. Əvvəlki işgəncə verənlər həbs ediləndə yerinə başqaları gəlirmiş;

Qoca kommunistin on beş yaşındakı xatirəsi: *"Taxılı meşədə gizlədən dayımı ələ verdim. Qızıl Ordunun ac vaxtında taxıl gizlətmək… Bolşeviklər taxılı tapdılar, dayımın evini yandırdılar, özünüsə meşədə şaqqaladılar… Onu öldürən dəstənin komandiri əlimi sıxıb dedi: "Tez böyü, dostum!"* Sonralar 37-ci ildə onu da xalq düşməni kimi tutubmuşlar;

*"Düşərgədə 3 yaşımacan anamla yaşadım… Balaca uşaqlar tez ölürdülər. Qışda ölənləri yığırdılar böyük çəlləyə, yaza qədər qalırdı. Onları siçanlar gəmirirdi. Yazda, yer yumşalanda qalıqlarını basdırırdılar. Üç yaşından sonra uşaqları analardan alıb uşaq baraklarına yerləşdirirdilər";*

NKVD cəlladının dəhşətli etirafı: *"…İş beləydi… Nəylə müqayisə edəsən? Ancaq müharibə ilə müqayisəyə gələr. Amma müharibədə mən dincəlirdim. Almanı güllələyirsən – almanca çığırır. Amma bunlar… bunlar rusca qışqırırdılar. Belə baxanda özümüzünkülərdi… Polyakları, litovları güllələmək rahat idi. Bunlar isə – rusca: "Qorxaqlar! Alçaqlar! Tez vurun, qurtarın!", – bağırırdılar. Ananızı..! Büs-bütün qana bulaşırsan… ovcumuzu saçımıza silirdik… Hərdən bizə döşlük verirdilər… İş beləydi. Qulluqdaydıq. Növbənin sonunda bizə iki vedrə gətirirdilər: birində araq, o birində odekolon. Qurşağacan odekolonla yuyunurduq. Qanın xüsusi qoxusu var, bir az spermanın qoxusuna oxşayır. Bir itim vardı, işdən sonra mənə yaxın durmurdu. Ananı…! Niyə susursan? Uşaqsan hələ… güllə görməyən…"*

## "Balta yiyəsindən çox yaşayır"

Bütün rejimlərin çökən zamanı çatır. Biri əcəli aldadırmış kimi donunu dəyişib ömrünü bir qədər uzadır, o biri anında məhv olur. Kitabın "Boşluğun cazibəsi" adlı ikinci hissəsi xaos, aclıq, qorxu, inamsızlıq, peşmanlıq dolu 90-cı illərdən bu günümüzəcən olan dövrü əhatə edir. Sovetsonrası dövrün sovet adamları danışır.

...*Homo soveticus*-un xarakterini, mahiyyətini, dünyagörüşünü təhlil edən neçə-neçə fəlsəfi-sosioloji kitablar yazılıb. Kommunistlərin yaratdığı bu yeni insan tipini anlamaq, duymaq elə də asan deyil, xüsusən də Qərb araşdırmaçıları üçün.

"İnam" Plüralizm Mərkəzində işləyəndə ABŞ səfirliyi *"Liberallaşma və leninçi irslər"* adlı kitabın tərcüməsini, nəşrini bizə həvalə eləmişdi. Rəhmətlik Tehran Vəliyev dilimizə çevirdi, redaktoru özüm oldum. Kommunist sisteminin yaratdığı insanı, onun daşıyıcısı olduğu irsi analiz edən maraqlı kitab idi.

Svetlana Aleksiyeviçin kitabı isə başqadır. Onu bir elmi tədqiqatçı, yaxud sosioloqlar qrupu yazmayıb. Kitabı yazan kommunist epoxasını yaşamış insanların elə özləridir, onların "leninçi irslərin" daşıyıcısı olan övladlarıdır.

Ömrünü acılar içində yaşamaq insanın faciəsidir, amma daha dəhşətlisi odur ki, ümumbəşəri bilib həyatını həsr etdiyin ideallarin sonda çayın axmaz yerinə yığılan pis qoxulu su köpüyü kimi olduğunu görürsən və bundan havalanırsan.

Sovet marşalı Sergey Axromeyev kimi. 1991-ci ilin avqust QKÇP-si dünyanı lərzəyə gətirən bir ideyanın puçluğunu ortaya çıxaranda Kremldə özünü asır. Deme, milyonların könüllü qurban getdiyi bir ideya illuziya imiş, yaşanan əzab dolu talelər də əhəmiyyətsiz. Həqiqətin belə dəhşətli üzü də var! Onu yaxından tanıyan biri qətl versiyasını rədd edir, "onun kimi ideyaya sadiq adam yalnız intihar edə bilərdi", deyir.

Dörd milyonluq bir ordunun marşalının ölümü sükutla keçdi, vətəndə ona nekroloq yazası bir adam da tapılmadı. "Pravda" susdu! Kreml məmurunun dediklərindən:

*"Şərəf anlayışı? Sadəlövh suallar verməyin... Normal adamlar dəbdən düşüblər... Nekroloq-məqalə Amerikanın "Taym" jurnalında çıxdı. Reyqan zamanında qərargah rəisi olmuş admiral Uilyam Krouv yazmışdı. Hərbi məsələlərlə bağlı danışıqlarda çox görüşmüşdülər. Yad olsa da Axromeyevə ideya adamı kimi hörmət edirdi. Düşmən ona baş əyirdi".*

Bir həftə sonra oğrular qəbrini açıb üstü qızıllı orden-medalla dolu marşal mundirini oğurlayırlar. Bu vaxt isə yeni hərbi nazir həbsdə olan keçmiş nazirin arvadını evindən zorla çıxartdırırdı – mənzilə yiyələnmək üçün!

İki tip sovet adamından danışıram. Elə sovet əxlaqı da iki cür idi – biri "bolşevik-cəllad-nomenklatur" insanın, biri də səmimi qəlbdən "cahana sülh" arzulayan sadəlövh sovet adamının əxlaqı. Bunlar bu medalın iki üzü deyillər, bunlar bir ananın doğduyu əkiz oğul kimidilər – biri rahib, o biri cani…

## "Sosializm bitdi, bizsə qalırıq"

Yetmiş illik sovet dönəmi insanların dəbdəbəli evlərdən baraklara, baraklardan kommunalkalara, ordan da xruşşovkalara köç tarixidir.

Sovetin tək azad guşəsi "xruşşovka" mənzillərin bapbalaca mətbəxiydi.

*"XIX əsrdə rus mədəniyyəti dvoryan mülklərində yaşayırdı, XX əsrdə isə mətbəxdə. Bütün "altmışıncıların" ömrü – "mətbəx" ömrüydü. Sağ olsun, Xruşşov! Biz onun dövründə kommunal evlərdən çıxıb, öz mətbəximizi əldə elədik, o mətbəxi ki, orada hökuməti söyə bilirdik. Orda dissident söhbətləri edirdik. Orda fantastik ideyalar yaradır, siyasi lətifələr qoşurduq".*

Sovetdən sonrakı köçün də miqyası böyük oldu. Bir yol "müttəfiq respublikalar"dan Moskva zirzəmilərinə – qul həyatına gətirdisə, o biri yol da Avropaya, Amerikaya – "xoşbəxt röyalar" axtarışına apardı.

90-cı illərdə azadlıq nəşəsindən sonrakı ümid qırıqlığı fonunda insanların bir başqa faciəsi başlayır. *"Mənim vaxtım ömrümdən tez bitdi. Vaxtında ölmək lazımdı. Dostlarım kimi..."*

Səfil gününə düşən sovet intellektuallarının söylədikləri Famil Mehdinin elə həmin illərdə yazdığı "Dilən professor, utanma, dilən!" şeirini xatırladır:

*"Hanı o qırmızı diplomlar, hanı?*

*Nəyinə gərəkdir torbada qala,*

*Çıxar hamısını cır, at, tapdala.*

*Yandır cild-cild, yansın əl yazın,*

*Sən kimə gərəksən, o kimə lazım?"*

Aleksiyeviç də kitabında belə yazır:

*"Daha onlar heç kimə gərək deyillər. Sosial lift işləmir. İntellektual adam üçün on-on beş il işsiz-gücsüz qalmaq, iflic durumda, gərəksiz olmaq nə deməkdir... On il sonra Minskə dönəndə dəhşətə gəldim – nə qədər dost-tanış ölmüşdü. Onların ölümünə səbəb zamanlarının oğurlanması idi. Keçmişdə konservləşmişdilər. Əvvəl ümumi Zamanı oğurladılar, sonra da onların şəxsi zamanlarını".*

Tanış mənzərə deyilmi? Nə qədər intellektual adam, vicdanlı düşünərimiz cəmiyyətin "sosial zirzəmilər"inə "çökdü", vaxtsız-vədəsiz öldü. Darvin nəzəriyyəsinə görə güclülər yox, uyğunlaşa bilənlər sağ qalır. Uyğunlaşa bilməyənlər Yeni Zamandan sağ çıxmadılar.

Tarixin həqiqət üzü tarixçilərin yazdıqları deyil, onun canlı şahidlərinin dedikləridir. Kommunist ideyasının yüzlərlə başqa qurbanının etirafı, naləsi var kitabda.

Seçib bəzi başqa sitatları öz dilimizdə yazıya salmağı lazım bildim. Kitabda danışanların çoxu rusdur, amma dedikləri əksər keçmiş sovet ölkəsinin insanına şamil oluna biləsi sözlərdir. Sovetsonrası müasir Azərbaycanla oxşar mənzərəni oxucu rahatca görəcək.

*..."İnanmışdıq ki, küçədə bizi demokratiyaya aparacaq avtobuslar durub gözləyir".*

*... "İş Yeltsində, Putində deyil, biz köləyik – bax, bundadır! Kölə qəlbi! Kölə qanı! "Yeni ruslara" baxırsan... "Bentli"dən düşür, pulu ciblərində aşıb-daşır, amma kölədir".*

*..."Beş ilə Rusiyada hər şey dəyişə bilər, amma iki yüz ilə heç nə, ... psixologiya kölədi".*

*..."Sosializmdə pul qazanmağı öyrətmirdilər".*

*..."Ölkəyə azad adamlar lazımıydı. Onlarsa yoxuydu. İndi də yoxdular".*

*..."Kasıbı dəvə belində də it qapar".*

*..."Cəmiyyət özü haqda həqiqətdən qorxur".*

*..."İnsandan vəhşisi yoxdu. Adamı öldürən adamdı, güllələr yox".*

*..."İndi çoxları sovetə dönmək istəyər, bir şərtlə kolbasa bol olsun".*

*..."Rus romanları həyatda uğur qazanmağı öyrətmir. Necə varlanmalı... Oblomov divanda uzanır, Çexovun da qəhrəmanları çay içir, həyatdan gileylənir...".*

*..."Hardasa qorunur göz yaşlarımız".*

*... "Adamda birinci dəli olan saçlarıdı".*

*…"O vaxt desəydilər, ölkənin prezidenti KQB podpolkovniki olacaq…"*

*…"Mən sovet adamını illərlə içimdə tapdayıb əzdim, vedrə-vedrə atıb boşaltdım"*, deyir müstəqillik illərində uğur qazanmış qəhrəman. Çoxdurmu beləsi? Düzmü deyir? Belə asandırmı beyinlərdən silmək, vərdişlərdən azad olmaq?

*…"Sovet adamı – it kimi acıqlı, balıq kimi susqun",* Aleksiyeviçin qəhrəmanı deyir bunu. Çoxmu dəyişib bu adam? Sağ-solumuzdakılara, elə güzgüdəki üzümüzə baxaq. Postsovet adamı elə sovet adamının özü deyilmi? Öz "cəllad"ları və "qurban"ları ilə birlikdə…

İyirmi beş ildə "leninçi irs"dən azad ola bildikmi?

***

Mükafat, özü də Nobel mükafatı, almaq yazıçı uğurunun ölçü meyarıdır, şübhəsiz. Amma mənim üçün əsas meyar həqiqəti bəzək-düzəksiz yazmaq istedadı və hünəridir. Svetlana Aleksiyeviçin kitabı mənə həm də buna görə doğma gəldi.

Mart 2016

# “Le Concert”

*Yaxud azadlıq duyğusunun səsli izahı*

Ötən əsrin 50-ci illərində maestro Niyazi Azərbaycandan baş götürüb gedibmiş. Səbəb sənət mühitində hökm sürən intriqa, qarşılıqlı nifrət, düşməncə münasibət idi. Bir müddət Leninqradda yaşayan Niyazi məşhur Marinski teatrında baş dirijor işləyir. Elə həmin dövrdə teatr onun rəhbərliyi altında Amerikaya qastrola gedir. Az qala onun üçün faciəli sonluqla bitəcək hadisə elə o səfərdə baş verir – orkestrin iki üzvü, ailə cütlüyü ABŞ-da qalıb siyasi sığınacaq istəyir. Bu olay, üstəgəl xaricdə Ceyhun Hacıbəyov kimi qohumun olması onu DTK üçün potensial “yem” edəcəkdi. Sənət adamlarının hamisi Nazim Hacıyev olmasaydı…

Yox, bu yazıda maestro Niyazidən bəhs eləmirəm, onunla bağlı bu əhvalatı sadəcə giriş kimi seçdim.

***

Şəhərimizdə ata-oğul Yohann Ştrausların əsərlərindən ibarət qala-konsert olacağını hələ bir ay əvvəl küçə afişalarında oxumuşdum. “Gedəcəm” desəm də bilet almağa tələsmirdim. Elanda yazılmadığından konserti simfonik orkestr və balet truppasıyla İsveç şəhərlərinə qastrola gəlmiş Rostov Dövlət Musiqi Teatrının verəcəyini bilmirdim, həmin axşam bilet dalınca gedəndə öyrəndim.

Canlı orkestr musiqisi, gözəgəlim soprano, kəpənək uçuşlu balet rəqsləri… Qısası, o gecə ruslar İsveç tamaşaçılarına hər deyəndə yaşanmayan duyğular bəxş etdilər.

Qonaq teatrın inzibatçıları Tatyana, Olqa ilə elə foyedə tanış oldum. Rusca danışmağım, bakılı olmağım söhbətə tez körpü saldı. Atüstü qısa söhbətlərdə bir məclisin sözün danışdıq. İstedadlı musiqiçilərin Rusiyanı tərk eləməsindən, sənət üçün dözülməz mühitdən ürək ağrısıyla danışırdılar.

Elə çıxışçıların Rostov musiqi teatrının solistləri olduğunu onlardan öyrəndim. Biletsiz olduğumu biləndə Tatyana belə dedi: *“Narahat olmayın, konsert başlayanda burda olun, təşkil edərik, ailənizi də gətirin”.*

Konsertdən əvvəl foyedə var-gəl edərək tamaşaçılara “xoş gəldin” eləyən qızılı fraklı “Ştraus”a, girəcəkdə qoyulmuş masada konsertin proqramını satan Olqaya, yerli teatr inzibatçılarıyla nəyisə müzakirə edən Tatyanaya göz qoyurdum. Onlar hərdən qarberobun qapısına söykənib gah üzbəüz barda pivə içənləri, gah da ikibir, üçbir gəzişən qayğısız İsveç tamaşaçılarını küt nəzərlərlə seyr edən hündürboy kişiyə yaxınlaşır, nəsə deyib çəkilirdilər. O isə yorğun, həvəssiz halıyla kəlmə də kəsmirdi, eləcə başını tərpədirdi.

Teatr heyətinin rəhbəriymiş.

Adətən yekəpər, kələ-kötür adamların baxışları zəhmli olur. Onunsa üz cizgiləri heç bir informasiya vermirdi, qaba adama oxşamasa da ona həlim adam da deməzdim. Geniş alın, iri burun, çiyinə tökülən saç, uzunsov sifət fonunda gözləri xeyli xırda görünürdü. Amma bu balaca gözlər elə zəndlə baxırdı ki, elə bil nəzərləri hədəfə atılan ox idi. Ümumi görkəmiylə mənə tanış gələn “teatrın rəhbəri”nin bir neçə dəfə yanından keçdim, yaxınlaşıb salam vermək istədim, amma vermədim, düşüncələrindən ayırmadım.

…Düşüncələriylə qalmağı adamlarla söhbətdən üstün tutanları rəngi-ruhundan gözüm tez alır, onları ovcumun içi kimi tanıyıram…

Biz zalın axır sıralarında yer aldıq. Tatyana "teatrın rəhbəriylə" bizdən arxa sırada bir qədər kənarda oturdu.

Birinci hissə "Venesiyada karnaval"la ("Der carneval in Venedig") başladı. Bilirsiniz, Ştrausslar öz valsları ilə məşhurdular. Hətta oğul Ştrausa "vals kralı" deyərmişlər. Onların musiqisi ən tənbəl dinləyicini belə dingildədib rəqsə şirnikləndirir.

Mənimsə ruhum kəpənək-balerinalara qoşulub "Mavi Dunay" ("An der schönen blauen Donau") havasına oynayırdı. Ruhum nədi, özüm də oynayırdım. Gülməyin! Adamın belə halı olur. İllah da ovqatın bir "simi" də uzaq uşaqlıq çağına köklənəndə.

Konsertə baxa-baxa xəyalən gah uşaqlığımın Şuşasına gedirdim, gah da qayıdıb arxada əyləşən "teatrın rəhbəri"nə baxırdım. Gah Ştrausun Rusiyaya səfəri zamanı Olqa adlı rus aristokratına aşiq olmasından bəhs edən "Peterbuqla vidalaşma" adlı sovet filmini, gah da fransızların 2009-cu ildə çəkdiyi "Konsert"dəki Andrey Filipovu xatırlayırdım. Gah musiqinin sehrli dünyasında dinclik tapır, gah da qarışıq duyğular burulğanına düşürdüm.

Qəribə bir təzaddır, son vaxtlar Şuşanı mənə muğamat yox, klassik musiqilər xatırladır. Bəlkə bu, hələ uşaqkən maestro Niyazinin dirijorluğu ilə Şuşada, Cıdır Düzündə ilk orkestr ifasını dinləməyimlə bağlıdır – bilmirəm! Ötən yay Vyanada klassik bəstəkarların ev muzeylərini gəzəndə də Şuşanı gəzirmiş kimiydim.

O axşam da Şuşadaydım.

…Şuşa "İstirahət evi"ndə bizimlə qonşulıqda bir ailə dincəlirdi. Bakıdan gəlmişdilər, rusca danışırdılar. Bağın ayağında qala divarları tərəfdə bir armud ağacı vardı. Neçə dəfə Turşsu pavilyonundan su içməyə gedəndə ailənin böyük qızını çəmənlikdə oturub kürəyini o armud ağacına söykəyən görmüşdüm. Bəzən kitab oxuyardı, bəzən də əlində yelpik sonsuz üfüqlər altında uzanıb gedən uzaq dağlara, dərələrə baxardı.

İndi burda, teatr səhnəsində neçə quşun səsiylə cəh-cəh vuran, yar-yaraşığıyla bakılı qızı xatırladan Yekaterina Qorban da Ştraussun "Bahar səsləri" ("Frühlingsstimmen") valsını əlində yelpik ifa edirdi. Onun səsi yaddaşıma bir tablo kimi həkk olan o donmuş Şuşa lövhəsini ilahi bir ofsunla yenidən canlandırmışdı – səhnədəki qara fraklı kəpənək-rəqqas çəmənlikdə çiçəkdən-çiçəyə uçan aşiq-kəpənəyin özüydü, ağaca dövrə vurur, yelpikli Bakı gözəlinin başına dolanırdı. Qızsa üfüqün allah bilir hansı zərrəsində ilişib qalmışdı, onu görmürdü…

Fasilədə hamı foyeyə çıxdı, zalın aşağı sırasında qoca ər-arvad, bir də yuxarı cərgədə "teatrın rəhbəri" qaldı. Yenə harasa baxırdı, onun hara baxdığını tutmaq olmurdu, baxırdı, amma elə bil görmürdü.

Konsertin ikinci hissəsində Şuşa "Bakılı qız" tablosuyla gözümün önündən çəkilib getdi. İndi arxa sıradakı "teatrın rəhbəri" diqqətimə hakim idi. Bütün konsert boyu onun üz ifadəsinin dəyişdiyini görmədim –zalın "Bravo" nidalarına, ayaqüstə alqışlara lal, kar, kor idi.

Onu harada gördüyümü indi kəsdirmişdim.

…“Konsert” (“Le Concert”) filminin qəhrəmanı Brejnev dövründə yəhudi musiqiçiləri Bolşoy teatrın orkestrindən qovmaq əmrinə etiraz etdiyi üçün işdən çıxarılan dirijor Andrey Filipovdur. Siyasi rejimin bütün qapıları üzünə bağladığından teatrda süpürgəçi işləməyə məcbur olan bir zamanın məşhur dirijoru otuz ildən sonra Parisdə konsert vermək şansını heç vəchlə əldən vermir.

Bazarda alver edən, taksi sürən, təcili yardımda sürücü işləyən keçmiş orkestr üzvlərini yığır. Nəhayət, istəyinə çatır – sirri yalnız filmin sonunda açılan məşhur skripkaçı qızla Parisin Şatle teatrında ömrünün ən gözəl konsertini verir. Sonda məlum olur ki, bu, Filipovun rəhbərlik etdiyi orkestrdə birinci skripka çalan, həbs edilən gün körpəsini ona əmanət verən yəhudi Leanın qızıdır. Bir fransız müsiqiçinin violençel futlyarında SSRİ-dən çıxarılan körpə qızcığaz.

Geniş yazmıram, insan faciələri komik səhnələrlə təsvir olunan filmi özünüz də izləyə bilərsiniz. Sadəcə həmin axşam o filmi mənə xatırladan “teatrın rəhbəri”nın üzünə çökmüş kədəri görəndə başa düşdüm ki, musiqi azadlıq duyğusunun səsli izahıdır. Sənətkarını mənən sındırıb çıxdaş edən cəmiyyətlərdə filmdəki varlı, amma istedadsız Pyotr Tretyakin obrazlı insanlar hər şeyə yiyələnirlər.

…Azadlıqlara qapalı ölkələrin adamlarına fikir vermisinizmi heç, üzlərində gülüşlərin belə örtə bilmədiyi qəm kölgəsini necə, görmüsünüzmü?..

..Azadlıqlara qapalı ölkələrin əsl sənət adamlarını müşahidə etmisinizmi, onlarda gözlərin dərinliyinə çökən yorğun ümidsizliyi sezmisinizmi?..

O axşam mənə elə gəldi ki, ruslar bu konserti “Andrey Filipovların” simasında hər dürlü azadlığı boğan sistemlərin sındırdığı sənətkarlara ithaf edirlər.

Zalın işıqları yananda, hamı səhnədəkiləri alqışlayanda mən “teatrın rəhbəri”nə sarı çevrildim. Əlimi uzatdım, yumşaq əlini sıxdım, “Bolşoe spasibo” dedim. Elə bil baxışlarının donu açıldı. Üzünə təbəssüm qondu. Onun bu halına elə sevindim ki…

Düşünmüşdüm, axırda gedib dirijor Andrey İvanova “sağ ol” deyərəm, soprano Yekaterina Qorbana çiçək alıb bağışlayaram. Heç birini etmədim. Eləcə, Tatyanaya minnətdarlıq edib teatrdan çıxdım.

Bakının “Tarqovı”sını xatırladan Ronnebygatan küçəsiylə geri dönəndə uşaqlara yazının əvvəlində Niyazidən söz açdığım hadisəni danışdım. “Tale üzünə gülməsəydi, o da “Filipov ömrü” yaşayacaqdı” dedim və sabaha saxlamadım, elə həmin gecə evdə “Le Concert” filminə baxdıq.

Qəsdim uşaqlara azadlıq duyğusunu bir daha hiss etdirmək idi…

Mart 2017

P.S. Az qala unutmuşdum – Tatyana xeyli bahalı olmasına rəğmən bizdən bilet pulu almadı, qərib İsveçdə bizi doğma sandı güman ki…

# İbrahimbəyovun qorxulu kinosu

*İkinci Kinematoqrafçılar İttifaqı haqqında*

Əbdürrəhman Vəzirov ölkəyə rəhbərlik elədiyi dönəm özündən əvvəl uzun illər Azərbaycan kommunistlərinin lideri olmuş siyasi rəqibini cürbəcür intriqalarla Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov kimi dünya çaplı sənətkarların arasını vurmaqda ittiham eləmişdi. O vaxtdan təkzib edilməyən bu ittiham düzdürsə, güman etmək olar ki, mədəniyyətimizin başqa sahələrində də bu cür siyasət aparılıb.

Avtokrat idarəetmə metoduna xas bu cür siyasətlərin məqsədi aydındır: ayrı-ayrı nüfuz sahiblərinin birləşib güc mərkəzinə çevrilməsinə imkan verilməməlidir. Rüstəm İbrahimbəyovun başçılıq elədiyi təşkilatla eyni adda ikinci Kinematoqrafçılar İttifaqının yaradılması xəbərini oxuyanda yadıma Vəzirovun həmin sözləri düşdü. Heç nə dəyişməyib! Demək, yenə sənətkarlar üz-üzə qoyulur.

Sənət adamları arasında rəqabət, daxili çəkişmə hər dövrdə, hər cəmiyyətdə olub, indi də belədir, sözümün canı bu deyil. Söhbət dövlət adından danışan adamların şəxsi hakimiyyət maraqlarına xidmət edən idarəetmə sistemi formalaşdırması, bundan qaynaqlanan siyasi təfəkkür, əxlaq, davranış qaydaları diktə etməsindən gedir. Dövlət adına yürüdüləsi siyasət daxili ictimai resursları dağıtmağa xidmət eləməməlidir, axı, bunun tamam əksi olmalıdır. Xüsusilə dörd bir yanı dost olmayan ölkələrlə əhatələnmiş Azərbaycan kimi balaca dövlətin daxili həmrəyliyə yönəlik siyasət, idarəetmə mexanizminə ehtiyacı olduğu dövrdə.

Ölkəni idarə edənlərin, demək olar, əksəriyyəti müxtəlif elm sahələri üzrə fəlsəfə doktoru dərəcəsi alıblar. Ölkəni sanki filosoflar idarə edir. Bəlkə antik çağın filosofu Sallustun dediyi *“Barışıq şəraitində balaca dövlətlər də inkişaf edir, ədavət mühitində böyüklər də dağılır”* sözləri həmin filosoflar üçün başqa məna verir? Bilmirəm! Hər halda Rüstəm İbrahimbəyovu yenmək üçün ikinci bir Kinematoqrafçılar İttifaqının yaradılması fəlsəfəyə söykənən müdrik dövlət siyasətinin nəticəsi deyil, olsa-olsa dünənin saqqallı mujikini bu günün hakimiyyət səlahiyyətlisinə çevirən 1920-30-cu illərin bolşevik idarəçilik metoduna oxşayan siyasətin, dar dünyagörüşünün məhsuludur.

Tutalım, İbrahimbəyovu Azərbaycanda yendiniz, Rusiyada, Fransada, ABŞ-da da yenəcəksiniz? Bu işi tutanlar elə bilirlər ki, Rüstəm İbrahimbəyovla yanaşı Şəfiqə Məmmədovanı, Ayaz Salayevi də yenirlər. Sənət adamına dava açmaq, yumşaq desək, savadsızlıqdır. Çox demirəm, on beş-iyirmi il qabağı görməyi bacarmaq yetər ki, biləsən, xalqın yaddaşında, tarixində bu günün hakimiyyət səlahiyyətli məmuru yox, yenilməsinə can atılan sənətkarı qalacaq.

İkinci Kinematoqrafçılar İttifaqında toplanan sənətkarları qınamaqdan tamam uzağam. Orada sənətinə, şəxsiyyətinə hörmət etdiyim Ayaz Salayev kimi adam var. Onların belə qərar qəbul etməsinin səbəblərini bilmədiyimdən bu haqda danışmaq mənə düşməz. Amma bütün hallarda bu işdə hakimiyyət izi aydın görünür. Sənət adamlarının zəif damarını hakimiyyətlər qədər görən, tutmağı bacaransa yoxdur…

Salvador Dali bu sözləri gündəliyinə ötən əsrin 50-ci illərində qeyd eləmişdi: *"Qır-qızıla görə kompromisdən qaçmağın ən sadə yolu ona malik olmaqdır. Pul olanda istənilən "xidmət" mənasını itirir. Qəhrəman heç yanda xidmət eləmir! O, nökərçiliyin tam əksidir".*

Dahi rəssamın bu sözləri hansı ovqatda yazdığını duymaq olar, hər halda həmin illərdə onun sərvəti milyonlarla ölçülürdü. Sağlığında maddi sıxıntı çəkməmək hər rəssama, sənətkara nəsib olmayan taledir. Tale öz yerində, sənətkarın istedadını üzə çıxaran, ona təmənnasız qiymət verən mühitin mövcudluğu da əsas şərtdir. Diktaturalarda vicdanı əksinə gedə bilməyən sənətkarlar cəmiyyətin künc-bucağına çəkilməyə məcbur olurlar, sovet dövründə əsərləri nəşr olunmayan yazıçı-şairlər bədii tərcüməyə sığındığı kimi.

Bu gün başından sərvət aşıb-daşdığı vaxtında belə Azərbaycanın əsl sənət adamları bir parça çörəklə imtahana çəkilirsə, kino-teatr xadimi gözünü "prezident təqaüdü"nə dikirsə, beş yazıçısı bir ev üstündə abırdan gedirsə, rəssamı, heykəltaraşı yalnız siyasi liderin şəkli, heykəli üçün sifarişə ümidlidirsə, hansı mədəni çiçəklənmədən danışılır? Bilmirəm! Vicdanı əksinə gedə bilməyənlərin işi daha zülmdür.

Sənətkarları asılı eləmək, üz-üzə qoymaq siyasi qorxudan xəbər verir! Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, bu çəkili sənətkarların bir yerdə olması böyük güc, qarşısıalınmaz ictimai rəy demək idi. Bu gücün qarşısında hər siyası qüvvə tab gətirməzdi. Odur ki, onları ayırmaq, üz-üzə qoymaq, zəiflətmək, beləcə tabe eləmək lazım idi. Həmin siyasət indi də davam edir. Bu dəfə imtahanda kino xadimlərimizdir.

Sənəti, sənətkarı savad, qabiliyyəti tutduğu vəzifədən qat-qat aşağı olan dar qafalı məmura tabe elətdirilən siyasət xalqa faciə yaşadar. Parisdə "Anna Karenina" filmi nümayiş olunarkən qraf Tolstoyun qızı Tatyana Tolstoy-Suxotina pulsuzluq ucbatından həmin filmə baxa bilməmişdi. Bu, tək onun, atası Lev Tolstoyun faciəsi deyildi. Bu, bütöv rus xalqının faciəsi idi!

Allah bizi kitabımızı oxuya, kinomuza baxa bilməmək faciəsindən qorusun! Sözümün canı budur, yoxsa, kinodan qorxanlar İbrahimbəyova neyləyəcəklər ki, dövlət adına sığınsalar belə…

25 iyun 2012

# Azadlıq qiymətinə foto

*Müstəqilliyə aparan yolun ilk qurbanları Əlinin, Bəxtiyarın xatirəsinə*

Ömrün ayrı-ayrı anlarına güzgü tutan xatirələrimiz kolleksiyaçıların topladığı bahalı əşyalar kimidir. Onları pulumuz, vaxtımız hesabına, bəzən də lap həyatımız bahasına "alıb" xatirələr muzeyinin eksponatına çeviririk. Elə-belə, "müftə" olanı, "nəfə" qalanları daha çoxdur, beləsindən danışmıram.

Şirinli-acılı min-min xatirənin içində ən yadda qalanı ən "baha" alınanıdır. Xatirələrin dəyəri ona çəkilən "xərc"i gözəyarı da olsa qiymətləndirəndə bilinir. Bunu hər kəs hesablaya bilər.

Bax, mən Rumıniyanın Braşov kurort şəhərində dostların fantastik məbləğ deyib imtina elədikləri bir gecəlik xatirə üçün cibimdəki pulun, yalan olmasın, hamısını xərcləmişdim.

Ağdamdan Şuşaya qalxanda vertolyota dəyən güllənin doğurduğu xatirə lap "baha çıxmışdı" – bütün ömrə çatası qorxunu bir neçə dəqiqədə "israf" eləmişdim.

Krımda dağ başındakı Çufut-Kala muzey-şəhərinin sehrinə düşmək üçün isə qızıl kimi neçəsə saatımdan keçmişdim.

Amma bu yazıda öz xatirələrimdən yox, başqa birinin hələ 24 il əvvəl bir ətək pul töküb aldığı fotosunun yaşatdığı xatirədən söz açacam.

***

Uzun illər öncə bir çex dostum Milan Kunderadan yerlisi kimi fəxrlə danışanda, onun eyni adlı əsəri əsasında çəkilmiş "Varolmanın dözülməz yüngüllüyü" filminə baxmağı tövsiyə edəndə heç ağlıma da gəlməzdi ki, orda cərəyan edən siyasi hadisələr bir vaxtlar Ağdamda yaşadığımız olayların oxşarıymış. İllər uzunu heç bir kanalda rastlamadığımın səbəbini dünən bir də baxanda bildim – filmin xeyli erotik səhnələri də varmış.

Bu yazının ərsəyə gəlməsinə səbəb internetdə baxdığım həmin filmdəki bir epizod oldu – xüsusi xidmət orqanı əməkdaşları 1968-ci ilin məşhur Praqa nümayişlərində iştirak edənləri çəkilən fotolardan, videolardan müəyyən edib tuturdular.

Çexoslovakiya lideri Dubçekin siyasi islahatları, cəmiyyətin liberallaşması insanlarda SSRİ-dən asılılığı azaltmağa, azadlıqların bərqərar olmasına ümid yaratmışdı. Çox çəkmədi, ümidlər "Brejnev doktrinası" ilə 300 min əsgərin çəkməsi, 7 min tankın tırtılı altında qaldı.

Praqanın qanlı baharı 20 il sonra, 1988-ci ilin fevralında Ağdamda təkrarlandı.

Sabahın dalğası dərya dərinliklərində bu gün toparlanır. Ağdamda minlərin başladığı mitinq sonra Bakıda milyonların etiraz dalğasına çevrildi.

Həmin ilin 21 fevralında Ağdamda müasir Azərbaycan tarixinin ilk etiraz mitinqi keçirildi. Səhəri gün Stepanakertə sarı izdihamlı yürüş qərarı da elə o mitinqdə verildi.

Eynən Praqadakı kimi burada da yürüşün qarşısına sovet-rus ordusu çıxdı. Azərbaycanın müstəqilliyi ilə sonuclanacaq yolun başlanğıcında ilk qurbanlar Əsgəran qalası yaxınlığında verildi – Əli, Bəxtiyar öldürüldü, Sahib Şükürov, adını bilmədiyim neçə-neçə adam yaralandı.

Yürüş silah gücünə dayandırıldı! Etiraz səsləri batırıldı! Arxasınca kütləvi həbslər başladı!

İstintaq vaxtı adamların mitinq-yürüşdə iştirakı gizli çəkilmiş fotolarla sübut edildi. Vətənin müdafiəsinə qalxanlar dövlət əleyhinə hərəkətdə ittiham olundular. Praqa hadisələri ilə oxşarlıq elə buradaca bitdi!

Bundan o yana hadisələr Azərbaycansayağı cərəyan elədi. Pulu olmayan tutuldu, pul tapan azadlığını satın aldı. Deyilənə görə, o hadisədə mitinqçilərdən yığılan pul 1970-ci illərin maddi-mənəvi mirası olan pambıq "pripiska"sından əldə olunan gəlirdən də çox imiş.

Bu, torpaq təəssübü çəkən insanların inamını əzmə, iradəsini sındırma, vətəndən incik salma siyasətinin başlanğıcı idi.

Sonra vətənsevənlər bir-bir sıradan çıxarılacaq, vətənin başına vətənsoyanlar gələcəkdi!

Müharibəsi bitməyən ölkədə qəhrəmanlar fərarilərə nökər olacaqdı!

Bu gün ölkəni idarə edənlər arasında vətən uğrunda müharibədə, müstəqillik yolunda mübarizədə iştirak edəni varmı? Amma hakimiyyət zirvələrində müstəqilliyin əleyhinə səs verən, bayrağı təhqir edən, xalq hərəkatı iştirakçılarını tutduran nə qədər desən hakimi-sahib taparsınız!

Çexiyada, oxşar tale yaşayan başqa ölkələrdə belə olmadı. Həbs olunanlardan rüşvət alıb buraxmadılar, mövcud qanun, siyasət çərçivəsində hərəkət etdilər. Sonralar bu siyasət cinayət elan olunacaq, qanunlar qüvvədən salınacaq, arxivlər açılıb gizlinlər aydınlığa çıxarılacaq, həmin dövrün hakim zümrəsi xalqın ictimai qınaq obyektinə çevriləcəkdi. Bu qınaq o qədər güclü olacaqdı ki, o vaxtın hakimiyyət təmsilçiləri yeni cəmiyyətdə yaşamağın tək yolunu xalqın lənətlədiyi soyadlarından ailəlikcə imtina edib, tanınmamaq üçün yenisini götürməkdə tapacaqdılar.

Bizdə isə tamam əksinə oldu. Əksi elə bu günümüzdür…

***

Yazı-pozu adamı olduğumu bilən bir tanışım neçə il əvvəl mənə bir şəkil göstərmişdi. Şəkildə o, çoxlu adam əhatəsindəydi. Danışırdı ki, bu fotonu "keqebeşniklər" 1988-ci ildə Ağdamdan Stepanakertə yürüş vaxtı çəkiblər. Sonra onu tutublarmış. Fotonu göstərib yürüşdə iştirakını sübut ediblərmiş.

*"Qohum-əqrəbadan, dost-tanışdan istədikləri məbləği topladım. Pulu verəndə müstəntiqdən xahiş elədim ki, o şəkillərin birini mənə versin. Vermək istəmirdi, "istintaq materialıdı" deyirdi. Uzun çək-çevirdən sonra ala bildim. Bax beləcə, şəkil mənə bir "Jiquli"nin qiymətinə başa gəldi".*

Həmin dövrdə Ağdamda o istintaqı aparanlar, onların rəisləri, o rəislərin nazirləri, həmin nazirləri yetişdirən siyasi rejim yönəldiciləri istintaq bir yana, heç xalq qınağına da tuş gəlmədi! Onlar çex həmkarları kimi nəinki soyadlarını dəyişdilər, əksinə, fəxrlə soyadlarını tarixə, tarixin ironiyasına bax, özü də müstəqil Azərbaycanın tarixinə yazdırmaqdadılar.

…Sonra da bəlalarımızın səbəbini orda-burda, onda-bunda axtarırıq.

23 iyul 2012

# Ozon adamlar

Ötən əsrin 60-cı illərində Londona mühacirət edən sovet yazıçısı Anatoli Kuznetsov yazıları, müsahibələriylə aləmə səs salmışdı. Parisdə nəşr olunan "Russkaya mısl" adlı mühacir dərgisinin 25 sentyabr 1969-ci il sayındakı məqaləsində sovet yazıçılarını siyasi baxışlar üzrə kateqoriyaya bölməsi isə gərgin müzakirələrə səbəb olmuşdu. Kuznetsov məşhur sovet şair, yazıçılarını bu cür təsnifatlandırmışdı:

– tamamən tabe olmuşlar: "*Sovet hakimiyyətinə eşq olsun!*" (Şoloxov, Mixalkov, Koçetov);

– liberal mötədillər: *"Sovet hakimiyyətinə eşq olsun! Amma edilənlərin heç də hamısı əla deyil…"* (Katayev, Simonov, Rojdestvenski);

– liberal davakarlar: *"Sovet hakimiyyətinə, insan simalı kommunizmə eşq olsun! Lakin məhkəməyə düşmək istəmirik"* (Yevtuşenko, Voznesenski, Tvardovski);

– müxaliflər: *"Sovet hakimiyyəti uğrunda, amma son 50 ildəki kimisi yox"* (Sinyavski, Daniel, Soljenitsın, Ginzburq).

Hər zaman Soljenitsın kimi dünya şöhrətli yazıçının dissidentliyinə skeptik yanaşmasına rəğmən mühacir polyak yazıçı-publisisti Yozef Matskeviç "Vyadomosti" dərgisinin 1970-ci il nömrələrinin birində bunu "dəqiq bölgü" adlandırmışdı. Yeri gəlmişkən, sovet siyasi sistemini mükəmməl bilən Matskeviçin Şoloxova yazdığı qınaq dolu möhtəşəm məktubunu tərcümə edərək "III Sektor" demokratiya jurnalının 9(17), 2005-ci il sayında dərc etmişdik. Daxili senzurayla "Sakit Don"a yenidən "əl gəzdirən" yazıçı faciəsindən bəhs edən o məktubu oxumağı (xüsusilə qələm əhlinə) tövsiyə edirəm. Bloqumun "Gündəlik" bölümündə tapmaq olar.

***

Etiraz azadlığın birinci şərtidir!

Etiraz etmədən azad olmaq, azad olmadan da layiqli ömür sürmək mümkün deyil.

Hər canlı kənar təsiri müxtəlif orqanıyla hiss edir. Toplum da canlı orqanizmdir. O, ləyaqətinə müdaxiləni "ziyalı damarı"yla duyur.

***

1977-ci ildə SSRİ konstitusiyasının qəbulundan bir il sonra Tiflisdə çıxan "Zarya Vostoka" qəzetində Gürcüstan SSR-nin analoji ali qanununun layihəsi dərc olunanda gürcü ziyalılar etiraz mitinqinə çıxdı.

Etiraza səbəb layihənin 75-ci maddəsində rus dilinə rəsmi statusun verilməsiydi. O vaxtadək hər üç Qafqaz respublikasında dövlət dili etnik çoxluğun dili sayılırdı. Bu dəyişiklik Gürcüstanda mitinq, Ermənistanda gərginlik, Azərbaycanda isə sükutla müşayiət olundu. Amma sonda hamı xeyir gördü – sovet hökuməti gürcü etirazları qarşısında geri çəkildi. Bizi də ayırmadılar, gürcülərin hesabına dilimiz əvvəlki statusunda qaldı.

Uzaq ellərdən, xalqlardansa qonşumuzdan bir misal da gətirim.

Yuxarıda söz açdığım jurnalın 2004-cü il saylarının birində keçmiş dissident, ictimai-siyasi xadim, dostum Levan Berdzenişviliylə müsahibəm dərc olunub. Yenicə baş tutmuş "Qızılgül" inqilabını analiz edən bu gürcü intellektual deyirdi ki, ziyalılar xalqın ləyaqətinin tapdanmasına dözmədilər, inqilab vaxtı öndə gedənlər hamının tanıyıb dəyər verdiyi yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar, alimlər, kino xadimləri oldu. *"Kütlə yalnız və yalnız ali təhsilli adamlardan ibarət idi. Onların arasında heç bir fəhlə-filan yox idi".*

Bu misallarla demək istədiyim odur ki, xalqların tərəqqi meyarı savadlı adamlarının çoxluğuyla ölçülsə də, azadlıq üçün tək bu yetərli deyil. Ləyaqət duyğusu, onu üzə çıxarası hünər də lazımdır. Millətin ləyaqət keşikçiləri isə onun vicdanlı söz sahibləridir.

Yazını Kuznetsovun bölgüsüylə başladım. Qələm adamlarının bu cür bölgülənməsi azad olmayan cəmiyyətin yaşadığı mənəvi faciənin görtərcisidir.

Azad cəmiyyətlərdə söz adamları mənəvi kateqoriyalara bölünmürlər!

***

Yuxarıdakı təsnifatı günümüzə uyğunlaşdırsaq, yəqin, belə oxunar:

– tamamən tabe olmuşlar: *"Yeni Azərbaycana eşq olsun!";*

– liberal mötədillər: *"Yeni Azərbaycana eşq olsun! Amma edilənlərin heç də hamısı əla deyil!";*

– liberal davakarlar: *"Hakimiyyətə və insan simalı Yeni Azərbaycana eşq olsun! Lakin məhkəməyə düşmək istəmirik";*

– müxaliflər: *"Yeni Azərbaycan uğrunda, amma son 20 ildəki kimisi yox.*

Uzun bir siyahıyla söz adamlarımızı bu bəndlərə yazmaq istədim. Alınmadı! Şəraitdən asılı olaraq hər biri "tamamən tabe olmuşlar", "liberal mötədillər", "liberal davakarlar" arasında rahatca yerini dəyişirdi.

Bəndlərdən yalnız birində sabitqədəm vardı: yazıçı Çingiz Hüseynov…

İnanıram ki, bu gün bir yazıçı, şair, bəstəkar, alim, kino xadimi, ümumiyyətlə, özünü ziyalı hesab edən şəxs mənim fikirlərimlə razılaşmayıb, nədən onun da adını çəkmədiyimə etiraz etməyəcək. Əksinə, iki-üç yazıçı, şairin adını "müxaliflər" siyahısına salsaydım (elə istedadlı yaradıcı şəxslər var ki, onların bu siyahıya düşməsini çox istərdim) əminəm ki, ləngimədən mənim mövqeyimə etiraz edər, nə vaxtsa söylədikləri həqiqəti belə inkar edərdilər.

İctimai vicdanlı adamlardan formalaşmış ziyalı təbəqə cəmiyyətin ozon qatıdır. Bu qat nə qədər qalındırsa, xalqın, cəmiyyətin ictimai azarlara immuniteti bir o qədər güclü olur. Bizimsə "ozon qatımız" süzülüb, dəlmə-deşikdir. Elə "xəstəliklərimizin" səbəbi də budur.

Xalqa "ozon adamlar"ın, umduqları ziyalının oksigeni çatmır ki, AZADLIQ ruhunu dadıb etiraz etsin, tələb qoysun. Etiraz amili olmayan cəmiyət sonunda Çexovun "şiləsi"nə çevrilir.

Bəlamız həm də odur ki, sovet ziyalı sinfi naqisliyi üzündən müstəqillik dövrünün milli elitasını yarada bilmədi, bu gün səsi yalnız bir "forum"luqdur. Bu zaman kəsiyində formalaşan yeni düşüncə isə hələ gəncdir, gücsüzdür.

Əvəzində tamam başqa elitamız yaranıb: snobist və cahillərdən formalaşan konqlomerat bir elita. Qorxaq, yaltaq, nökər xislətli, vəzifə və pula sıyıq insanlara sinə açan, fərqli düşünənlərin isə ən “dişsiz” etirazına belə dözüm göstərə bilməyən elita.

***

Söz sahiblərimizin yalnız bir bənddə – “Azad olmuşlar” bəndində yazılacağı bir zamanda yaşamaq istəyirəm! Onda bizi hər cür ictimai xəstəliklərdən qoruyan “ozon qatı”mız da olacaq!

30 iyul 2016


cei

# Cahillər və snoblar

Özümü cəmiyyəti çoxrəngli görmək istəyən, onun çoxsaylı zümrələrin qarşılıqlı təması ilə inkişaf edə biləcəyinə inananlara aid edirəm. Belələri sosial təbəqələrin bərabərhüquqlu ünsiyyətini quran bu şərtləri qəbul edənlərdi: işlək Qanun, hamının əməl elədiyi Qayda, bu qanun-qaydalarla yaşamaq Vərdişi, cəmiyyət həyatına hakim kəsilən Ədalət və Əxlaq.

Arzuladığımız cəmiyyət üçün bunlar yetərlidir. Təki hamısı cəm şəklində, birlikdə olsun, birinin, ya ikisinin olması kifayət eləməz, mırıq diş kimi pis görünər. Sadalanan prinsiplər bir-birinə bağlıdır. Halqalardan biri qırılanda zəncirin nizamı pozulan kimi bunların da biri sıradan çıxanda digərləri kəsərini itirir, vaxtilə təmtəraqlı səslənən, indisə arxaikləşən sözlər təki əhəmiyyətsiz ifadəyə çevrilir. Təzəkdə saralan samanın nə vaxtsa yamyaşıl ot olduğunu düşünməklə saman göyərəsi deyil…

Bir ilməsinin qaçmasıyla sökülən xalça kimi dəyərlər sistemi pozulmuş cəmiyyətin sonucu belədir – işləməyən qanun, əməl olunmayan qayda, yadırğanmış vərdiş, üzü sürtülmüş ədalət, pozulmuş əxlaq. Təsvir eləməyə çalışdığımız cəmiyyət azlaylıdır, burada rənglər də çox deyil, yalnız ağdan, bir də qaradan ibarətdir. Bu, qətiyyən o anlama gəlməsin ki, ağ yaxşını, qara pisi ehtiva edir. O, nağıllarda qaldı. Eyni mühitdə uzun müddət yaşasa, ağ qaralar, qara da ağarar. “Atı yan-yana bağlasan…” məsəlini mən deməmişəm, müdriklər deyib.

Bütün başqa dəyərləri bir kənara qoyub cəmiyyətin mənəvi düzənindən danışaq. Bugünkü mənəviyyat müstəvisindəki zümrələr bir-birinə qarışmayan iki kimyəvi məhlul kimidir. Söhbəti artıq çoxdan mənəvi tablomuzda başqa rəngləri udub yalnız ağdan, qaradan ibarət öz sərhədlərini cızan iki anti-mənəvidən – cahillərdən, snoblardan salmaq istəyirəm.

Cahil bərk olmadığından qoyduğun yerdə durmaz, aşar. O, maye də deyil, axmır. Qaz da deyil ki, uçub gedə. Bərk, maye, qaz halında olmayan şeyə təbiətdə nə deyirlər, bilmirəm. Cəmiyyətdə isə bunun adını elə cahil bilirəm. Təmtəraqlı səslənməsinə, görüntü yaratmasına baxma, cahilə heç nə təsir eləmir, özü də kiməsə təsir edəsi deyil. Amma mövcuddur. Mövcuddursa, demək, canlıdır, canlıdırsa, artandır. Bir şeyin artıb çoxalması üçünsə münasib şərait, münbit zəmin olmalıdır. Cahillərin artıb başına götürdüyü mühitə isə cəhalət deyilir.

Haqqında bəhs edəcəyim ikinci qrupun adı snobdur. Sürətlə yayılır, gərək dilçilərimiz bu sözün qarşılığını tapa. *“Aristokrat cəmiyyətinin zövq və ədalarını kor-koranə təqlid etməyə çalışan, digər hər şeyə xor baxan adam”.* Lüğətdə snob belə izah olunur. Bir az sadələşdirim: snob mənşəyini guya unudub zahirən zər-ziba içində göz oxşayan, ilk nəfəsdə adamı az qala bihuş edən, ancaq təkrar iyləmədə üfunət qoxuyan, yüngül təmasda yırtıq tuluqdan axırmış kimi çirkab olub üstünə tökülən insan zümrəsidir. O, sağlam cana yoluxa bilməyən virus, gün işığına tab gətirməyən kif göbələyi kimidir. Münbit yerdə (oxu: xəstə cəmiyyətdə) isə özünü rahat hiss edir, sərbəst dolaşır, epidemiya kimi yayılır.

Cəmiyyət cahillər və snoblardan ibarət iki qütblü kimi görünür. Biri-birlərindən elə məsafədədilər ki, dağ zirvəsindən baxırsanmış kimi əyilsən, başın gicəllənər, bir şey görməzsən. Amma bir-birləriylə təmas qurmadığına, ünsiyyətə girmədiyinə baxma. İkisi də bir boyda, eyni çəkidə, mahiyyətdədir, “bir bezin qıraqları” təki. Onların yaşam tərzi də, həyat mənbəyi də eynidir.

***

Hər yerin öz yetirməsi var. Səhra bataqlıq gülü bitirməz, bataqlıq da çöllər gözəli yovşanı. Şehçiçəyi gözəldir. Ləçəkləri çəhrayı, ortasındakı dişiciyi sarı, onu əhatəyə alan erkəkciyisə ağ rəngdə olan bu çiçək göz oxşayır, dərib yaxandan asarsan, sevgilinə çələng hörərsən. Amma bataqlıqda yetişir. Bu da onun taleyidir.

Qanun, qayda, ədalət, əxlaq olmayan yer də bir mühitdir. Burda yalnız cahillər və snoblar bitir, kökü dərinə işləyir, qol-budaq atır, çiçəkləyir, bar verir.

Yerdə qalanlar solur, quruyur, çürüyür…

Çöldə qalanlar isə boğulur, çərləyir, ölür…

24 iyun 2010

# Azadlıq, ya xoşbəxtlik

Yalnız birini seçmək imkanı verilsəydi, nəyi seçərdiniz: azadlığı, ya xoşbəxtliyi?

Bilirəm, neçə min ildir fikir adamları hansının daha əsas olması barədə baş sındırsalar da hələ bir tərəfə çıxa bilməyiblər.

Ağlı kəsəndən insan azadlığa can atır. Bəşər tarixi elə azadlıq uğrunda mübarizə tarixidir.

Bəs, hər azadlıq xoşbəxtlik gətirirmi?

... "Konserv xoşbəxtliyi" – hardasa oxumuşdum bu haqda. Havasız, qapalı yerdə uzun müddət salamat qalan konsevr məhsulu ağzı açılan kimi xarab olur, "azadlığa" dözmür.

… Əsrlər boyu təhkimçi (qul da demək olar) ömrü sürən rus xalqı 1861-ci ildə ona verilən azadlıqla nə edəcəyini bilmir, 50 il tab gətirir azadlığın "əzabına" və tarixin ən qanlı inqilabını eləyib yenidən öz qəfəsinə, bu dəfə adı SSRİ olan həbsxanaya dönür.

…"Şauşendən qaçış" filmində 50 illik türmə həyatından sonra azadlığın yükünü çəkə bilməyən Bruks şəhər otelində özünü asır.

…30 il keçib azadlığa qovuşmağımızdan, müstəqil dövlət qurmağımızdan. Yaşı 50+ olanlardan ömrün xoşbəxt çağını soruşsan, sovet dönəmini xatırlayacaq. Və mən daha onları qınamıram! "Azadlıq"ın vəd etdiyi "xoşbəxt"liyi görmədikləri üçün.

***

Uzun illərdir Skandinaviya ölkələri insan rifahını ölçən beynəlxalq təşkilatların azadlıq və xoşbəxtlik indekslərində ilk yerləri tuturlar. Bilmirəm, yaşadığım İsveç qarışıq bu ölkələrin azad və xoşbəxt olmalarında Yante qanunu nə boyda rol oynayıb. Onu bilirəm ki, bütün dünyanın diqqətini çəkən bərabər imkanlar toplumunu – əsl *eqalitarizmi* (bərabərlik) onlar qurublar.

Oxucunu qəliz terminlərlə yormaqla aram yoxdur, odur ki, "Yante qanunu" haqda qısaca deyim.

"Yante qanunu" skandinaviyalıların mentalitetini müəyyən edən 10 ehkamdan ibarət əxlaq kodeksidir. Skandinaviya yazıçısı (yarı norveçli, yarı danimarkalı) Aksel Sandemusun 1933-cü ildə nəşr etdiyi "Qaçaq öz ləpirindən keçir" romanında şərti adı Yante olan şəhərdə mövcud mənəvi dəyərlər bu adda ümumiləşdirilib.

Yerli mentalitet insanları müstəsna olmağa, özlərini seçilmiş hiss etməyə imkan vermir. Cəmiyyət öz üzvünün özəl hüquqlarını tanımır. "Düşünmə ki, böyük adamsan", "Düşünmə ki, bizdən vacib adamsan", "Düşünmə ki, bizdən ağıllısan" və s. Sandemusun formalaşdırdığı "qorxu, əsarət, həsəd, soyuqluq" basqısı ilə yaşayan mifik şəhər əhalisinin əxlaq qaydalarını sonralar "Yante qanunu" adı ilə skandinaviyalıların mentaliteti kimi təqdim etməyə başladılar.

Sandemus "Yante qanunu"nu heç də yoxdan kəşf etməyib. Bu, şimali avropalıların düşüncə, davranış, təfəkküründə çoxdan vardı. Lap qədimdən. Məsələn, XV əsr İsveç ədəbiyyatının incisi "Erikin xronikası"nda paxıllıq və xəsislik isveçli xarakterində qabarıq çizgi kimi göstərilib. XVI əsr salnaməçisi İohann Maqnus isə "inadkar qarşılıqlı paxıllığ"ı İsveçin faciəsi

hesab edirdi. Qustav Sundbərq 1911-ci ildə dərc etdiyi "İsveç xarakteri" essesində yazır ki, isveçli İsveç dövlətinin güclü, varlı olmasını istəyər, amma bir isveçlinin, xüsusən də ona yaxın olanlar arasından birinin varlanmağını yox.

Düzdür, indi o ölkələrin əhalisi bu qanunu köhnəlmiş sayır. Amma burada bir neçə il yaşayan əcnəbilər qanunun hələ də keçərli olduğunu deyirlər. Mənim uzun müşahidələrdən sonra gəldiyim qənaət isə odur ki, 19-cu əsrdə bu ölkələrdə demokratikləşmə prosesi başlayandan sosial həyatda "qızıl orta" tapmaq istəyi dövlət idealogiyası səviyyəsinədək yüksəlib və sosial-demokratların uzun onilliklər boyu yürütdüyü hakim siyasət hesabına şüurlara və davranışlara oturub.

Sosial həyatda "qızıl orta" – budur, Skandinaviya insanının toplumda özünü rahat hiss etdiyi mövqe! Nə qədər varlı, ağıllı, bacarıqlı olursan ol, bu, sənə özünü ətrafdakılardan üstün saymağa əsas ola bilməz. Cəmiyyət içində özünü diskomfort hiss edəcəksən və tezliklə çıxdaş olacaqsan.

19-cu əsrin əvvəlindən 1920-ci illərədək 1,5 milyon isveçli Amerikaya xoşbəxtlik arxasınca köç edib. Bu köç küçələrdə tüğyan edən inqilab havasını azadlıqlara qapı açan parlamentə daşımağı bacaran sosialistlərin, liberalların sayəsində dayandı. Ölkənin demokratikləşməsi, azadlıqların sərhədinin genişlənməsi insanlarda ümid oyatdı. Çox çəkmədi, cəmi bir neçə nəsil sonra azadlıqda yaşamaq vərdişinə yiyələnən insanlar bütün dünya üçün xoşbəxtlik nümunəsini – rifah cəmiyyəti modelini yaratdılar. Bir vaxt əhalinin tərk etdiyi ölkə dünyanın dörd bir tərəfindən adamların can atdığı dövlətə çevrildi.

***

Nə demək istəyirəm?

Azadlıqda xoşbəxt olmayanlar kimi, nə qədər qəribə səslənsə də, əsarətdə özünü xoşbəxt hiss edənlər də var. Qapalı sistem xoşbəxtliyi də demək olar buna. Onların xoşbəxtliyi əsl azadlıqdan xəbərsiz olmalarındadır!

Azadlıq isə anında xoşbəxtlik gətirmir! Xoşbəxt həyatı hürriyyətçilik yox, hürr yaşamaq vərdişi olan toplum qurur, azadlıqla nə edəcəyini bilən kəslər, yəni.

May 2021

# Təməldən bir də qurulmaq

Həyətimizdə, gilənarlığın altında iri bir qum topası vardı. Yarım maşınlıq olardı. Uşaqlığın qumla oynayan çağında o qumluqda yol çəkib şəhər salmaqdan xoşum gəlirdi. Əməlli-başlı şəhər olurdu: girişi, enli küçəsi, dalanları, evləri, milis idarəsi… Saatlar çəkərdi şəhərsalma prosesi.

“Şəhər”imə həmin gün dəyməzdim, bir gecə qalardı. Səhər dağıdıb yenisini başqa cür düzəldərdim.

Bəzən Şuşa yolu kimi dolama yollar çəkir, şəhəri qum təpəsinin başında salırdım. Sonra yol üzüaşağı düz çəpərin dibinə qədər uzanırdı.

Bəzən də Bakı bulvarına oxşayırdı düzəltdiyim. Atam Bakıya gəzməyə aparanda görmüşdüm. Uzun “bulvar”ımın qabağında dəniz də olurdu. Suyu vedrəylə daşıyırdım krandan.

Qış aylarında isə anamın aldığı konstruktor oyuncaqlardan evlər tikərdim. Bir də baxardın mikrorayon salmışam. Ağdamda məscidin yanındakı üçmərtəbə univermaqdan almışdı anam onu.

Bir az böyüyəndə daha qumluqda yox, xəyalımda tikərdim tikdiklərimi.

Evimizi azından yüz kərə söküb tikmişəm fikrimdə. Pəncərəsi küçəyə baxırdı. Odur ki, söküb həyətin o başında – milis şöbəsi tərəfdə tikməyi xəyal edirdim. Həm də daha böyüyüb yekə kişi olmuşdum. Ta dizlərimi qucaqlayıb pəncərədə oturan, gəlib-gedənlərə tamaşa edən vaxtım deyildi.

Hər dəfə bir cür alınırdı evim. Yadımdadır, “Baharın 17 anı” filmindən sonra Ştirlisin evinə oxşadırdım onu – Ağdamda bənzəri olmayan bir ev.

İndi İsveçdə evləri görəndə o uşaqlıq xəyallarım yadıma düşür…

***

Qriqori Petrovun “Ağ zanbaqlar ölkəsi” kitabını təzəcə oxuyub bitirmişəm. Qızım Ayan soruşur nə haqdadır, deyirəm qonşu Finlandiyanın təməldən qurulması, fin xalqının oyanışı, təzədən doğuluşu haqda. Amma kitabdakı ideya elə bizim üçün də keçərlidir deyirəm: bu gün necəyik, sabah necə ola bilərik… Həvəsə gəldi, deyir oxuyacaq.

Kitab ilk dəfə 1925-ci ildə serb dilində “Həyat qurucuları” adıyla nəşr olunub. Atatürk onu bütün məktəblərin, xüsusən hərbi məktəblərin tədris proqramına saldırıb. Maraqlıdır ki, rusca yazılan kitab türkcəyə bolqar dilindən, fin dilinə də türkcədən çevrilib.

Aclığın, səfalətin, xəstəliyin, cahilliyin, mənəvi çöküşün, sərxoşluğun, qabalığın hökm sürdüyü bir ölkə təsəvvür edin:

*…Adamlar kobud yonulmuş və pis hörülmüş daş daxmalarda yaşayırdılar. Qapılar alçaq, pəncərələr kiçikdir. Evlərin damı və pəncərəsi yarıtmaz olduğundan soyuq, yağış, qar evə dolurdu. Şüşə demək olar tapılmırdı, onun yerinə pəncərəyə əsgi və ya karton parçaları yapışdırırdılar.*

*...Soba boruları isə ümumiyyətlə yoxdur. Daşdan və gildən hörülmüş ocaq yanır, qalxan tüstü bütün evə yayılır, sonra isə yol tapıb damdakı dəlikdən çıxırdı. Evdəkilərin gözləri acışır, tüstüdən boğulurdular.*

*...Adamlar eyni paltarda işləyir, yeyir, yatırdılar. İllərlə yuyunmurdular. Döşəkağıların yuyulması belə ağıllarına gəlmirdi. Adamları bit-birə basmışdı.*

*...Quyular və tualetlər yanaşı olduğundan su çirklənir, yatalaq xəstəliyi üçün zəmin yaranırdı. Uşaqlar arasında dizenteriya, difteriya, qızılca və çiçək tüğyan edirdi. Qidalanma pisdir, əvəzində dəhşətli, eybəcər sərxoşluq hökm sürürdü. Lal-karların, qozbellərin, korların, ağıldankəmlərin, əl-ayağı şikəst olanların sayı-hesabı yoxdur.*

*...Bir daxmaya girirsən – üç uşaq torpaq döşəmədə uzanıb qızılca çıxarır. Onların arasında yenicə doğmuş qadın xəstəlikdən inildəyir. Ata isə bərk sərxoş halda oturub.*

*...Başqa bir daxmada fərqli mənzərə: ana vərəmin son mərhələsini yaşayır, qanlı öskürək başlayıb. Ata qızdırma içində sayıqlayır. Hər ikisi yerdə, cır-cındırdan ibarət yataqda uzanıb. Onların arasında iki qızcığaz, döşəmədə sürünürlər: birinin bir, o birinin iki yaşı var. Canlı skeletdirlər. Qonşulardan haray yoxdur: belə mənzərəyə öyrəşiblər, üstəlik, onların da boğazdan yuxarı çətinlikləri var.*

*...Milyonlarla insan çürüyür, eybəcərləşir, içkiyə qurşanır, pis yollara düşür. Xalq təməlinədək dağılır.*

Bunlar 150 il öncənin Finlandiya mənzərələridir. Məhz o vaxt, xalqın və ölkənin fin bataqlıqlarında məhv olduğu zaman Snelman və dostları meydana atıldılar.

Yohan Vilhelm Snelman yazıçı, filosof, ictimai fəal, dövlət xadimi, fin milli oyanış hərəkatının ideoloqudur. Finlandiyada bugünkü rifah cəmiyyətinin qurulmasına səbəb olan milli ideologiyanın yaradıcısı. Doğum günü – 12 may ölkədə Bayraq Günü kimi qeyd edilir.

O dövrün əsl vətənsevər ziyalıları Snelmanın başına yığılıb ölkənin elit təbəqəsinə – şəhər əhlinə, siyasətçilərə, elm, incəsənət, mətbuat adamlarına çağırış etdilər: *"Nə qədər gec deyil, ölkəni və xalqı xilas edin. Xalqın içinə gedin. Onları müalicə edin, savadlandırın, tərbiyələndirin. Onlara ev tikməyi, təsərrüfat qurmağı, ...insan kimi yaşamağı öyrədin. Onların dəhşətli həyatı əhalinin yüksək təbəqəsinin biabırçılığı və cinayətidir".*

Snelman ölkə ziyalılarına müraciətində deyirdi ki, ağayana paltar, nişastalı yaxalıq və ya son dəbli şlyapa ziyalı olmaq deyil: *"Ziyalılıq – xalqın beynidir. Xalq sizi, təhsil alandan sonra yaxşı maaş alıb gecələr restoranlarda oturasınız, gününüzü kart və domino oynamaqla keçirəsiniz deyə böyüdüb tərbiyələndirməyib. ...Siz xalqın ağlını, iradəsini, enerjisini və vicdanını oyatmağa borclusunuz. ...Ziyalı olmanız sizin imtiyazınız deyil. Hakimiyyətə yiyələnmək, şöhrət qazanmaq və tox yaşamaq haqqı da deyil. Ziyalılığınız sizin məsuliyyətiniz və xidmətinizdir".*

Bir neçə onillik keçdi, çağırışlar, görülən işlər bəhrəsini verdi. Kitabın müəllifi, rus ilahiyyatçısı və ictimai xadimi Qriqori Petrov ötən əsrin əvvəllərində Finlandiyaya səfər edəndə mənzərə artıq dəyişmişdi:

*…Abo şəhərinin bir milyon yüz əlli min manatlıq qazancının təqribən iki yüz min manatı məktəblərin xərci üçün ayrılıb.*

*...İngilis zavodlarında poladı döyüb bərkitdikləri kimi biz də öz gənclərimizi məktəblərdə möhkəmlədib həyata hazırlayırıq. Məktəblərimizin köməyi ilə bataqlıqlar və çılpaq daşlıqlar arasında özümüzə yaratdığımız abadlıq və firavanlıqla Rusiyanın başqa yerlərində rastlaşa bilməzsiniz. Məktəblərimizi əlimizdən alın, biz məhv olacağıq. Təhsilin ölkədə belə geniş yayılması nəticəsində əhali oxumağa alışıb, qəzet və kitaba bağlanıb.*

*...Ölkədə qəzetlər də məktəblər kimi çox sıx yayılıb. On səkkiz min əhalisi olan Vıborqda ikisi fin, ikisi İsveç dilində olmaqla dörd qəzet buraxılır. Kəndlərdə demək olar hər ailə qəzetlərə abunəçidir.*

*...Mənə belə bir əhvalat danışdılar. Bir kənddə iki gecəqondu var, ancaq buranın adətincə hər ikisi çox təmizdir. Onların birində hər iki ayağını itirmiş qoca yaşayır. İkinci evdə gözləri görməyən qoca qarıyla on yaşlı nəvəsi qalır. Bu yoxsul və şikəst qocalar şərik olub ikisi bir qəzetə abunə yazılıblar. Nəvə hər gün poçta gedib qəzeti götürür, kor nənəsinin əlindən tutub ayaqsız qocanın evinə gətirir və onlar üçün qəzeti başdan ayağa oxuyur.*

Kitabda belə nümunələr çoxdur. Sözümün canı odur ki, Snelman və dostlarının xəyal-ideyaları bu günün Finlandiyasında həqiqət kimi təcəssüm etdi.

İndi Finlandiyanın adı BMT-nin xoşbəxtlik məruzəsində birinci yerdə çəkilir. Finlandiya dünyanın ən yaxşı ölkəsi, ən stabil dövləti, fin təhsil sistemi dünyanın ən qabaqcıl təhsil modeli sayılır.

İnsan hüquqları, gender bərabərliyi, demokratiya, sosial rifah sahəsində dünya öncüllərindən olan Finlandiyanı bu gün qadınların çoxluq təşkil etdiyi (kabinet üzvünün 12-si qadın, 8-i kişidir), 34 yaşlı xanım Sanna Marinin baş nazir olduğu hökumət idarə edir. Parlament üzvlərinin 47 faizi qadındır.

İqtisadi göstəricilərini sadalayıb sizi yormayım, tək onu deyim ki, adambaşına 50 min dollarlıq ümumi daxili məhsulla Almaniya, Britaniya, Fransa, Yaponiya kimi nəhənglərdən öndədir.

***

…Xəyallarım indi də bitib tükənmir. İndi təzə bir ölkə qururam, hər gün yeni-yeni çalarlar qatılır mənim alabəzək xəyallarıma.

Xəyalımdakı ölkədə yeni nəsil uşaq bağçasında yıxılanda özü qalxmağı, orta məktəbdə ləyaqətli şəxsiyyət olmağı, universitetdə vətəndaşlığı, ölkə, xalq qarşısında məsuliyyət daşımağı və xidmət etməyi öyrənirlər.

Bu insanlar özünüidarə mexanizmlərini mənimsəyib ədalət, haqq, hüquq, vicdan təməlləri üzərində bir cəmiyyət qururlar. Dirçəlişə ölkənin ucqarlarından başlayırlar. Ən uzaqları belə yaxın etsinlər deyə yeni paytaxtı Azərbaycanın mərkəzi torpaqlarında tikirlər. Burada kəndlə şəhər rifah baxımdan bir-birindən fərqlənmir. Eynən Skandinaviya ölkələri kimi.

Universitetlər ölkənin əyalətlərinə köçürülür. Dünyanın məşhur universitetləriylə mübadilə-əməkdaşlıq əlaqələri qurulur. Tanınmış brendlər yatırıma tələsir. İri şirkətləri üzünü əyalətlərə tutmağa şirnikləndirən qanunlar qəbul edilir. Sənayeləşmə, təhsil səviyyəsi ölkə boyunca bərabər bölünsün deyə.

Yalamadan Astarayacan Xəzər sahili dünyanın ən gözəl kurort bölgəsinə çevrilir. Məşhur Fransız Rivierası kimi, rusların "Lazurnı bereq" ("Лазурный берег") dediyi yer kimi. Dörd bir qitədən insanlar bizim Xəzərə axışır.

Dünyaya səpələnən soydaşlarımız qərib ömrə son qoyub geri dönürlər. Deyir tək Almaniyada mindən artıq həkimimiz işləyir, ən bacarıqlı biznesmenlərimiz Rusiya çöllərindədir, dünyanın neçə universitetində alimlərimiz dərs deyir. Hamısı Yurda qayıdır.

Şuşa başdan-başa açıq muzeyə çevrilib, adına Şərqin Mədəniyyət Muzeyi deyirlər. YUNESKO hər yay bir toplantısını burda keçirir.

Xəyalımda doğulan bu yeni nəsil dünya mediasının gündəminə düşən caz müsabiqəsini Bakıda, klassik musiqi yarışmasını Gəncədə, kino festivalını Şəkidə keçirir, dünyanın adlı-sanlı yazarlarına ədəbiyyat ödülünü Qazaxda təqdim edir.

İllər keçir və budur, Qarabağı azad etmiş Azərbaycan dünyanın ən firavan məmləkətləri sırasındadır. Yohan Snelmanın Finlandiyası ilə, o biri Skandinaviya ölkələri ilə ilk beşliyi bölüşür…

***

Mənə xəyalpərəst deyirsiniz yəqin. Elədir, xəyalpərəstəm. Qoşulun, birlikdə quraq xəyallarımızı! Bütün reallıqlar xəyallardan doğur. Bu günün həqiqətləri dünən xəyal deyildimi?!

Sentyabr, 2020

# Güvən mənə, inanım sənə, dövlətim

Məndən soruşsanız Azərbaycanın ən böyük dərdi nədir, deyərəm dövlətlə vətəndaş arasında qarşılıqlı inamsızlıq, etimadsızlıq!

Problemlərimizin qaynağını bunda görürəm. Bu, sovetdən qalan mirasdır. Xatırlayıram, SSRİ-də nə vətəndaş dövlətin dediyinə inanırdı, nə dövlət vətəndaşa güvənirdi. Azadlıqlara qapalı postkommunist ölkələrin hamısında eyni vəziyyət olub. Amma müstəqillik illərinə siyasi azadlıqlarla qədəm qoyan ölkələr bu ağır mirasdan tez qurtula bilib. O biriləri isə hələ də həmin buxovla yaşayır. Azərbaycan kimi.

Elə ölkələr də var, neçə yüz ildir dövlət-vətəndaş münasibətlərində qarşılıqlı etimad şüurlara kök salıb, ənənə halını alıb, əxlaq normasına çevrilib. Məsələn, İsveç kimi.

Koronavirus pandemiyası İsveçdə vətəndaşın dövlətə güvənini bəlkə də İkinci Dünya müharibəsindən sonra ilk dəfə belə sınağa çəkirdi. Bütün dünya İsveç modelinə şübhəli yanaşdığı bir vaxtda belə İsveç cəmiyyəti TV-lərdəki çılğın debatlara rəğmən dövlətin pandemiya siyasətinə inamsızlıq sərgiləmədi.

Dövlətin vətəndaşa münasibəti də eyni onun kimi. Sərt karantin rejiminə keçməmək qərarı verəndə vətəndaşına güvəndi, bildi ki, isveçli onun göstərişlərinə şüurlu yanaşacaq, inanacaq, əməl edəcək. Mən hələ hökumətin insanların hərəkət sərbəstliyini məhdudlaşdırmağa hüququ olmadığını demirəm. İsveç Konstitusiyası hökumətin belə bir hüququnu tanımır. Proseduru dəyişmək çətindir, uzun zaman tələb edir. Ayrı mövzudur, “İsveçdə niyə küçəyə çıxmaq qadağası qoyulmur?” məqaləsində toxunduğum üçün uzatmıram.

Bu gün İsveç iqtisadiyyatının 2020-ci ili daha az zərərlə başa vurmasının, digər Avropa ölkələri ilə müqayisədə əhalinin mənəvi-psixoloji durumunun qənaətbəxş qalmasının əsas səbəbini dövlətlə vətəndaş arasındakı qarşılıqlı inamda axtarardım.

İsveçi qoyub özümüzə keçim.

15 ilin söhbəti olar. Bir səhər Bakıda yol polisi məni saxladı. Üzündən zəhrimar yağan çavuş kobud şəkildə sənəd istədi. Dedim sənədimi verərəm, amma, sən allah, əvvəl üzündə bir az təbəssüm olsun, səhər-səhər gül, qanımı qaraltma. Məni anlamadı. Daha sərt şəkildə üstümə çəmkirdi. Dedim: *“Mən sənin simanda Azərbaycan dövlətini görürəm, çiynindəki poqonun sənin dövlət adamı statusundur, niyə dövlətim məni görəndə mütləq qorxunc görkəm almalıdır? Dövlətin qorxu üzündən savayı bir sevgi sifəti də olmalıdır axı! Nə olar polis – Azərbaycan dövləti öz vətəndaşını gülərüzlə, məhəbbətlə danışdırsa? Mən dövlətimi mənə hörmət edən halıyla görmək istəyirəm!”*

Və sair bu sayaq sözlər…

Uzun bir monoloqdan, çək-çevirdən sonra istəyimə nail oldum. Çavuşun üzündən zəhər çəkildi. Gülümsədi. Güləndə sənədlərimi verib hansı qaydanı pozduğumu soruşdum. Əlini çiynimə vurub gülə-gülə “Heç birini, buyur, get” dedi.

Həmin gün polislə – dövlətlə qarşılıqlı etimadımız yarandı: mənim istəyimlə onun üzündəki zəhrimar təbəssümlə əvəzləndi, o da qaydaları pozmadığımı etiraf elədi.

44 günlük müharibədəki uğura dövlətlə vətəndaşın tandemi səbəb oldu. Bu 44 gün 30 müstəqillik ilinin tamından fərqli idi – bənzərini xatırlamıram.

Yenidən etimadsızlıq boşluğuna düşmüşük…

Qarabağdan nigaranıq. Amma dövlət vətəndaşa bilgi vermir.

Güvənmir? “Qarabağ Azərbaycandır!” şüarına 10 milyon qalxıb dövlətə arxa durmadımı?

Vətəndaşının inamını qazana bilməyən, ona güvənməyən dövlət dayanıqlı, güclü sayıla bilməz!

Dövlət vətəndaşına arxalanmalı, onunla açıq dialoqda olmalıdır; ona hərəkət, fəaliyyət sərbəstliyi verməli, azadlıqda yaşamaq vərdişi aşılamalıdır. Və ən əsası bundan çəkinməməli, qorxmamalıdır!

Güclü dövlət, azad cəmiyyət və firavan həyat yalnız dövlətlə vətəndaşın qarşılıqlı etimadı yarananda, onlar bir-birinə güvəndiyi zaman qurulacaq.

Güvən mənə, inanım sənə, dövlətim!

Fevral, 2021

## Əlili əlində tutan ölkə

O gün “Həyat üçün işləmək” adlı əlil, ahıl və xəstələrə həsr olunan sərgi-festivala getmişdim. Festivalda musiqi qruplarının konserti, idmançıların yarışı keçirilirdi. Sərgidə isə firma və QHT-lər, bələdiyyə və dövlət təşkilatları öz işlərini nümayiş etdirirdi. Kimi yeni məhsul çeşidlərini göstərir, kimi qayğı-xidmətlərini təklif edirdi.

Korlar, karlar, əlsiz-ayaqsızlar üçün yaradılan cihazlara, avtomobil və arabalara, idman qurğularına, hərəkət aparatlarına baxır, əlil və ahıllar üçün xüsusi turist səfərləri, konsertlər, tamaşalar, əyləncələr, ünsiyyət görüşləri təklif edən təşkilat nümayəndələriylə söhbət edirdim.

Sərgi boyu neçə ildir fikrimdə dolaşan bir sual yenə tez-tez yadıma düşürdü. Bu soyuq şimal ölkəsinin adamları belə bir cəmiyyəti neçə yaradıblar, bu dövləti hansı əxlaq prinsiplərinə söykənərək qurublar?

Dərin cavab istəyən sualdır, gərək bu haqda ətraflı, köklü-köməcli bir yazı yazam. Sağlıq olsun!

İsveçdə sosial qruplar arasında bərabərliyin olması məşhuri-cahan söhbətdir. Amma burada istər ölkənin qanunlarından doğan, istərsə də xalqın ənənəsindən gələn bir etik qayda var: müəyyən qrup sosial təbəqəyə xüsusi hörmət qoyulur. O qrupları belə sıralayardım: 1) əlillər, 2) qocalar və uşaqlar.

“Tarixi-Vikinq” açmadan onu deyim ki, bu ölkədə hərəkət məhdudiyyəti olan şəxs rahat şəkildə yatağından durub alış-verişə, kino-konsertə, idarə-təşkilata və sair gedib qayıda bilər. Bunun üçün dövlətin verdiyi özüyeriyən əlil arabası ilə hərəkətə lift və bloklarında, səki və yollarda, avtobuslarda hər imkan var.

İsveçdə demək olar, əksər ahıl, yaxud əlil öz evində yaşayır: dövlət ona xüsusi adam ayırır, nəqliyyatla təmin edir. Bəzən ailə üzvlərindən birini işə götürür, ona maaş kəsir ki, ahıl atasına, anasına, yaxud əlil, xəstə balasına baxsın!

Əlil uşaqlar kommunun, yəni bələdiyyənin ayırdığı nəqliyyatla, taksi də daxil, ümumtəhsil məktəblərinə gedib-gəlirlər. Kor, lal və sair uşaqlar üçün xüsusi təhsil qaydaları da var.

Özü istəyərsə, yaxud yaxınları onlara baxmaq imkanında olmazlarsa, dövlət ahıl vətəndaşına yiyə durur – saysız-hesabsız “qocalar evi”nin birində yerləşdirir. Yaşamaq üçün hər cür şərait yaradır. Özəl “qocalar evi” açmaq istəyən sahibkarı alqışlayır, ona dəstək verir, həvəsləndirir, maliyyə ayırır.

Bu məsələyə daha sosial təminat və adaptasiya prizmasından yox, demokratiya və insan hüquqları prinsipindən baxılır. Cəmiyyətin onlara münasibəti “rəhm etmək” kimi sentimental duyğulara deyil, hüquq və imkan bərabərliyi qanunlarına əsaslanır.

Bütün bunlar tək İsveçdə deyil, Avropanın əksər ölkələrində belədir.

Ata-analar əlil balalarını, balalar isə xəstə, ahıl ana-atalarını çölə-bayıra çıxarmağa, onlarla birgə toya-bayrama getməyə utanmırlar, evlərdə gözdən-könüldən uzaq tutmurlar. Buna görə talelərini qarğamırlar! Düşünürsən: Niyə?

Bir cavab var – vətəndaş arxasında dövləti, dörd-bir yanında xoş ictimai mühiti duyur!

23 sentyabr 2015

# Yolda o(qa)lan yolçuluqlar

*“Namizədlər” silsiləsindən*

Mətbəxdəki sobanın dəmir tutacağında bərq vuran gün işığı gözümə qəfil düşdü. Şüa telləri mətbəxlə günkeçirməz pərdəsini çəkib filmə baxdığım qaranlıq otağın arasındakı dəhlizi yarıb qapının barmaq eni boyda açıq yerindən ox kimi gəldi.

İynəgözü şüalıq canıyla otaq boyda qaranlığı nura boyamaq istədi.

***

Azərbaycanlı müsəlman qafamız, qəlbimizlə mövqeyi olmayan adamı sevmərik, beləsinə şübhə edərik, inanmarıq. Adamın, xüsusən də o adam kişi xeylağıdırsa, gərək mütləq mövqeyi ola.

“Mövqeyini bildir!” tələbi dövlət idarələrində, siyasi partiyalarda, ictimai qurumlarda, qəzet redaksiyalarında, yaradıcı birliklərdə, hətta sosial şəbəkələrdə belə ən yaxşı işləyən yazılmamış qanundur. Hamı hamıdan bir mövqe tutmağı tələb edir. Əslində burda pis bir şey yoxdu, bir “əmması” olmasaydı.

“Mövqeyini bildir!” tələbi içdən gələn vicdan səsi olanda adama müstəqil qərar çıxarmaq azadlığı verir.

Amma bəzən bu tələb səni seçim qarşısında qoyan rəhbər, lider, nazir, sədr, rəis, direktor, redaktorun hökmünə də çevrilir. Bax onda hər kəs – könüllü, ya könülsüz bir “mövqe səngəri” seçməyə məcbur qalır.

Beləcə, saysız çəpərlər çəkilir, divarlar hörülür, barrıkadalar qurulur – beyinlərə kin, nifrət yeridilir, qəlblərə şübhələr əkilir.

Bax, belə ağrılı məqamlarda ayrı-ayrı “mövqesiz” fərdlər, barışdırıcı missiyalı adamlar cəmiyyətin ozon qatına çevrilir. Bir vaxtlar yazdığım “Ozon adamlar” yazısında “ozon adamlar kimdi” sualına cavab var, girib bloqumda oxumaq olar, bir də təkrar yazmayım.

...Aydın Məmmədovu bu günkü gənclik tanımaz yəqin. Haqqında danışan yox, yazan yox, hardan tanısın! Azadlıq mücadiləsi aparılan təlatümlü illərdə siyasi dilimizə “konsensus” kəlməsini gətirən, “orta müxalifət” ideyası irəli sürən bu şəxsi o dövrdə nə müxalifət liderləri sevirdi, nə də hökumət nümayəndələri. Eyni zamanda demək olar ki, həm müxalifət sevirdi, həm də hakimiyyət.

Çünki “mövqesiz” idi, yəni mövcud mövqelərdən birini seçmirdi, öz seçimi, öz mövqeyi vardı – barışdırıcı mövqe!

Azərbaycanın düşmənləri üçün o vaxt ən təhlükəli adam nə müxalifət liderləriydi, nə hökumət rəhbərləri. Təhlükəli adam iki fərqli düşünənləri, az qala düşmən olanları ortaq fikrə gətirib barışdırmağa intellekti, məntiqi, dili, dilçəyi olan Aydın Məmmədov kimi zəka sahibləri idi.

Bakıya təzə gəldiyim illərdə “Azneft çayxanası”nda söhbətlərini dinləyib onun ağlına, məntiqinə valeh olmuşdum. Millət vəkili kimi SSRİ-nin dağılmasına səs versə də müstəqillik

aktına imza ata bilmədi, yolu yarıda qaldı, 18 oktyabr Dövlət Müstəqilliyi gününə 6 ay qalmış müəmmalı qəzada öldü, ya da öldürüldü.

Ondan sonra cəmiyyətdə min-min yeni hasarlar hörüldü, çəpərlər çəkildi. Və bunları sökməyə, cəmiyyətə konsensusa meyilli ideyalar gətirmək istəyən bütün cəhdlərə hücumlar oldu, sıradan çıxarıldı. Qəribəlik də ondadır ki, onlara atəş bütün "səngərlər"dən açıldı.

Belə uğursuz ictimai cəhdlərin sonuncusu "Ziyalılar forumu" oldu. Bir qrup aydın düşünər vicdanın səsiylə ortaya yeni missiya ilə çıxmaq, müstəqil vətəndaş mövqeyi sərgiləmək istədi. Susduruldu!

Bu günlərdə məhkəməsi başlayan Rauf Mirqədirov sıradan jurnalist deyil. O, Qarabağ müharibəsi üzrə müstəqil vətəndaş mövqeyi olan ən ciddi ekspertlərdəndir. Hər özündən deyən erməni siyasətçisi onunla döşləşə bilmirdi. Raufun ədalətli sülh axtarışları yaradıcı fəaliyyətinin əsas hissəsidir. Məgər BMT, ATƏT, başqa Avropa institutları, ölkə prezidentləri də neçə illərdi sülh yollarını tapmaq üçün çabalar vermirmi?

Bu cür təşəbbüslər hər iki ölkədə qınanır, pislənir, təqib olunur. Müharibə ocaqlarını körükləyən yalançı vətənpərvərlərin qəhrəman sayıldığı regionda sülh axtarmaq təhlükəlidir. Sülh istəməklə barış yollarını axtaranları həbs edib susdurmaq bir araya sığmır! Raufun ittiham edildiyi maddəyə gəldikdə isə, məncə, buna kimsə inanmaz, onu tanıyanlar isə heç inanmaz.

Onun həbsi sülh axtarışlarında vətəndaş təşəbbüslərinə köklü zərbə oldu.

Başqa bir "susdurulma" nümunəsindən deyim. Sədrinin həbsiylə gücü, azından, yarıbayarı zəifləyən REAL hərəkatından.

İllər öncəsi siyasət "kiri-pasına" bulaşmayan bir qrup intellektualın cəmiyyətdə yerini bərkitmiş "mövqe sərgərləri"nə girmədən REAL adlı hərəkatda birləşib öz iradəsini ortaya qoyduğunu görəndə sevinmişdim. Əvvəl-əvvəl onları orta mövqe tutub konsensus amalı ilə bir xeyli siyasi kəsimi öz Alternativ Respublika ideyası ətrafına toplaya biləcəklərinə inanmışdım.

Bu inam ölkənin məhz belə bir qüvvəyə ehtiyacı olduğuna əminlikdən doğmuşdu. Həm də yeni nəsil ictimai fikirdə rəğbət bəslənən kəslər olduqlarından belə ümidlənmişdim. Aralarında Azər Mehtiyev, Rövşən Ağayev kimi dostum olanlar da var, İlqar Məmmədov, Altay Göyüşov, Erkin Qədirli, Natiq Cəfərli kimi çoxdan tanıdıqlarım da.

Onları rasional düşüncə, konsensusa meyllilik, məntiqli arqumentləşdirmə bacarığı, qərbsayağı siyasi mədəniyyət, aqressiyadan uzaq mülayim tərz fərqləndirirdi.

Amma onlar da gedilmiş yola çıxdılar – "Respublikaçı Alternativ"in "Müsavat" ideyasının eyni mənalı başqa adı olduğunu demirəm, həm də ənənəvi siyasi partiyaların fəaliyyətni, mübarizə metodunu təkrarladıqlarını deyirəm.

Qısacası, yeni, fərqli qüvvə olmaq şanslarını qaçırdılar. Siyasi partiyaya çevrilsələr də intellektuallar klubu olaraq qaldılar.

İmkan darlığı, mühit yoxluğu, ağır şərtlər səbəbindən şanslıların da yarı yolda qalması başa düşüləndir – nə qədər yolda qalan, yaxud hələ də yolda olan yolçuluqlarımız var. Amma fikrimcə, səbəb tək bu deyil.

Siyasət muncuq dənələrini incə davranışla sapa düzürmüş kimi dağda çobanı, bağda bağbanı, rayonda rayon, şəhərdə şəhər adamını, tələbəni, işçini, pensiyaçını öz ideyası arxasınca apara bilmək sənətidir. Siyasət fərqli kütlələrlə qarşılıqlı ünsiyyət qurmaq elmidir. Siyasətin canı kütləviliyindədir.

Siyasətçinin materiyası xalqdır, o, xalqın dilini bilməli, onun anladığı dildə danışmalıdır.

Snobist intellektualları xatırladan bəzi siyasilərin geniş xalq kütləsində uğur qazanması mümkünsüzdür, belələrinin yaratdığı uzaqbaşı siyasi dərnək, klub olar.

İndi "realçılar"ı seçkiyə getməkdə qınayırlar. Qınayanlardan deyiləm, qoy deyim, yüzüncü deməyim olsun – boykot təşkil eləmək, seçki kampaniyası aparmaqdan çətindir. Boykot seçki günü evdə oturmaq deyil. Seçkidə iştirak etsən, ən azından saxtakarlıqları sübut edəcək dəlillərin olacaq.

Amma bəzən nəticəsi öncədən bəlli olan seçkiyə sərf edilən enerjiyə adamın heyfi gəlir. Fikirləşirsən, bəlkə REAL namizədləri seçki kampaniyasına bu qədər vaxt, əmək sərf edincə, məsələn, Altay Göyüşovun mərhum atası, tarixçi-arxeoloq Rəşid Göyüşovun, məsələn, "Qanzasar məbədinin dini, etnik mənsubiyyətinə dair" məqaləsini bir neçə dilə çevirib yaysaydılar daha real iş görmüş olardılar?! Qarabağı geri ala bilməməyimiz bir yana, onun tarixən bizim olduğunu belə dünyaya düz-əməlli sübut edə bilmirik.

Yazını yazdığım saatlarda müxalif sosial medianın aparıcı mövzularından biri də REAL-ın həbsdə olan sədri İlqar Məmmədovun türmədə ağır şərtlər altında döyülmə xəbəri oldu. Bu xəbər kimlər üçünsə hər gün oxuduğumuz onlarla işgəncə, zorakı olayından biridir.

Amma vətənin gələcəyindən narahat adamlar üçün bu, sıradan xəbər deyil, həyəcan sıqnalıdır. Hadisədən sarsılıb feysbuk səhifəsində *"Мне стало страшно за детей и внуков. За себя не страшно, все-таки 78 лет. А вам не страшно, дорогие жители страны?"* sözlərini yazan Rəhman Bədəlov kimi.

Elədir, İlqar Məmmədovları türmədə döydürüb sındırmaq istəyən dövlətin gələcəyi qorxunc görünər!

***

Gün işığı biqəfil qaranlıq otağıma düşən vaxtı dekabristlərdən bəhs edən "Məftunedici xoşbəxtliyin ulduzu" adlı köhnə sovet filminə baxırdım. Sibirə sürgün edilən knyaz Volkonski qayınatasına bunları deyirdi: *"Tək ümidimiz xələflərin haqqımızda deyəcəkləri xoş sözlərdi. Amma əgər fəaliyyətim ailə səadətim yolunda əngəldisə, əlimi ürəyimə basıb xoşbəxtliyimdən əl çəkərəm, nəinki əqidəmdən, vəzifəmdən".*

Deyirlər, gün işığını basdırmaq mümkün deyil! Bu, həqiqətdir! O da həqiqətdir ki, bütün aydınlıqlar bir qığılcımdan, bir közərtidən, bir şüadan doğur.

Təki qaranlıqlar işıqladan ziyalarımız olsun!

Mirzə Fətəlidən nurlanan yolumuz mənzilə yetsin! Yolçuluğumuz yarıda qalmasın!

Oktyabr 2015



# Vətənim Yalandiya

Deyirlər həqiqət acı, yalan şirin olur. Belədirsə, niyə Matfey “Yevangeliya”sında yazırdı ki, dualarında yalnız həqiqət istə!? İnsanlara Tanrıdan acı bir şey istəməyi necə tövsiyə edirdi? Məgər o bilmirdi ki, insan təbiətcə hər şeyin şirinini sevəndi?

Qəliz sualdır! Cavabı elə dünyanın sirrini bilmək kimidir. Bəlkə də müqəddəs kitabların hikməti bundadır, nə biləsən…

Mənim təsəvvürümdə həqiqət dünənə bağlı anlayışdır, yalanın üzü sabahadır. Dünənin xoşbəxt anı bu günün çarəsizliyindən doğan öləri işartıdan başqa bir şey deyil. İstər şəxsi, istərsə də ictimai xarakterli olsun, əsl xoşbəxtlik ilğımı irəlidədir – insanın xoşbəxtliyi sabahdadır!

“Xoşbəxt kommunizm” də, vəd olunan “neft səadəti” də “sabah” olmalıydı. İndi “2020-ci ilin İnkişaf Konsepsiyası”na ümidliyik. Neyləməli, bəşəriyyətin həyat generatoru ümid də sabah ünvanlıdır!

Ümid yalanın sevdiyi ən yaraşıqlı libasdır. Bal dadan, ümid libaslı Yalan – Şeytanın yüz adından biri…

Adam “ümid libaslı” yalana hansı şövqlə inanırsa, elə o çılğınlıqla da ətrafındakıları inandırmağa can atır. Yalanın kütləvi halı onun siyasətə transferində baş verir. Dünyada siyasət qədər yalana ehtiyacı olan heç nə yoxdur. Siyasət yalanın özünü rahat hiss elədiyi mühitdir. Dünyanın nəhəng imperiyaları “ümid libaslı” yalan ideyalarla qurulub-dağılmadımı? Milyon-milyon insan “şirin sözünə” uyub yalan “maşını”ndan ət, “sobası”ndan kül, “borusu”ndan tüstü kimi çıxmadımı?

Yalanın təntənəsi insana ən böyük faciə öncəsi ən gözəl ekstaz yaşatmasıdır – fürerinə dəlicəsinə aşiq olan alman xalqının xoşbəxtlik saçan sevincini görməmisinizmi köhnə kino kadrlarında? Onda hələ qalib sovet əsgəri yüz minlərlə məğlub alman qadınını zorlamamışdı.

Həqiqətin bir, yalanın min üzü var. Yalanların ən qorxulusu həqiqət donu geyinənidir! Tarixdə bunu kommunistlər kimi bacaran olmayıb. Hətta Hitler sovet kommunistləri tək işğalı “xilas” adlandırmayıb, konslagerlərdə yəhudi əsirlərini sovet həbs düşərgələrindəki məhbuslar kimi “Ya druqoy takoy stranı ne znayu, qde tak volno dışet çelovek” oxumağa məcbur eləməyib. Bu, məşhur “Yüz dəfə söylənilən yalan həqiqət olar” ifadəsinin müəllifi, mahir yalan ustası Göbbelsin də ağlına gəlməyib.

Xalqın milyonlarla insanı məhv edən birinə “xalqlar atası” deməsi kommunist əxlaqının qələbəsi idi. İnsanları işğaldakı torpaqdan bir metri belə azad edə bilməyənə “Xilaskar”, 6 rayonun işğalına yol açan bir günə “Qurtuluş günü” deməyə məcbur eləmək də həmin ənənənin davamıdır. *“Pencəyimi çiynimə atıb Xankəndiyə gedərəm”* kimi hakimiyyət ehtiraslı məşhur mesajından 20 il sonra “*Çox sevindirici haldır ki, artıq Azərbaycanın ərazi bütövlüyü məsələləri heç kimdə şübhə oyatmır”* sözləri yalnız hər mənada işğal olunmuş ölkədə deyilə bilər. Özü də bu adi təbliğat yox, oturuşmuş mənəvi norma formasında edilir.

*“Ötən il Gül bayramına 26, bu il isə 116 ton gül gətirmişik”* deyən Bakının seçilməmiş merinin mənəvi norması kimi. Bilmədim, həmin vaxt Xankəndidə paraddan keçən hərbi texnikaya, əsgərin başına neçə kilo gül atmışdılar…

“Şiroko şaqaet Azerbaydjan“ şüarı 15 sovet respublikası içində təkcə bizə deyilib. Cünki buna təpədən-dırnağa yalanla yoğrulmuş bir respublikanın vətəndaşları “inana” bilərdi. Yalnız biz az qala Qazaxıstanın bir kolxozu boyda olan ölkədə 1 milyon ton pambıq, 2 milyon ton üzüm “yetişdirə”, bir inəkdən 6 min litr süd “sağa”, hər 100 qoyundan 150 bala “ala bilərdik”.

SSRİ-nin ömrü uzansaydı, Kreml nədi, Cənnəti də satın almışdıq; 1 milyon ton pambıqdan cənnət mələklərinə don biçib geyindirmiş, 2 milyon ton üzümdən şərab çəkib kefləndirmişdik. Sayımız 9 yox, 90 milyon olmuşdu, çünki burda analar balanı daha 9 aydan bir yox, hər ay doğacaqdı…

Dəyişməyib, həmin ölkədir! Xalqı da həmindir, hökumətdi də. Qalanısa təkcə neftdir. Avropanın, ondan da Qərbdəkinin dilinə, gözünə, qulağına sürtülən neft.

***

Dünyada bir ölkə var. Gecəsi yalanla gedən, sabahı yalanla gələn ölkə. Körpələri gözünü, böyükləri ağzını yalanla açan ölkə. Burda qanun da, fərman da, tarix də, resept də, qiymət də, kəbin də, maaş da, .... sevgi mesajı da yalanla yazılır. Burda həqiqəti çoxdan dəfn ediblər! Buranın həqiqəti YALANdır!

İrlandiyadan “Avroviziya” mahnı müsabiqəsinə gələn müğənni Edvard, Con Grimes qardaşları bu ölkəyə təzə ad qoymaq istədilər – “EdzerbaiJohn”. Alınmadı! Çünki buranın öz adı var – Yalandiya.

Saxta bayramlar içində tək həqiqi bayramına – istiqlal gününə tamarzı ölkə…

Vətənim Yalandiya!

28 may 2012

# İşğalçılar

1994-cü ilin 12 mayında "Bişkek protokolu"nu imzalayan Azərbaycan rəsmiləri müqaviləni qələbə sənədiymiş kimi təqdim eləyəndə, ölkənin kənd və şəhərlərində, küçə və tinlərində, çayxana və məclislərində müzakirələr açılanda, mən o sənədi Leninin 1918-ci ildə qollatdığı "Brest sülhü"nə bənzədənlərlə bir yerdəydim. Sanki Trotski dirilib özünün məşhur şüarını təkrarlayırdı: "Biz müharibəni dayandırır, sülh bağlayır, ordunu buraxırıq!"

Bizdə əksinə olmuşdu – 33 döyüşən batalyon atəşkəsdən xeyli əvvəl buraxılmışdı. O vaxt tarixə düşmənlə separat işbirliyi, vətənə xəyanət kimi düşmüş "Brest sülhü"nə bənzətmədə inamsız tək təsəlli o idi ki, bəlkə bu da "gələcək böyük uğurlar" naminə "xırda məğlubiyyət"dir.

Brest sülhüylə Rusiya imperiya əhalisinin üçdə birinin – 56 milyon insanın yaşadığı 780 min kvadrat kilometr ərazidən, ölkənin becərilən torpaqlarının 27, dəmiryolun 26, toxuculuq sənayesinin 33 faizindən məhrum oldu. Həmin torpaqlarda imperiya poladının 73 faizi əridilir, daş kömürün 89 faizi çıxarılır, qəndin 90 faizi istehsal olunur, sənaye işçilərinin 40 faizi yaşayırdı. Minlərlə zavod, fabrik vardı.

Bişkek protokoluyla dağlı-aranlı Qarabağda qalanlarımızın statistikası aparıldımı, alınan rəqəmlər 20 ilə vuruldumu?

Deputat Elxan Süleymanovla iqtisadçı alim Vurğun Süleymanovun müəllifi olduğu "Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri" kitabındakı hesablamalarda bu rəqəm 431 milyard dollardır.

Birinci Dünya müharibəsində məğlub olan Rusiya Sovet İttifaqının simasında əvvəl itirdiyi torpaqlardan qat-qat artığını alıb İkinci Dünya müharibəsindən qələbəylə çıxmışdı. "Bişkek protokolu"na "HƏ" deyənlər "Brest sülhü"nü imzalayanların siyasi xələfləridir: hər halda eyni partiyanın biletini daşıyıb, rəhbərliyində yer almışdılar. Biz də Qarabağı düşmənə verib sonra atəşkəs elan etdik. Arxa cəbhədə neft çıxarıb varlanacaq, dünya güclərini tərəfimizə çəkəcəkdik, güclənib torpaqlarımızı geri alacaqdıq. Məğlub Azərbaycan Yeni Azərbaycanın simasında müharibədən qələbəylə çıxacaqdı.

***

Yazılanlara inansaq, bu gün Azərbaycan ərazisində 146 400 nəfər əsgər və zabit var.

Onun 20 000 nəfəri Qarabağdadır – işğalçı ordu deyirik. Vətənin bir hissəsi bu işğalçı ordunun əlindədir.

Vətənin yerdə qalan hissəsində isə 126 400 nəfər əsgər və zabit var – milli ordu deyirik.

Milli ordudan əlavə Sərhəd Qoşunları, Daxili Qoşunlar, MTN, DİN var. Hələ Kür daşqınlarında gördüyümüz FHN, Sulutəpədə tanış olduğumuz hərbiləşdirilmiş neftçi dəstələri demirəm.

Bütün bu qoşun növləri, güc strukturlarının tək məqsədi torpaqların bütövlüyünə, xalqın azadlığına, təhlükəsizliyinə qarant durmaqdır! Ordu işğal olunmuş torpağı azad etməli, polis vətəndaşı hər addımda rastlaşdığı ədalətsizlikdən, sərhədçi sərhədi qaçaqmalçıdan,

“fövqəladəçi” əhalini seldən-sudan qorumalıdır! Qorumursa, əlisilahlı bu qədər qoşun nəyə gərəkdir? Xalqı zorla evindən çıxarıb damını başına uçurtmağa, haqq səsini boğmağa, qorxudub qula çevirməyəmi? Süfrəsindən, cibindən, büdcəsindən halal qismətini oğurlayıb özünə də əl-ayağa dolaşan həşərat kimi baxanları qorumağamı? Azadlığını, ləyaqətini, namusunu, xoşbəxtliyini, rifahını, ümidini işğalda saxlamağamı?

“Bişkek protokolu” sanki Azərbaycanı iki işğalçı arasında bölən atəşkəs sənədidir. Bu halıyla Polşanı iki işğalçıya pay-püş edən Molotov-Ribbentrop müqaviləsinə daha çox bənzəyir.

Bütün zamanlarda belədir – avtoritar dövlətin silahlı qüvvələri xalqa yox, ali zümrəyə qoruqçudur. Qarabağda yaşamaq haqqı ilə Azərbaycanın başqa yerlərində azad, xoşbəxt, rifah içində, ədalət harmoniyasında yaşamaq haqqımız eynidir! Bəs bu haqqımızın qarantı varmı? Varsa, o kimdir? Bu haqqı Qarabağda erməni ordusu, Bakıda, Qubada, Sabirabadda, Naxçıvanda Azərbaycan əlisilahlısı boğursa, demək, bütöv ölkədə torpağımız, azadlığımız, ləyaqətimiz, nəhayət, arzu və xəyallarımız da işğal olunub!

Xalq üçün fərqi yoxdur, işğalçı elə işğalçıdır.

***

Mayda Şuşanın, Laçının işğalının 20, “Bişkek protokolu”nun 18 ili tamam olur.

Avropanın mahnı qalibləri də məğlub Azərbaycana elə bu ayda toplanacaq. Tarixin ironiyasına bax, elə bil, ölkəni işğal edənlərin yubiley konsertinə gəlirlər...

2 may 2012

# Qarabağ atıyla demokratiya dalınca

1993-cü ildə siyasi mübarizədə hədəf vektorunu dəyişməyin səhv olması qənaətinə indi gəlmişəm. O vaxtacan siyasi gündəmdə aparıcı şüar "Qarabağ" idisə, çevrilişdən sonra "səmt" ustalıqla dəyişdirildi – meydanda bir şüar qaldı: "Demokratiya!"

İlk hakimiyyətlər Qarabağın qurbanı olub. Ayaz Mütəllibov (Xocalı), Yaqub Məmmədov (Şuşa), Əbülfəz Elçibəy (Kəlbəcər) hakimiyyətlərinin sonu bundan başlayıb. Çünki o dövr müxaliflərinin əsas şüarı "Qarabağ" idi. Əliyev hakimiyyəti daha ağır Qarabağ sınağına (Ağdərə, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) 1993-cü ilin avqust referendumu, oktyabr seçkisiylə, siyasi mübarizənin yönünü məharətlə "Qarabağ"dan "Demokratiya"ya yönləndirməklə tab gətirə bildi – demokratları elə demokratiya meydanında oyuna çəkdi.

Sonrakı illərdə konstitutsiyanın qəbulu, müxtəlif təyinatlı seçkilər, demokratiyaya yönəlik digər çoxsaylı hadisələr, bu hadisələr ərəfəsi və sonrası yaradılan şoular siyasi mübarizədə "Demokratiya!" şüarının yerini möhkəmlətdi. Yeni olaylar yeni şüarlar doğurdu. Mövsümi mövzu bolluğunda hər dəfə "Qarabağ" bir pillə geriyə atıldı. Elə "Gülərqeyt" (*deputat Gülər Əhmədovanın sosial şəbəkələrdə fəaliyyəti dayandırılmış ABU rektoru Elşad Abdullayevlə rüşvət müqabilində parlamentə düşəcəyinə dair yayılan video görüntülərin cəmiyyətdə müzakirəsi nəzərdə tutulur – V.Q.*) adı ilə məşhurlaşan sonuncu olay indi "Qarabağ"dan on qat populyardı.

Beləcə, Qarabağ iqtidarın da, müxalifətin də, ən əsası xalqın da gündəliyində "cari məsələlər" bəndinə düşdü. Tək-tük mitinq-piketi nəzərə almasaq, uzaq 1994-cü ildə Bişkek protokoluna qarşı yürüşdən savayı Qarabağ uğrunda böyük siyasi etiraz hadisəsi xatırlamıram!

Məğlubiyyətlərin kökü bu tarixi xətadan, xalqın mübarizəsini təşkil edən siyasi qövmün demokratiya "tələsi"nə düşməsindən başladı. Niyə belə düşünürəm, izaha çalışım.

Realda olanla xəyalda təsəvvür edilən fərqli nəsnələrdir. Toplum üçün demokratiya nə qədər yayğın məfhumdursa, Qarabağ bir o qədər konkret anlayışdır, gördüyü Qarabağ nə qədər realdırsa, təsəvvür elədiyi demokratiya bir o qədər xəyalidir. Bu mənada real xəyalla əvəzləndi. Konkret Qarabağ hədəfinin yerinə hələ tam dərk olunmayan demokratiya önə çəkildi. Elə bununla da xalqın mübarizəsi önündə gedən siyasi qüvvələr döyüşü "anlaşılmaz" demokratiya meydanına çəkən hakimiyyətin tələsinə düşdü, hələ də oradadır!

Demokratiyanın olub-olmamasını sübuta yetirməyə 20 il sərf olundu! Nəticədə nə Qarabağ var, nə də demokratiya!

Qarabağ hakimiyyətlərin qısnanıb sıxışdırıldığı zirzəmi küncüdürsə, demokratiya manevr üçün geniş meydandır. Müxalifət özü də bilmədən iqtidarı dar küncdən ucsuz-bucaqsız meydanlara çıxardı. Xirtdəyi buraxdı. Mütəllibov, Elçibəy hakimiyyətləri "Qarabağ küncündə" boğulub məhv olduğu halda Əliyevlər hakimiyyəti "demokratiya çöllüyündə" atını elədən belə, belədən eləyə çapdı.

Böyük yola xırda cığırlar aparır! 2003-cü ilin prezident seçkisindən sonra "Demokratiya!" şüarıyla getdiyi seçkidə elə demokratik dünyanın əliylə məğlub etdirilən siyasi liderlə söhbətdə demişdim ki, qərargahı Qarabağa (Bərdəyə) köçürüb böyük Qarabağ davasına

başlamaq bir şansdır. Yeni mübarizə üçün enerji mənbəyi Qarabağdır. Ritorik səslənməsin deyə yaxın tariximizdən "hakimiyyət dalınca əyalətə gediş" nümunəsini yada salmışdım.

9 il sonra, 2013-cü il prezident seçkisi ərəfəsində yenə o fikirdəyəm ki, hakimiyyətin də, ona dəstək verən ölkələrin də Azərbaycanda zəif damarı demokratiya yox, Qarabağdır. Siyasi mübarizə "Qarabağ səhnəsinə" qaytarılarsa, bəlkə uğura ümid eləmək olar. Amma namizədliyə iddialı siyasi liderlər yenə Qarabağdan uzaq görünürlər: çıxışlarında, müsahibə və rəylərində Qarabağ tələbi ya yoxdu, ya da sonrakı yerlərdədir. Yenə hakimiyyətlə hakimiyyət yox, demokratiya davasındadılar, onda olmayanı onda axtarırlar. Balığı göydə, quşu dəryada axtaran kimi…

Sözümün canı, "Qarabağa yol demokratiyadan keçir" konsepsiyası keçmir. Bəlkə də sürtülüb nimdaşlaşmış "Qarabağ" mövzusu indi cəmiyyət üçün aktual deyil. Mənsə o fikirdəyəm ki, uğur Böyük Qarabağ Davasıdır.

Bu ölkəyə demokratiyanı "Qarabağ atı"yla gətirmək olar – yetər ki, yaxşı çaparımız olsun!

10 dekabr 2012

# Azərbaycan vektoru

Dünən Avropa Parlamenti müstəqilliyini Avropa vektorlu ümumbəşər dəyərlər təməlində qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi elan edən bir dövlət haqqında onun müstəqillik tarixi ərzində ən utancverici bir qətnamə (*Söhbət Avropa Parlamentinin Azərbaycana dair 2015-ci il sentyabrın 10-da qəbul etdiyi 2915/2840 (RSP) saylı qətnaməsindən gedir – V.Q.*) qəbul elədi.

Avropadan, bütün dünyadan haqq, ədalət uman dövlət haqqsızlıq, ədalətsizlik mücəssiməsi kimi – vətəndaşının söz və ifadə azadlığını tanımayan, haqqını boğan, ədalətini tapdayan, varını talan edən bir dövlət kimi təqdim olundu.

Car çəkdiyimiz “Azərbaycan, Qarabağ həqiqətləri” elə o qətnamədə sadalananlarmış demə. Bu həqiqətlərimizimi tanıtmaq istəyirdik dünyaya?! Bunlar ki, həqiqətimiz yox, ayıblarımızdır!

Bundan sonra o qətnamə ilə mahiyyəti açılan, portreti çəkilən bir dövlətin Qarabağ harayınamı qoşulacaq ona səs verən Avropa parlamentariləri? İnsanına dəyər verməyən dövlət dağına, daşına, dərəsinə, düzünəmi dəyər verəcək?! Bu səmimiyyətləmi inandırmaq istəyirik dünyanı?

100 il əvvəl haqq dalınca Avropaya üz tutan İstiqlal atalarımız bunumu istəyirdi? Bəlkə Avropa institutlarına üzv olmaq üçün illərlə çabalar verən biz yox, başqaları imiş?

Bütün dünyanın Avropaya axışdığı, Avropaya qiblə kimi üz tutduğu zamanda ondan üzmü döndəririk?

Üzümüzü hara tuturuq?

Rusiyaya? Anamızın anasını belə ağlar qoyan dövlətə? Boynumuza zəncir keçirib ucunu erməniyə verənə, bizi əsir-yesir edənəmi bel bağlayacağıq yenə? Öz vətəndaşına gün ağlamayan bizə nə gün ağlayacaq?

Bəlkə İrana, yaxud islam dünyası dediyimiz o bəxtiqara, ac-yalavac ümmətədir ümidimiz? Ötən əsrin 60-70-ci illərinin Tehranına, Bağdadına, Kabuluna, Dəməşqinə şəkillərdə, bu gününə TV-lərdə baxıram. Vətənimin gələcəyini bu ölkələrin taleyi kimi düşünəndə ətim ürpəşir! Boğazımı qəhər tutur!

...İnsana və insanlığa dəyər verən tək ünvanımız var – Avropa!

Avropadan kənarda bizi qaranlıq bir gələcək gözləyir! Buna bax elə bu sübh çağı pəncərəmdə doğan Günəşin varlığına inandığım qədər inanıram!

İndi seçim öz əlimizdədir!

Əlimizdədirmi?!

11 sentyabr 2015

# Bizim saziş

ABŞ-ın Azərbaycandakı səfiri Rino Harnişin iqtidarla müxalifət arasında saziş bağlamaq təklifi ölkədə mövcud ictimai, siyasi, mənəvi-psixoloji durumun gerçək qiymətini verməyə, bizim hansı ovqata kökləndiyimizi bir daha saf-çürük eləməyə əvəzsiz imkan yaradıb. Yanılmıramsa, ABŞ-la rəsmi münasibətlərdə olduğumuz son 13 ildə bu təklif mahiyyət və forma baxımdan yeni diplomatik səydir, hər halda nə vaxtsa bu cür təşəbbüs olduğu yadıma gəlmir. Təklif qış yuxusundan ayılmaqda olan torpağımızda nikbinliklə canlanmanın qarışığından alınan əsl bahar ümidləri doğurur.

Ümid öz yerində, bir az real mətləblərdən danışaq. Elə saziş sözünün özündən. Saziş deyəndə çox şey yada düşür: ticarət, siyasət, hərb, sair. Bütün hallarda bu söz öz bətnində sülh, əminamanlıq, birgəlik, əməkdaşlıq kimi anlayışları gəzdirir. Odur ki, cənab Harnişin ideyasına sülh və sabitliyə təşnə kimi görünən iqtidarla müxalifətin dərhal əməli reaksiya verəcəyini təklif səslənən vaxtdan hər gün gözləməkdəyik. Siyasi barrikadanın hər iki tərəfindəki ovqatı bilmək, kiminsə irəli durub "sülh"ə addım atıb-atmayacağını təxmin etmək üçün tərəflərin son illər qəzetlərdə, televiziyalarda səsləndirdiyi DİALOQ çağırışlarını xatırlamaq kifayətdir. Bu çağırışlarsa məşhur "İsaq-Musaq" axtarışını xatırladır:

- İsaq, tapdın?
- Musaq, yox!
- Mən dialoqa hazıram!
- Mən də hazıram!
- Tapdın?
- Yox!

İlk baxışda elə görünürdü ki, onların axtardığını Harniş tapıb, indi deyəcəklər ki, cənab səfir, buyurun zəhmət olmasa, sazişi hazırlayın, biz də imzalayaq. Amma bunu demək lap ağ olardı, özümüz etməliyik. *"Cənab səfir, sazişi mən hazırladım, qollamağa hazıram, buyurun, hansı bəndlərini deyirsiniz müzakirə edək, təki o biri tərəf də qollasın".*

***

Ölkə iki cəbhəyə bölünüb sanki, leksikon da müharibədəki kimidir. Burada ən çox işlədilən söz "düşmən", "satqın", "xain"dir. Bəlkə belə deyil? İqtidar nümayəndəsi müxalifətə bir kəlmə xoş söz desin, əl uzadıb görüşsün, yaxud əksinə, bunu müxalifət təmsilçisi eləsin, yarlığı dərhal üstündədi – SATQIN. Satılmaq düşmən cəbhəsinə keçməkdir. Onu yaxşı halda sıradan qovur, həbs edirlər, pis halda isə güllələyirlər.

Bilmirəm ölkə müxalifəti erməni müxalifətiylə daha isti və səmimi görüşər, yoxsa öz iqtidarı ilə, yaxud əksinə, ölkə iqtidarı erməni iqtidarı ilə mehriban söhbətləşər, dil tapar, yoxsa öz müxalifəti ilə?

Söhbət bu sualın qəlizliyindən getmir. Məsələ, ümumiyyətlə, bu sualın haradan və necə yaranmasındadır. Nə xanlıqlar dövründə, nə bolşeviklərin müstəqilliyimizə son qoyduğu vaxtda, nə onların 70 illik hakimiyyəti illərində, nə 20 yanvarda, nə də məğlubiyyət dolu Qarabağ müharibəsində qarşılıqlı nifrətin topluma bu qədər hakim olması yada düşmür. "Nifrət"in hərbi qarşılığı silahdır. Onu düşmənə yönəldərlər. Biz onu özümüzə

çevririk, niyə? Bu, necə olur? Yəqin düzgün cavabı gələcək arxivlərdə toz udan tarixçilər verəcək. Bu gün isə Tanrı bizi öz silahımızdan açıla biləcək atəşdən qorusun! Onun yarası indiyədək aldığımız bütün yaralardan dərin olar – belə döyüşdə qalib olmur…

ABŞ səfiri saziş təklif edir. Əcnəbi diplomat bizim bir-birimizlə dünyanın qəbul elədiyi sivil dildə danışmağımızı istəyir. Biz necə, bunu istəyirikmi? İstəyirsinizmi, cənablar və bəylər? Yoxsa, Şeyx Nəsrullahın kəşfindən qorxan kimi, "ölülərin dirilib haqq-hesab soracağından" – günahlarımızdan, məsuliyyətimizdən qorxaq..?

Bu saziş 200 yaşa çatan "Kürəkçay" müqaviləsi deyil ki, utanaq, alçaldıcıdır deyə. Heç Bişkək protokolu da deyil, başımızı aşağı salaq. Yəni, bir urvatlı seçki Qarabağ müharibəsindən də qorxuncdur? Adam sualların içində girinc qalanda bütün müqayisələr yerinə düşür.

Təklifi əcnəbi versə də saziş bizim sazişdir – yeni milli dəyərlərin, elə millətin özünün formalaşmasına təkan verəcək sonrakı sazişlərin əsasını qoya biləcək saziş.

12 aprel 2005



# Təcrübəli təcrübəsizlər

*Siyasi didişmələrə sözardı*

1993-cü ilin iyun ayı idi. Surət Hüseynov qiyam etmişdi.

Qiyamdan bəhrəsini götürən götürmüşdü.

Ölkə başçısı başını götürüb getmiş, Prezident Aparatında isə hamı başını itirmişdi.

İşlədiyim ərazi hakimiyyət və idarəetmə orqanları ilə iş üzrə müşavirlikdə sovetdən qalma əməkdaşlarda arxayınçılıq, çevriliş (inqilab da deyirik) dalğasının bura atdığı biz gənclərdə isə ümidsiz hal vardı.

***

REAL-ın öncüllərindən Erkin Qədirlinin neçə gündür müzakirə olunan *"Hakimiyyət bir müddət qalmalıdır ki, müxalifət təcrübə toplaya bilsin"* fikri 25 il əvvəl olmuş bir söhbəti yadıma saldı.

O iyun günlərinin birində müşavirliyin eyniadlı şöbəsinin müdir köməkçisi Əfruz Niftiyev sifətimdə gözü nə almışdısa təsəlli verirmiş kimi təxminən belə bir söz işlətmişdi: *"Etiraf edək ki, təcrübəsizik. Gedək, kitab oxuyaq, dil öyrənək, təcrübə toplayaq, sonra yenə gələrik".*

Getməyinə getdik, amma oxuyub, öyrənib, təcrübələnib qayıtmadıq!

Qayıtmaq bir yana, hələ də bilmirik ki, sən demə, hakimiyyətə gəlmək, onu saxlamaq üçün gərəkli iki şey varsa, biri xaricilərin, o bir də öz xalqının dilində danışmağı öyrənməkdir.

25 ildə müxalifətimiz bu iki dili öyrənə bilmədi. Baxıram, siyasət meydanına təzə gəlmiş REAL-çılar da eyni haldadır. Bir dəfə onları "dekabristlərə" bənzətdim, xətirlərinə dəydi. Bir dəfə də Erkin bəyin Vaşinqton çıxışına qınaq ifadəsi kimi fikrimi bloqumda yüngülvari yazdım. Ta yazmıram, demirəm!

Başqalarını bilmirəm, 25 ilin "təcrübəsi" mənə onu öyrətdi ki, ingilis dilində danışmaq hələ ingilisin, amerikalının dilində danışmaq deyil.

Heç Azərbaycan türkcəsində bülbül kimi ötmək də Azərbaycan xalqının dilini bilmək sayılmır.

25 ilin təcrübəsi onu da göstərdi ki, ABŞ-ın, Avropanın dilini ən yaxşı bilən ömründə ingiliscə bir kəlmə kəsməyən Heydər Əliyev imiş. Sən demə, Azərbaycan dilində rus aksentində danışsa da İlham Əliyev öz xalqının dilini bütün siyasətçilərdən gözəl bilirmiş. Yoxsa, 15 ildən sonra daha 7 il də seçməzdi onu bu xalq.

***

Son vaxtlar siyasi gündəmi tutan didişmələr, bir-birinin sözünü həzm etməyib düşməncə davranmalar adamı 25 il əvvəlin havasına kökləyir. Ruhdan salır, inamsızlıq aşılayır. Bunu bizə ancaq düşmən arzulayar!

Ürək ağrıdan odur ki, bu gün cəmiyyətdə “birləşdir, yönəlt” yox, “parçala, hökm et” əxlaqı hakimdir.

Azərbaycan cəmiyyəti heç vaxt bu günkü qədər param-parça olub hissəciklərə, qrupcuqlara, zərrəciklərə bölünməyib.

Özü də böyrümüzdə düşmənimizin birləşib yumruq halında meydanlara çıxdığı bir vaxtda. Təzə erməni lideri dünyanın 84 ölkəsindən liderləri Yerevana toplayıb rəqs elədiyi zamanda.

Nə deyirdim?

Topalaşa bilməyi öyrənək! Topalaşıb bir-birimizlə danışmaq təcrübəsi qazanaq!

Sonra dünyanın da, xalqın da dilini tapmaq asan olacaq.

…Tələsmək lazımdır, gecikən yerimiz yoxdur,  çox gecikmişik.

14 iyun 2018

# Azərbaycanda vətəndaş cəmiyyətini kim öldürdü?

*Son olaylara 20 ilin rakursundan baxış*

Milli azadlıq hərəkatının başladığı gündən zaman-zaman repressiya dalğalarının şahidi olmuşuq. Onun qabaran və çəkilən dönəmlərini yaşamışıq. Uzun illər vətəndaş cəmiyyəti quruculuğu prosesində fəal iştirak eləmiş adamların həbsə atıldığı, QHT-lərin bank hesabının dondurulduğu, fəaliyyət imkanının minimuma endirildiyi indiki dövr əvvəlkilərdən fərqlənir. Söhbət tək total həbs və qorxudan getmir. Ona qalsa, 2003-cü ilin oktyabr hadisələrindən dəhşətlisini xatırlamıram. Söhbət ondan gedir ki, indi bu repressiyalar "vətənə xəyanət" ittihamıyla həyata keçirilir. Repressiv siyasi sistemlər vətəndaşlarına qarşı son həmləni adətən bu ittihamla başlayır. Dəniz diliylə desək, belə hallar adi dalğaya yox, sunamiyə bənzəyir.

Müxtəlif məsələlərdə hərdən fikir ayrılığımız olsa da ölkədə vətəndaş cəmiyyəti qurmağa çalışan bu insanlarla böyük ideyalar uğrunda uzun illər birgə işləmişik. "Dəli Kür"dəki "rus Əhməd" kimi boynumuza düşən missiyanın ağırlığını dərk edərək həvəslə, inamla işləmişik. Ölkənin şəhər və kəndlərində keçirdiyimiz maarifçi tədbirlərdə bir diribaş, savadlı gənc görəndə uşaq kimi sevinmişik, onu növbəti tədbirlərə çağıranda gələcəyin cəmiyyət qurucularını hazırladığımızı zənn edib həzz duyğusu yaşamışıq. Ən ağır dövrlərdə, xüsusən seçkilərin keçirildiyi zamanlarda bütün gücümüzü və imkanlarımızı onun azad və ədalətli olmasına töhfə verməyə çalışmışıq. 1995-ci ilin parlament seçkisi ərəfəsində "İnam" Plüralizm Mərkəzini yaradandan bu işlərin içində oldum və dostlarım dediyim, bu gün həbs olunan, həbs olunmaq qorxusu yaşayan hər kəsi "rus Əhməd" kimi millətin işıqlı sabahını düşünən gördüm.

***

"Vətəndaş cəmiyyətimizin indiki durumu haqda niyə yazıram" sualına cavab olası bu qısa girişdən sonra "Yazıya niyə bu başlığı qoydum" sualına da cavab vermək istəyirəm. Amma gəlin tələsməyək, ardıcıllıq olsun deyə demək istədiyimi bir-bir deyim.

1997-ci ilin aprelində Zuğulbadakı "Gənclik" mərkəzində Beynəlxalq Plüralizm Mərkəzləri Şəbəkəsinin növbəti görüşünə ev sahibliyi edirdik. Bu, təşkilatçısı olduğum ilk beynəlxalq tədbir idi. İldə iki dəfə müxtəlif ölkələrdə toplanan, Mərkəzi və Şərqi Avropa, Orta Asiya ölkələrini əhatə edən şəbəkəmizin bu görüşünə 17 ölkədən 50-dək qonaq gəlmişdi. Onların arasında biri xüsusən seçilirdi. Bu, Varşava İnsan Hüquqları Məktəbinin rəhbəri Marek Novitski idi.

Marek Novitskini dəvət etməyi bizim bu şəbəkə proqramımızın rəhbəri, Vaşinqtonda yerləşən Şərqi Avropa Demokratiya İnstitutunun prezidenti İrena Lasota məsləhət gördü. Ölkədə insan hüquqlarının müdafiəsiylə məşğul olan, buna maraq göstərən bütün kəsləri onun çıxış edəcəyi sessiyaya dəvət etdik. O dövrün və indinin bir xeyli hüquq müdafiəçisi onu dinlədi. Həmin sessiyanın videoyazısı durur. Çıxış indi də aktualdır, gərək "Yutub"a qoyaq, hər kəsin baxmaq imkanı olsun.

Dinləyicilər bu qoca məruzəçiyə valeh oldu. Çıxışı tək savad artırmaq baxımından əhəmiyyətli deyildi, həm də adama gördüyü işdən vicdan rahatlığı tapmaq, böyük bir daxili inamla tarixi missiya iştirakçısı olmaqdan fəxr hissi aşılayırdı. O da bizim insanları bəyəndi. Elə o vaxtdan rəhbəri olduğu məktəbin qapılarını bizim ictimai fəalların üzünə açdı. Neçə adam bizim vasitəmizlə, neçəsi birbaşa bu məktəblə əlaqə qurdu, onun dərslərindən keçdi.

Nəyə görə o işıqlı şəxsiyyəti Azərbaycan vətəndaş cəmiyyətinin başı üstünə qaranlıq çökəndə xatırlayıram? Ona görə ki, bizim belə bir vəziyyətə düşə bilmə ehtimalımızı hələ o vaxt Marek Novitski demişdi. O, çıxışında faşistlərin dönəmində yaşamış bir alman keşişin məşhur etirafını misal gətirmişdi: *"Faşistlər əvvəl kommunistləri tutdu, səsimi çıxarmadım, çünki kommunist deyildim. Sonra yəhudiləri apardılar, dinmədim, yəhudi deyildim. Növbə mənə çatanda heç kimin səsi çıxmadı, çünki səsi çıxası adam qalmamışdı".* Novitskinin çəkdiyi misalı bu gün baş verənlər güzgüsündə bir də xatırladım.

Kommunist diktaturasını həbsxanalardan keçərək yaşamış, ona qarşı mübarizə aparmış bir insan kimi o, avtoritar rejimlərin nəyə qadir olduğunu bilir, bunu elmi dillə izah edirdi. Şəbəkəmizin görüşü keçirilən sərin aprel axşamları onunla maraqlı söhbətlərimiz olurdu. O, insan hüquqları ilə məşğul olmağı azad olmayan ölkələrdə təhlükəli iş sayırdı. Bizim bu sahədə potensialımızı qiymətləndirirdi, yeni hüquq müdafiəçilərinin hazırlanmasına dəstək olacağına söz verirdi. Onu heyran edən bizim hüquq müdafiəçilərinin birgə fəaliyyət göstərə bilməsiydi. Söhbətlərində repressiv sistemlərdə ən vacib işin birliyi qorumaq olduğunu deyirdi. Neftimizin bizə böyük bəlalar gətirə biləcəyinə işarə vururdu.

Eyni sözləri bir il sonra, 1998-ci ildə Varşavada keçirilən III Beynəlxalq İnsan Hüquqları Konfransında fasilələrdə söhbət elədiyimiz məşhur dissident, Kembric Universitetinin professoru Vladimir Bıkovski də deyəcəkdi. *"Sizin KQB məktəbini keçmiş general rəhbəriniz və neftiniz var. Sizi çox ağır sınaqlar gözləyir!"*

Keçmişi xatırlamaqla nə demək istəyirəm? Əslində Azərbaycanda vətəndaş cəmiyyətinin vəziyyəti haqda silsilə təhlil yazıları yazmaq istəyirdim. Bunları yazmaq vətəndaş cəmiyyətinin rüşeym halından onun yaranma çabalarına şahidlik eləmiş elə mənim kimilərin işidir. Rauf Mirqədirovun həbsindən başlayan "vətənə xəyanət" ittihamlı yeni repressiya dalğası ilkin adını "Hardan başladı çöküş?" qoyduğum geniş təhlili yazıya təkan verdi. Amma...

Amma ötən həftə mətbuatda adam qapan bir "igid Feysbuk dostumuzun mənə qarşı növbəti qərəzli statusunu "like" edənlərin arasında köhnə QHT, qeyri-QHT dostlarımızın adını görəndə dərin təhlil yazısı yazmağa köklənmiş ovqatım yoxa çıxdı, həvəsim öldü. İnsanların nə qədər həssas, aqressiv olduğunu anladım. Dərinə getdikcə çox yaraları cırmaqlayacağımı gördüm, dayandım, istəmədim. Xeyri də yoxdur, sağalda bilməyəcəyin yaranı açmasan yaxşıdır. Yazının səmtini dəyişib üzdən getməyə qərar verdim. Hamıya belə rahat olar, elə mənə də.

***

Plüralizm Mərkəzləri Şəbəkəsinin hesabına tanış olduğum neçə-neçə siyasət adamı, keçmiş dissident, hüquq müdafiəçisi və vətəndaş cəmiyyəti xadimiylə söhbətlərdən, Azərbaycana dəvət edib bizim ictimai-siyasi liderlərimizlə görüşdürdüyüm şəxslərin rəyindən, səfər etdiyim ölkələrdəki siyasi vəziyyəti görüb öyrəndiklərimdən o əminliyə gəldim ki, 1990-cı illərin ikinci yarısında nəinki postsovet, bütün postkommunist dünyasında ən güclü demokratik müxalifət Azərbaycanda olub.

Bunu bizdəki vəziyyətdən hali olan hər kəs etiraf edirdi. Xarici siyasi təhlilçilərin də qəti fikri bu idi ki, heç bir yerdə Azərbaycandakı qədər ucqar kəndləri belə əhatə edən strukturlaşmış müxalif siyasi hərəkat yoxdur. Siyasi senzuranın mövcudluğu şəraitində azad mətbuata bu

qədər həris jurnalistika fədaisinin mövcudluğu bizim aprel görüşümüzə (1997-ci il) Parisdən gələn mətbuat üzrə beynəlxalq ekspert Roni Koveni də heyrət etmişdi.

Azərbaycan kimi müsəlman ölkəsində demokratik qüvvələrin belə güc mərkəzi yarada bilməsi xaricilərə qəribə gəlirdi. Bizdən nümunə götürmək istəyirdilər. Gürcü həmkarlarımız "Bunlar bizdə yoxdur!" deyib qibtə edirdilər. Ukraynalılar, belaruslar, serblər bizimlə əməkdaşlığa can atırdılar. Orta asiyalılar bu qədər fəal insanı olan cəmiyyətin tezliklə bütün Şərqə örnək olası dövlət quracağına inanırdılar.

Bəs nə oldu? Postkommunist dünyasının qibtə elədiyi bir demokratik hərəkat indi niyə kiçik dissident dərnəklərini xatırladan duruma düşdü? Geosiyasi mövqeyimiz, Qərbin oyunbazlığı, Rusiya və İranın basqısı, KQB generalının mistik gücü, neft və onun qara fəsadları... illər boyu sadaladığımız səbəblərə neçəsini də əlavə edə bilərik. Amma bunun günahı "məndədir", "bizdədir", "özümüzdədir" deyən olmadı. Kimisə ittiham eləməkdən uzağam! Həm də bəzi ağzıgöyçək virtual qəhrəmanın mənə "Avropanın göbəyində oturub" "basqı altında şərə boyun əyməyən"lərə "dərs keçmək" tənəsindən çəkinirəm. *"İttiham etmə, ittiham olunarsan!"*

Dünyada ən zəhləm gedən insan tipi alıcı quş kimi daim insanların üstünə atılmağa hazır olan, ittiham eləməkdən qorxmayan, həyasızcasına üzə duran adamlardır. İndi mətbuatımızı və cəmiyyətimizi belə adamlar sarıb. Mən onlardan qorxuram! Qorxaq deyiləm, amma qorxum güclüdür. Qorxan insan ətraf aləmi cəsur adamdan daha yaxşı duyur. Məşhər sorğu-sualı, həbsxana işgəncələri belə onlardan qorxunc deyil. Çünkü orada səni gözləyəni təxmin edə bilərsən. Belə adamlarla təmas daha təhlükəlidir, səni harda, necə vuracaqları bəlli deyil.

Mən bu adamlara "dən səpən" deyirəm. "Mən qorxmuram, sənsə qorxaqsan" deyib bağıran bu "qəhrəmanlar" ürəyində vətənə sevgi yaşadan, azadlıq duyğusunu dadıb və bütün cəmiyyətə dadızdırmaq istəyən sadəlövh adamlara "dən səpib", onları nişangaha çıxaranlardır. Repressiv sistemlər belə adamları ya özləri yaradır, ya da xaraktercə belə olanlardan məharətlə istifadə edir. Belələri Polşanın "Solidarnost"undan tutmuş bizim milli azadlıq hərəkatımızacan – bütün azadlıq və demokratiya hərəkatlarında olublar. Bu gün qəhrəman libası geymiş o adamların səpdikləri "dən"i kimdən, hardan aldıqları isə çox sonralar üzə çıxır, bəzənsə heç çıxmır.

Bəli, "Avropanın göbəyindəki rahat yerimdə" onu anladım ki (Avropada yaşamağım baş qaxancım olacaqmış!), bütün bu məğlubiyyətlərin səbəbkarı mənəm!

***

Bir dəfə ABŞ-ın NED donor təşkilatının yüksək rəhbər mövqeli xanımına *"Niyə bizim mərkəzin layihələrini rədd edirsiniz?"* deyə sual verdim. İlk baxışda həmişə xoş görüşüb söhbətləşdiyimiz bu xanım mənə bir etiraf elədi: *"Hakimiyyətdə olanda siz jurnalist döymüsünüz!"* Şoka düşmədim, sadəcə "barmağımı dişlədim". Sonra güldüm. Dedim ki, mənim soyadım Qazıyevdir. AXC hakimiyyəti vaxtı Prezident Aparatında qısa müddətə balaca bir vəzifədə işləmişəm. Qazıyev soyadlı nazirimiz olub, amma o, jurnalist döyməyib, döyən başqa nazir idi. Bunu sizə danışanlar "Qazıyev", "nazir", "jurnalistin döyülməsi" sözlərindən düyünlü boxça düzəldib sizə ötürüblər. Həmsöhbətimi inandıra bildim, amma daha gec idi. Sonralar NED təşkilatında baş verən biabırçı olaylar haqda dostum İrena Lasota o təşkilatının prezidenti Karl Gerşmana səmimi dost məktubu yazanda bildim ki, bu təşkilatın, eyni zamanda başqa bu cür donorların mənə münasibətinin əsl səbəbi nəymiş...

Mən həmin donor təşkilatın 1995-96-ci illərdə bir Azərbaycan QHT-sinə yarım milyon dollardan artıq yardım ayırması haqda məlumatı elə onların saytlarından götürüb özlərinə sual etmişdim: *"Bilirsinizmi ki, sizin ayırdığınız bu pullar Azərbaycanda Demokratiyanın İnkişafi adına alınsa da, Azərbaycanda demokratik qüvvələrin parçalanmasına xidmət edir?"*

Donora da belə sual verərlər? Səfeh!

Yarım milyon dollar hələ bir təşkilatın saytında yazılan rəqəm idi. Başqa ABŞ və Avropa təşkilatlarının qrantlarını da təsəvvür edəndə o vaxt üçün fantastik məbləğ alınır. İndi hanı o təşkilat, onu yönəltmiş adamlar?

Bu qədər fəal insanın olduğu ölkəyə bu qədər pul ayıran fond uğurlu demokratiya qurulacağına ümid etdiyi vaxtda sən belə sual verirsən. Bir daha səfeh!

Hələ də bu sualı haqlı sayıram. Zaman bunu göstərdi.

Biz donorlarla işləyə bilmədik. Külüngü bir yerə vurmadıq, onlara bir hədəfimizin olduğunu göstərmədik, yürütdükləri səhv siyasəti üzlərinə demədik, *"sizin ayırdığınız qrantlar bizi birləşdirmir, əksinə parçalayır", "siyasi fəallarımızı, intellektuallarımızı şirnikləndirib ictimai marginala çevirir"* etirafını eləmədik.

Faciə ondadır ki, etirafı bir-birimizə də etmədik, hərəmiz başımızı qoltuğumuza soxduq, sonra da demokratiya naminə imitasiyayla məşğul olmağa başladıq. Hansı oyunlardan çıxmadıq? Qara nöyütdə ağ həqiqət axtaran bir koalisiyanın rəhbərliyindəki ölkənin ictimai xadim statuslu kəslərinin üççə min manatlıq xırda qranta görə gözümün qarşısında hansı oyun oynadıqlarını acı xatirə kimi, yəqin uzun illər xatırlayacam. Hələ başqa neçə-neçə belə olaydan yazmağa əlim də gəlmir, üzüm də. "Üstümüzdəki Soros ləkəsi" yazısına görə neçə dostun qınağına gəldim, mən də susdum...

***

İndi də o fikirdəyəm ki, Azərbaycanda demokratik qüvvələrin hakimiyyətə qayıtmaq üçün ən şanslı dövrü 1998-çi ilin prezident seçkisiydi. Bu sətirləri yazanda ara verib o vaxt keçirdiyimiz seçki monitorinqinin bülletenlərinə bir də baxdım. Əminliyim daha da artdı. O dövrdə nələr baş verdi? Bu barədə çox suallar verirlər, məsələn, *"Niyə Elçibəy məhz həmin seçki ərəfəsində Kələkidən qayıtdı?"* sayaq ritorik sual kimi. Mənimsə sualım daha yoxdur!

O dövrdə Müsavat Partiyası öz ətrafına hərəkat üzvü olmuş adamlarla yanaşı hərəkat üzvü olmayan çoxsaylı tərəfdar da toplamağa, Divana, Məclisə, rayon təşkilatlarında böyük ziyalı ordusu cəlb etməyə müvəffəq olmuşdu. Xalq hərəkatını günahlardan arındırıb yeni dövr hərəkatı yaradası liderə malik partiyaya çevrilmişdi.

Məşhur yunan kəlamına tam uyğun zaman yetişmişdi."Hic Rhodus, hic salta" ("Burda Rodos, burda tullan"). Bəs nə baş verdi?

Azərbaycanda demokratiyanın inkişafına, demokratların birliyinə dəstək layihələri niyə uğursuzluğa düçar oldu? Bu layihələr vətəndaşları seçkini boykota yox, seçkidə iştiraka yönəlik idi axı! Öz məsləkdaşlarına arxa çevirib hakimiyyətlə separat danışıqlara gedən kimlər idi? Postkommunist dünyasının ən güclü demokratik hərəkatı boykot intriqasına necə çəkildi? Şəxsi ambisiyasını milli maraqlardan kimlər üstün tutdu? Bu seçkidən başlayan üzüaşağı enişə görə məsuliyyət daşıyan varmı? On minlərlə fəal üzvü, yüz minlərlə fəal dəstəkçini könül qırıqlığına salan, onların iş, dolanışıq, mülk, ən əsası azadlıq və ümiddən

məhrum olunmasına görə vicdan sızıltısı duyan varmı? Odu söndürüb, külünü də yellərə kim verdi?

Ekstremal şəraitin bir gündə birləşdirdiyi insanları uzun illərin yaxınlığı birləşdirə bilməz. Bu insanlar çoxsaylı belə şəraitlərdə bərkiyib birləşmişdilər. Hanı o insanlar? Bu sualları mən vermirəm, dedim axı, sualım yoxdur. Bunlar sənin suallarındır, bu sətirləri oxuyan kəs! Şükür Allaha, o qədər ittihamçı-araşdırmaçı jurnalistimiz var ki. Maraqlı olsalar, araşdırarlar.

***

Dəvətimizlə 2000-ci il parlament seçkisini müşahidəyə gələn beynəlxalq müşahidəçilərin, elə başqa müşahidəçilərin də rəyinə görə seçkini Müsavat Partiyası udmuşdu. Seçki gecəsi məntəqələrdən dönən bir müşahidəçinin müxalifət liderlərindən biriylə söhbətini xatlrlayıram.

- Siz seçkini udmusunuz, niyə haqqınızı tələb etmirsiniz?
- 5-10 deputat yeri üçün son döyüşə çıxmağa dəyməz, qərar budur ki, gücümüzü 2003-cü ilin prezident seçkisinə, son və qəti mübarizəyə saxlayaq.
- 5-10 deputat yerini ala bilməyən prezident kürsüsünü necə tutacaq?

Cavabı 2003-cü ildə aldıq. Sonrakı 10 ildə tənəzzülün davamını isə hamı gördü.

2008-ci ildə prezident seçkisi yenə boykot edildi. Boykotu təşkil eləmək seçki kampaniyası keçirməkdən qat-qat ağır işdir, bu, təkcə evdə oturmaq deyil. Bütün seçkilərdə olduğu kimi bu seçkidə də bir QHT koalisiyası yaratdıq. Gəldiyimiz nəticəylə bağlı rəyi özüm yazıb, özüm də elan elədim. O rəyə görə məni səmimi qınayanlar oldu, girəvələyib qamçılayanlar da, böhtan atanlar da. Səhv idi, düz idi, bunu özüm eləmişdim. Açıqda, hamının gözü qarşısında. Mənə çamur atanlar isə çamura batmışlar idi. Amma bütün məni tanıyan səmimi dostlar bilir ki, o bəyanat hakimiyyətə sevginin yox, illərlə ümid bəslədiyib inandığımız siyasi qövmə qəzəb etirazı idi.

***

Bunları vətəndaş cəmiyyətinin bir institutu kimi siyasi partiyaların haradan haraya gəldiyini yada salmaq üçün yazıram.

Mətbuatın, QHT sektorunun daha güclü olduğu ölkələrdən fərqli olaraq bizim vətəndaş cəmiyyətimizdə avanqard rolunu həmişə siyasi partiyalar oynayıb. Qəzetlər də, QHT-lər də onun ətrafında dəstəkçi olublar. O vaxt heç ağla da gəlməzdi ki, bu qədər gücü olan partiyaların hərəsi sonda bir qəzetə sığınacaq.

Mətbuatımızın başına gələnləri sadalamağa ehtiyac yoxdur. Müxalif mətbuatı demirəm, elə bütün dövrlərdə müstəqilliyini qorumuş "Zerkalo"nun aqibəti bir nümunədir. Roni Koveni heyrətə gətirən döyüşkən mətbuat sonunda əl quzusuna çevrildi.

Biz xaraktercə fərdiyyətçi xalqıq, bizdə birgə iş alınmır (yaxşı qrupbazıq, onu demirəm). Ona görə bizdə hər şey fərdə bağlıdır. Qəzet də, partiya da, QHT də, elə ölkə də bir adamın adıyla çəkilir. Faciələr də bu adamların bir-biriylə intriqasından, davasından başlayır. Bir-birimizi didib parçalayır, zəif salır, sonra da təklənib uduzuruq.

***

Nəhayət, repressiya növbəsi QHT-lərə də çatdı. Novitski kimi adamlar bunu görürdü, bizə deyirdi, bizsə eşitmirdik. Azad adamın sözünə dözməyən repressiv siyasi sistem tədricən azad

adamın özünə, mövcudluğuna, onun susmasına belə dözmür. Bir vaxt “Susmaq hüququ” adlı bir yazıda bu haqda yazmışdım. İndi repressiv sistemin ən həssas yerlərini narahat edənlər hədəfdədir. Seçki, siyasi məhbus, susmayan dil, qorxmayan vətəndaş – budur onun həssas yeri.

Dalğalar böyük, ləpələr xırdaları alar - durdurulmasa növbə hamıya, “lallar”a da çatacaq.

Bir dəfə İntiqam Əliyevi xeyli insan hüquqçusu yetirdiyinə, böyük hüquq məktəbi yaratdığına görə Novitskiyə bənzətmişdim. İndi onun kimi Leyla Yunus da həbs olunub. Bir vaxtlar “III Sektor” adlı jurnal nəşr edərdik. Adını elə qoysaq da, hədəfimiz həm də demokratiya problemləri tarixindən nümunələr dərc etməklə maarifçi işlər görmək idi. Orada Qandi, Mandela, Martin Lüter, Havel, Cəmilov kimi azadlıq carçılarının məhkəmə çıxışlarını, həbsxana məktublarını demokratiya sənədləri kimi dilimizə çevirib dərc edirdik. Vaxt gələcək, Leyla Yunusun həbsxanadan göndərdiyi “*Bu, Pirr qələbəsidir. Siz bizim inamımızı heç vaxt qıra bilməzsiniz...”* nidalı məktubu da, İntiqam Əliyevin *“Məndən narahat olmayın! O biri məhbusları qoruyun!”* çağırışı da Azərbaycanda demokratiya uğrunda sənəd nümunəsi kimi tədris olunacaq, örnək göstəriləcək.

İqtidar düşünərləri, hakimiyyətin bu qədər güclü olduğu bir zamanda bu həbslər sizə lazımdımı? İstər bu gün, istərsə də gələcək üçün! İntiqam Əliyevə, Leyla Yunusa, Anar Məmmədliyə, İlqar Məmmədova, Tofiq Yaqubluya, siyasi baxışlarına görə həbs edilmiş neçə-neçə məhbusa qəhrəman deyilən yerdə siz necə adlanacaqsınız? Bunu düşünürsünüzmü?

***

Diqqətli oxucu gördü ki, hakimiyyətin də adı üstündən qəsdən ötəri keçdim. Mən bu hakimiyyətlə 1993-cü ilin yayında, Ağdamın işğalınadək bir ay boyunca işlədim. Onun hansı havada yaşadığını duydum. Mənim bu hakimiyyətdən heç vaxt gözləntim olmayıb, nə Qarabağı qaytaracağına inanmışam, nə də ədalətli cəmiyyət quracağına. Gözləntim olanlarsa məni və mənim kimi milyonları “qələbədən-qələbəyə” apara-apara bu günə gətirdilər, məğlub etdilər.

Deyərsiniz nə olsun, bunlar aydındır, bilirik! Sən de görək indi neyləmək lazımdı? Cavabım yoxdur. Bilmirəm! Bilsəydim, nə ağıllı adam olardım! Bir şeyi dəqiq bilirəm, bizdən – bu materiyadan vətəndaş cəmiyyəti yaratmaq alınmayacaq, yeni materiya lazımdır. Yeni nəsil – gənclər edə bilər bunu. Gümanım onlara qalır, amma baxıram nə qədər fəal və savadlı gənci “dən səpən qəhrəmanlar”ın yanında görürəm. Və yenə Qorxuram!

O biri yandan da siyasi yaddaşı üç-beş ildən o yana keçməyən gəncliyin ayıq olacağına, çox uzaq yox, elə son 20 ilin dərslərindən ibrət götürəcəyinə, yeni vətəndaş cəmiyyəti quruculuğuna başlayacağına inanıram.

Bu torpaqda tək gəmiricilər yaşamır, qaranquşlar da doğulur.

Diqqətli oxucu onu da duydu ki, heç kimi ittiham eləmədim! İttiham eləməyi bacarmıram. Dünyada ittiham edə biləcəyim tək adam var – o da özüməm. Bütün bu sadalanan səhv və günahların baiskarı mən özüməm! Mənəm – Azərbaycan vətəndaşı!

Avqust 2014

# Üstümüzdəki Soros ləkəsi

"Demokratik institutlar öz-özünə inkişaf edə bilməz, onların inkişafı bizlərdən asılıdır. Demokratik institutların təkmilləşməsi problemi bu institutların yox, həmişə ayrı-ayrı şəxsiyyətlərin qarşısında duran problemdir".

Bu sözlər avstriyalı filosof Karl Popperə məxsusdur.

Cəmiyyətdə, xalqın taleyində fərdlərin, şəxslərin rolu barədə cildlərlə kitab var, nə qədər istəsən sitat gətirmək olar. Sitatı Popperdən ona görə gətirmədim ki, bu adın deyilişindən xoşum gəlir, qəşəng səslənir. Ona görə seçdim ki, Corc Soros Popperi müəllimi, özünü də onun ideya ardıcılı hesab edir.

O Soros ki, daha Bakıdakı ofisi heç kimə qrant verməyəcək…

Soros Fondunun yerli ofisinin qrant verməyəcəyi xəbəri məni ona görə narahat eləmədi ki, ta bu fond qrant verməyəcək. Qrant olacaqsa, onu vermək qərarı bizdə olmayacaq, qrant Nyu-Yorkdan veriləcək, bir sözlə, qrantı qrant sahibləri özləri paylayacaq.

Yadıma qaçqınlıq illərinin ilk dövrləri düşür. Almanların, ərəblərin, türklərin göndərdiyi yardımları ədalətlə bölə bilmədiyimizi görən almanlar, ərəblər, türklər öz yardımlarını özləri paylamalı oldular. Bizim ədalət duyğumuz əcnəbiləri çıldırıb dəli eləmişdi. Bunun nə qədər utancverici olduğunu görməmək üçün gərək adamda ayıb hissi yerli-dibli olmayaydı. Ayıbımız o qədər yekə oldu ki, "Allah da örtə bilmədi".

Mən korrupsiyanın bizim genimizdə olduğuna inanmaq istəməyənlərdənəm. Sadəcə, korrupsiya virusuna immunitetimiz kövrəkdir, bu da bizim zəif yerimizdir. Səbəbini bilmirəm, fikirləşəndə də ağlıma qlobal iqlim dəyişikliyindən başqa bir şey gəlmir. Zarafat eləmirəm!

Qotur yarası insan bədənində nədirsə, korrupsiya da cəmiyyətdə odur. Kiminin başı, kiminin ayağı yoluxur, bizim isə bədənimizin hər əzası yaradır. Doğum evindən qəbrədək yolda, bu dünyaya gəlib o dünyaya getdiyimiz zaman kəsimində bu virus bizimlədir. Ömrümüz qotur içində keçir.

Qoturxanadayıq!

Bu il Beynəlxalq Şəffaflıq Təşkilatının Korrupsiyanı Qavrama İndeksi siyahısında Azərbaycan 183 ölkə arasında 143-cü sıraya "qalxdı". Ölkənin adını bu bədnam siyahıya salanlarımız isə qotur qaşımadan xoşhallandığı kimi ali mövqenin ləzzətini çıxarırlar. Yeni kəşf deyil, bunu dünyanın o başında da bilirlər.

Bəs biz, "vətəndaş cəmiyyəti qurucuları", bizlər necə? Hökuməti yıxıb-sürüməkdə tayı-bərabəri olmayan, müxalifətə "naftalin qoxuduğundan" ağız büzən, cəmiyyətə "savadsız", "müti" deyib snobvari yuxarıdan baxan, Sorosun hesabına o ölkə sənin, bu konfrans mənim deyib gəzən, "bord" üzvü, komissiya üyəsi kimi fondun hesabına fərman verən, çəyirtkə taxıla oturan təki uzun illər fondun pulunu qrant-qrant gəmirən bizlər bu qərardan xəcalət çəkdikmi?

Xalqın "üzü-qaymağı", "düşünən beyni", "vuran qəlbi", "görən gözü", "ağrıyan vicdanı" kəslər, daha Soros bizlərə güvənmir! Bizi ədalətli bölücü, səmimi demokrat saymır. Qaçqın yardımını insafla bölməyə qabiliyyəti çatmayanlardanıq. Bu ölkənin "qotur" tutmayan tək

salamat yeriydik bəs?! “Şəffaflıq” bağırıb büdcə çapovulçularının ayıbını açırdıq, ayıbımız açılmadımı?

Bir-birinin ayıbını açmaqdan bizim qədər ləzzət alan olmaz. Başqasının ayıbını ona görə açmırıq ki, ayıbdı, belə şey eləməzlər! Onda açırıq ki, ayıb da olsa, bu işdə özümüz iştirak etmirik – iştirakçısı olsaq həvəslə girişərik, ya da ən yaxşı halda “yeyib” susarıq. Mənə çatmırsa, sənə də çatmasın! Xarici fondlarla problem çox ölkədə olur, yaxın qonşularımızda bəlkə bizdən də çoxdu. Amma onlar fərdi “ayıb”ı milli “ayıb”a çevirməməyi bacarırlar. Bu abzasda yazdıqlarım o anlama gəlməsin ki, bizi başaşağı edəcək hərəkətimizi tənbəl arvad zibili palaz altında gizlətdiyi kimi ört-basdır edək. Narahatlığım bütün dünyada vətəndaş cəmiyyətimizin kövrək imicinə zərbə dəyəcəyindən, bu prosesin zəncirvari başqa donorlara da sirayət edəcəyindən, nəticədə ölkədə bu sektorun onsuz da az olan imkanlarının daha da azalacağındandır.

Soros Fondunun bu qərar xəbərindən iki həftə keçib. Bu günlər ərzində illər boyu bu qərara doğru yol açan, birbaşa və ya dolayısıyla təqsirkar olan bizlər ağzımıza su alıb susduq. Amma heç kim yaxasını kənara çəkə bilməz! Burda ləkəsi olmadığını zənn edən “tənha məğrurlar” elə bilməsinlər ki, aydan arı, sudan durudular, yağış hər yanı islatdığı kimi çirkab da hər kəsə bulaşır, ən azından sıçrayır.

Unutmayaq, heç də hər yağış hər ləkəni yumur.

Gün işığı lazımdır – hər yanı aydınlatdıran, Popperin dediyi “ayrı-ayrı şəxsiyyətləri” yetişdirən gün işığı!

Dekabr 2011

# Etiraz hüququ

*Fuad Poladovla Qiyas İbrahimovun etirazına sözardı*

Razılaşmamaq da bir haqqdır! Məni razılaşmağa vadar etməyə sənin ixtiyarın yoxdur! Ailədə böyüklüyün, icmada ağsaqqal-avtoritetin, sosial statusun, ictimai çəkin, dövləti vəzifən məni zorən sənlə razılaşdıra bilməz. Uzaqbaşı kompromisə gedərəm. Güc gələrsən, etiraz edərəm!

Başqa toplumlarla işim yoxdur. Yaşadığım İsveçdə neçə ilin müşahidələrindən bu qənaətə gəldim ki, isveçli yuxarıda təxmini cızdığım bu həyat düsturuyla böyüyür, yaşayır. Mənsub olduğu cəmiyyət, dövlət bunu uşaqlıqdan ona aşılayır.

İnkişaf etmiş toplumların gəlişmə səbəblərini arasanız, şübhəniz olmasın, etirazı kültürəl dəyərlərdən biri kimi görəcəksiniz.

“Ozon adamlar” yazısında belə yazmışdım bir vaxt: “Etiraz azadlığın birinci şərtidir! Etiraz eləmədən azad olmaq, azad olmadan da ləyaqətli ömür yaşamaq mümkün deyil!”

Bizim nəsil azadlıq mücadiləsindən qorxmadı! Tank qarşısına da çıxdı, güllə qabağına da. Yaralandı, əlil oldu, öldü də.

Amma bizim nəsil azad cəmiyyət qura bilmədi! Üstəlik müstəqilliyin şirin tamından çatdırıb doyunca dadmadı. İndi angedonik (zövq ala bilməmə) ömür sürür.

Niyə?

Biz, sovet məktəbində oxuyub, şərqli müsəlman ailəsində tərbiyələnmişik. Sovet əxlaq kodeksi də dini ehkamlar kimiydi – hər ikisinin hədəfi “öz adamını” yaratmaqdır. Onlar öz idealoji inkubator-bətnlərində yeni “sosial varlıqlar” vücuda gətirirlər. Bu canlı “material”dan biri “kütlə”, o biri “ümmət” yaradır.

Bizim nəsil yarı “kütlə”, yarı “ümmət” oldu. Bu günün “kütləvi ümmətləşmə” qaynağı elə özümüzük.

Biz, qadağalar, “olmazlar” hesabına etiraz vərdişini itirmiş, unutmuş bir toplumun yetirmələriyik.

Etiraz cəsarətin əyanda şəklidir. Qəlbinə, ruhuna qorxu hakim olana bu proyeksiya yaddır.

Etiraz şərəfin “qapı iti”dir, fərq etməz “qoruyan mələk” də deyə bilərsən, anlamı birdir.

Fuad Poladovu səhnəmizin mogikanlarından hesab edirəm. Amma əminəm, onu bizim “obıvatel” tamaşaçıya sevdirən sənətindən çox şəxsiyyətidir. Neçə gündür hamı işdən getməsini deyir. Diqqətimi daha çox bir vaxtlar “İbrus”dakı tamaşalarına həvəslə getdiyim Mehriban Zəkinin bu fikri çəkdi: *“Bir məqama təəssüf edirəm ki, bizim tamaşaçılar teatra mədəniyyət və sənət xatirinə deyil, aksiya xatirinə gəlirlər”.*

Neyləyib Fuad Poladov? Gənc həmkarının üzləşdiyi qanunsuzluğa etiraz edib, işdən çıxıb. O, cəmiyyətdən aldığı ictimai statusuna yaraşan vicdanlı addım atıb. Cəmiyyət bunu şok effekti yaradan görünməmiş hadisə hesab edir.

İcazə verin, mən bu şoku Fuad Poladovun qəhrəmanlığına yox, tanınmış sevilən şəxslərin mövqe sərgiləməsinə aclıq keçirən toplumun acizanə durumuna aid edim. Bu "işdəngetmə" elə bizim kimi cəmiyyətlərdə qəhrəmanlıq sayıla bilər. Doğrudan da kütləvi qorxu sükunətində əsl qəhrəmanlıq hayqırtısıdı bu, razıyam.

Amma...

Amma mən bunun bir qəhrəmanlıq olduğunu bir isveçliyə izah edə bilərəmmi? Uşaq baxçasından etiraz etmək vərdişiylə böyüyən, etirazını bildirməyi təbii insan haqqı sayan isveçli məni başa düşərmi? *"Qanunsuzluğa hər ləyaqətli adam etiraz etməlidir!*", deyib keçər, yəqin.

Qınamaram! O bəxtəvər isveçli Azərbaycan kimi ölkələrdə imtinanın ağır bədəlindən xəbərsizdir. Etiraz edən isveçli sənətkar bilər ki, imtina onun həyatını alt-üst etməyəcək, şərə-böhtana, intiqama tuş gətirməyəcək, əksinə sabah itirdiyindən də yaxşısını tapa biləcək!

Yoxsa, isveçli səndən, məndən ürəkli deyil ki!

Qəhrəmanlıq Qiyas İbrahimovun etirazıdır! Onun protesti Fuad Poladovun etirazından daha risklidir – müqayisəyə də gəlmir. Ona görə müqayisəyə gəlmir deyirəm ki, bu etirazların hədəf dərəcəsi fərqlidir. Teatrda haqsızlığa dözməməklə dövlətin idarə sisteminə, bu sistemi quranın heykəlinə "Qul bayramınız mübarək" sözlərini yazmaqla etirazın yükü eyni deyil, qaynağı bir olsa da. Nəticələr hədəflərin miqyasına mütənasibdir – ustad sənətkar iki işindən birini itirdisə, gənc fəal çiçəkləyən ömrün 10 ilindən məhrum oldu.

Biçarə toplumsa birinə ayaqüstə alqışlar yağdırdığı halda o birinə müticəsinə susdu. Kiçik hədəfli etirazdan vəcdə gələn toplum böyük hədəfli protesdən uzaq durdu.

***

Bizə umud olmayın, gənc qızlar, cavan oğlanlar!

Gələcəyin azad cəmiyyətini bu günün düşünən, düşündüyünü hər yerdə müzakirə və mübahisə etməkdən çəkinməyən gənclik yaradacaq. Etiraz etməyin qəhrəmanlıq yox, hüquq olduğu dövləti siz quracaqsınız!

Hər dürlü "kütlə" və "ümmət" psixozuna yoluxmayan, ETİRAZı milli dəyərə çevirməyi bacaran azad gənclik edəcək bunu!

Sən edəcəksən, etiraz edə bilən vətəndaş!

30 oktyabr 2016

# Etiraz – ləyaqətin bir başqa adı

Bethoven "3-cü simfoniya"sını 1804-cü ildə bitirir və "Qəhrəmanlıq" adlandırdığı bu əsərini demokratiya, anti-monarxiya inqilabının carçısı Napoleona həsr edir. Az sonra Napoleonun özünü imperator elan etməsi onun xəyal qırıqlığına səbəb olur.

*"İndi o, inqilabın verdiyi insan haqlarını ayaqlar altına atacaq, tiran olacaq!"* – deyir.

Ağdamda musiqi texnikumunda oxuyan evimizin kirayəşin qızlarından eşitmişdim ki, Bethoven həmin simfoniyanın partiturasındakı "Napoleon" sözünü elə qeyzlə pozubmuş ki, kağız cırılıbmış. Ötən yay Vyanada Behtovenin ev-muzeyində olanda bələdçidən durexcluded deyə, o partituranın taleyini xəbər aldım. Muzeyin əməkdaşı alman dəqiqliyiylə izah elədi. Sən demə, köməkçisi o hadisəyə şahid olub, xatirəsində bəstəkarın titul vərəqi cırıb yerə atdığını yazıb. BBC-nin 2003-cü ildə çəkdiyi "Qəhrəmanlıq" ("Eroica") filmində isə bəstəkar "Napoleon" yazılan vərəqi hiddətlə əzib tolazlayır.

Partituranı pozubmu, cırıbmı, əzibmi? Əsas bu deyil, əsas odur ki, o, bir tirana etiraz edib!

İranda məşhur bir müğənni var – Əli Reza Eftexari. El içində böyük nüfuzu olan bu sənətkar ömrü boyu topladığı hörməti bir günün içində itirir. Hörmət bir yana, adamların nifrətini qazanır.

Neyləmişdi o? Heç nə, bizim üçün adi olan bir iş tutmuşdu. Konsert vaxtı İran prezidenti Mahmud Əhmədinejadın şərəfinə tərifli sözlər demişdi, səhnədən düşüb ona əl vermişdi, sarılıb qucaqlamışdı.

İran ictimaiyyəti onun bu hərəkətini yaltaqlıq kimi qarşılayır, xalqın üzünə azadlıqları bağlamış bir rejimin başçısına etiraz əvəzinə məddahlığı ona bağışlamır.

O gündən xalq Eftexarini hər yerdə boykot edir – konsertinə getmir, disklərini maşın təkərləri altında əzir, bir sözlə, rədd edir. Yutubda gördüyüm bir videoda müğənni ağlaya-ağlaya deyir ki, mədrəsədə qızını gözümçıxdıya salırlar.

*"Çörək almağa gedirəm, satıcı dalını çevirir, çörək satmır".*

İranda ümumxalq etirazlarının alovlandığı bu günlərdə xeyli vaxtdır yarımçıq qalan bu yazıya qayıtmaqda qəsdim tək insanın hakim güc qarşısında fərqli davranışına nümunələr göstərmək deyil. Məni siyasi rejimlərin qurduğu, toplumun xarakterini formalaşdıra bilən sistemin hərəkət mexanizmi maraqlandırır. Məsələn, 70 il totalitar kommunizm qorxusu, son 25 ildə də o qorxunun başqa bir formasını yaşayan bizim toplum kimisini deyirəm.

Politoloji ədəbiyyatlar yazır ki, azadlıqlara qapalı rejimlər siyasi-ideoloji yönündən asılı olmayaraq bir-birinə bənzəyir. Onların azadlıqları boğmaq, "yeni insan yaratmaq" metodları oxşardır.

İstər söz açdığım o video, istərsə də İrandan gələn son kütləvi etiraz görüntüləri bunun əksini deyir. Görünən odur ki, molla diktaturası 40 illik hakimiyyət dövründə istəyinə nail olmayıb – xalqın müqavimətini sındıra, insan ləyaqətinə bağlı dəyərləri məhv edə bilməyib.

Yumurtanın qiymət artımı bəhanədir, Məşhəddən başlayan bu etiraz dalğası iranlılarda illərdir yığılan nifrət püskürtüsüdür.

***

İnsanda fitri istedad daxili azadlıqla təndir. Azadlığın olmadığı yerdə istedad soyuq iqlimdə yetişmədən elə ağacdaca kal çürüyən meyvə kimidir. Nə qədər istedadlar azadlığın boğulduğu mühitdə məhv olub, kim bilir!

Fransa monarxiyasına son qoymuş, kralı edam etmiş, insanlara azadlıqlar vermiş inqilab o dövr Avropasının bütün monarxlarını təlaşa salmışdı. Krallar inqilab ideyalarından taun epidemiyası tək qorxurdular, onun yayılmaması üçün hər şeyə əl atırdılar. Məhz belə bir zamanda Avstriya imperiyasında bəstəkar Lüdviq van Bethoven klassik musiqi tarixində yeni səhifə açan təzə simfoniyasını demokratiya və insan azadlıqları simvoluna çevrilmiş bir sərkərdəyə həsr edir. Öz imperatorundan qorxmadan, çəkinmədən!

Sonra da prinsipinə sadıq qalır, pərəstiş etdiyi şəxs tiranlıq eşqinə düşəndə adını simfoniya partiturasından silir.

Bethoven hər iki qərara gələndə vicdanı, əxlaqı qarşısında azad idi.

Eftexariyə ictimai qəzəbin qaynağı hakimiyyət idi. Sən eyni zamanda həm xalqın, həm də o xalqa zülm edən hakimiyyətin sevimlisi ola bilməzsən!

*"Sənin əlini sıxdığın bu rejim deyilmi İran qadınlarını döyən, həbs edən, güllələyən?"* Bu, qızına, ailəsinə qarşı el töhmətinə münasibəti dilinə gətirən sənət adamına verilən sualdır.

Əslində Eftexari bəhanədir, bu qədər sərt ictimai qınağa səbəb edam, həbs qorxusu mühitində belə İran vətəndaşında sağ qalan şərəf, ləyaqət duyğusudur.

O gün "Məğrur yaltaqlıq məktəbi" yazısında yazmışdım ki, yaltaqlıq tək alçalma forması deyil, həm də insan qorxusunun "üst geyimidir". Yaltaqlığın astar üzü qorxaqlıqdır. Qorxan adam həm də yaltaqdır!

Bəs, qorxu bütöv cəmiyyətə hakimdisə, onda necə?

Qorxu tək diabet, infarkt, insult kimi xəstəliklər yaratmır, insanda cürbəcür mutant hislər də cücərdir. Azadlıqlara total basqı olan ölkələrin adamlarında bu aydın görünür.

Diktaturanın gücü ölkəni bir mərkəzdən idarə etməsində deyil, həm də bir-birinə nəzarət edənlərin cəmiyyətini yaratmasında, belə güdükçü toplumun idarəetmə mexanizmini qura bilməsindədir.

Total qorxu üstündə qurulan siyasi sistem, idarə mexanizmi insanlarda əxlaq, şərəf, qətiyyət, cəsarət duyğularını məhv edir, yerinə yaltaqlıq, mütilik, lakeylik, məddahlıq gətirir.

Belə yerdə yaltaqlıq sağ qalmanın, uğur qazanmanın tək vasitəsinə çevrilir.

***

Bethoven də, İran da, lap belə Turan da öz yerində, məni öz halımız – Qarabağsız, haqq-ədalətin ərşə şəkildiyi Azərbaycan düşündürür.

Belə bir mühitdə sonacan azad qalan ümumxalq sevimlimiz varmı?

Bəs, ayıb işlərə ictimai müqavimətimiz necə?

P.S. İranda tək dini xurafat yox, öyrənilәsi başqa şeylər də varmış!

3 yanvar 2018



1976

# Məğrur yaltaqlıq məktəbi

Kefiniz istəyən qədər yaxşı xasiyyətimizi sanayaram, qurtarmaz. Nə bilim, mehribanıq, yanımcılıq, mərdik, ürəyimiz də açıqdır, əlimiz də filan.

Di gəl, özümüzünkülərə yox! Yada, qırağa. Bu yazıda dərdim bu deyil, bundan danışmıram.

Niyə beləyik, deyə fikirləşirəm. Bir heylə düşünürəm, ağlıma babat, ağlabatan səbəb gəlmir. Ağlıma yalnız bir pis işimiz gəlir, elə pis iş ki, cəmi yaxşılarımızı yuyub aparır.

İsveçə gələndən, dünyanın ən cazibədar model cəmiyyətlərindən birini qurmuş bu "soyuqqəlbli" insanların əhatəsinə düşəndən özümüzü bir ayrı yandan kəşf eləmişəm. Bizim azad ruhluğumuz, əyilməzliyimiz, şərəf-ləyaqət haqda bəlağətli sözlərimiz şirma-örtük kimi gəlir mənə, ruslar "pokazuxa" deyir e, bax, bir növ onun kimi.

Kənar adam cəmiyyətimizi – TV, qəzet-jurnal, toy-yas məclisləri, müşavirə-iclas, konfrans-seminar, bir sözlə, rəsmi, qeyri-rəsmi tədbirlərimizi müşahidə eləsə, deyər: *"Bunlarda fitri tərif demək istedadı hardandı belə?"*

Bu gün cəmiyyətimizə hakim bir insan duyğusu varsa, o da yaltaqlıqdır. Elə bil, bu duyğuyla nəfəs alırıq, yatıb-dururuq, beynimiz yalnız bunun yeni növlərini axtarmaqla məşğuldur. Orijinal bir şey tapanda uşaq kimi sevinirik. Sanki, həyatda uğur qazanmağımız bu hala, ovqata köklənə bilməyimizə bağlıdır.

Biz yaltaqlığı insani duyğular sırasına çıxarmağı bacarmış xalqıq, o biri duyğuları Tanrı özü verib bizə.

İlahi, biz nə qədər bacarıqlıyıq, yalmanmanın necə kreativ üsullarını tapırıq! Əgər yaltaqlıq elm kimi tanınsaydı, nə bilim, fizika, kimya sayaq və bu elmlə, məsələn, Günəşə uçan aparat düzəltmək mümkün olsaydı, bunu bacarardıq, ciddi deyirəm, düz sözümdür.

Biz heyvan adlarından da bu sözə sinonimlər düzəldə bilən camaatıq, "pişiklənmək" kimi.

Ayrı şeydən danışırdım səki...

***

Ukrayna, Gürcüstan, Moldovadan sonra Ermənistan da Avropa Birliyiylə hərtərəfli və genişləndirilmiş partnyorluq razılaşması adlı sənədi ötən həftə Brüsseldə imzaladı. 2013-cü il sammitində Serj Sarkisyan Rusiyanın təzyiqiylə son anda bu sənədi qollamaqdan imtina eləmişdi.

Ermənistan prezidenti o gün belə deyib: *"Bu sazişi imzalamaqla biz göstəririk ki, həm Avrasiya İttifaqının, həm də "Şərq Tərəfdaşlığı"nın üzvü olmaq mümkündür".*

Rusiyadan az qala onun bir quberniyası səviyyəsində asılı olduğunu iddia edib lağa qoyduğumuz Ermənistan bu addımı ata bilirsə, müstəqil, balanslı xarici siyasət yürütdüyünü deyən Azərbaycan, bəs, niyə bu sazişdən qaçır?

2009-cu ildən – Azərbaycan Avropa Birliyinin "Şərq Tərəfdaşlığı" proqramına qoşulandan sürtə-sürtə gəlirik. Niyə?

Yadıma düşür, biz – bir qrup ictimai fəal yığışıb Azərbaycan Avrointeqrasiya Milli İctimai Komitəsi (AAMİK) yaratmışdıq. Bir ara o komitəyə mən də həmsədrlik elədim. Məqsədimiz

Azərbaycan hökuməti ilə Avropa Komissiyası arasında ictimai əlaqəçi olmaq, ictimaiyyət adından təkliflər hazırlamaq, bu işə sürət vermək idi. Müxtəlif sahələri əhatə edən 9 komissiya yaratmışdıq. Hökumətimizdən fərqli olaraq, Avropa Komissiyası komitəmizə dəstək verdi, xeyli iş gördük.

Çox keçmədi, başa düşdük ki, bu inteqrasiyanı hökumətimiz istəmir! Rusiyadanmı qorxur, Avropa azadlığını dadan xalqın ruhlanıb çox şey arzulayacağındanmı çəkinir? Gümanın min yerə gedər, ortada olansa bunu – is-tə-mir! Ukrayna, Gürcüstan, Moldovadan fərqli olaraq, bizim hakimiyyət bunda maraqlı deyil.

Nəticə bu gün göz qabağındadır. Onlar Avropanın kandarını keçib, bizsə sərhəddə boylana-boylana qalmışıq.

Almaniyada yaşayan bir dostum o gün gileylənirdi ki, atasıgili qonaq çağırmaq istəyirmiş, viza ala bilməyib. *“Amma bu yay gürcülər öz bağlarının gilənar, gilasını gətirib Berlin marketlərində satdırdılar”.*

Hələ 2008-ci ildə Avropa Komissiyasının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Alan Vaddams rəhbəri olduğum “İnam” Plüralizm Mərkəzinin AAMİK ilə birgə təşkil etdiyi “Azərbaycan – Avropa Birliyi: inteqrasiya üçün effektli əməkdaşlıq mexanizmləri” mövzusunda dəyirmi masada belə demişdi: *“Şərq Tərəfdaşlığı” proqramı 6 dövlətin gələcəkdə Avropa Birliyinə üzvlüyə qəbulunun reallaşdırılmasına yol aça bilər. Bunun üçün Avropa qaydaları ilə yaşamağa vərdiş edilməli, yerli qanunvericilik Avropa qanunlarına uyğunlaşdırılmalıdır”.*

Yəni, Avropaya qoşulmaq istəyən ölkələrin insanları ilk növbədə vətəndaş olmalıdılar. Vətəndaş hökumətə boyun əyən müti varlığa yox, hökumətləri özünə tabe etdirməyi bacaran şəxslərə deyilir.

İndi Ermənistan Avropya inteqrasiya yolunda ciddi addım atdı. Niyə? Guya Serj Sarkisyan Avropadan ötrü ölür? Yox! Özünü vətəndaş sayan insanlar onu vadar etdi. Dəxli yoxdur, o vətəndaş ölkə daxilində yaşayır, ya Ermənistanın asılı olduğu diasporadandır.

Bu gün – 1998-ci ildən rəsmən hakimiyyətdə olan “Qarabağ klanı” adlı rejimdə Ermənistan vətəndaşı Yerevanın mərkəzində mitinq keçirəcək, erməni müxalifəti bu ölkənin televiziyasında Sarkisyanı cinayətkar adlandıracaq, parlament fraksiyalarında deputatlar “ölkə Qarabağ klanının əlində girov qalıb” deyəcək qədər azaddır.

Bizim rəsmi mətbuatımızın alay edib bəyənməməsi ilə deyil, göz görən odur ki, düşmənimizin ölkəsində azından-çoxundan demokratiyası da var, Avropaya aparası əsl balanslaşdırılmış xarici siyasəti də.

***

Nədən danışırdım? Hə, xasiyyətimizdən!

Yaltaqlıq tək alçalma forması deyil, həm də insan qorxusunun üst geyimidir. Yaltaqlığın əks üzü qorxaqlıqdır. Qorxan adam yalmanır! Çexovun “Məmurun ölümü” hekayəsindən Çervyakovu xatırlayırsınız yəqin. Öz Qurbanəli bəyimizi demirəm heç.

Tanınmış çex heykəltaraşı David Çernı yaltaqlığı insanlığın ən naqis keyfiyyətlərindən sayaraq, ona heykəl ucaldıb. “Yalmanma” adlanan 5 mertlik heykəl Praqanın “Futura”

qalereyasında nümayiş olunur. Bu, ikiqat əyilmiş başsız adam heykəlidir. Heykəltaraş bununla demək istəyir ki, yaltaq adamda nə baş olar, nə sima. Bir az bizim şanlı mentalitetə yaddı deyə, heykəlin şəklini dərc etmirəm bu yazıda. Ququlda "David Černý. Brown-nosers" yazıb özünüz taparsınız.

Sözümün canı odur ki, elə bil, yarınmaq genetik halımızdır, atadan oğula, anadan qıza ötürülür.

Deyir, Bülbül zəhmetkeşlərin qabağında konserti bitirəndən sonra belə deyərmiş: *"Ay camaat, yaxşı işləyin ki, Bağırovun başı Stalinin yanında uca olsun!"* Yaltaqlığın uğurlu formasıdır, deyilmi? Yaxşı sənətkar idi, amma qul xislətli!

Bağırov 20 il Azərbaycana rəhbərlik eləyib. Hərdən gözümə dəyir, onu təmizə çıxarmaq istəyənlərin yazıları. Bilmirəm kim deyib, Bağırov haqda ən doğru deyim budur: "*Azərbaycan Stalini + Beriya".* Unutmayaq!

Yaltaqlıq sanki genetik halımızdır dedim, yəqin elə buna görədir, bir xalq kimi – istər evdə ata olsun, istər dövlətdə rəhbər – "üzüyumşaq" başçıları sevmərik, atılıb boynuna minərik. Bizimki zorlu-hallı adamdır, sino gedərik, rəğbət bəslərik, təzim edərik.

Şiə kimi də qəribə şiəyik, qəlbində Əli rəhmi olana yox, Yezid kimi zalıma biət edərik.

Üç hakimiyyətimizi misal çəkim, onlarla necə davrandığımızı özünüz yada salın. Bilirəm, Azərbaycan Cümhuriyyəti deyəndə elə sizin də gözünüzün qabağına Rəsulzadə gəlir. İki il dözə bildik Rəsulzadələrin bəxş etdiyi azadlığa. Özümüz öz əlimizlə verdik azadlığımızı rusa.

Sovet illərində, irəligetmiş xalqların hələ tam baş açmadığı kompüter texnologiyalarından danışan Vəzirovun da "üzüyumşaqlığı" iki il çəkdi.

Humanist Elçibəyin bəxti heç gətirmədi. Xalq "ürəyiyumşaq" hakimiyyətlə bircə il dolana bildi.

Yerdə qalan hakimiyyətlərə sevgimizi isə özünüz də bilirsiniz, görürsünüz, ...yaşayırsınız!

Şimalı Koreyadan video lentlərə baxmamış olmazsınız, ulu öndərlərinə ümumxalq sevgilərinin əyani sübut tamaşalarını deyirəm. Yox, halımızı onlara bənzətmirəm, onların sevgisi saxtadır. Bizim tək səmimi ola bilməzlər!

Həm də onların üz-gözündən rəzillik yağıq. Bizsə qəbula Zülümov kimi ikiqat əyilib girsək də, çıxanda şax çıxırıq, məğrur görkəmdə. Bizim yaltaqlığımızın da bənzəri yoxdur dünyada.

Məğrur yaltaqlıq!

Bax, o "ürəkdən gələn səmimi sevgi"lər ölkəsindən – Yalmaniya adlı ölkədən yazacaqdım, huşum getdi, nə bilim, Almaniyaya, ...İrəvana, Avropaya filana.

***

Mən tərkibində Qarabağ olan Avropasayaq ölkədə, məğrur yaltaqların yox, azad vətəndaşların vətənində yaşamaq istəyirəm!

Ayrı heç nə istəmirəm!

Noyabr 2017

# Şərq hüzuru

*"Yaddaş ləpirləri" silsiləsindən*

Bir yağışlıq canı olan əhəngi yol kənarı boyu düzülmüş daşlara sürtən fəhləyə göstərişlərini verib parkın ortasında yenicə tikilmiş fontana doğru getdi. Əvvəlki adı və görünüşü dəyişdirilən parkın 40 yaşı vardı. Təzəcə əkilmiş, yerli təbiətə yad ağaclar "Sevil" tamaşasında möhtərəm qonaqlara təqdim etmək üçün Balaşın qiyafəsini dəyişdirdiyi atasını xatırladırdı.

Parkın ən hündür yerində daşın üstünə çıxdı. Burdan ətraf daha aydın görünürdü. Yerini rahatlayıb qarnını azca qabağa verdi. Sağ əlini irəli – süpürgəçilərə göstəriş verən park müdirinə uzatdı*: "O uşaqları qov! Baş-beynim getdi".* Bir dəstə yeniyetmə parkın küncündə yeni qurulmuş idman qurğularında güc sınayırdı.

Bu mənzərəni rayon mərkəzlərinin birində, yenilənmiş parka bitişik çayxanada dünənki qəzetlərə ötəri baxa-baxa izləyirdim. Bugünkü qəzetlər günortadan sonra gələcəkdi. Parkdakı olaylar qəzetdə yazılanlardan maraqlı idi. Odur ki, bayaqdan bəri işçilərə göz verib, işıq verməyən, park müdirinin gücü çatmayan uşaqları yağlı söyüşlərə qonaq edib, polislə qorxudub parkdan qovan bu əlahəzrətin kim olduğunu qonşu masada çay içənlərdən soruşdum. "Başçıdır!", dedilər. Marağım daha da artdı.

*"Stadiondan da qovurlar. Bəs harada məşğul olaq? Vitrin üçündür bunlar?"* – deyə uşaqların ən qıvrağı etiraz edirdi. Parkdakı məmurların bağırtısı onun etiraz səsini elə göydəcə tutub fəvvarənin suyunda boğdu. Uşaqlar bir dəstə ov itinə tuş gəlmiş dovşan kimi qaçıb aradan çıxdılar. "Təmizləmə" işini uğurla başa çatdıranlar Başçının hüzuruna qayıtdılar, cərimə zərbəsini qəbul edəcək futbolçular sayaq sıraya düzüldülər. Zavallı uşaqların üstünə pələng olub şığıyanlar indi əlahəzrət "hökmdarın" hüzurunda mum kimi əriyirdilər. Yəqin bu proses bir qədər də uzansaydı, əriyib qurtaracaqdılar…

***

2002-ci ilin yayında Özbəkistanın bir neçə şəhərində seminar keçirib Daşkəndə dönmüşdük. Bu o vaxt idi ki, hələ QHT-lərin fatihəsini verən qanun qəbul edilməmişdi, Əndicanda qırğın törədilməmişdi. Lakin buna baxmayaraq bizim demokratiya, vətəndaş cəmiyyəti problemləri mövzusundakı tədbirlərimiz yerli həmkarlarımız üçün xeyli riskli idi. Odur ki, Daşkəndin sayılıb-seçilən restoranlarından birində şam etmək üçün masa seçərkən özbək dostlarımızın cidd-cəhdlə qapalı yer istəmələrinin əsl səbəbini vaxtında duymamışdıq. Onlar dünyanın müxtəlif ölkələrindən gəlmiş demokratiya aşiqlərinin sərbəst söhbətlərinin kənardan eşidilməsini istəmirmişlər.

Amma azad dünyanın azad sakinləri təmiz havada, qocaman çinar altında qoyulmuş iki uzun masadan birini seçdilər. Dostlarımız dəmirdən keçən arqumentlərini dilə gətirmədilər, eləcə razılaşdılar. Bir qədər sonra rəngarəng söhbətlərdən bağlanmış söhbət çələngi çeşidli özbək yeməkləri və içkilərilə birlikdə nə vaxtsa mövcud olmuş Bakının tramvay relsləri kimi yan-yana gedirdi. Ev sahibinin sifətindəki narahatçılıq da elə bu relslər kimi yoxa çıxmışdı.

Amma bu, uzun çəkmədi. Tezliklə yanımızdakı ikinci masaya bazburutlu, qalstuklu adamlar gəldi. Restoran heyətinin tam səfərbər edilməsi gələnlərin ali qonaq olmasına dəlalət edirdi.

Bizim masadakı cürbəcür dillərdə danışan xaricilər, hətta sarışın polyak gözəli də öz dəyərini itirmişdi. Bütün diqqət yeni qonaqlarda idi. Süfrə sahibimizin həyəcan və narahatlığı artıq hamımıza sirayət etmişdi.

Gələnlərin çox yüksək rütbəli məmurlar – aralarında nazir, deputat da vardı – olduğunu öyrənməyimiz çox çəkmədi. Onlar gəlişlərilə ilk anda başa düşmədiyimiz bir qaramat da gətirmişdilər. İndi bizim yox, onların səs-küyü ətrafı başına götürmüşdü. Aralarında birinin onsuz da qıyıq olan gözünü bir az da qıyıb hərdən bizim özbək dostumuza oğrun-oğrun baxması diqqətimdən yayınmadı. Dostumuz həmin qıyıq gözün yiyəsini tanımışdı və bu gözlərdə yazılanları oxuduqca onun ürək döyüntülərinin necə artdığını masanın o biri başında "eşidirdim", düz sözümdür. Onu belə zavallı görmək ağır idi.

Dostumuzun məclisi qapalı otaqda açmaq istəməsinin məqsədini indi anlamışdıq. Bəzən azadlıq açıq havada yox, dörd divar arasında, hətta zirzəmidə olur. Avtoritar rejimlərdə belə olub, elə indi də belədir. Məclisin boğanaq havasını dəyişmək lazım idi. Ayağa qalxıb çöl havasının "qapı-pəncərələri"ni açmaq üçün söz aldım. *"Bir sağlıq deyəcəm və əminəm ki, məni eşidənlərin hamısı bu sağlığa ayaq üstə içəcəklər"* – deyə üzümü həm də yan masaya tutdum.

Onlar məni görüb-eşitməsələr də, sözlərim bizim məclisdəkilərdə canlanma yaratdı. Amma Andrey Platonovun "Can"ındakı Çaqatayevin əzabı bizim özbək dostumuzun üzünə qonmuşdu, ürək paralayan bu sifətə baxmaq olmurdu. *"Məzlum ən böyük qəddardır – kababın göz yaşları atəşi daha da alovlandırır"*. Farsların təxminən belə bir atalar sözü olmalıdır. Dostumuzun bu iztirablı halı məni də beləcə "qəddar" eləmişdi.

Səsimin tonunu bir oktava da qaldırıb Özbəkistan və onun xalqının şəninə köhnə val kimi təkrar-təkrar təriflər yağdırırdım. Dediklərimin qonşu masada oturanlara aid olduğunu artıq hamı başa düşmüşdü. *"Vıpyem za velikovo uzbekskovo naroda"*. Qonşularımız artıq məni eşidirdilər. Söhbətə ara verib bir-bir masamıza çevrilirdilər, sanki bizi indi görürdülər. Amma ayağa durmurdular.

Sağlığa başlamazdan əvvəl yanımdakı amerikalı dostumla bu yekəxana qonşuları ayağa qaldıracağımdan mərcləşmişdim. Bu xəbər pıçhapıçla bizim masadakılara yayılmışdı. Odur ki, sözlərimə elə qulaq asırdılar, sanki Roma Papası II Pavel Varşavadakı məşhur mərasim nitqini söyləyir. Hamı diqqətlə bayaqdan məclisimizin azad həyatını pozanların reaksiyasını gözləyirdi.

"Özbək xalqı" kömək etmədi, yardıma Əmir Teymuru çağırdım. Bayaqkı nitqimi təkrarlayıb sonunda bu dəfə "Vıpyem za velikovo Tamerlana" dedim. Dünyanın yarısını hüzuruna gətirən Əmir Teymur 5-10 partnomenklaturu ayağa qaldıra bilmirdi. Özümü işə salmışdım, mənim bu dilxoşluğum yaxşı heç nə vəd eləmirdi. Amerikalı dostum isə mərci udubmuş kimi qımışırdı.

Səsimi bir qədər də qaldırdım. İndi məni hamı eşidirdi. Nəvaidən tutmuş Əmir Teymiracan (hələ qazax və türkmənlərin də nəhənglərini özbəklərin ayağına yazdım) yada saldım. Qalstukların sıxıb şişirtdiyi qıp-qırmızı sifətlərdən dombalan gözlərin birində laqeydlik, digərində ikrah vardı. Axı mən onları necə insafa gətirim, bunlar heç dədələrinin də sağlığına ayağa durana oxşamırlar. Məclisimizin sahibi, yazıq dostumuzsa dirigözlü ölmüşdü.

*"Vıpyem za velikovo sına uzbekskovo naroda, za İslama Karimova!"* Nidam özümü də diksindirdi. Bir məclis "tuluq" ləngərləyib dik ayağa durdu. Bizim masadakılar da qalxdı.

Amma orada əsl Daşkənd zəlzələsi baş verdi; boşqablar şaqqıldadı, bakallar cingildədi, yaşıl çay dolu piyalə yerə düşüb qırıldı. Sonra bayaqkı donuq gözlərə işıq gəldi, alışıb yanırdılar. Razılıq əlaməti olaraq üzümə gülür, başlarını yelləyirdilər. Onların məclisimizə, xüsusilə də mənə münasibəti tamam dəyişdi. O yandakı qıyıq göz böyümüşdü, daha özbək dostumuza açıq gözlə baxırdı. Dostumuz isə Sizifdən fərqli olaraq daşı dağın başına "qaldırmışdı", indi rahat-rahat gülürdü.

Mən sanki İslam Kərimovun məclisdəki xüsusi nümayəndəsi, masa ətrafındakılar isə onun xarici dostları idi. Onlardan biri baş aşbazı çağırtdırıb bizim nasaya nəsə sifariş edir, digəri boşqabları dəyişdirmək göstərişi verirdi. Masaları birləşdirməkdən tutmuş hesabımızı ödəməyədək heç bir təkliflərilə razılaşmadıq. Sonda sağollaşıb ayrılanda onlar ayağa qalxıb bizi qapıyadək gülə-gülə yola saldılar.

Əlahəzrətin qonaqlarının hüzuru elə Əlahəzrətin öz hüzuru idi.

***

Soyumuş çaydan bir qurtum içmişdim ki, parkın qapısı ağzında qara rəngli, "AA" seriyalı maşın dayandı. Qabaqda oturan cantaraq oğlan cəld düşüb arxa qapını açdı. Qonaq maşından çıxıb ətrafa göz gəzdirdi. Parkın o biri başında sıraya düzülmüş "futbolçuları" danlayan Başçı sözünü yarımçıq qoyub qəfil gəlmiş Qonağın hüzuruna qaçdı, "dinləyicilər" də onun arxasınca…

İndi o özü ali Qonağın zərbələri qarşısında mum olub əriməyə hazır idi. Qonaq parkı gəzib razılıq əlaməti olaraq başını tərpətdikcə Başçının da başı təvazökar təbəssümlə gah sağ, gah da sol çiyninə düşürdü. Park bəyənilmişdi. Sabah o da gördüklərini eyni səmimi və təvazökar təbəssümlə daha yüksək hüzura çatdıracaqdı…

Təxminən bir saatdan sonra Qonağı yola salan Başçı əyanlarını süzüb, razılıq və rahatlıq hissiylə başını silkələdi. Sonra əllərini belinə qoydu, qamətini dikəldib bir daha parka göz gəzdirdi. Sanki Cahan şah taleyinin ən dəyərli bəxşişi üçün tikdirdiyi Tac Mahalı seyr edərək memarlara minnətdarlıq təbəssümü bəxş edirdi.

17 Noyabr 2009

# Yaratmaq azadlığı

*"Toplum"demokratiya jurnalının Yaz, 2012 sayına redaktor yazısı yerinə*

Diqqətli oxucu jurnalın Yaz-2012 sayında əksər yazıların yaradıcılıq azadlığından bəhs etdiyini tez fərq edəcək. Mənsə nömrəyə başqa bir mövzuda yazmışdım. Adı "İşğalçılar"dır. Məqalə o biri müəllif yazılarının mövzu buketinə tam uyuşmadığından öz bloqumda dərc edəsi oldum. Orda yazmışdım ki, *"Qarabağda yaşamaq haqqı ilə Azərbaycanın başqa yerlərində azad, xoşbəxt, rifah içində, ədalət harmoniyasında yaşamaq haqqımız eynidir! Bu haqqı Qarabağda erməni ordusu, Bakıda, Qubada, Sabirabadda, Naxçıvanda Azərbaycan əli silahlısı boğursa, demək, bütöv ölkədə torpağımız, azadlığımız, ləyaqətimiz, nəhayət, arzu və xəyallarımız da işğal olunub! ...Xalq üçün fərqi yoxdu, işğalçı elə işğalçıdır".*

Mövzunun dərinliyinə bir az da varanda mənzərənin daha kədərli olduğunu görürsən. Görürsən ki, bəzən insanın gözlə görünənləri yox, elə içindəkilər də işğal oluna bilir. Sənin üzə çıxarmadıqların, hələ içinin ən dərin yerində saxladıqların da xəbərin olmadan işğal altına düşür.

Azadlığı olmayan yaradıcı insanın ağrısı balasını çətin doğan ananın sancısı kimidir!

İnsanın xoşbəxtliyi içindəkini sevərək dünyaya çıxarmaq azadlığındadır. Sevdiyi ərdən bala doğan ana kimi, istədiyi romanı yazan yazıçı, simfoniyanı bəstələyən bəstəkar, tablonu çəkən rəssam, rolu oynayan aktyor kimi...

Yaradıcı adamın faciəsi o deyil ki, istədiyini yaratmağa qoymurlar, azadlığı alınıb. Dərd odur ki, qəlbindəkinin əvəzinə sən başqasının tələb etdiyini yaratmağa məcbur edilirsən! Özü də yaratdığının əsərə yox, bala yerinə doğulan qan laxtasına bənzədiyini bilə-bilə!

...Əslində indi yazdıqlarım bu nömrə üçün bir məqalə ola bilərdi. Olmadı, elə burda saxlayası oldum. Əvəzində son kitabımdan – "Çamayra. Kuba dəftəri"ndən nömrənin havasına uyuşan bir hissəni dərc eləmək qərarına gəldim.

"Azad söz"ə təzim edərək...

Yaz 2012



1979-81

# Susmaq hüququ

Sözün qüdrətini atomun gücü ilə eyniləşdirənlərin sözünü qəribçiliyə salmaq lazım deyil. Səmavi dinlər, müqəddəs kitablar da sözü Allah qədər uca tuturlar. Elə adam da azad sözü dilə gətirməyilə dəyər qazanır, hörmətə minir. Bəlkə də elə buna görədir ki, bütün avtoritar hakimiyyətlər azad adamlardan div canı saxlanan şüşədən qorxan kimi qorxurlar.

Bu hakimiyyətlər azad sözün kökünü mikrob kimi kəsməyi cəmiyyətin "dirilik suyu" hesab edirlər. Totalitar rejim söz azadlığının düşmənidir, burada istədiyini yazmaq, danışmaq, çap etdirmək mümkün deyil. Yalnız sənə icazə verilən haqda yaza və danışa bilərsən. Tarixin bütün dönəmlərində, bütün diktaturalarda, bütün üzdəniraq "izm"lərdə belə olub.

Yalnız bir istisna var: kommunizm. Kommunizm insanları tək istədiklərini demək və yazmaqdan məhrum etmirdi. Bütün dağıdıcı "izm"lər susmayanı, qələmini qırmayanı həbsə, sürgünə, çox vaxt da daha uzağa – o dünyaya göndərir.

Kommunizmin digər diktaturalardan daha uzağa gedən bir fərqi var: o nəinki insana onu razı salmayan fikir və yazıları qadağan edir, hətta o insana onu qane edənlər haqqında danışmaq və yazmağı "məsləhət" görürdü.

20-ci əsr rus ədəbiyyatının patriarxı Mixail Şoloxov "Sakit Don"u öz əllərilə yenidən nəşr üçün "sosialist realizmi" üslubunda redaktə etmədimi? Sənətkarın əsəri onun balasıdır, deyirlər. Şoloxova öz əliylə "balasını öldürtdülər". Və Kremlin Qurultaylar Sarayında onu bu işə vadar edənlərin şəninə tərif söylətdirdilər. Amma "Sakit Don"a Nobel mükafatını "sosialist realizmi" variantına görə verməmişdilər.

1933-cü ildə Nobel mükafatı almış başqa bir rus yazıçısı İvan Bunin SSRİ-yə dönmək istəməməyinin səbəbini belə izah edirdi: "Onlar məni demək istəmədiyimi deməyə, inanmaq istəmədiyimə inanmağa məcbur etmək istəyəcəklər".

Qadağalar ölkəsində susmaq olmaz. Burada yalnız ölülər susur. Sağ qalanlarsa susub sonradan başqa səslə danışanlardı. Mən heç onu demirəm ki, dünyanın bir saylı antikommunisti Aleksandr Soljenitsının "Aeroflotun rahat kreslosunda ölkədən qovulması"nın sirri çoxları üçün elə sirr olaraq qalır. Necə yəni, insanların hətta xəyallarına əl gəzdirməyi özünə rəva bilən kommunistlər onların cinayətlərini elə Moskvadakı isti mənzilində yazdığı kitabında açıb göstərən birisini öz əllərilə xaricə yola saldılar? Onların cinayətlərini dünyaya car çəkmək üçünmü?

İstənilən əlyazmanı Amerikanın atom bombasından da təhlükəli sayan kommunist-çekistlərin xəbəri olmadan Soljenitsının əlyazma və şəxsi arxivini dövlət poçtu ilə arxasınca kim göndərə bilərdi?.. Bəs sevimli "Moskviç" maşınını hansı "dissident" sərhəddən keçirib?..

"Susmaq qızıldır" deyənlər nə vaxtsa insanı susmağa belə qoymayacaqlarını ağıllarına da gətirməzdilər. Bunu yalnız kommunistlər bacardı. Onların bir silahı vardı – QORXU.

Cəmiyyətdə qorxu insan orqanizmindəki xərçəng kimidir. Metastaz vermiş xərçəng üçün tətbiq edilən kimyəvi maddə orqanizmin bütün xəstə hüceyrələrini bir yerə topladığı kimi, Qorxu da insanın adını bildiyimiz bütün naqis xassələrini üzə çıxarıb cəmiyyətdə hakim hissə çevirir. Və cəmiyyət dünəni XOF, bu günü SƏKSƏKƏ, sabahı QORXU içində "yaşayır…".

*“Biz artıq istədiyimizi yazmaq və demək hüququna can atmırıq, təki susmaq hüququmuzu almasınlar”.* Sovet dövrünün bu acı zarafatı sözün həqiqi mənasında həyat reallığı idi.

Bəs indi necədir?..

Kommunist illərindən çoxmu fərqlidir bu gün: bir şey eşidirik, başqa şey görürük və ən dəhşətlisi, buna təəccüblənmirik. Nəsə dəyişibmi?

Uzun illər xalq iqtidar və müxalifət dediyimiz siyasi partnomenklaturanın əlində girinc qalanda ümid yalnız cəmiyyətin “hər iki ciyəriylə nəfəs alacağı” zamanı gözləməyə idi. Artıq xalq onların birini itirib, “tək ciyərlə nəfəs alır”. Deyirlər, ümidi ölmüş insan özü də bilmədən vəhşiyə, yırtıcıya dönür. Ümidi kəsilmiş cəmiyyət isə amoralist (cəmiyyətdə qəbul olunmuş əxlaq normalarına sayğısızlıq) insan yığnağına – kütləyə çevrilir.

İndi həqiqəti deyə bilmək uğrunda mübarizə arxaikləşib, çünki həqiqətin özü nisgil qarışıq təəssüf doğuran, süzülüb nimdaşlaşmış bayraq kimidir. Təki mənim susmaq hüququmu əlimdən almasınlar, təki məni istəmədiyimi demək çıxılmazlığına salmasınlar.

Yox, susa bilməyəcəksən, qoymazlar. Şüarlar dövrünə qayıtdığımız bir vaxtda susa bilməzsən: ölkəmiz büdcədən tutmuş, yeyilən və yeyilməyən hər şeyin qiymət atına minib dünya standartlarına çatdığı, xalqımızın bəxtəvər Avropa ailəsinə (oxu, kommunizmə) qovuşmanın astanasında olduğu bir dövrdə sən necə susa bilərsən? Susmaq olmaz – göz sataşan hər yerdə zəfər, qələbə, analoqu olmayan inkişaf varsa, demək danışmaq vaxtıdır.

Susmaq hüququ insanın istəmədiyini deməyə məcbur ediləndə əl atdığı sonuncu saman çöpüdür. Tarif Şurasının son qiymət artımını tərifləyən zavallı insanlar – “zəhmətkeşlər” doğrudanmı sevinirlər? Bəs, prezidentlik müddətinin uzadılması istəyi doğrudanmı prezidentə ürəkdən gələn sonsuz sevginin təzahürüdür?.. Susan və ya susdurulan (bunların arasında fərq böyük deyil), sonra başqa səslə danışan nə qədər ictimai-siyasi snoblar (hakim elitanı təqlid edib digərlərini bəyənməyənlər kimi başa düşülməsi məsləhətdir) yetişib və yetişir.

Cəmiyyətin daxili hərarəti qalxmadan da daim səfərbər olan zavallı “zəhmətkeşlər”in, “qolçomaq ziyalılar”ın susmaq hüququ çoxdan yoxdur. Vəziyyət bir az ciddiləşsə, “orta ziyalı təbəqə”, daha da ağırlaşsa, “yüksək ziyalı təbəqə” və ya “elita” danışacaq.

Sabah Qarabağ məsələsini kompromis yolla həlli “məsləhət” bilinsə, “Azərbaycanın xoşbəxt gələcəyi Qarabağı verməkdən keçir” təşviqatına start verilsə, bu “elita” kamera qarşısında növbəyə düzülmək cəzasına məhkum edilməyəcəkmi? Onda daha ölkədə “lal” adam qalmayacaq.

Dunayevskinin Stalin dövründə yazdığı məşhur mahnıdakı kimi: “Ya druqoy takoy stranı ne znayu, qde tak volno dışet çelovek…”

19 fevral 2007

# ”Susmaq hüququ”na referendum əlavəsi

Neçə vaxtdır referendumla bağlı dəftərçəmdəki cızmaqaradan, nə illah elədim, bir yazı çıxara bilmədim. Lal vətəndaş sükunəti fonunda müxalifətin “mitinq-mitinq” oyun-həşiri də əlimi bir yandan soyutdu. Pambıqçı Kamilxan Rüstəmovanın sovet illərini xatırladan məşhur çıxışından çaparaq gələn ilham pərisi də dadıma çatmadı. Gəldiyi kimi tez də çəkilib getdi. Əvəzində canıma qəfil üşütmə saldı.

Nədən oldu bu? İndi deyirəm!

Sosial şəbəkələrdə Kamilxan ana haqda nə qədər təhqirlər oxudum. Amma mənim ona yönəlik belə fikrim yoxdur. Qurbanı ittiham edərlərmi? Məddahlıqda sovet dövründən də betər müstəqillik illərinin qurbanlıq kimi ortaya çıxardığı bu ananı ittiham eləməyə dilim gəlməz!

Mən onu yox, 70 yaşlı Azərbaycan qadınını o kökə salıb zövq alanları qınayıram!

O, referenduma çıxarılan maddələri sadə kəndli dilində izah elədi. Ayrı nə dedi ki?

Həmin çıxışın videosu neçə gün hər internetə qoşulanda qarşıma çıxdı. Bir dəfə ona səssiz baxdım. Bax, məni üşütmə elə o anda tutdu. Elə bildim referenduma Qarabağın verilməsini çıxarıblar, 23 ildir Qarabağ deyib ləliyən bu qarabağlı ana indi üzündə yaltaq təbəssümlə yurdunun ermənilərə verilməsinə görə xoşbəxt olduğunu deyir, ayaqüstə alqışlanır.

Doqquz il əvvəl yazdığım “Susmaq hüququ” adlı məqaləni xatırladım, açıb oxudum. Üşütmənin səbəbi bu yazı idi.

Orda belə yazılıb:

*“Sabah Qarabağ məsələsinin kompromis yolla həlli “məsləhət” bilinsə, “Azərbaycanın xoşbəxt gələcəyi Qarabağı verməkdən keçir” təşviqatına start verilsə, bu “elita” kamera qarşısında növbəyə düzülmək cəzasına məhkum edilməyəcəkmi?”*

Oxuyub gördüm, daha yeni yazıya ehtiyac yoxdu, 2007-ci ildə yazılana ”referendum əlavəsi” etsəm, yetər. Belə də elədim.

Susmaq hüququ uğrunda mübarizədə camaatımıza uğurlar arzusuyla.

26 sentyabr 2016

# Söymək haqqı – sonuncu insan hüququ

Mənim bir dostum var. Tanıdığım ən əxlaqlı adamdır. Əxlaq deyəndə tək məişət etikasından danışmıram, bizim dar mənada qavradığımız namus-qeyrəti də demirəm. Vətəndaş mövqeli, ictimai əxlaqlı olmağı deyirəm.

"Heç kəs öz ayranına turş deməz" məsəli hamı özünü yaxşılardan hesab edər. Mənə görə mən də tərbiyə görmüşlərdənəm. Amma dostum məndən də tərbiyəlidir. Təsadüfən ayağının altında qalan qarışqaya belə ürəyi sancı verər. Yetim bir uşaq baxışını günlərlə unuda bilməz. Haqsızlığa dözməz, səsini çıxarar, gücü yetməzsə içində çərləyər. Ta çox sadalamıram, elə bircə onu deyirəm ki, dini kitabların təsvir elədiyi müqəddəslər sayaq biridir dostum.

O adamı cəmi iki dəfə söyüş söyən görmüşəm. 1993-cü ilin yayında, bir də 2003-cü ilin payızında. Hər dəfəsində donuq nəzərlə çönüb üzünə baxmışam. Hamıya əxlaq nümunəsi olan dostum ağızdan hayfa söyüşçül birinə çevrilmişdi!

Niyə?

Ölkədə baş verənləri görüb çarəsiz, aciz duruma düşmüşdü, dişi bağırsağını kəsirdi, ona görə!

***

Marksist-leninçi təlimlərlə böyümüş müsəlman-şərq mentalitetli bizlərdən fərqli olaraq, dünyanın tərəqqipərvər kəsimində söyüşə dözümlü münasibət var. Siyasətçilərin, dövlət, hökumət adamlarının publik söyüldüyünü hər inkişaf etmiş ölkədə rastlaya bilərsiniz.

Məsələn, bu gün ən çox söyülən dünyanın ən qüdrətli dövlətinin prezidenti Doland Trampdır. Küçə yürüşündə kütlənin onun kuklasının açıq gündəyməzini təpiklədiyi videonu və onlarca başqa nümunəni hamınız görmüsünüz.

Ayıb bilib yazılmadığına baxmayın, bizim də dilimiz dünyanın aparıcı dilləri kimi söyüşlə zəngindir. Az qala hər feilimizin bir başı söyüşə bağlıdır.

Elə çıxmasın ki, mən söyüş söyməyi təbliğ edirəm. Yox, dedim axı, özümü tərbiyəgörmüşlərdən sayıram. Yazılarımda söyüşə bənzər bir kəlməyə belə rastlamazsınız. Amma dostum sayaq arada mənim də söyməyim gəlir. Son vaxtlar tutmam lap tez-tez tutur.

Söyüşü hərə bir cür başa düşür. Hər söz söyüş olmadığı kimi hər söyüş də pis söz anlamına gəlməməlidir. Mənə görə ən ağır söyüş küçədə dava eləyən tin adamlarının ana-bacı söyüşü deyil, həqiqət adına gözümün içinə baxa-baxa deyilən ağ yalandır. Elə bilirəm yeddi arxa dönənimi söyür beləsi.

Bir-iki nümunə deyim.

Məsələn, Qarabağ alverçiləri – Qarabağın külü üstündə səltənət quranlar, onlara məddahlıq edənlərin vətən haqda hər kəlməsi, yüzminlərin səfil kimi dünyaya səpələndiyi bir vaxtda yüzminlərlə iş yeri açıldığını bəyanlayanların rəqəmli hesabatları, dövlət əmlakını yağı malıymış kimi yağmalayan çapovulçuların xalqın gözünün içinə rifah yalanları üfüləmələri söyüşlərin ən yekəsidir.

Mən belə söyüşlərə söyüşlə cavabı insan haqqları sırasına qoyardım! Söyüş haqqı haqsızlıq qarşısında yanıb tökülən çarəsizlərin hayqırtısıdır.

Qarabağ əlili Zaur Həsənovun özünü yandırıb öldürməsi onu "söyən"lərə ən böyük söyüş cavabı idi. Vaxtınız olsa, oxuyun onun bu "söyüş"ünə həsr etdiyim "Tarkovskinin "Nostalgiya"sındakı Zaur Həsənov" yazısını.

Vətəndaşın bütün hüquqların alınıbsa, BMT sənədlərində sadalanan ən adi insan haqlarından belə məhrumdursa, əli-qolu bağlıdırsa, gördükləriylə razılaşmır, barışmırsa, söymək onun haqqıdır! Söymək hüququ şərəfi tapdanmışların, ləyaqəti alçaldılmışların sonuncu insan haqqıdır!

Heç kim insanın sonuncu haqqını – söymək hüququnu əlindən ala bilməz! Sən haqqı pozulmuşu söyüş söyməkdə qınaya bilməzsən!

Qaytarın mənim hüquqlarımı! Adam kimi yaşamaq, rifaha can atmaq, seçmək-seçilmək, söz demək, vətəni vətəndə, Qarabağı Qarabağda sevmək hüquqlarımı verin özümə – dünyanın ən əxlaqlı adamı olaram!

Söymərəm, öyərəm! Ən gur səslə öyənlərdən olaram!

…Haqqım olanları qaytaranacan isə, buraxın, söyüm!

28 mart 2018



# Seçki xatirələrindən

*"3-5 halal deputat yerinə yiyə durmayıb, prezident postunamı sahib çıxacaqsınız?"*

Əksəri post-kommunist ölkələrindən olan dostlar bu gün Gürcüstanda parlament seçkilərini müşahidə edirlər. Dəfələrlə Azərbaycan, Belarus, Gürcüstan, Ukrayna, Qırğızıstanda seçkiləri birgə izləmişik. Prinsipial və peşəkardılar – 2003-cü il prezident seçkimizi unutmayanlar onları yaxşı xatırlayarlar.

Bizim bütöv gördüyümüz gürcü demokratiyasını yarımçıq sayan gürcülər də bu gün onların prinsipiallığına ümid edə bilər!

2000-ci ildə isə parlament seçkilərini müşahidə eləmək üçün Azərbaycana gəlmişdilər. Yadıma seçki gecəsi məntəqələrdə işini başa vurub qayıdan dostların pəjmürdə halı düşür. O vaxt Gənclik tərəfdə "Yüksəl" adlı bir kafe vardı. Müşahidəçilər seçkidən sonra burada şam edir, təəssüratlarını bölüşürdülər. Proses gecə yarıyadək – sonuncu müşahidəçi gələnədək davam eləmişdi. Hamı bir ağızdan müxalifətin qalıb gəldiyini deyirdi.

Həmin gecə gördüyü saxtakarlıqlardan dəhşətə gələn bir çex dostum müxalifət liderlərindən birinə belə bir sual vermişdi: *"Bizim olduğumuz bütün məntəqələrdə sizin partiya qalib gəlib, amma görürük ki, sizi parlamentə buraxmaq istəmirlər. Niyə küçələrə çıxıb haqqınızı tələb etmirsiniz?"*

*"3-5 deputat yerindən ötrü risk etməyə dəyməz. Biz son döyüşə, 2003-cü il prezident seçkilərinə hazırlaşacağıq".* Əslində o öz cavabını yox, partiyanın qərarını deyirdi. Siyasətçi dostumuzun bu cavabı çexiyalı müşahidəçini çıldırıb özündən çıxarmışdı. Ağır yumruğu qeyri-ixtiyarı stola çırpılan çex az qala çığırı-çığıra deyirdi: *"3-5 halal deputat yerinə yiyə durmayıb, prezident postunamı sahib çıxacaqsınız? Bu, absurddur!"* Onun siyasətçi dostuyla belə danışmağa ərki çatırdı.

O, bu sözləri uzaqgörən fantastik bir fəhmlə söyləmişdi – 3-5 deputat yerinə sahib durmayanlar 2003-də acı məğlubiyyətə uğradılar, 2009-cu ildə isə hətta 3-5 bələdiyyə yerinə həsrət qaldılar...

Bu gün həmin çexiyalı demokratiya fədaisi başqa dostlarla birgə Gürcüstanda parlament seçkilərini müşahidə edir.

...Mənsə Azərbaycanda demokratiyanın məğlubiyyət səbəbləri haqda düşünə-düşünə çox uzaqlara gedən fikrimin axrasınca düşmüşəm!

1 oktyabr 2012

# Seçki süfrəsi

*"Açılmayan süfrənin qonağı"* *essesindən*

1999-cu ilin 12 dekabrında keçirilən ilk bələdiyyə seçkisinə qatılan beynəlxalq müşahidəçilərin arasında Petruşka Şustrova işini hamıdan tez bitirmişdi. Onunla görüşüb belə qərara gəldik ki, şəhərin mərkəzində, onların qaldıqları yerə yaxın məktəbdəki seçki məntəqəsində müşahidə aparan gürcü dostlarımızı da götürüb şam yeməyinə gedək. Yaxadan asılan müşahidəçi vəsiqəsi heç bir problem olmadan bizə dostlarımızla görüşməyə imkan yaratdı.

Onlar işlərini bitirməmişdilər.Ləngiyəsi olduq. Bizi görən məntəqə sədri yüz ilin dostu kimi qollarını yana açıb üstümüzə gəldi, mehribancasına qalşıladı. Salamdan sonra gürcü dostlarımızdan incik olduğunu dedi, bizim onları dilə tutmağımızı xahiş etdi. Məlum oldu ki, həm də məktəb direktoru olan məntəqə sədri otaqların birində süfrə açıb, amma bu tərs müşahidəçilər yemək istəmirlər.

Gürcülər isə bizə izah etdilər ki, məntəqədə saxtakarlıq olub və komissiya üzvləri hər vəchlə onların, bir neçə dəqiqəlik də olsa, otağı tərk etmələrini gözləyir. Komissiya sədri isə əldən-ayaqdan gedərək bu fikri qətiyyətlə rədd edir, süfrəni qonaqpərvərlik nümunəsi kimi açdıqlarını deyirdi. *"Klyanus, vsyo ostıl", yəni "Həzrət Abbas haqqı, hamısı soyudu".*

Uzun minnətdən sonra belə razılaşdıq ki, hamımız keçirik süfrə başına, amma gürcülər növbə ilə yeyəcəklər. Əlbəttə, qərar komissiya sədrinin xoşuna gəlmədi. Geriyə yol yox idi. Hamı, biz də, onlar da (məktəb direktoru, "zavuç", "zavxoz" və yaşlı müəllimə) süfrəyə könülsüz yanaşsaq da, yeməyə həvəslə girişdik.

*"Belə görürəm, əlac bunları kefləndirməyə qalıb"* – gözləri pişik gözü kimi parıldayan "zavxoz" direktora irişdi. *"Hə, aç süz, görək. Səhərdən bir loxma da yeməmişəm. Sən bu gombulu keflәndirə bilərsən... Pivə boçkasına oxşayır"* – bunu da direktor dedi. "Zavuç"un qımışaraq "Özü də çex pivəsinə" əlavəsi qonaqlarda söhbətin çex pivəsinin əsrarəngizliyindən getdiyi təəssüratı yaratdı.

İki butulka araq boşalandan sonra gürcü müşahidəçi növbə dəyişikliyi üçün seçki qutuları olan "strateji" otağa keçdi. Direktorun qanı yenə qaralmışdı; məclisə ayıq adam gəlirdi. Dəqiqələr keçir, sağlıqlar bir-birini əvəzləyirdi. Rus dilində başlayan tәriflər Azərbaycan dilində təhqirlərlə davam edirdi. *"Mi brati, dolqo i şastlivo jili vmeste. Za nas. İt uşağı it, öldüm axı, ta getmir. Sizin ..."*

Dalını gətirə bilmədi, ağız-burnunu büzüb başını silkələdi. Turşu xiyar onun da, elə bizim də dadımıza çatdı, söyüşün dalı gəlmədi. *"Bu alçaqdan gözüm su içmir, özü də heç vurmur deyəsən. Mən ölüm buna bax, elə bil nemesdi. Qəfil çönmə, başa düşər"* – direktor "zavuç"a məni nəzərdə tutub dedi. Üzünü mənə çevirib davam etdi: *"Qospaja Petruxa xanım tvoy tyotka?"* Açıq məzələnməyə keçmişdi. "A çto, poxoj?" dedim. "Oçen". Onlar məni də çex bilib hamımızla dilxoşluq edirdilər, direktorun kefi tamam açılmışdı.

Məclisin şirin yerində "zavxoz" arağın qurtardığını bildirdi: *"Gedim alım?" "Yox, konyakı, çaxırı aç. Qoy qarışdırsınlar, bəlkə belə keflənələr"*. "Zavxoz" badələrə konyak süzərək

dodaqaltı mızıldanırdı: *“Onlar yox ey, deyəsən, biz keflənəcəyik. Bunların qarnını doyurmaq olar?”*

Nəhayət, o, badəni götürüb çex xalqının qəhrəmanlığından, 1968-ci ildə əsgərliyinin Çexoslovakiyada keçməsindən, orada vurulduğu çex qızından uzun-uzadı danışırdı ki, Petruşka qəzəblə dilləndi: *“Sən işğalçı olmusan, özün də bununla fəxr edirsən. Amma həmin il məni tutub işgəncə vermişdilər, uzun müddətə həbsə atmışdılar”* – deyərək sovet ordusunun 1968-ci ildə Praqa üsyanını vəhşicəsinə yatırmasına işarə vurdu.

Məclis sükuta qərq oldu. “Zavxoz” işləri korlamışdı. Direktor onu otaqdan çıxarıb ikinci gürcünü “tovlayıb” gətirməyə yollamaqla vəziyyəti düzəltməyə çalışdı.

Daha mən də hövsələdən çıxmışdım. Qədəhi götürüb ayağa qalxdım. Rusca minnətdarlıq çıxışından sonra öz dilimizə keçdim. Onların heç bir təhqirinə cavab vermədim. Sadəcə, müəllimlərimizin, ziyalılarımızın gününə acıdığımı, təəssüfləndiyimi dedim.

Mənim azərbaycanlı olduğumu bilən direktor əvvəlcə başını əllərinin arasına aldı. Sonra o əllər qeyri-ixtiyarı yanına düşdü, qaşlar yuxarıya dartılıb qırışlara tay oldu. Gözlər yerindən çıxıb üstümə tullandı. Qıpqırmızı sifətdən keçi əmcəyi xəcalət təri axdı. *“Sən azərbaycanlısan?”* – o, ayılmışdı. *“Yox, nemesəm!”* dedim.

Burada baş verənləri, əlbəttə ki, qonaqlara danışmadım. Amma mənim sözümdən sonra komissiya sədrinin, digərlərinin pərtliyi açıq-aydın görünürdü. Ayağa qalxıb gürcülərə “Xvatit, poşli”, dedim.

Onsuz da işimizin heç bir əhəmiyyəti qalmamışdı.

26 oktyabr 2009

# Etiraz şərqisi

*Biz niyə protest mahnıları bəstələyə bilmirik?*

“Nueva cancion” – ”Yeni mahnı” sosial hərəkatı 1960-80-ci illərdə Latın Amerikasını bürümüş protest dalğasının musiqili səsiydi. Bu mahnıların ritmlərində itib getmiş qədim İnk sivilizasiyasının musiqidə qalan ruhu yaşayırdı. Neçə-neçə müğənni, bəstəkar öz mahnı, musiqi və rəqs havalarıyla diktatorlara qarşı etiraz hərəkatlarına beləcə dəstək verirdilər, öndə gedirdilər.

Çox arzulayardım ki, bizim musiqiçilər, bəstəkarlar da öz etiraz nəğmələrimizi yaratsınlar.

Azadlıqların boğulduğu yerdə etiraz edənlər xalqın şərəf keşikçisidirlər!

İndi baxıram, bizim etirazımızda nəsə çatışmır – Sözdən o yana keçə bilmirik. Meydanda tək qalan Sözü bu qədər aciz görməmişdim!

Neçə gündür, Mehman Hüseynov həbsxanada özünə qarşı haqsızlığa etiraz olaraq, aclıq edir. Mehman Hüseynov Azərbaycanda ”vizual etiraz”ın qaranquşlarındandır. O, tək qalmamalıdır, təklənməməlidir!

Etiraz birinin yerinə onu, onun yerinə yüzü çıxanda dalğaya çevrilir. İki ildir həbsdə olan Mehmanı neçə nəfərimiz əvəz etdi?!

…Mən də etiraz edirəm!

Mənim bu Etiraz Sözlərim Mehmana, İlkinə, Qiyasa, Bayrama – bu gün bizim şərəfimizi həbsxanalarda qoruyan gənclərə, siyasi məhbuslara dəstək dalğasında bir ləpə boydadır! Olsun! Sabahın dalğası bu gününün ləpələrindən yaranır.

Latın Amerikasının ”etiraz musiqi”nin (”Nueva cancion”) ünlü siması Violeta Parranın ”La Carta” (”Məktub”) mahnısıyla onlara – şərəf keşikçilərimizə salam göndərirəm! Bu balaca yazı da Mehmana salam məktubumdur!

Bu sətirləri yazıram, özüm-özümə sual verirəm, niyə gözəl sevgi mahnıları yazdığımız kimi protest mahnıları da bəstələyə bilmirik? Sonra fikirləşirəm, bizim heç 1980-ci illərin sonunda milyonların başlatdığı xalq hərəkatı zamanı protest mahnılarımız olmadı, təklərin etirazınamı yazılacaq!?

Protest musiqisi dünya etiraz hərəkatları tarixində bəzən sözdən də kəsərli vasitə olub.

Bizim də Etiraz Şərqimiz yazılsın! Səsi dünyanı bürüsün!

5 yanvar 2019



# ”Bizimdir hürr küçələr!”

Uzun illərdir belə zövqlü sloqan eşitməmişdim. Ürək coşduran şüardır! Adama küçə hürriyyətinə hakimlik duyğusu yaşadır.

1988-ci ilin 17 noyabrında universitetimizin həyətindən başlayıb şəhərin küçələrəni bir-bir fəth edərək Lenin meydanına yetişən yürüşümüz vaxtı yaşamışdım bunu. Bu duyğunun gücüylə Azadlıq səhnəsinə çevirmişdik şəhərin baş meydanını. Dünənki videoları izlədikcə xatırladım.

Bir yandan mübariz gəncliyimizlə fəxr edirsən. Bir yandan da bu gəncliyə Qarabağsız ölkə, azadlıqların boğulduğu bir məmləkət qoyduğumuzun utancını yaşayırsan. Öz yükünü balaların çiyninə ötürən ata kimi…

Dünənki yürüş həm də təfəkkürlərarası mübarizəyə səhnə oldu.

*“Avropa dəyərlərini bəyənmirsən, özün də Avropa stilində geyinirsən. Onda, Avropasayaq geyinmə də, get çadraya bürün!”*

Bu sözləri yürüş iştirakçılarına etiraz edən bir qadının atmacasına cavab olaraq yazıçı Zümrüd Yağmur dedi. BBC-nin yayımladığı süjetdə eşitdim.

Bu sözlər tək günümüzün yox, zəmanəmizin sloqanıdır. Avropa dəyərlərinə ən yüksək səviyyədə tənələr edilir. Sən demə, bütün bəlalarımızın səbəbi Avropa dəyərləriymiş. Sanki şahsevənlik də, korrupsiya da, çapolçuluq da, yaltaqlıq da, torpağı düşmənə verib arsız-arsız yaşamaq da, haqsızlıq da, ədalətsizlik də, bərabərsizlik də Avropa dəyərləriymiş.

Özülü Avropa dəyərləriylə qoyulmuş bir dövlətdə bu dəyərlərə ağız büzülməsinin siyasi təbliğata çevrilməsi prosesi gedir. Görünən budur!

Görünən həm də odur ki, çoxumuz 8 Martın əsl mahiyyətini bilmirik. Sovetdənqalma şüurumuzla elə bilirik ki, o, yalnız qadınların bayramıdır. Onu SSRİ-də kommunistlər bayrama çevirdilər. Biz sovet adamları da gözümüzü açandan qadınlar günü kimi qeyd edir, sevimli xanımlarımızı güllə, hədiyyələrlə təbrik edirik.

Əslindəsə “8 Mart” solçu ideologiyaya bağlı siyasi aksiyadır – sosialistlər qadınların bərabər hüquqlar uğrunda mübarizə tarixidir. Yarandığı ABŞ-da, Qərbi Avropada bayram edilmir. Dünyaya sosial-demokratiyanın ən parlaq modelini bəxş etmiş İsveçdə belə adi iş günüdür, xəbərlərdə BMT-nin Beynəlxalq Qadınlar Günü kimi adı çəkilər, vəssəlam.

Hər ilin 8 mart günü feministlər dünyanın müxtəlif yerlərində bərabər hüquqlar uğrunda etiraz yürüşləri keçirirlər. Bəzən diqqət cəlb etmək üçün tələblərini daha açıq şəkildə sərgiləyirlər. Bakıda keçirilən son aksiyaya da ümumfeminist hərəkatının tərkib hissəsi kimi baxılmalıdır.

Polis zorakılığından çəkinməyib küçələrə çıxan xanımların aşağılanması, xüsusilə kişilərin diliylə təhqir edilməsi yolverilməzdir.

Qayıdıb adama deyərlər, sən də ordu günündən özünə “kişilər bayramı” düzəlt, o qadınlar kimi “yarağını” əlinə al, çıx küçələrə, “Qarabağ” deyib işğal olunmuş torpaqları tələb elə, yürü sənə dəyənək endirən polisin üstünə. Cəsarətin çatmırsa, sus.

Sağ olsun qadınlar, bizə bunu demirlər!

***

“Bizimdir hürr küçələr!” Gəncliyin olan hər yer hürrdür. Bu vətən də onların sayəsində hürr olacaq!

Bizi bağışlasınlar!

9 mart 2020

# Hərəkət azadlığı

Niyə İsveçdə koronavirusla mücadilədə küçəyə qıxmağa qadağa qoyulmur?

Dünya mətbuatını maraqlandıran bu suala *isvecgundemi.com* saytının İsveç hüquq sistemini araşdıran əməkdaşı Atila Altuntaş cavab tapmağa cəhd edib.

Dünəndən küçəyə çıxmağa icazə almalı olan Azərbaycan oxucusu üçün də maraq kəsb edəcəyini düşünüb həm bu mövzuda, həm də ümumiyyətcə, dünyanın aparıcı mediasının müzakirə etdiyi İsveçin koronavirusla mübarizə strategiyası haqda bəzi qeydlərimi bölüşmək istədim.

Sərt karantin qaydaları Azərbaycanla yanaşı, bir çox Avropa ölkəsində də tətbiq edilir. Bəzi yerlərdə küçəyə çıxanlar cərimələnir, bəzi hallarda lap saxlanılır da.

İsveçdən savayı!

Bir vaxtlar "İsveç modeli" deyə sosial rifah dövləti kimi dünyaya nümunə göstərilən ölkə indi də koronavirusla mübarizədə özünün "İsveç strategiyası"nı sərgiləyir. Bu strategiyada ana xətt vətəndaşların hərəkət azadlığını məhdudlaşdıran sərt karantin rejiminin tətbiq olunmamasıdır.

Düzdür, İsveç İctimai Sağlamlıq Agentliyi riskli qruplara aid insanlara evdə qalmağı, hər kəsə səyahət və tətillərdən vaz keçməyi şiddətlə tövsiyə edir, hökumət 50 nəfərdən çox adamın bir yerə toplanmasını yasaqlayır. Gimnaziya və universitetlər virtual təhsil sisteminə keçirilib. Və sair.

Virusa yoluxanların və ölənlərin sayı qonşu ölkələrlə müqayisədə İsveçdə xeyli çoxdur. Rəsmi statistikaya görə, bu günədək virusa yoluxanların sayı 7 min nəfəri keçib, 500 nəfərədək adam ölüb.

Amma sərhədlər açıqdır, aeroportlar, restoran-barlar, orta məktəblər, uşaq bağçaları, kitabxanalar, idarə-müəssisələr əvvəlki rejimdə işləyir. İctimai nəqliyyatda dayanma qeydə alınmır. Əvvəlki qaynar həyat olmasa da, şəhərlər boş deyil.

Ölkənin baş epidemoluqu Anders Teqnellin "kollektiv immunitet yaranması üçün əhali koronavirusa yoluxmalıdır" fikrini isveçlilərin çoxu dəstəkləməsə də, görünən odur ki, hökumətin virusla mübarizə strategiyası bu fikrə əsaslanır. Yerli mətbuatdakı müzakirələrdən belə anlaşılır ki, hökumət dövlətin iqtisadi, insanların psixoloji, cəmiyyətin sosial və s. durumunu nəzərə aldığından sərt rejimə keçməyə tələsmir. Epidemiyanın pik vaxtı aprelin sonu, mayın əvvəli proqnozlaşdırılır, bəlkə onda daha ciddi tədbirlər görülər, bilmirəm.

Bəs, nəyə görə İsveçdə küçəyə çıxmaq qadağası tətbiq olunmur?

Sən demə, belə bir qadağanın tətbiqi önündə ən böyük əngəl "vətəndaşların hərəkət azadlığı"na qarant olan İsveç konstitusiyasıdır.  Konstitusiyaya görə, insanların hərəkət sərbəstliyini məhdudlaşdırmağa hökumətin hüququ yoxdur.

İsveçdə Konstitusiya dəyişiklіyi demokratiyanın oturuşmadığı ölkələrdəki kimi "su içmək qədər" asan deyil, ağır, uzun bir prosesdir. Bunun üçün bir yox, iki parlamentin səsi lazımdır. Yəni, bir parlamentdə Konstitutsiya dəyişikliyinin leyihə verilmiş qərar hələ yetərli deyil. Parlament Konstitutsiya dəyişikliyinə səs veribsə, həmin parlament buraxılmalı, yeni seçkilər

keçirilməli və əgər yeni seçilmiş parlament də əvvəlkinin dəyişiklik qərarını təsdiqləyərsə, bundan sonra referenduma gedilə bilər. Ona görə də İsveçdə koronavirusa həsr olunan heç bir debatda bu məsələnin üstünə gəlinmir.

"İnfeksiyadan qorunma haqqında" qanuna görə, yoluxucu xəstəliyin yayılmasını önləmək üçün insanların hərəkət sərbəstliyi məhdudlaşdırıla bilər. İsveç İctimai Sağlamlıq Agentliyinin hüquqşünasları sözügedən qanunu şərh edərkən, hərəkət azadlığının yalnız konkret ev, məktəb, yaxud buna bənzər kiçik obyektlərdə tətbiqinin mümkünlüyünü qeyd edirlər.

Stokholm Qocalar evində koronavirus aşkarlanandan sonra yaşlı adamların risk qrupuna aid olduğunu nəzərə alaraq, ölkənin bütün Qocalar evində bu qanunun tətbiqinə start verildi. Başqa heç yerdə.

Dövlətin gördüyü işlər öz yerində, cəmiyyət də özünüizolyasiyaya şüurlu yanaşır. Qəbul olunmuş ümumi qaydalara əməl etmək ənənəsi, özünüidarə vərdişlərini mənimsəyən İsveç kimi cəmiyyətlərdə pandemiya təki ümummilli fəlakətlərdə dövlətin də yükü ağır olmur. Fəlakətin miqyas və fəsadını təhsilli adamlara izah etmək, cahil vətəndaşları maarifləndirməkdən qat-qat asandır. Ümumiyyətcə, isveçlilər ehtiyatı əldən verməyən insanlardır. Bu, qətiyyən qorxaqlıq anlamına gəlmir. Buna "ehtiyatlı qorxmazlıq" deyərdim.

Koronavirusla mübarizədə İsveçin tutduğu strategiyanın uğurlu olub-olmamasını yaxın aylarda biləcəyik.  Məni başqa şey düşündürür. Pandemiya dövründə belə isveçlilərin azadlıq eşqinə heyran qalıram. Dünyanı bürümüş kabus qorxusu altında belə cəmiyyət öz hərəkət azadlığına müqəddəs toxunulmazlıq kimi baxır. Sanki İsveç dilində FRİHET kəlməsi başqa dillərdəki AZADLIQ sözündən daha böyük, ilahi anlam daşıyır.

Hardandır bu xalqda azadlığa sitayişcəsinə sevgi?! Qədim babaları vikinqlərin ruhundanmı gəlir? Bəlkə, ölkənin 200 ildən çoxdur müharibə görməməsi, əsarət zülmü dadmaması, ən yaşlı nəsildə belə kölə psixologiyasının olmamasıdır əsas şərt? Kölə təfəkkürünün heç yaddaşda da qalmamasıdır? Kralından tutmuş kəndlisinəcən, Baş nazirindən səfilinəcən hər kəsin hər kəs qarşısında bərabərliyi ənənəsindən qaynaqlanır, bəlkə?

Geniş təhqiqat mövzusudur!

***

Dünən gözəl hava vardı: isti, günəşli. Qızım Ayanla Olimpiya parkına düşdük, Fredriksdal botanika bağını dolandıq. Sezon açılışı edən kafenin açıq havada düzdüyü masaların birində oturub hərəyə bir alma şirəsi sifariş verdik. Və tamaşaya durduq: uşaq, böyük, qoca – hamı günəşin hər kəslə bərabər paylaşdığı şüalarına bürünüb, azadlığın şirin dadından alıb, xoşbəxt anlar yaşayırdı.

Pandemiya dövrünün xoşbəxt adamları... Qəribə səslənir, bilirəm.

Ayanın bir sözü bu yazını yazmağa mənə stimul verdi. Dedi ki, isveçlilərin qocaları AZADLIĞI öz uşaqlarına, nəvələrinə sözlə yox, öz əməlləri ilə əyani göstərirlər.

Biz necə? Övladlarımıza azadlığın anlamını əyani göstərə bilmişikmi?

O azadlıq xoşbəxtliyini gözəlim Azərbaycana arzulayaraq, karantin rejiminin tezliklə bitməsini diləyərək yazdım bu sabah bu yazını.

6 aprel 2020

# Özünü axtaranlar ölkəsi

## Yaxud maydan sonra gələn aprel

*“Yaddaş ləpirləri” silsiləsindən*

*“Söz bütün hissləri dartıb uzada bilən yayma dəzgahıdır”* yazarkən Qustav Floberin hansı ovqatda olduğu onun “Madam Bavari”sindən bilinir. Amma inana bilmərəm ki, bu dahi yazıçı da nə vaxtsa sözün əlində aciz qalmasın, ən dərin hissi ürəyində fır bağlayıb, dilinin ucunda düyünlənib sözə çevrilə bilməsin.

Hələ sözlə davadan qalib çıxan görmədim…

Neçə ildir Azərbaycan Cümhuriyyəti, onu “yoxdan” yaradanlar, sonra onun bir ideya kimi yaşaması üçün Sibirdə donanlar, Nargində güllələnənlər, türmədə çürüyənlər, küçədə alçaldılanlar, qürbətdə çərləyənlər haqda duyğularımı Tanrının nə bir kəlmə sözü, nə də sayı artıq altıya çatdırılan insan hisslərinin biriylə ifadə edə bilmirəm. Bu, romantik duyğular deyil, o, çoxdan arxada qalıb. Həm də romantik duyğuları dilə gətirməkdən asan nə var ki, romantik yazar üçün...

***

…Şuşa yolunun ikiyə böldüyü Qarabağın bəlkə də özü ilə yaşıd Qarağacı qəbiristanlığının sağ tərəfində son əlli-yüz ilin, solunda isə gedib-gələni olmayan, cığırları çoxdan itmiş daha qədim qəbirlər var(dı). Babalarımın biri sol, o biri sağ tərəfdə uyuyur.

Babam Həbib Qazıyevin məzarı qəbiristanlığın sol tərəfindədir. Mən onu tapa bilməzdim deyə axtarmamışdım. Həm də ona görə ki, ağlı kəsən vaxtdan atam da çox axtarıb, ancaq tapmayıb. Uşaqlıq illərində onun qəbrinin itməsi mənə qəribə gəlirdi. Bu o vaxtlar idi ki, doğma bildiyim bütün adamları, cisimləri, hadisələri yaxından görürdüm. Çünki onların yanındaydım.

Doğmalardan aralandıqca onlara uzaqdan baxmağı öyrəndim. Daha sonra bildim ki, uzaqlaşdıqca onlar daha əziz olurmuşlar. Beləcə, ən əlçatmaz ən çox vurulduğun olur, lap Tanrı kimi…

Bu gün nə Qarabağa, nə də Qarağacı qəbiristanlığına əl çatır. İndi, bu yazını yazdığım anlar onun qəbrinə də beləcə kənardan baxıram – dipdiri Ruh kimi.

Buraya yazdığım hər kəlmə məni quş uçuşu boyu göyə qaldırır. Qalxdıqca uzaqlaşıram. Uzaqlaşdıqca bütöv qəbiristanlıq dönüb bir qəbir olur, elə onun məzarı boyda. Şuşanın dağlarından gələn duman qız örpəyi kimi ağappaq buluda çevrilir, çatıb çəkirəm bir kənara bu örpək-buludu. Uçuşa davam edirəm. Qəbiristanlıq Azərbaycana, o da nəhəng qitəyə çevrilir. Buludların cızdığı xətti çoxdan keçib Ayadək dikəlirəm, ilahi boşluğa çatıram. Burdan gördüklərim oğlumun gecələr qucaqlayıb yatdığı yupyumru topu xatırladır. Mən də onu beləcə qucaqlamaq istəyirəm. Üstünün tozu-ləkəsi, içinin dostu-düşməniylə… İlahi, buradan Yer necə tanış, necə doğmadır!

…Dünyanın ən gözəl səyahətindən üzü Yerə dönürəm. Nəhəng Yer atlas vərəqləri kimi çevrilir, hər çevrilişində adamı özünə bir nəfəs də çəkir. Burada yıxılmaq təhlükəsi yoxdur! Enirəm! Üzüm iki okean arasındakı böyük torpağa sarıdır. "Oğlumun topu" daha görsənmir.

Nədir bu yerin adı? Min illər saniyə kimi keçir. Kimlər yoxdur bu qırıq saniyələrin içində, kimlərin səsi yoxdur… onu qollarımın arasına alıb sarılmaq istəyirəm. Alınmır, ötüb keçirəm. Qafqaz da arxada qaldı. Azərbaycana enirəm. Budur, çatdım!

Amma düşdüyüm yer qalxdığım yer, bu qəbir də o qəbir deyil! Babamın itmiş məzarını Göyçaydan üzü Bakıya səpələnmiş adsız türk qəbirləri şəklində tapıram.

***

23 Cümhuriyyət ayı tariximizin "qara dəliyi"dir. Bu yurdun az qala Paleolit dövrünü öyrədiblər bizə, bir babalıq tariximizsə yasaq olub. Amma Beyinlərin Böyük Yuyulma illəri belə onu silib apara bilmədi. Onu yazanlar elə yazmamışdılar ki, hər gələn pozsun, heç indidən sonra da pozulası deyil. Azərbaycan Cümhuriyyəti minillərlə yaşı olan qoca bir xalqın təzələnən genetik yaddaşı idi…

***

…Eyvandakı uzun stolun o biri başında tüstülənən samovardan çay süzdü. Stəkəna qonşu Ağca arvadın göndərdiyi builki qarağat mürəbbəsindən salıb qarışdırdı. Hörümçək toru kimi dəqiq işlənmiş qırış sifətinə yaraşıq verən xüsusi ədayla "Zoğalı yığmasan, danışmayacam" dedi.

Yaydan-yaya Bakıdan Ağdama gələn, hər gəlişiylə evimizi qonum-qonşunun ziyarətgahına çevirən, yaşlılarlın gah "Ordubad qızı", gah da "Tiflis gəlini" çağırdığı nənəmin dediyini eləməsən, sən deyəni etməyəcəyinə şübhə yox idi. Söhbətlərini dinləmək üçün ən zəhlətökən işi belə görməyə hazır idim. Belə işlərdən biri də yarpağı bədənimi dalayan zoğal ağacına çıxmaq idi.

Onun söhbətləri yalnız özü yorulanda bitirdi. Bəzən uşaqlıq xatirələrinə baş vurub bizi Ordubada "səyahətə" aparırdı. Xatirələri babasının ərik bağlarıyla başlayıb elə onunla da bitirdi: *"Hamısı birdən çiçəkləyəndə deyirdin bəs dünyada çiçəkdən başqa heç nə yoxdur".* Bəzən də Tiflisdə, əmisinin Şeytanbazardakı evində yaşadığı yeniyetməlik illərindən danışar, getdiyi teatrlardan, gəzdiyi yerlərdən söz açardı. "Leyli və Məcnun" operasını əzbər oxuyurdu: "Ged, ey Leylü, sən o Leylü dögülsən!". Ordubad, Tiflis və Qarabağ ləhcələrinin qarışığından qəribə bir danışığı vardı. Söhbətlərinin ən şirini babamla tanışlığı idi.

***

…Azərbaycan Cümhuriyyəti Azərbaycan türklərinin tarixdə özünüdərk, özünüifadə etdiyi tək hadisədir. Doğum haqqında şəhadətnamə insanın varlığını təsdiqlədiyi kimi müstəqilliyin elanı da millətin özünütəsdiq möhürüdür. Yeni doğulan uşaq bir ailənin, yeni yaranan millət isə bəşəriyyətin nemətidir…

***

Münəvvər nənəmin xatirələrindən: *"Tiflisə bir-iki il idi gəlmişdim. Bir gün əmim arvadı gəldi ki, bəs biri sənə elçi düşüb. Əmin razılıq vermək istəyir, sən nə deyirsən? Şuşalıdı, qazı nəslindəndi, özü də varlı-hallıdı... Gedib gördüm qara bir kişidi. İti, sərt baxışlarından xoşum*

*gəldi. Məni teatrda görübmüş. Zəhmli olsa da, nəzakətli idi… Nəysə, razılıq verdim, sonra məni faytona qoyub gəlin apardılar”.* Söhbətin bu yerində qız nəvələrin sualı bir-birinə calanırdı.

Oğlanlara isə davalı söhbətlər maraqlı idi: *“Biz uşaq olanda ermənilər Naxçıvanda çox türk qırıb. O vaxt bizə türk deyirdilər. Onlar bizi hər yerdə öldürürdülər. Bizim arvadların döş gilələrini kəsib sapdan keçirir, təsbeh kimi bizimkilərin səngərinə atırmışlar. Buna dözməyib irəli çıxanları da gülləylə vururmuşlar. Adamların belinə qaynar samovar bağlayıb qaçırdırmışlar”.*

Bu qorxunc söhbətdən sonra qan-tər içində külünglə evimizin alt otağına qapı açan erməni fəhləsi Cavanşirə çay süzüb, yemək çəkəndə nənəmi başa düşmürdüm. *“Sənin kürəyinə qaynar samovar bağlayana necə çay-çörək vermək olar?”* Acığımı zavallı Cavanşirin armud ağacının dibində cütlənmiş ayaqqabılarını islatmaqla çıxırdım…

***

Münəvvər nənəmin xatirələrindən: *“Türklər gələndə Həbif (babamın adını belə çəkirdi) dost-tanış, qohum-əqrəbadan dəstə düzəldib onların qabağına çıxıbmış. O vaxt bizimkilər vuruşmurlarmış. Yevlaxda türk əsgərinin bir kişiyə şallaq çəkib söyməsi xəbəri onu da pərt edibmiş: “Kişilər bizi qorumağa gəlir, biz də girmişik evə”. Beləcə qoşulubmuş Müsavat ordusuna. Əsgəran tərəfdə dizindən yaralanıbmış. Yarasının yeri sonralar da göynəyirdi. Babanız belə kişi olub”.* 35 il əvvəl ölən əri haqqında elə danışırdı ki, elə bil dünənin söhbətini edirdi.

***

Yazıçı Oleq Volkov 1928-ci ildə uzaq Solovki həbs düşərgəsindəki müsavatçıları belə xatırlayır: *“Я решил умереть, – твердо сказал нам староста. – Мы и на Соловки-то привезены с тем, чтобы покончить с остатками нашей самостоятельности. В Баку мы для них реальные и опасные противники… Но не стоит об этом. Мы и наши цели слишком оболганы, чтобы я мог коротко объяснить трагедию своего народа… – Напоследок он пошутил: – Я потребовал перевода с острова… в солнечную Шемаху! Случится мимо ехать – поклонитесь милым моим садам, кипарисам, веселым виноградникам… Прощайте, друзья”.*

***

Münəvvər nənəmin xatirələrindən: *“Ruslar Müsavatı devirəndən sonra il ildən ağır gəldi. Babangilin Tiflisdə bir restoranı vardı – “Arşın mal alan”. Əllərindən aldılar. Sonra Şuşadakı mülklər də əldən çıxdı. Özünə yer tapmırdı. Ordubada – bizimkilərin yanına gəldik. Dükan açdı, İrandan mal gətirirdi. İşləri pis getmirdi. Atan da elə Ordubadda doğuldu. Amma çox çəkmədi, burada da babanı ilişdirdilər. Onun təzə hökumətdən zəhləsi gedirdi. Sərhədi adlayıb İrana, oradan da Türkiyəyə getmək istəyirdi, qərara gələ bilmirdi. Qayıdıb Ağdama gəldik. Köhnə dostlar sayəsində özünə iş qurdu, amma fikri köhnə hökumətdəydi. Deyirdi ki, onlar qalsaydı, indi bu murdarlıqlar da olmazdı. Nə orduya yazıldı, nə müharibəyə getdi. Ondan sonra mən də oğlanlarımı rus ordusuna göndərmədim. “Voyennilər” gələndə atanı taxtapüşda gizlədirdim. Babanız bu ölkədə özünə yer tapmadı. Axırda, məni körpə uşaqlarla tək qoyub öldü. Çərləyib öldü. Beləcə, qara günlərimiz başladı. Tək qaldım. Sonra qəbrini də tapa bilmədik”.*

***

İki ilə yaxındır ayrı-ayrı nazirliklər, dövlət idarələri 90 yaşını bayram edir, müxtəlif tarixi günlər qeyd olunur. Bütün bunlar Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, ondan sonrakı çoxsaylı əlamətdar günlərlə bağlıdır. Növbə 11 yanvara çatıb.

11 yanvar 2010-cu il Parisdə Müttəfiq Dövlətlərin Ali Şurasının Azərbaycan Xalq Cümhuriyyətini tanımasının 90 illiyidir.

Bu yazını Cümhuriyyəti quranlara, onun yolunda ölənlərə, onu sevənlərə bayram hədiyyəsi kimi yazdım. 11 yanvar Azərbaycan dövlətçilik tarixinin Şərəf zirvəsidir.

Sonra 28 aprel gəlir. Maydan sonra gələn aprel!?

Bütün zirvələrin o biri üzü uçurumdur. Bizə zirvəylə yanaşı uçurum da qismət imiş. 90 illik yubiley silsiləsi 28 aprellə bitir. Süqutun yubileyi mənlik deyil deyə yazını bu günə həsr etdim.

Cümhuriyyətin süqutunun 90 illiyi. Amma o, süquta yox, günəş kimi "oğlumun topuna" dövrə vurub, yenidən doğmağa getmişdi. Bu barədə M.Ə. Rəsulzadə İ.V. Stalinə 88 il əvvəl yazmışdı: *"Moskvada yaşadığım bu iki ildə anladım ki, istənilən halda şərq xalqları öz müstəqilliklərinə qovuşacaqlar. Siz istəyinizə nail ola bilməyəcəksiniz. Şərq xalqları kommunist norma və prinsipləri ilə yox, öz istəklərinə uyğun yaşayacaqlar".*

11 yanvar 1920-ci ildə bizi gördülər, tanıdılar. 2 mart 1992-ci ildə bütün dünya bizi daha yaxından görüb bir daha tanıdı. "İmzalar içində imzamız" tapıldı.

Biz necə, özümüzü tapdıqmı?

6 yanvar 2010

# İntibah təməlçiləri

*Meri Abramsonun “Ot Dante k Alberti” kitabından qaynaqlanan cümhuriyyəçi düşüncələr*

Ömrünü ”qızqaytaran” marketlərə bağışlayan Bakı bukinistlərindən 20-25 il əvvəl aldığım, hələ ondan da 20-25 il əvvəl nəşr edilən, artıq yaşı yaşımı haqlamış, səhifələri toz qoxuyan, bəxti üzünə gülüb ata yurdum Ağdama, sonra da yüzlərlə kitaba qarışıb Yerevan Kağız Emalı zavoduna reinkarnasiya (qəşəng sözdür, həm də dəbdədir), yaxud da evimizin ortasında çatılan düşmən ocağına talaşa olmağa getməyib Bakıda qalan kitabları ilin-günün bu vaxtında oxumaq həvəsimin yaranma səbəbini bilmirəm. Onu bilirəm ki, tozunu uda-uda arxasına düşüb biriylə bir zamana, o biriylə başqa məkana getməkdən xoşum gəlir.

Onlardan biri – Meri Abramsonun “Ot Dante k Alberti” kitabı məni italyan İntibahının ilkin dövrünə apardı, dolandırıb bizim istiqlalçı atalarımızın qurduğu cümhuriyyət illərinə qaytardı…

Cəsarət və ehtiyatlılıq, işgüzarlıq və sərhesablıq, hərtərəfli bilik və geniş dünyagörüşü, zirəklik və diplomat bacarığı tələb olunan ilkin kapitalist münasibətlərinin ortaya çıxardığı sənətkardan, tacirlərdən ibarət sosial təbəqənin italyan cəmiyyətinə gətirdiyi yeni ictimai şüurun Renessans adlanan mədəniyyət erasına təməl olacağı o dövrdə kimsənin ağlına gəlməzdi. İnsanların şüur, mədəniyyət, dini baxış, dünyagörüşündə çevriliş edən humanist Avropa intellektual hərəkatının ilk illərində yaranan ictimai münasibətlər, nə qədər qəribə görünsə də, bizim bu günümüzlə səsləşir.

Kitabdan dilimizə çevirdiyim sitatları mən gətirim, qənaətə özün gəl, dostum oxucu!

Florensiyalı tacir Çertaldo XIV əsrin 60-cı illərində yazırdı:

*“Səni əhatə edənlərin tamah obyekti olduğundan öz əmlakın uğrunda mübarizə aparmalısan, çünki onu saxlamaq indi azadlığı və ya qadını qorumaqdan daha çətindir”, “Əgər xalq etiraz edirsə, çıxmağa tələsmə! Otur evdə, özünü elə apar ki, guya heç nə bilmirsən!”.*

Onun müasiri Lapo Masseyi:

*“Bizim kədərli dünyamızda adamların minindən doqquz yüzü mənasız və rəzil düşüncələrə qapılaraq qoyun kimi başını yerə əyib… Hər kəs acgöz, bədbəxt, lovğa, paxıl və yalnız özünəvurğundur, əgər başqasına sevgisini söyləyirsə, bunu tacirlər kimi “Ver mənə, verim sənə” prinsipiylə edir”.*

Zəmanəsinin məşhur tacir humanisti Morelli:

*“Başın çıxmayan işlə məşğul olma, aldadacaqlar səni”, “Heç vaxt böyük gəlirlərinlə, var-dövlətinlə öyünmə! Tamam əksinə, əgər 1000 florina qazanmısansa, de 500 qazanmışam. Qazancını heç vaxt heç kimə – ən yaxın dostuna, qohumuna belə bildirmə. Vergilərin, xərclərin çoxluğundan şikayət et! Çoxlu borca girdiyini, ticarətdə ziyana düşdüyünü de!”, “Həmişə hakimiyyətdəkilərlə təmas qur, iradə və əmrlərinə tabe ol. Onların ən ağılsız əməllərini belə pisləmə; ya sus, ya da yalnız təriflə! Əgər kimsə sözarası belə onların əleyhinə danışsa, qulaq asma, hər vasitəylə uzaqlaş”.*

Sərfəli nikahı ictimai uğurun əsası sayan B.Pitti:

*“Eşidəndə ki, Palaco Florensiyanın ən nüfuzlu adamıdır, kimliyi və necəliyindən asılı olmayaraq onun qohumlarından biriylə evlənməyə qərar verdim”.*

Davam edim? Mənzərə tanış gəlir? Sanki 1360-cı ilin Florensiyası yox, 2010-cu ilin Bakısıdır.

Məhz bu fikirlərin yiyələri XIV əsrdə İtaliyada yaranıb iki yüz il sonra Avropanın başqa ölkələrinə yayılan böyük İntibahın vacib elementi kimi klassik humanizmin özülünü qoydular. Böyük zəka sahibi olan bu humanistlər tezliklə yaşadıqları torpağın altında min ildir qalan antik mədəniyyəti gördülər, yiyə durub ac ehtirasla öyrəndilər, dərk edib yeni can verdilər. Beləcə, dilimizə Dirçəliş kimi çevirdiyimiz Renessans adlı era başladılar.

Yuxarıdakı sitatları tarixin məntiqiylə özümüzə şamil etsək, görərik ki, Azərbaycan bu gün özünün Renessansqabağı dövrünü yaşayır. Kapital da var, onun ilkin dövrünə xas yeni təfəkkür, ictimai münasibətlər də.

Qəribə səslənir, elə deyilmi?

XIX əsrin ikinci yarısından ilkin kapitalist münasibətlərinin ortaya çıxardığı maarifçi təbəqə sayəsində formalaşan yeni ictimai şüurun yetişdirdiyi Azərbaycan istiqlalçıları da beləcə, əvvəlcə özlərini tanıdılar, sonra milli kimliklərinə sahib çıxdılar, milli-mədəni tarixin tədqiqinə girişdilər, dünyanın inkişaf yolunun Avropanın mədəni, hüquqi, siyasi sistemindən keçdiyini dərk etdilər, yüzillərlə formalaşmış beynəlmiləlçi ümmət doqmasını dağıdıb yerinə Azərbaycan türkü adlı millət təklif etdilər. Azərbaycan Dirçəlişinin özülünü qoydular.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan humanistlərinin Dirçəliş ərəfəsi özülqoyma hadisəsi idi!

Onların yazdığını nə sovet kommunistləri, nə də müstəqillik illərinin kommunistbaşları poza bildi. Tarix üçün yetmiş, doxsan illik örtük toz kimidir, pencəyinin qoluyla da silərsən, gedər.

Mənəvi aşınma dövründə Dirçəlişdən danışmaq həmişə absurd görünür. Əsas bu deyil, vacib olanı odur ki, nə vaxtsa baş verə biləcək Dirçəlişimizə təməlimiz var. Yanvarın 31-də baş təməlçi Məmməd Əmin Rəsulzadənin doğum günüdür.

Təməlimizə və təməlçilərimizə yiyə dursaq, Dirçələcəyik.

…Gərək uşaqlarıma yeni kitablar alam, yoxsa 20-25 ildən sonra ciyərləri kitab tozuna tab gətirməz.

30 yanvar 2010

# Əmanət amanatı

Azadlığın, köləliyin şəkli necədir sizin təsəvvürünüzdə, bilmirəm!

Mənim xəyalımdakı azadlıq ucsuz-bucaqsız çiçəkli çəmənliyinin günəşlə açılan səhərinə bənzəyir.

Kölәlik deyəndə isə gözümün qabağına bataqlıq meşəsinin şərqarışan ala-qaranlığı gəlir.

Eskizini qaralamağa cəhd elədiyim bu iki fərqli mənzərəni siz də fikrinizdə canlandırmağa çalışın! Özünüzü əvvəl günəşli çəmənlikdə, sonra bataqlıq alatoranlığında duyun!

Alınırmı?

Çiçəklərinə şeh düşən çəmənliyin üfüqədək uzanan genişliyinə baxın! Havasını ciyərlərinizə çəkin! Sabah günəşinin ılığını dərinizdə hiss eləyin!

Şeh üstündə bərq vuran şəfəqlər günəşdən soraq gətirib sizə. Nur selindən gözünüz qamaşır, qıyılır, amma beyninizdə aydın düşüncələrə yol açılır.

Bax, mənim ”Azadlıq” tablom belədir!

İndisə bataqlıq meşəsinə çökməkdə olan qaranlığın vahiməsini yaşamağa çalışın! Bataqlıq sükunətini dinlədinizmi heç? Mən qulaq asmışam ona, illər öncəsi, Belarus meşəsində.

Qorxuncdur!

Batmamaq çabası yaşam davalarının ən dəhşətlisidir. Yer bağrına çəkir səni, nəfəsin kəsilir, boğurulsan...

Batmaq deyil faciənin yekəsi, bata-bata yaşamaqdır.

Azadlığın olmadığı yerin mənzərəsi, kölə ömrün halı-haləti də belədir.

Burda günəş yoxdur, günəşə ümid də yoxdur heç!

***

28 may 1918-ci il İstiqlal Bəyannaməsi XIX əsrin 70-ci illərindən üzü bəri Azərbaycanda formalaşan milli məfkurənin qələbə aktıdır.

Cümhuriyyət Ataları zülmət bataqlığını çəmənzarlığın günəşli sabahına çevirməyi bacarmış adamlardır.

Onlar bu gücü Axundov-Zərdabi-Hacıbəyov-Rəsulzadə milli şüur arealında yaşamış neçə-neçə milli məfkurə daşıyıcısından almışdılar.

Cümhuriyyətçi ruhumuzu kommunizm epidemiyası da məhv edə bilmədi. İndiki neobolşevik zaman da keçəcək.

Azadlıq fədaisi sonuncu azərbaycanlı duranacan İstiqlal günəşimiz sönməyəcək!

Onu sönməyə sən qoymayacaqsan, Cümhuriyyətinin 99 yaşını təbrikə tələsdiyim dost!

İstiqlalımız Qurucu Ataların əmanətidir.

Əmanət amanatı!

23 may 2017

# Bayramın mübarək, “qum dənəsi”!

Keçmiş Lenin meydanında Leninin heykəli fonunda yüzminlərin iştirak etdiyi əzəmətli bir mitinq fotosu var, hamınız görmüsünüz. Bax, o fotoda məni tapa bilərsiniz? Yox! Amma ordayam. Sən də ordasan. Hamımız ordayıq. “17 noyabr”, bir də “20 yanvar” hamının “orda” olduğu gündür. Heç “28 may”da hamı “orda” deyildi, bir qrup adam görmüşdü o işi milyonların yerinə.

Sahil qumlağını sayagəlməz qum dənələri yaradan kimi millət də özünü dərk edən min-min fərdin topalanıb cəmiyyət qurmasıyla formalaşır. Bu fotoda qum dənələri kimiyik. Xoş halına o millətin ki, yolunda qum dənəsi tək zərrə olmaqdan şərəf duyan milyonlarla insanı var!

Foto 1988-ci ilin 17 noyabr səhərini yadıma saldı. İstədim xatirəmi sizinlə də bölüşüm. Uşaqlar dərsdən gəlsin, axşam onlara da danışacam.

17 noyabr səhəri universitetin həyətində toplanmağımızdan, Topxanada armud ağaclarını kəsən ermənilərə qəzəblənərək (nə qədər qəribə səslənir indi) yürüşə çıxmağımızdan, yolboyu “politexnik”, “inşaat”, “narxoz” tələbələrinin bizə qoşulub sayımıza say qatmalarından, Qoşa Qala qapısı ağzında sovet milisinin yolumuzu bağlamağa uğursuz cəhdindən, adını dəyişib “Azadlıq” qoyacağımız Lenin meydanını eyforik bağırtılarla doldurub kommunist dünyasını silkələyən uzunmüddətli oturaq etiraz hərəkatına başlamağımızdan danışacam.

Gecələr tonqal başına yığılıb Bakıda yaşayan tələbə qızların evdən gətirdiyi isti çaydan içə-içə, peraşki-buterbrotdan yeyə-yeyə dünənək ağlagəlməyən “millət söhbətlər”i eləməyimizdən, şeir deyib, mahnı oxumağımızdan söz salacam. 3 il məşəqqətli mübarizədən sonra müstəqillik qazanmağımızdan fəxrlə bəhs edəcəm.

Amma bizim ən fəxarətli günümüzün yadigarı olan bu fotonun 28 il sonra mənə hansı ovqat yaşatdığından danışmayacam uşaqlara. Heç sizə də demirəm!

Bircə bunu deyirəm:

Bayramınız mübarək olsun, “qum dənələri”!

17 noyabr 2016


76г.

# Elçibəyə etimad referendumundan 25 il sonra

*Yaxud, qanla tər arasında*

Bu gün 1993-cü ilin 29 avqustunda prezident Əbülfəz Elçibəyə etimad məsələsinin ümumxalq səsverməsinə çıxarılmasından 25 il ötür.

Bu o vaxt idi ki, erməni qoşunları bir-birinin ardınca şəhərlərimizi işğal edirdi. Bir ay əvvəl Ağdərə, Ağdam, bir həftə öncə Füzuli, Cəbrayıl zəbt olunmuşdu. Qubadlı uğrunda döyüşlər gedirdi, iki gün sonra o da tutulacaqdı.

35 gün sonra, oktyabrın 3-də isə köhnə prezidentinə etmadsızlıq göstərən xalq özünə yeni prezident seçəcəkdi. 98,84 faiz səslə!

Ölkənin qərbində vətən yolunda qan töküldüyü vaxt şərqində hakimiyyət üstündə tər axıdırdılar.

O davada “tərtökənlər” qalib gəldi. Tökülən xəcalət təri deyildi!

Azərbaycan xalqı Heydər Əliyevi prezident etdiyi ay ermənilər Zəngilan rayonunu tutdu, əhali canxilası özünü Araza atdı.

Köhnə-yeni rəhbər ona etimad göstərib hakimiyyətə dəvət edən Əbülfəz Elçibəyə “xalqın əliylə” – referendumla etimadsızlıq sərgilədi. Onun prezidentliyinə rəsmən son qoydurub özü prezident oldu.

Üstündən 25 il keçən bu olaylara bu günün gözüylə baxanda təbii olaraq belə bir sual yaranır: *“Başqa cür ola bilərdimi?”*

Ağla yüz yol gəlir.

Məsələn, həmin günlərdə tək devrilmiş hakimiyyətin yox, məğlubiyyətə uğramış milli hərəkatın da uçub-tokülən damına çiyin verənlər vardı. Elə tək İsa Qəmbəri deyim. Hərəkat, hakimiyyət silahdaşlarına güvənməyib, bir kəlmə belə deməyib paytaxtı tərk edən siyasi liderə o çiyniyüklülər də etimadsızlıq haqqını, türkiyəlilər demiş, kullansaydılar, yəni uğursuz lider deyib Elçibəyin arxasından çəkilsəydilər bu gün onu xatırlayan neçə nəfər olardı?!

Yaxud əksinə, sonrakı illərdə ölkənin ən ucqarlarında belə dayaq məntəqələri yarada bilmiş, qaragüruhdan arınmış, sıralarına böyük ziyalı ordusu cəlb edib güclənmiş Müsavat partiyası Elçibəyi başqan, İsa Qəmbəri namizəd elan edib (Mümkün idimi? Mümkün edilməliydi!), bütün narazı elektoratı cəmləyib ölkənin tək ana müxalifəti kimi 1998-ci ilin bədnam boykot oyununa getməsəydi hadisələr necə cərəyan edərdi, Azərbaycanın sonrakı taleyi necə olardı?

İndi suallar keçmişə yox, bu günə, sabaha ünvanlanmalıdır, bilirəm!

Cəmi bircə il prezident olmuş liderinə etimadsızlıq edən Xalq, 25 ildir etimad göstərdiklərinlə xoşbəxtsənmi?

Demokratiya, haqq, ədalət filan demirəm, 25 ildir səsini içinə salıb Qarabağsız yaşayırsan! Etimadın doğruldumu?

25 il əvvəl etdiyin etimadsızlıq nəyə, kimə idi?

Elçibəyəmi? Razıyam, məğlub prezidentə güvənilməz! Bəs, sonrakılar necə, qalibdirlərmi? Səndən başqa kimisə məğlub etdilərmi?

Elçibəyin nazirlərinəydimi etimadsızlığın? Bu gün hər çıxarılan nazirin milyonlarla dollar oğurladığı məlum olur. O vaxt hansı nazir nə oğurlamışdı ki, etimadsızlıq etdin?

Uşaq-muşaq deyirdin onun icra başçılarına? Səni təhqir edən, haqqını boğan, namusuna əl uzadan Elmar Vəliyevlərədimi etimadın?

Bu suallar da müzakirə açmaq yox, tarixə baxmaq üçündür. İstəyirəm keçmişə dalıb gümanlarla yaşayanlardan yox, gələcəyə yol axtaranlardan olaq.

Arxadakı yolların birindən qan, o birindən tər iyi gəlir! Hardadır bəs, gül qoxuyan gələcəyin yolu?

25 il zaman keçdi, yenə təzə bir zamana ehtiyac varmı, Əbülfəz bəy!?

29 avqust 2018

# Bir hakimiyyətdən artıq

1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Vəli Axundov vəzifəsindən istefa verəndə qərarını MK üzvlərinə belə izah eləmişdi: *"Birinci katibin öz xahişi ilə vəzifədən getməsi Azərbaycan partiya tarixində ilk hadisədir. Öz gedişimlə həm də yeni ənənənin başlanğıcını qoyduğumu zənn edirəm. Buna çox inanmaq istəyirəm... Öz missiyamı insanlardan qorxu hissini çıxarmaqda görürdüm. Düşünürəm, bu planda nələrəsə nail olmuşam. Bu, elə mənim ən böyük uğurumdur".*

Həmin ilin 14 iyulunda respublika "KQB"sinin başçısı onun yerinə təyin olundu. Tarixə "qırmızı terror"u, "repressiya illəri"ni yazmış bir təşkilatın mahiyyətini daha aydın açır deyə Dövlət Təhlükəsizlik Komitəsinin adını orijinalda olduğu kimi verdim. Vəli Axundovun insanların qəlbindən çıxarmağa çalışdığı qorxu hissini elə məhz həmin təşkilat adamların iliyinə yeritmişdi.

Yeni təyinat tək köhnə qorxunu qaytarmadı, yenilik də gətirdi. Axundovun dediyi ənənəyə yox, başqa bir başlanğıca yol açdı.

Bu, əvvəlki və sonrakılardan köklü surətdə fərqlənən bir seçim-təyinat oldu. Bu, sıradan hakimiyyətə gəliş deyildi, ölkədə o vaxtacan bənzəri olmayan klan quruculuğunun başlanğıcı idi.

Azərbaycanın da, azərbaycanlıların da simasını dəyişəcək başlanğıc!

Bu gün o başlanğıcın 50 illiyidir!

Klançılığın xalqın, dövlətin həyatındakı rolunu yaqin gələcəkdə detallı təhlil edilənlər çox olacaq. Qısa yazıda qəsdim bu deyil, onun yubiley günündə düşündüklərimi bölüşməkdir.

*"Traybalizm dinc vətəndaş müharibəsidir"* deyirlər. Milləti parçalamaq istəyirsənsə, yerliçiliyi dövlət siyasətinə gətir! Hədəfin xalqı ram etməkdirsə, *"Birləşdir, yönəlt*" yox, *"Parçala, hökm et"* prinsipiylə işləyən birini ona rəhbər qoy!

Yeni rəhbər işinə siyasi elitanı dəyişməklə başladı. Hakimiyyətin ilk beş ilində nazirlərin üçdə ikisini, MK büro üzvlərinin 10-dan 8-ni, MK şöbə müdirlərinin 14-dən 13-nü, rayon birinci katiblərinin 45-dən 37-ni dəyişdi. Sonrakı illərdə proses daha böyük şövqlə davam etdirildi. Dövlət strukturlarında aşağı səviyyələrəcən klanın şəbəkəsini quruldu, toru ilmə-ilmə hörüldü.

Opponentlər sonralar yazacaqdılar ki, bu əvəzlənmələrə *"əsasən provokasiya, kompramat, təqib yolu ilə nail olunurdu"*. Yeni kadrların isə Mark Tven demiş, *"yarısı heç nəyə yaramırdı, o biri yarısı isə hər işə yarayırdı"*.

Ermənistan-Naxçıvan regionlarını əhatə edən klan şirəyə yığırmış kimi bu bölgələrin insanlarını Bakıya çəkdi. Ermənistandan iki əsrlik deportasiya siyasətinə əlavə çalar qatıldı – klan üçün beyin axını təşkil olundu. Ermənistan azərbaycanlıları oxumaq, karyera qurmaq üçün İrəvana yox, Bakıya üz tutdu. Nəticə o oldu ki, 1988-ci ildə sonuncu etnik təmizləmə başlayanda sadə əhali "başsız" qaldı.

…Türkiyədə az qala qul ömrü yaşayan sadə naxçıvanlıların ürək paralayan videosuna o gün mən də baxdım...

Detallara varıb uzaqlara getməyim, sadəcə yaddaşı təzələyim.

Ötən əsrin 70-80-ci illərində insanların qüruru zəhərli pambıq tarlalarında, üzüm bağlarında, tütün plantasiyalarında sındırıldı. Milyonlarla azərbaycanlının alın tərini Moskvanın "keçici qırmızı bayraqları" belə silmədi. Bütöv xalqın mənliyi bir nəfərin karyera nərdivanında ayaqlanan pillələrə sərildi.

Yeri gəldi, yüzlərlə bənzər misalın birini yazım. Deyir, Qafan erməniləri özlərində tapmadıqları ərzaq mallarını, məişət əşyalarını almağa gələn soydaşlarımıza lağ edərmişlər, "*Axşam çapan, səhər Qapan"* deyərmişlər. "Çapan" deyərkən Azərbaycanın aldığı o mənasız bayraqların şərəfinə düzənlənən şoulara "acların" əl çalmalarını nəzərdə tutarmışlar.

Musa peyğəmbər xalqını qul təfəkküründən xilas etmək üçün 40 il səhrada dolandırıb. Bizdə əksinə oldu. Azadlığı təzəcə dadmaqda olan xalq müti varlığa çevrildi. Sanki xalq "sökülüb", rəhbərin zövqünə uyğun yenidən "yığıldı". Qısayaddaş, uzaqgörməz, gözüqıpıq insan toplusuna çevrildi.

Həticə isə ağır oldu!

Məlum oldu ki, elitası vətənpərvər ziyalılardan yox, region-tayfa təfəkkürlü merkantil adamlardan formalaşan xalq taleyüklü iki hadisəyə hazır deyilmiş: SSRİ-nin dağılmasına, bir də Qarabağ müharibəsinə.

SSRİ dağılanda, Qarabağda münaqişə alovlananda ermənilərin xalqı ayaqda tutan kilsəsi, Rusiya qarışıq ən güclü dövlətlərdə sözükeçər diaspor təşkilatları, siyasi partiyaları, mədəniyyət mərkəzləri vardı. Azərbaycan xalqının isə onu səfərbər edəsi heç bir rəsmi, ya qeyri-rəsmi təşkilatı, qurumu yox idi.

Həmin dövrdə Azərbaycanda yeganə çevik güc mövcud klan idi. Bu güc isə xalqın deyildi, çünki klan vətənə yox, bir şəxsə sədaqət prisipiylə formalaşmışdı. Və ən təlatümlü dövrlərdə – 1988-1993-cü illərdə o, bütün gücünü xalqın müdafiəsinə yox, hakimiyyətə qayıtmağa səfərbər etdi.

Bu yolda heç nədən çəkinmədi: Mövcud hakimiyyətlərin fəaliyyətini iflic edən sabotajların təşkilindən tutmuş, düşmənlə separat atəşkəs razılığınadək (müharibənin ən qızğın çağında Naxçıvanda ermənilərlə belə bir razılığa gedildiyi iddia olunur), 20 yanvar qırğınına səbəb olan provakasiyalardan, qiyama dəstək verib hakimiyyəti ələ keçirməyəcən. Bunlar opponentlərin zaman-zaman təkrarladığı ittihamlardı.

Hələ Milli Azadlıq Hərəkatının neçə öndəgedər liderinin klan torbasından çıxmasını demirəm!

Usta barmaqlarla hörülmüş klan hakimiyyəti daha sonralar xalqın 150 milyardlıq neft pulunu yağmalayıb, özünü isə səfalətə salacaq, ölkədən dərbədər edəcək, mənən çökdürəcəkdi.

Bu sadalananlar oxuyub eşitdiklərimdi. Nə qədər düzdü, nə qədər səhvdi? Bildiyim elə sizin bildiyiniz qədərdir.

Bir də gördüklərim var!

Prezident aparatında sonuncu iş günüm 23 iyul 1993-cü il – Ağdamın işğal günü oldu. Sözümü tükütərpənməz təzə dövlət müşavirinin gözünə baxaraq dediyim, qapını üzünə çırparaq getdiyim gün. Onun simasında klanın qorxunc üzünü gördüyüm, onun mahiyyətini, məramını anladığım gün. Doğulub böyüdüyüm şəhərin işğalına biganə o soyuqqanlı vücuda heyrətləndiyim, havalandığım gün.

İndi daha heç nəyə heyrətlənmirəm!

İndi xanədanın 50 yaşını bayram edən zavallı xalqı düşünürəm.

Bir də yazını bitirdiyim bu sabah pəncərədə doğan günəşi seyr edirəm. Bütün ümidlərin anası günəşi…

14 iyul 2019

# Tüstüdən dumana

*Yaxud, çiçəyi alaqdan ayırmağın Monika üsulu*

Neçə gündür bağçanın gözədəyən yerinə əl gəzdirirəm. İstəyirəm ot-alağı təmizləyib gül-çiçək əkəm. Dörd bir tərəf qonşum həyətlərini elə səliqəylə düzəldiblər, az qala həndəsi dəqiqliklə elə bağ salıblar ki, deyərsən bəs Vyanadakı Şönbrunn kral bağçasıdır, düşünərsən bəs bütün isveçlilər uşaqlıqdan xüsusi bağbanlıq məktəbi keçirlər.

Mən də onlardan geri qalmayım deyə həyətyanı sahəmdə nəsə fərqli bir iş görmək istəyirəm. Pandemiya bəlası keçsin fikrim var, üzü payıza Tərtərdən xüsusi gavalı, gilənar tingləri, Quzanlıdan sarmaşıq qızılgül qələmləri gətirdib əkim – İsveçin iqlimi onlara düşür. Elə bağ salım ki, koloniya əhli tamaşasına dursun.

İsveçdə bağçılıq çoxdanın ənənəsidir, ölkə boyu saysız-hesabsız koloniya var. Koloniya deyəndə ağlınıza ayrı şeylər gəlməsin, bir növ bizdəki Bağlar birliyi kimi bir şeydir, daça yəni. Şəhər əhalisi kommundan (bələdiyyədən) torpaq kirayələyib yay aylarında əkib-biçir, burada yaylayır. Bizim Tornet koloniyamız şəhərin ən qədimidir, 1905-ci ildə yaradılıb.

Bu səhər də həvəslə torpağı belləyir, otunu yolurdum. Bərkə düşmüşdüm. İşin çətini köhnə çəmən otlarının arasında bitən sarı, qırmızı, bənövşəyi rəngdə sütül çiçəkləri ayırmaq idi. Nə vaxtsa əkiblər, baxan olmayıb. Bu gözəl çiçəkləri ayırıb ayrıca əkəcəkdim. Di gəl, alınmadı. Problem onda idi ki, bu incə, zərif, gözü təzəcə çırtlayan çiçəklər sanki ot köklərinin üstündə bitiblər. Kökləri içi-içədir, çəkəndə bir-birinə sarılı gəlir ələ.

Hər dəfə çiçəkləri otlardan qoparmaq istəyəndə zədələyir, əzir, qırır, tələf edirdim. Üzü illərin tapdağını görmüş, çəmənlik ömrünü çoxdan başa vurmuş çəmən otuna isə heç nə olmurdu.

Bir sözlə, çiçəkləri ot-alaq torundan xilas edə bilmədim.

Bu arada, sən demə, yüz ilin "bağbanı" qonşu Monika arvad uzaqdan gözaltı mənə baxırmış...

***

27 ildə yürüdülən daxili və xarici siyasəti təhlil etməyə akademik savad lazım deyil. Bu siyasətlərin həyatımızda buraxdığı izlərə nəzər salmamız kifayətdir. Çəkingən, dişsiz, güzəştli xaricə siyasət fonunda, barışmaz, etakratik (cəmiyyət üzərində total dövlət hökmranlığı), sərt daxili siyasət.

Müstəqilliyin şirin dadını dada bilmədik bu illərdə. Əksinə, həyatın ən acı üzünü – məğlubiyyət, qaçqınlıq, səfalət, ümidsizlik yaşadıq. Bunları sadalamağın mənası yoxdur. Hamının görüb bildiyini təkrarlamayım bir də.

Xudafərin olayları fonunda sükut, milyonlar, milyardlar oğurlamış yüksək çinli sibarit (dəbdəbə aşiqi) məmurların ifşasına biganəlik cəmiyyətin düşdüyü halın acı mənzərəsidir.

Ən yüksək səviyyədə ogünkü "hər addımda cinayət" etirafı onu göstərir ki, hakimiyyətdəkilər xirtdəyədək günah və cinayət içində olduqlarının fərqindədirlər. Belə getməyəcəyini,

dəyişikliyin labüdlüyünü dərk edirlər. Amma bu iş "yamaq" vurmaq yox, köklü dəyişiklik istəyir.

Görünənsə odur ki, 1993-cü ildən bəri nə Qarabağa yönəlik aydın, real konsepsiya, nə siyasi, iqtisadi islahatlar paketi, nə də bunları həyata keçirəcək kadr potensialı olmayıb. Kommunist liderin müstəqil dövlətdə demokratik prinsiplərə əsaslanan modern idarəetmə bacarığı, potensialı yox idi. Elə indikilərdə də yoxdur!

Deyirlər bəla insanları birləşdirir. Görünür, biz fərqli insanıq, ayrı camaatıq. Bizdə əksinədir, dərd, bəla bizi parçalayır. 30 il əvvəl Qarabağ birləşdirən ideoloji məhvər ola bilərdi bizi. Olmadı. Hərə ondan öz marağına görə istifadə elədi. Nə yığılıb yumruq olduq, nə açılıb sillə. Uzatmayım, vaxtilə "Qarabağ atıyla demokratiya dalınca" yazısında bunu köklü-köməcli yazmışam. Təkrarlamayım.

Koronavirus təzə dünya bəlasıdır. Normal ölkələrdə BÜTÜN cəmiyyət onunla mübarizəyə səfərbər olub. Bizdə əksinə, epidemiyanı bəhanə edən tərəflər bundan bir fürsət kimi yararlanmaq niyyətlərini gizlətmirlər. Biri daxili düşmən ovuna çıxıb. O biri karantin səbəbindən etirazların artacağına umudludur, marığa yatıb. Bir-birinə əks dayanan bu tərəflərin heç birindən bu xalq yarımadı.

İqtidarlı-müxalifətli heç birinin aydın, real Qarabağ konsepsiyası, yol xəritəsi, konstitutsion islahatlar proqramı, paket-paket layihələri, kadr bankı yoxdur! Yenəmi Allah umuduna olacaq hər şey?

Gənclərin hər pöhrə ideyasına, təşəbbüsünə bir tərəf repressiya maşını ilə ön verirsə, o biri tərəf də öz veteran, ağsaqqal "himayədarlıqları" ilə sipər olur.

Mənzərəyə baxın: bir yanda Xudafərin şoku (İranın bizim işğalda olan torpaqlarımızda su anbarı tikməsi), Paşinyanın Şuşa ziyarəti, 100 milyardlarla neft pulunun göyə sovrulması fonunda ac-yalavac xalq, haqqı, ləyaqəti tapdanmış insanlar, mənəviyyatı aşınmış cəmiyyət, harınlamış məmur ordusu; o biri yandan birinin sözü o birinin boğazından keçməyən, birləşmək nədir, bir-birini əzib tapdayan, lider olmaq yolunda az qala saçyolduya çıxan siyasilər və onların sərgilədiyi siyasi mədəniyyət.

Bəzən adama elə gəlir ki, hakimiyyətin müxalifətə, müxalif qüvvələrin isə bir-birinə olan kini, küdurəti erməniyə nifrətdən qat-qat çoxdur! Bəlkə mən səhv görürəm. Ola bilər.

Hakim zümrənin bu illər ərzində yandırıb məhv elədiklərinin tüstüsündən indi göz-gözü görmür. Xalq bu tüstüdə əl havasına fırlana qalan kor kimidir. Ölkə tüstü boğanağına bürünüb! Nə sabah görünür, nə birigün.

Bu sətirləri oxuyan vətəndəki gənc soydaşım yəqin ürəyində deyər, buna bax, məğlub nəslin nümayəndəsinin yazdığına bax, oturub xaricdə, güllə-çiçəklə oynayır, bizə ağıl öyrədir. Amma bu ağıl vermək deyil əsla. Sənin bilmədiyin təzə nə deyirəm ki! Bunlar "güllə-çiçəklə oynasa" da bütün fikri, huşu yurdda qalan, Bakı saatı ilə yatıb-duran narahat adamın ürəyində qövr edənlərin cüzi hissəsidir sadəcə.

Oturub düşünürsən: Bizə sabahın aydın üfüqlərini kim göstərəcək? Buyursun, boğazacan günah və cinayətə batmışların tüstüsündən sonrakı aydınlığı göstərsin bizə. Bəlağətli sözlərlə,

vədlərlə yox, başa düşülən dildə yazılmış, həllini mümkün sayacağımız proqramını qoysun ortaya, onu həyata keçirəcəyi bacarıqlı kadrlarını təqdim eləsin!

Ya da hamısı çəkilib getsin! Yerləri boş qalmayacaq! Yeri yeni əsrin dilini bilən vətənsevər gənclik tutacaq!

Heç bir postsovet ölkəsində milli-azadlıq hərəkatlarından qalan bir siyasətçi yoxdur ortada. Qalib gələn də, məğlub olan da çəkilib yerini təzə gələnlərə verib. Bir-iki ölkəni çıxsaq, heç bir postkommunist ölkəsində 27 illik hakimiyyətə rast gəlməzsiniz. Hansı əsrdir?

On illərlə dəyişməyən hakimiyyətin, müxalifətin sabahı tüstünün o üzündəki duman kimidir.

Tüstüdən çıxıb dumanamı düşəcəyik yenə!

Dumanda uçurum görünmür!

***

Əlimdə sonuncu çiçək də qırılanda qonşu Monika arvad aramızdakı diz hündürlüyündə balaca hasarımıza yaxınlaşdı. *"Özünü yorma"*, dedi. *"O kövrək çiçəkləri o alaq otundan ayırmaq çətin işdir. Bir yolu var. Buranın otunu yerli-dibli çıxarıb atmalısan. Çıxar at, təzə yerdə təzə güllər ək. Bax, ora da eləydi. Bir dənə də alaq qaymayıb"* deyib öz həyətinin güllük guşəsini göstərdi.

Hasarı aşıb bağçasına keçdim. Məni gül kolları, çiçək ləkləri, ağacları ilə tanış elədi. Həyətin çəmənliyi ayrı, güllüyü ayrı idi, dirriyi də eləcə. O, əkdiyi hər bitkini tanıyır, hansı gülün hansı ayda açdığını bilirdi. Elə seçmişdi ki, bütün yay boyu bağçası gülsüz-çiçəksiz olmasın. Biri solanda o biri açsın.

Monika hər mövsümə payızdan hazırlaşır deyə yazda-yayda bağçası laləzara çevrilir.

***

Köhnə otları kökündən çıxarıb, yerinə güllər əkmək lazımdır. Bu mövsüm ləngidim, gələn il işimi planlı tutam gərək...

May 2020
Tornet koloniyası, İsveç

# Bütün zamanların lideri

*Məmməd Əmin Rəsulzadəyə*

1961-ci ilin 12 aprelində ABŞ-ın hakim dairələri kosmik sahədə SSRİ-na uduzmağın panik durumunu yaşadı. Amma bu hal uzun sürmədi, cəmi bir ay sonra, lap dəqiqi mayın 25-də prezident Con Kennedi Konqresdə tarixi çıxışını etdi. Sovetlərdən daha uzağa gedən – Ayın fəth olunmasını hədəfləyən belə bir fikir söylədi: *"Mən inanıram ki, bizim millətimiz bu onilliyin sonuna qədər insanın Ay səthinə enişi və təhlükəsiz Yerə dönüşü məqsədinə nail olacaq".*

Bu, demokratik ölkə prezidentinin öz xalqına yaxın on il üçün vədiydi.

Kosmik uğurdan eyforiya yaşayan SSRİ-nın dövlət rəhbəri Nikita Xruşşov da həmin il xalqına söz verdi. Oktyabrın 31-də Kommunist Partiyasının qurultayında çıxış edərkən dedi: *"Sovet xalqının indiki nəsli kommunizmdə yaşayacaq".* Qurultay nümayəndələrinin qəbul etdiyi proqram sənədində kommunizm quruculuğunun başa çatma tarixi də göstərilmişdi – 20 il sonra.

Bu isə totalitar rejim başçısının öz xalqına verdiyi söz idi.

***

Demokratik ölkənin lideri vətəndaşın ona çəkdiyi azadlıqlar çərçivəsində azaddır. O, cəmiyyət qarşısında hesabatlıdır. Onun söz və əməl cavabdehliyi var.

Kennedi tarixi vədi havadan verməmişdi. O, kosmik tədqiqatlarla məşğul olan mütəxəsislərlə məsləhətləşib, Aya insan çıxarmağın mümkünlüyünə əmin olub belə bir söz demişdi.

1969-cu ilin iyulunda ABŞ Aya insan çıxarıb, onu salamat Yerə endirdi.

İnsanların azadlığı üzərində əzmlə qələbə çalan avtoritar liderin azadlığı isə sərhəd tanımır. O belə hüdudsuz azadlığı milyon-milyon insanın səsini boğmaqla əldə edir.

Azadlıqlara qənim rejimlərdə deyilən söz, verilən vəd günəş şüalarında uçuşan rəngbərəng sabun köpükləri kimidir. Avtoritar liderin heç kim qarşısında cavabdehliyi yoxdur. Heç kim ondan verdiyi sözə, etdiyi əmələ görə hesab sormur.

Xruşşov kommunizm vədi verəndə nə analitik təhlilə əsaslanmışdı, nə də ondan hesab soracaq cəmiyyət vardı. Nəinki vəd olunan kommunizm quruldu, əksinə, rəhbəri olduğu ölkə Yer üzündən silindi.

Demokratik toplumlarda olduğu kimi despotik cəmiyyətlərdə də vətəndaşlar bərabərdirlər. Amma birincidə onlar hər şeydilərsə, ikincidə heç nədilər. Ona görə ki, onları liderləri belə görür, belə dəyərləndirir.

***

Zamanın bir başqa dönəmi də gələcəkmiş. Daha vədlərin verilmədiyi dönəm. Xalqına söz verməyi belə lazım bilməyən liderlərin zamanını deyirəm.

Zaman onların ola bilər, tarix onların deyil!

Tarix verdiyi vədə bütün zamanlarda sadiq qalan liderlərindir.

Mənim də belə bir liderim var! O, vəd eləmişdi: *”Bir kərə yüksələn bayraq, bir daha enməz!”*

Yüksəltdiyi bayraq 100 il sonra da dalğalanan lider.

Bütün zamanların lideri!

26 may 2017

# Hədəflərə çatmağın köçəri quşlar yolu

İsti ölkələrə köçən quşların uçuşunu seyr etməyən çətin tapıla. Bəs o quşların uçuş zamanı paz şəklində düzülmə səbəbi haqda düşünmüsüz?

Britaniyalı zooloqlar bunu tədqiq edib qəribə bir nəticəyə gəliblər. Öyrəniblər ki, uçuş prosesi aerodinamika qanunları ilə idarə olunur. Öndə gedən quşun qanad çalmasından yaranan hava axını arxadan gələn quşun qalxmasna kömək edir, uçuşunu asanlaşdırır. Bir qədər yanakı uçan quş bu hava axınını daha rahat tuta bilir. Paz şəklində uçuşla hava asan yarılır. Beləliklə, dəstənin sinxron halda hərəkəti ümumi harmoniya yaradır və sanki qabaqda gedən arxadan gələni dartıb aparır.

Ard-arda düzülüş quşların enerji sərfini azaltmaqla yanaşı onların sürətini də artırır. Sən demə, birgə uçuş təklikdə uçuşla müqayisədə sürəti 71 faizədək yüksəldirmiş. Bu minvalla, yəni bir-birinə yardım edə-edə uzaq yerlərə (oxu: hədəflərə) daha tez çatırlar.

Son vaxtlaracan belə izah olunurdu ki, köçəri quşları böyük səfər zamanı başçı quş (quşbaşı) idarə edir. Elə deyilmiş. Quşların vahid lideri yoxdur. Sadəcə, yolun ağırlığı ona düşdüyündən ən başda gedən quş tez yorulur. Tamam əldən düşməmiş sürünün arxasına keçib yerini özündən sonra gələnə verir. Beləcə, liderlik vaxtaşırı dəyişir.

Dəstədə haray salan, qışqırışan arxadakı quşlardır. Onlar bununla öndəgedənləri irəliyə həvəsləndirir, ruhlandırırlar. Qabaqda gedən liderini alqışlayan kütlə kimi.

Bunları niyə yazıram?

Parlament seçkisi haqda son günlər sosial şəbəkələrdə açılan saysız müzakirələrə qoşulmağa bir iynəgözü belə həvəsin olmayanda ən canqurtaran iş elə balaca bir yazı yazmaqdır.

***

Başqaları ilə eyni istiqaməti hədəfləyib çiyin-çiyinə addımlayan adamları irəli aparan qüvvə bir-birinə bəslədikləri güvən hissidir. Məhz hərəkət anındakı birgəlik insanlarda belə bir duyğu yaradır. İlk dəfə bu cür xoş həyəcanı 1988-ci ilin mitinqlərində yaşamışam – eyni murada birgə can atan yüzminlərin insan selində kosmik fəza yüngüllüyü duymuşam.

Sonra bu "yüngüllük" "ağırlıq"la əvəzləndi, çünki səfimiz perik salındı, ümumi hədəfdən yayındıq, yarı yolda qaldıq.

Hazırlıqsız cəmiyyət lider bolluğunda pərən düşüb yolu azdığı kimi, taleyini bir nəfərin iradəsinə bağlayan toplumların da hədəfdən yayınmaq riski böyükdür. Əlbəttə, söhbət bəlli hədəfi olanlardan gedir, allahumuduna yaşayanlardan yox.

Demokratik ənənələrin oturuşduğu ölkələrdə özünüidarə üsulu üfiqlərin o üzünü qəsd etmiş quş qatarının hərəkət mexanizminə bənzəyir.

Belə cəmiyyətlərdə hər kəs uzaq uçan quşlar təki ümumdavranış qaydalarına tabedir. Hamının iştirakı və məsuliyyəti bərabərdir deyə, belə toplumlarda "ağ atlı oğlan", "ümummilli lider" ağla gəlmir.

Yaşadığım İsveçdən deyim. Uzaq XVI əsrdə Stokholmu danimarkalılardan azad etməklə qəhrəmana çevrilmiş Qustav Vasadan sonra adamların kimisə "öndər" gördükləri haqda bir yazı rastlamamışam. Neçə əsrdir, krallarını belə sıravi vətəndaş kimi yaşamağa vadar ediblər.

Avtoritar rejimlərdə isə belə deyil!

Kəsəsi, sözümün canı odur ki, köçəri quşların bəlli hədəf yolunda sərgilədiyi birgə hərəkət mexanizmi təbiətin insanlara verdiyi yaşam örnəklərindən biridir. Bu təbiət qanununu öz həyatında tətbiq edib uğur qazanan xalqlara yox, özümüzə baxaq. Heç, 100 il əvvələ də getməyək, elə son 30 ilə nəzər salsaq, yetər.

Konkret məqsəd naminə hər yola çıxdığımızda içimizdən dərhal halaypozanlarımız çıxıb səfimizi dağıtdı! 1990, 1992, 1993, 1998, 2003, 2005 və sairə illərdə baş verənlərin hər biri haqda yekə-yekə yazılar yazmaq olar, amma tarixi qurdalamağa gərək yoxdur, aydın olmayan daha heç nə qalmayıb onsuz da.

Bəs 2020-ci ilə nəylə gedirik? Hədəfimiz haradır? Səfimiz düzülübmü? Bunu siz məndən yaxşı bilərsiniz.

Mənimsə bildiyim odur ki, hədəf vektorunu üzü Qarabağ və ədalətli cəmiyyətə doğru çevirib hərəkət mexanizmini işə salsaq, Azərbaycan tarixinə cümhuriyyətçi atalardan sonra ən uğurlu nəsil kimi düşərik. Şükür yaradan təbiətə, öyrənmək üçün canlı varlıqlarının simasında bizə gözəl örnək də verib.

Uzaq hədəfləri birgə uçuşlarıyla yaxın edən durnaları, qazları, ördəkləri, leylәkləri, ... deyirəm.

Dekabr 2019

# Kontrabas adamlar

*və ya "Çığırtılar içində pıçıltı"*

O gün israilli cazmen Avişay Kohenin triosu Malmö simfonik orkestriylə əla bir konsert verdi. Açığı konsertə trioda yer alan Elçin Şirinova görə getmişdim. Getməyə dəyərmiş, Elçini tanıdım, çıxışına valeh oldum. Bəlkə də bu heyranlığın qaynağı qərib ölkədə bir yurddaşın uğurundan fəxarət duyğusu yaşamaq idi, bilmirəm.

Amma onu dəqiq bilirəm ki, Kohenin kontrabasda ifasını bəyənməyimin səbəbi o aləti kəşf etməyim oldu. Deməyəsən, kontrabas tək orkestrin "künc"ündə ümumi havaya fon vermək üçün deyilmiş, başqa səsləri bir harmoniyaya kökləməyi də varmış.

Eynən kütləni arxasınca aparan tək adam kimi.

Simli-kamanlı alətlərin ən irisi olduğu kimi, ən alçaq səslisi də kontrabasdır. İki metrəcən boyu var. Belə baxanda səsi zəif çıxan yekəpər adama bənzədərsən. Yekə, amma qəlbi incədən incə birinə. Heç rast gəlməmisiniz eləsinə?

Sizi bilmirəm, məndə onun haqqında "Bəxtiyar" filmindən qalma yalnış təsəvvür vardı. Elə bilirdim, tək kontrabasda çalmaq olmaz, o da bizim zurna kimi ancaq züy tutmağa yarayır.

Sən demə, elə deyilmiş! Sənətkar əlində qarğı parçası belə apofeoz səs çıxarar.

İnsan təklikdə insandır, tünlükdə o, kütlənin bir zərrəsidir. Musiqi aləti də eləcə, sonacan duymaq üçün onu tək dinləməlisən!

Səma boyda nəhəng qaranlıq bir inyəgözü şüanı belə gizlədə bilməz! Xaos tünlüyündə "tək"liyini qorumağı bacaranlar yeni üfüqlərdən soraq verənlərdir.

Qəhrəmanlıq üçün meydan aramırlar, qəhrəmanlığa meydanı özün yaradırsan!

*Auqust Landmesser adlı fəhlə 1936-cı ildə Almaniyada kütlə qələbəliyində nasist salamı verməyən tək adam olub.*

***

Kontrabas simindən qopan titrəyiş orkestrin bir-birinə neçə yad səsini bir həmahəng tonda birləşdirirdi o gecə. Orkestri bir havaya kökləmək nədi, deyərdin bəs, Afrika ritmləri, afroamerika folkloru, bir də Avropa klassik elementlərini toplayaraq cazı o yaradıb. Bir caz qrupunu kontrabassız gördünüzmü heç?

O, birləşdirib yönəldəndir, dağıdıb sahiblənən yox!

O, qışqırıqlar içində pıçıltıdır!

Orkestrin səslər karvanı Xaosun təntənə himnidir. Bilənlər bilir, dünyanın ən ilahi düzümü Xaosun harmoniyasındadır. Göydəki ulduzların duruşu, atomların hərəkəti kimi.

Kohen kontrabasına sarılıb onu dilə gətirməyə, danışdırmağa can atanda neçə adam içində aşiqindən sevgi etirafı eşidən utancaq qız kimiydi kontrabas. Gücsüz, məsum. Məgər onun gücü gücsüzlüyündə, məsumluğunda deyilmi?

Gücsüzlər güclənmək üçün birləşirlər. Güclü təklikdə də güclüdür.

Səs-küy salıb orkestrə hakim olmağa can atan alətlər səssizliyilə bütün səsləri ram edən gücsüz kontrabasa tabe idilər. Bəzən insan cəmiyyətində də belə olur.

*Vaslav Havelin "Gücsüzlərin gücü" essesi yadıma düşdü. Heç yeridirmi! Yeri olmasa yada düşərdimi?*

***

Kontrabas səsi sərhədi üfüqdən başlayan taxıl zəmisinin o üzündəki həyat nişanəsindən xəbər gətirən meh kimidir.

Hərdən udun Nəsimi iniltisini andıran səs çalarına da bənzədirdim onu.

Onu bar-bar bağırışan insan kütləsində sözünü tək sənə demək istəyən biri kimi də görərsən.

Kontrabası eşidib duymaq üçün qulaq bəs eləməz, bədənin bütün hüceyrələrini səfərbər etməlisən. "Qulağı olan eşitsin", deyərmiş İsa peyğəmbər. İndi eşitməyə tək qulaq yetmir!

Simfonik orkestrlərin konsertində qulağınız kontrabas səsi axtarsın. Neçə gurultu səs altından tapıb çıxarın onu. Cəhd edin, alınacaq! Məndə alındı. Kontrabası dinləyəndə qulağım başqa səslərə kar idi. Bu, uşaq vaxtı qışağzı həyətimizin qozluğunda xəzəl altda qalan qozları axtarmağımı xatırladırdı. Min rəngə çalan xəzəllikdə qoz gəzəndə gərək diqqətin boyaların cazibədarlığında azıb itməsin.

"Yollar bolluğunda" azmış cəmiyyətlərdə bəzən düz yol "qışqıranlar"ın yox, qışqırıqda "susanlar"ın göstərdiyidir. Yetər ki, o yolu görməyə, onu göstərəni səhnəyə çıxarmağa – meydan verməyə toplumun fəhmi yetsin.

Mən kontrabası tanıdım! O gecənin konsertindən bu xoş tanışlıq qaldı mənə.

…Qaldı kontrabas adamları tanımaq…

1 noyabr 2018

# Çiçək qoxulu yuxu-parlament

*“Namizədlər” silsiləsindən*

İndiki parlament seçkisi əvvəlkilərdən gözəl xanım namizədlərin bolluğu ilə seçilir. Gör bir nə qədərdilər! Həm gözəldirlər, həm də cavan.

Uzağa getməyim, elə feysbuk dostlarım Tamilla Qulami, Nüşabə Sadıxlı, Aysel Əlizadə, Günel İbadova, İlhamiyyə Rza, Könül Quliyeva, Vəfa Gümşüdlü, Mehriban Zeynalova, Günel Səfərova, Yasəmən Qaraqoyunludan deyim.

Cəmi 100 il öncə teatr səhnəsinə bir qadın oyunçu çıxara bilməyən xalqın bu gün siyasət meydanında gör neçə xanımı var!

Bu yaxşı haldır. Eləsə, eləsə, bizi gözəllik xilas edəcək. Heyif deyilmi, gözəl xanımların qanunları ilə yaşayasan!

Kişilər söz sahibi olandan dünyanın xarabı çıxdı. Zorluqlar, pisliklər biz kişilərlə gəldi.

***

Xəyalıma yeni parlament gəlir. Zal min rəngli Qırxqız yaylasını xatırladır. Feysbuk dostlarım buranın ən qəşəng çiçəkləridir. Xoşum gəlir, oturub saatlarla canlı mənzərəyə – iclasa baxıram.

Bir az narahatlığım da var. Necə narahat olmayasan! Neçə qollu-budaqlı, köklü-köməcli “ağac”ı parlamentin “par”ı qurudub. Neçə yaraşıqlı sima oradan solub, bozarıb, qızarıb, nə qədər qəddü-qamət əzilib-büzülüb, əyilib çıxıb. İndi bu zərif “çiçəklər”i soldurmazmı onun havası?!

***

Gözümün qabağından uçub keçən nə idi belə?

Narahatlığım gecəni gün işığına çıxaran şam kimi əriyib getdi.

Sarı-qırmızımtıl kəpənəyin çiçəyə qonmasını görürəm. Qanadlarının şappıltısını müstəqillik aktına alqış yağdıran parlamentin çəpik səsi kimi eşidirəm.

Kəpənək qanadlarından qopan sərin meh üzümə əsir, məstedici çiçək qoxusuna bihuş oluram.

Sonra meh küləyə dönür, sonra da tufana…

Parlamentin qapı-pəncərəsi taybatay açılır. İllərlə içəriyə hopmuş kif qoxusu çölə sovrulur.

“Çiçəklər” yerlərindən boy verirlər. Qalxır, qalxır, qalxırlar. Bir-birinə sarılırlar, aşır-daşırlar. Açıq qapı-pəncərədən şəhərə axırlar.

Şəhərin küçə-xiyabanları gülə-çiçəyə bürünür. Hər yan gül qoxuyur. Xəzərin gözitirən sozsuzluğundan əsən Xəzri gül qoxusunu sinəsinə çəkir. Üfürüb bütün ölkəyə yayır.

Səhər adamlar ölkəni çiçək içində görürlər. Hava gül ətrindədir. Xət-xət qırışan üzlər, cığır alınlar gülür, açılır. Çuxura düşən gözlərə işıq gəlir. Ürəklər təzə sevgi yaşayan təki sevinclə çırpınır.

Çiçəklərə qonan kəpənəyin qanadından başlayan titrəyiş bütün ölkəni dəyişir. “Kəpənək effekti” bunamı deyirlər?!

Azərbaycan “çiçəklənən şanlı diyar” olur.

“Çiçək”lərin qanunları da ümid doludur ana duası kimi, yumşaqdır sevgili sığalı təki.

Hamı xoşbəxtdir!!!

***

Yuxudan saat zənginə oyandım. Qalxdım. Çay qoydum. Televizorun düyməsini basdım. Balkona çıxıb gərnəşdim. Quluncumu qırıb geri qayıtdım.

Çay süzüb oturdum. Gözüm çayın buğunda, qulağım televizorda.

“Müxalif elita çox amansız seyrəlmələrə məruz qalıb”. Yeni seçilmiş parlamentin ilk iclasında Zahid Oruc danışırdı.

Çayın buğu doğulmadan ölən arzular kimiydi, buğlanmağa macal tapmadan itib yox olurdu...

Oktyabr 2015



# Oyundankənar mətbuat

Jurnalistika fakültəsində Nəriman Zeynalovun dərsi bizə ona görə maraqlı gəlirdi ki, nəzəri yox, praktiki məsələlərdən, real hadisələrdən danışırdı, özü də şövqlə. “Sovet kəndi” adlı bir qəzet redaktorunun söhbətlərini tək kənd qoxusu burnundan getməyən əyalət uşaqları yox, fransız ətirli şəhər qızları da maraqla dinləyirdilər.

Bir dəfə söhbət jurnalistin cəmiyyətdə hansı mövqe tutmasından düşəndə Nəriman müəllim qrupa belə bir sual verdi: *“Jurnalist cəmiyyətdə futbolçunun meydandakı hansı mövqeyini tutmalıdır?”* Növbəti dərsə qədər müzakirə edib cavab haqda düşünməyimizi istədi. Sual qrupda maraqlı müzakirəyə səbəb oldu. “Qapıçı”, “müdafiəçi”, “yarımmüdafiəçi”, “hücumçu” deyənlər bir yana, “hakim”, “tamaşaçı” söyləyən də, hətta “qapı dirəyi” deyib dilxoşluq eləyən də tapıldı.

Rəhmətlik bu sualı verəndə hələ sovet illəriydi, jurnalistika söz azadlığının keşməkeşli yollarına çıxmamışdı, təqib-həbs, alınıb-satılma, reket-şantaj, qarayaxma-mədhiyyə sınağına çəkilməmişdi. Bu o vaxtlar idi ki, adamlar sonuncu səhifəsindən (maraqlı yazılar burda dərc olunurdu) oxumağa başladıqları qəzet üçün köşk qarşısında növbəyə düzülürdülər.

Sonra jurnalistikanın da mahiyyəti dəyişdi. Cəmiyyət kimi jurnalistika da qruplara bölündü, qütblərə parçalandı.

*“Mətbuat dövrünü əks etdirən aynadır”.* Bunu da müəllimlərdən biri demişdi, səhv etmirəmsə, Nəsir İmanquluyev idi. O vaxt xoşuma gəldiyindən yaddaşımda ilişib qalıb. Amma illər sonra Axundov kitabxanasında “kommunizm quruculuğundan” yazan qəzetləri vərəqləyəndə bu fikrin yarımçıq olduğunu gördüm.

Bəzi dönəmlərdə mətbuat dövrünün həqiqətləri üstünə örtük yerinə sərilmiş qəzetə bənzəyir. *“Hər həqiqət demək üçün deyil, bütün həqiqətlər deyilsə, dünya çılpaq qalar”.* Uzun illər öncə gündəliyimə qeyd elədiyim bu fikri indiki kontekstdə mətbuata aid eləmək istəməzdim. Mətbuat bütün həqiqətlərə açıq olmalıdır.

Məni günümüzdə mətbuatın mövcud xarakteri və formalaşmasında müstəsna rol oynadığı yeni oxucu (adam) tipi maraqlandırır. Bu düşüncələrlə əlləşdiyim yerdə Mikael Hanekenin jurnalistikaya dəxli olmayan “Ağ lent” filmi, orada cərəyan edən hadisələrin yadıma düşməsi qəribəydi. Amma filmin jurnalistikaya dəxli olmasa da onun hədəfinə, yəni insana, özü də sosial varlıq kimi formalaşmaqda olan insana birbaşa aidiyyəti var. Mühit yeni yaranan nəsli – bir kəndin yeniyetmələrini qatilə çevirir. Film *“qətllər törədən uşaqların simasında gələcəkdə faşistə çevrilən əsgərlərə işarə vurur, insan təbiətindəki zorakılığı tədqiq edir”* (Sevda Sultanova), onun yaranma səbəblərinə işıq tutur.

Mətbuatdan danışanda məhz bu filmin yadıma düşməsi məncə təsadüf deyil. Bu gün mətbuat amansız zorakılığın çiçək açdığı çöllüyü xatırladır! Zorakı mətbuat azğın davranış aşıladığı kimi, qəddar insan da “vəhşi” cəmiyyət formalaşdırır. “Zorakı mətbuat” deyəndə tək hər gün oxuduğumuz “öldürdü”, “zorladı”, “özünü asdı”, “başını kəsdi” sözləriylə dolu xəbərləri demirəm, hətta ən peşəkar qələm sahiblərimizin belə yazılarına hopmuş hirsi, nifrəti, ikrahı deyirəm. Baxıram, elə özümün də son illər yazdıqlarımın çoxu bu ruhdadır.

“Niyə belə oldu” sualının cavabı buna gətirən yoldadır, ötəri nəzər belə kifayətdir.

Buna əminəm ki, siyasətdən kənar heç nə yoxdur. O, torpaq qırış və çatlarını dolduran su kimidir, boş yer qoymaz, axıb tutar. Siyasətin birinci əl qoyduğu sahə mətbuatdır. Azad fikirli adamların yürütdüyü siyasət mətbuatın azadlığına qarant durur. Onlar bilirlər ki, özlərinin də azadlığına qarant olası cəmiyyəti azad mətbuatsız qurmaq mümkün deyil. Əksinə, azadlıqdan (azad fikirdən, çılpaq həqiqətdən) qorxan siyasətçilərin yaratdığı idaəetmə mexanizmi ilk olaraq, mətbuatı öz çarxının dişinə keçirir.

Total düşüncəyə hakim olmaq istəyən siyasi sistemin ilk işi cəmiyyətdə çoxsaylı mənəvi barrikadalar qurmaq və insanları bu barrikadalarda bir-birinə qırdırmaqdı. Belə mənəviyyat davasında bir qayda olaraq, əxlaq sərhədlərini aşa bilməyənlər uduzur. Burada mətbuata bir rol ayrılır – barrikadalara güllə daşımaq. Tərəf tutmayıb müstəqil qalmaq istəyənlər isə gülləyə ilk tuş gələndi, çünki ona atəş hər iki tərəfdən açılır.

Söhbət qəhrəman görünən jurnalistikadan yox, müstəqil mətbuatdan gedir. Hakimiyyət haqda ən sərt sözlər yazan partiya jurnalistləri (məsələn, Natiq Güləhmədoğlu) öz liderlərinin balaca bir səhvini belə dilinə gətirmək hünərində deyillərsə, müxalifəti ən pis sözlərlə aşağılayan imtiyazlı hakimiyyət jurnalistlərindən (məsələn, Etibar Hüseynov) çoxmu fərqlənirlər? Bir-birlərini bəyənməsələr də! Bir vaxtlar yazdığım fikirdə yenə qalıram; qəhrəmanlıq iqtidarçı olub müxalifəti söymək, yaxud əksinə, müxalifətçi olub iqtidarı lənətləmək deyil, cəsarətli adam iqtidarda olub iqtidar sahibini (məsələn, Ziya Bünyadov), müxalifətçi olub müxalifət liderini tənqid eləməkdən (məsələn, Hikmət Hacızadə) çəkinməyəndir.

Siyasi jurnalıstika mətbuatın başqa sahələrinə də sirayət edir, mənzərə eynidir. Belə vəziyyətdə "reket jurnalist" sözü necə də gülməli səslənir! İndi hansı sənətin reketi yoxdur ki?! Valideyini pul verməsə il boyu uşaqdan dərs soruşmayan müəllim reket deyilmi? Ölüm ayağında olan xəstəni pulu olmadığına görə əməliyyat etməyən həkim necə? Nazir, hakim, polis, gömrük, vergi, qaz, su pulu yığan və s. onun kimi.

Mən də başımı boş nağıllarla qatıram – tərəfsiz jurnalistika axtarıram, özü də oxucunu yazdığıma inandırıb, öz "tərəf"imə çəkə-çəkə...

***

Növbəti dərsdə Nəriman müəllim jurnalistin cəmiyyətdə yerini belə göstərdi: *"Jurnalist meydandakı yarımmüdafiəçi kimi orta mövqe tutmalıdır. Bu mövqe ona meydanın hər yerində sərbəst hərəkət imkanı verir. Bir gün müdafiəyə çəkildiyi kimi, başqa gün də hücuma qoşula bilir".*

Sən demə, zaman gələçəkmiş, azad mətbuatsız qalan peşəkar jurnalistlər meydana çıxmayan cəzalı futbolçu kimi oyundan kənar qalacaqmış. Meydan hər cür meydanda oynaya bilənlərə qalacaqmış. Sevimli müəllimim sağ olsaydı, soruşardım: "*Meydan olmayandan sonra hansı mövqedə oynamağın əhəmiyyəti qalırmı?"*

30 mart 2013

# Söz oyuncağı

Azərbaycanda Söz sözün özündən çox da xəbəri olmayan, onun məsuliyyətini tam anlamayan adamların əlində oyuncağa çevrilib. Əlinə qələm alanların bəzisi bilərəkdən, bəzisi də bilməyərəkdən Sözlə xatalı oyuna girir. Başa düşmürlər ki, dedinsə, yazdınsa, Söz daha sənin deyil, hamınındır – eşidənin, oxuyanındır.

Sözün məsuliyyətini tam anlasaydılar, bilərdilər ki, bu gün cəmiyyət üçün "Ölkəni tərk elədi!" kimi sözlər mətbuatı başına götürən "Özünü asdı!", "İntihar elədi!" sözləri qədər mənəvi sarsıntıya səbəb olur. Nə baş verir ki, "gəmini tərk edirlər" sualı ilə baş-başa qalan sabaha onsuz da ümidi azalmış insanlarda panik ovqat yaradır, cəmiyyəti depressiyaya sürükləyir. Bunumu istəyirsiniz?

Bunu istəyənlər var! "Çıxıb getsinlər, ölkə bizə qalsın" düşünənlər var – özü də onlar tək hakimiyyət sahibləri deyillər.

Sizdəmi onlarlasınız? Onlarla deyilsinizsə, susun! Bacarığınız varsa, insanlara ümid verin, verə bilmirsinizsə, olan-qalanı da almayın!

Mənə dil atanlara cavaba qaldısa, bir neçə ilimi xaricdə yaşayacam. Bu gün Polşa, sabah İsveçrə, biri gün ABŞ da ola bilər. Səbəbi özümə bağlıdır, kiməsə hesabat vermək öhdəliyim yoxdur. Amma bu, "Azərbaycanı tərk elədi!" pafosundan çox uzaqdır, Azərbaycanda olmağım elə Qarabağda olmağım kimidir. Bilən bilir ki, Qarabağı bir gün də tərk eləmədim!

Əvvəlki siyasi, sonrakı ictimai fəaliyyətimdən, bu gün elədiklərimdən narahat olan doğma adamlara da, sevincək düşən əzəli "dost"lara da deyirəm: mən Azərbaycanı tərk edə bilmərəm! Yoxluq hələ getmək deyil!

Müvəqqəti yoxluğuma azca da olsa işıq tutacaq "Əraf" adlı hekayəni isə yaxın günlərdə oxuyacaqsınız. Qismət olsa...

17 dekabr 2012

# Axsaq mətbuATla müharibəyə getmək

Erməni yalanını təkzib edən, onların saxtakarlığını aşkarlayan müəllifi niyə bizim saytlar yaxına buraxmadı, yazısını dərc eləmədilər? Əslində qəsdim bu suala cavab yazmaqdır.

Amma ondan başlayım ki, müasir müharibədə informasiya savaşı səngər döyüşüylə təndir. Bəlkə də hələ daha artıqdır. İnformasiya davasından qalib çıxmasan aldığın səngərləri saxlaya bilməzsən! Bəzən lap belə də olur – informasiya müharibəsində düşmənə vurduğun sarsıdıcı zərbə bəs edir, daha səngər döyüşlərinə ehtiyac qalmır.

Üç ilin söhbətidir. Ermənistanın *panorama.am* saytı azərbaycanlı oxucunu hədəflədiyim "Xaçaturyanın qələbə suitası" adlı məqaləmi xəbərim olmadan ruscaya çevirib, kontekstdən çıxararaq, "İsveçdə yaşayan azərbaycanlı yazıçının açıq məktubu" adıyla dərc edib. 50-dən artıq erməni-rus sayt da sevincək onu yayımlayıb.

Bu dezo-məktubun saxtalığını sübut eləmək üçün hər erməni-rus saytını güdüb cavablandırmağın uzun və səmərəsiz iş olduğunu biləndə başını buraxdım. Ötənlərdə ermənilərlə virtual davadan qaçan bəzi soydaşımız silahı üstümə tuşlayanda cavablarını verdim. Məsələn, "Sahib Məmmədova vida sözü" yazıyla.

İndi erməni elə edəcək, bizim vətənpərgarlar belə deyəcək deyə doğru bildiyimizi yazmamalıyıq? Mənə yazı yazmağı öyrədənlərə isə xüsusi təbəssümlə təşəkkür edirəm!

"Dördgünlük müharibə" dediyimiz son Qarabağ döyüşləri vaxtı erməni saytları həmin dezo-məktubu təkrar gündəmə gətirdi. Bir neçə narahat dost yazanda xəbər tutdum. Bu dəfə rusca daha ətraflı açıqlama verməyi lazım bildim.

"К армянским манипуляторам", yəni "Erməni manipulyatorlarına" adlı açıqlama-yazı yazıb bloquma qoydum, feysbukda paylaşdım. Ərinməyib bizim üzdə olan rusdilli portallarımıza və rus bölməli saytlarımıza göndərdim.

Qəsdim ermənilərin haqqımda yaydıqları, vaxtaşırı gündəmə gətirdikləri saxta xəbərin faş olmasına yardım istəmək idi.

Bizim mətbuat neylədi?

Redaktor dostlar elə zənn elədilər ki, mən öz şəxsi davamı aparıram. Amma söhbət hansısa Vahiddən, yaxud Əlidən, Vəlidən getmir. Söhbət ondan gedir ki, ermənilər "azərbaycanlı yazıçı" kimi təqdim etdikləri birinin yazısını saxtalaşdıraraq, ondan öz təbliğatları üçün yararlanırlar. Özü də ustalıqla. İnformasiya savaşına onlarla saytla çıxıb total xəbər müharibəsi aparırlar.

Xəbərlə manipulyasiya etmə, xəbər yaratma, xarici xəbər institutları – KİV-lərlə əlaqələr qurma işində nə qədər güclü və məkrli düşmənlə üz-üzə olduğumuzu çoxumuz bilmirik. Xəbərin gücü dilindədir – sən onu hansı dildə yayırsan, hansı anlamda yazırsan.

Müharibə dövründə xəbərlə manipulyasiyanın adi hal olduğunu bilirəm – hər kəs informasiyasını öz marağına uyğunlaşdırıb yararlanır.

Amma biz bu sahədə də ciddi axsayırıq! Çoxumuz siyasi, şəxsi, qrup, ta nə bilim, hansı maraqlardan kənara çıxa bilmirik, heç milli davada da.  Çünki azad deyilik…

Uzatmayım! Hakimiyyətə birbaşa, ya dolayı bağlı rusdilli saytlar yazımı vermədilər. Güman edirəm, bu cümləyə görə: *"Bildiyim başqa həqiqət də odur ki, hər iki xalq ondan öz məqsədləri üçün istifadə edən siyasi elitanın zombiləşdirilmiş əsirinə çevrilib".*

İstər sərt müxalif mövqeli, istərsə də müstəqil mətbuatı isə anlamağa çətinlik çəkdim. Bəlkə də onlar yazının *contact.az* və *minval.az* saytlarında getdiyini əsas gətirdiklərini deyəcəklər. Amma bu arqument yox, olsa-olsa bəhanədir.

Xəbər davasında ermənin 50-dən çox saytnın qabağına iki saytla çıxmaq döyüş meydanında düşmənin 50 tankına qarşı 2 tankla vuruşmağa bənzəyir.

Bax elə "Xaçaturyanın qələbə suitası" yazısında toxunduğum məsələ bu idi. Biz milli davada da mütləq hansısa şərtləri önə çəkirik.

Siyasi, dini, şəxsi, qrup maraqlarından kənar mətbuat yaranmayınca azad sözdən danışmağın heç bir yeri yoxdu. Ermənilərlə informasiya müharibəsindən isə heç danışmıram.

Vaxtilə *"Oyundankənar mətbuat"* yazısında ətraflı yazdığımdan mövzuya təkrar qayıtmıram. Bircə onu deyirəm ki, döyüşə axsaq atla getməyək, ya atımızı dəyişək, ya da onu sağaldaq.

15 aprel 2016

# Sözün nifrət çaları

Saytlardakı sayğaclar sizi aldatmasın, ən çox oxunan model qız şəkilli yazılar deyil. Belə yazılar oxumaq yox, baxmaq üçün açılır. Ən çox oxunan hökumətin, xüsusən onun zirvəsində qərar tutanların gizlinlərinə işıq tutan yazılardır. Ciddi oxucunu şəklin yox, sözün çılpağı cəlb edir. Bu gün qızıl xırdalasa belə, çılpaq, yəni müxalif sözdən kənar kəsərli kəlmə yoxdur. Sanki söz yalnız hakimiyyət sahiblərini tənqid hesabına öz qüdrətini saxlayır.

Siyasətə marağın azaldığı bir zamanda müxalif sözə sevginin qaynağı hardandı bəs? Müxalifət liderlərinin söylədikləri hələ də adamlara maraqlı gəlir, bəzən lap rəğbət də qazanır. Niyə? Az qala 20 ildir təkrarlanan bu fikirləri diri saxlayan nədi? Müxalifətdən doğsa da, sualın cavabı onda deyil, hakimiyyətdədir. Çünki müxalif sözün başı hakimiyyət sahibidir.

Neçə ildir məşhur ziyalılarımız öz işində-gücündə, sözündə-söhbətindəydi. Xalqın onlara hörməti yaradıcılıqlarından, fəaliyyətlərindən yanaydı. İndi bir forumda toplaşan bu insanlar nə vaxt toplumun qəhrəmanına çevrildilər? Niyə onlara meyl 5, 10, 15 il əvvəlkindən çoxdur? Bunun tək səbəbi var – onlar cümlə bəlalara bais kimi hakim elitanı göstərirlər.

Razılaşmayanlar olacaq, təbiidir, fikrimcə, son illər ictimai şüurda müxalif fikri yaşadan barmaqla sayılası köşə yazarı və onların çap olunduğu bir-iki qəzet, saytdır. Sual budur: niyə adamlar məhz bu yazarların köşəsini, hərdən də "çaşıb" yazdıqları hekayə, romanlarını oxuyur? Bəlkə Tolstoydan, Axundovdan istedadlıdırlar? Yox! Sadəcə, qorxmadan hakim zümrənin ayıb işlərindən yazırlar.

Sözümün "mustafa"sı kiminsə deyib-yazdığını saf-çürük eləmək deyil, odur ki, bütün topların lüləsi hakim zümrəyə sarıdır.

Bu, adi giley deyil. Ümidsizlik və yiyəsizlik hissinə qapılan çarəsiz insanlarda yığılan nifrətdir. Qaynayan su buxar enerjisinə çevrildiyi kimi nifrət də qisas duyğusu yaradır! İndi intiqam hissiylə yaşayan minlər yox, on minlər, yüzminlərdi, sanki sehirli əl onların sayını qəsdən günbəgün artırır. SSRİ-də kommunizm repressiyasının yan keçdiyi ailə çətin tapılardı. Bu gün də adı bilinməz siyasi sistemdən başı çəkməyən ailə tək-təkdir. Camaat qısas ovqatlıdır, bir himə bənd kimidir.

*"Bastoy adasının kralı"* adlı bir Norveç filmi var, yüz il əvvəl Norveç adalarının birindəki türmədə yeniyetmə məhbuslara verilən davamlı işgəncədən bəhs edir. Təhqir və işgəncələr "ada sakinləri"nin həbsxana heyətinə nifrətini qəzəbə çevirsə də, səbir kasası son damlaya möhtacdır. "Kasa"nın sonuncu damlası azadlıq ehtirasını ölməyə qoymayan ləyaqət hissidir. Bu da adaya yeni gələn məhbusla oyanır. "S19" nömrəli məhbus qəzəb kasasını daşıran sonuncu damla olur. Və... Məzlumun qisası yanında zalımın zülmü nədir ki?!

Bilmirəm, ölkəmizi filmdəki türmə-adaya bənzətmək nə qədər doğru olar. Bildiyim odur ki, bütün kasaların suyu onu daşırası sonuncu damlaya bənddir. Zaman-zaman içində yığılan enerjini bir gün vulkan da püskürür. Bunu "Tarixi-Nadir"i yarısınacan oxumayan bəndəniz də bilirsə, bu boyda ölkəni bu qədər vaxtda idarə edənlər bilmir?

Bilir! Sadəcə, hüdudu görünməyən hakimiyyətin, nağılvari var-dövlətin bihuşedici təsirindədirlər. Ordan həyat duman içindəki qara-qura ləkələr kimi görünür. Amma hər şey bir

sonluqla bitir. “Hallanma”nın da sonu var, bəlli çevrədə buna “lomka” deyirlər. “Lomka” ruhun bədəndən qisasıdır. Yalın əllə qılınca çapan insanların intiqamı kimi...

Yazılarda tin-bucaq jarqonları işlətməkdən xoşum gəlmir, oxucu inciməsin, hərdən fikirləri izah eləməkdə çətinə düşürsən, köməyə elə bu sözlər çatır.

Azərbaycan tarixində heç bir hakimiyyətin xalqı ağ günə çıxarmaq üçün bugünkü qədər imkanı olmayıb. Xalqın yeddi arxa dönəninə bəs edəcək bu qədər sərvətin müqabilində onun sevgisini qazanmaq şansını qaçırmaq və əvəzində indiyədək görünməmiş miqyasda nifrətini qazanmağın adını qoy elə hakimiyyət sahibləri özləri desin.

Tanrı bizi nifrətin intiqamından saxlasın! Duam budur, yoxsa, əstağfürullah, kiməsə ağıl qoymaq fikrim yoxdur!

Arzum isə odur ki, Azərbaycanda SÖZ özünün başqa çalarlarında da qüdrətini göstərə bilsin!

23 avqust 2012



# Bizim sirli-sehrli Güney

Şah İsmayıl bu gün özünü iranlı sayardı, ya azərbaycanlı?

Qəsdim Xətaidən yazmaq deyil, onun siyasi kimliyi ilə işim yoxdur. Toxunmaq istədiyim məsələyə görə sualı belə qoymağa məcburam.

Şah İsmayıl İran dövlətinin – istər şahlıq, istər dini rejim olsun, lap sabah demokratiya qurulsun, fərqi yoxdur – iki ideoloji əsasından (şubiyyə və şiəlik) birini yaratmış, bugünkü iranlı kimliyinin formalaşmasında misilsiz xidməti olan tarixi şəxsdir. Bizə baxmayın, iranlılar (tək farslar deyil) onu belə görür, tanıyır, dəyərləndirir.

Belədirsə, onda biz niyə ona Bakıda heykəl qoymuşuq? Cavab sadədir, çünki biz də özümüzünkü bilib ona sahib çıxmışıq!

***

Bu ay İsveçdə 11-i qadın olan 23 nazirdən ibarət yeni hökumət quruldu. O qadın nazirlərin arasında təbrizli Romina Purmuxtari də var. İsveç tarixinə ən gənc nazir kimi düşən 26 yaşlı Romina Purmuxtari mərhum güneyli siyasi mühacir soydaşımız İbrahim Purmuxtarinin qızıdır.

Bu xəbəri eşidəndə Feysbukda təbrik paylaşdım. O təbrikə yazılan şərhlər çoxdan yarımçıq qalan yazıya yeni nəfəs verdi.

Şərh yazanların bəziləri Romina Purmuxtarinin Tvitterdə fars kimliyini qabartmasını əsas gətirərək məni özgə birini “özününküləşdirmək”də qınadı. Adına, soyadına söz atanlar da vardı.

Soyu haqda Romina özü belə yazıb: *“Qohumlarım İranda yaşayır, yarı azəri, yarı farsdır”.*

İsveçdə nəşr etdirdiyi xatirələr kitabında uşaq vaxtı İrana, Təbrizə getməyindən, orada gördüklərindən, adət-ənənələrdən, atasının azərbaycanlı, anasının fars olmasından, atasının siyasi mübarizə yolundan bəhs edib.

Başqaların münasibəti öz yerində, mən onu Güneydən gəlmiş mühacir soydaşımızın İsveç siyasətində ciddi uğur qazanmış qızı kimi təbrik etdim. Özgə yox, özümüzünkü bildim. Rominanı özünü iranlı kimliyin daşıyıcısı sayan milyonlarla soydaşımıza nümunə kimi tanıtmaq istədim. Düşüncəm odur ki, farslarla şərik yaratdığımız tarixə haqlı olaraq sahib çıxdığımız kimi o soydaşlarımızı da özümüzünkü bilməli, uzaq tutmamalıyıq. Sevgi sevgidən doğur – bizim isti münasibətimiz onları düşündürəcək, müstəqil Azərbaycana, onun vətəndaşlarına bir başqa yöndən baxmağa başlayacaqlar.

Milli düşüncənin yolu özünüdərkdən keçir!

***

İstər budəfəki diskussiyadan, istər də Güneylə bağlı başqa müzakirələrdən gəldiyim qənaət odur ki, çoxumuz Güneyi tanımırıq, orada yaşayan soydaşlarımız haqqında çox şey bilmirik, bildiklərimizin də çoxu yanlışdır.

İranda 35-40 milyon soydaşımız yaşayır deyirik, amma bilirikmi onların nə qədəri "milli hökumət" tərəfdarıdır, nə qədəri "İran dövlətçiliyi" təfəkkürünə malikdir? Yox! Çünki bizim Güneyi bir toplum kimi öyrənən mərkəzlərimiz olmayıb. Bizim Güneyə münasibətimiz lirikdir, oradan bilgimiz məişət səviyyəsindədir.

Rəhmətlik Əbülfəz Elçibəy Bütöv Azərbaycan Birliyi adlı təşkilat yaratmışdı. Tədbirlərinə hərdən mən də gedirdim. Tarixçilərin, Güneydən gəlmiş soydaşlarımızın çıxışlarını dinləyirdim. Elə Əbülfəz bəyin tövsiyəsi ilə güneyli milli lider Mahmudəli Çöhrəqanlı ilə bir neçə dəfə görüşmüşdüm. İnsan hüquqları, milli haqlar, demokratiya problemləri barədə nəşr etdiyimiz kitabçaları ərəb əlifbası ilə çap edib İrandakı soydaşlarımız arasında yaymağa imkanımızın olduğunu deyib konkret bölgələrlə əlaqə qurmağa dəstək istəmişdim. Maraqla qarşılamışdı, amma nə səbəbdənsə bu sevda baş tutmadı.

Bütöv Azərbaycan Birliyi Güneyi dərindən öyrənən institut ola bilmədi, diskussiya klubu kimi fəaliyyət göstərdi. Diskussiyalarda səslənənlər də daha çox pafos idi. Bunu İsveçə gələndən sonra bildim. İsveçdə dostlaşdığım neçə güneylidən öyrəndiklərim o vaxt orada eşitdiklərimdən köklü fərqlənirdi. Real vəziyyəti geniş dünyagörüşlü, İranın, İrançılığın mahiyyətini dərindən bilən bu dostlar daha aydın izah edirdilər.

Bizim Güney haqda bilgilərimizin çoxu yanlışdır. Güneyi tanımırıq! Eyni ilə də onlar bizi tanımırlar!

Milli kimlik məsələsində əsas soy deyil, özünüdərkdir. Qanı qanımdan, soyu soyumdan olmaq hələ mənimlə eyni milli şüur daşıyıcısı olmaq demək deyil.

Tarixə baxsaq görərik ki, bugünkü İran dövlətçiliyini fars-türk cütlüyü formalaşdırıb. Bu cütlüyün əsrlərlə qaynayıb-qarışmasında əsas rolu şiəlik oynayıb. Şiəliyin o biri adına "İran islamı" da deyirlər. Onu yaradan farslar olsa da, dövlət siyasətinə türk əsilli şahlar çeviriblər. Ərəb istilası zamanı "İran islamı" yaratmaqla öz identikliyini (şubiyyə) qoruyan farslar əsrlərlə ölkəni idarə edən türk şahların özləri kimi yaratdıqları tarixə də sahib çıxıblar. Əslində isə o Səfəvi, Avşar, Qacar şahları kimi onların yaratdığı tarix həm də bizimdir və ona sahiblənmək haqqımızdır.

İranı dərindən tanıyan dostlarla söhbətdən gəldiyim qənaətə görə, güneyli soydaşlarımızı üç qrupa bölmək olar:

1. Çoxluq təşkil edən birinci qrup İranı öz dövləti kimi görür, hətta elələrinə rastlayarsan ki, imkan düşsə bizim Azərbaycanı da İrana birləşdirmək istəyər.
2. Xeyli bir qismi əhatə edən ikinci qrupun hədəfi milli muxtariyyətə nail olmaqdır.
3. Azlıq təşkil edən, əsasən xaricdə yaşayan üçüncü qrup isə müstəqil dövlət qurmaq və bizim Azərbaycanla birləşmək istəyənlərdir.

Bu kontekstdə soydaşlarımızı kürdlərlə müqayisə edənlərlə razılaşmaq olmur. İranı öz dövləti sayan, ana dilində məktəb, milli muxtariyyət istəyən azərbaycanlılardan fərqli olaraq kürdlər (şiə kürdlər xaric) milli azadlıq mücadiləsi aparırlar, özü də əldə silah. Sünni olduqlarına görə öz etnik kimliklərini fars basqısından məsafədə saxlamağı bacarırlar. Həm də bu səbəbdən İran hakimiyyəti onların içərisinə öz adamlarını hər vaxt sızdıra bilmir. Bizim milli düşüncəli fəallarımızın qənimi isə adətən öz "İrançı" soydaşlarımız olur.

Yuxarıda söz açdığım Feysbuk statusuma şərh yazan dostlara və onlar kimi düşünən soydaşlarımıza isə ərklə bir söz deyim. 70 illik sovet dövründə dili qorunan, ana dilində

məktəbləri, universitetləri, teatrı, kinosu, ədəbiyyatı olan, 30 ildir müstəqil yaşayan biz quzeylilər hələ də rus soyadlarımızdan, rus dilinin əsarətindən qurtula bilməmişiksə, hansı haqla tarixi boyu ana dilində məktəbi olmayan güneyliləri "farsdilli", "İran təfəkkürlü" olmaqda qınaya bilərik?

***

Şah İsmayıl bu gün özünü iranlı sayardı, ya azərbaycanlı? Siyasi-ideoloji təməlini qoyduğu bugünkü İranın yanında durardı, ya Bakıya gələr, əvvəl öz heykəlinə baş çəkər, sonra Fəxri xiyabana gedib paytaxtı Təbriz olmuş Azərbaycan Milli Hökumətinin başçısı Seyid Cəfər Pişəvərinin qəbrinə gül düzərdi?

İranı yaxşı öyrənək, Güneyi bir toplum olaraq dərindən tanıyaq, duyaq. Nizamiyə, Şah İsmayıla sahib çıxdığımız kimi Purmuxtari kimilərini də özümüzünkü sayaq. Bu gün İranda yaşayan milyonlarla "qanı qanımdan, soyu soyumdan olan"ı "milli şüuru şüurumdan, hədəfi hədəfimdən"ə çevirə bilək deyə.

Oktyabr 2022

# Güney və Quzey Azərbaycanda milli kimlik məsələsi

1991-ci ilin 18 oktyabrında millət vəkillərimiz dövlət müstəqilliyi haqqında konstitusiya aktına səs verməklə elan elədilər ki, çağdaş Azərbaycan 1918-1920-ci illərdə var olmuş Azərbaycan Cümhuriyyətinin hüquqi varisidir.

Bu, yeni bir dövlətin yaranması deyildi, Sovet Rusiyasının işğalına məruz qalan bir ölkənin yenidən öz dövlət müstəqilliyini bərpa etməsiydi.

İndi geriyə – 1991-ci ilə boylananda adam belə bir sualla üzləşir: doğrudanmı biz onda Azərbaycan Cümhuriyyətini bərpa elədik?

Əgər belədirsə, necə oldu ki, Azərbaycan Xalq Cümhuriyyəti "biz kimik" sualına 100 il qabaq aydın cavab verdiyi halda bu gün milli kimlik yenidən müzakirə mövzusuna çevrilir? Aradakı sovet dönəmində nə baş verdi ki, milli kimliyimizi "unutduq"?

Suala tək Azərbaycan dövlətində yaşayanları deyil, Güneydəkı soydaşlarımızı da düşünərək cavab tapmalıyıq. Millik kimlik məsələsinə bütöv millət kontekstindən baxmalıyıq.

İranda baş verən son olaylar, Güney Azərbaycanda yüksələn xətlə gedən milli oyanış "milli kimlik" məsələsini aktuallaşdırır.

Ötən ilin payızında İranda kütləvi etirazlar vaxtı yazdığım "Bizim sirli-sehrli Güney" yazısı bu sualla başlayırdı: *"Şah İsmayıl bu gün özünü iranlı sayardı, ya azərbaycanlı?"*

Sual dərhal cavab vermək yox, düşünmək üçün idi. Güneydəki soydaşlarımızı anlamaq, oradakı gerçəkliyə pafossuz, emosiyasız, soyuq başla baxmağa cəhd etmək üçün idi.

***

Milli kimlik özündə dil, mədəniyyət, məişət, ənənə, düşüncə, psixologiya, tarix, vətəndaşlıq, vətənsevərlik, milli idrak anlamlarını ehtiva edir.

Biz özümüzü türk dünyasının, islam aləminin bir parçası sayırıq, amma bunlar bizim milli kimliyimizdirmi?

Milli kimlik toplumu parçalayan yox, birləşdirən müstəvidə yarana bilər. Nə İslam, nə Turan bizi millətləşmə yolunda birləşdirə bilmir. Bilməz və bu təbiidir.

İslamın ümmətçilik doktrinasının ərəblərdə, farslarda, orta əsr Osmanlısında birləşdirici rolu danılmazdır. Amma bu bizə aid deyil, islam ümmətçiliyi bir ideya kimi bizə uğur qazandırmayıb. O, nə XIX əsrin əvvəllərində rus işğalına, nə 1920-ci ilin kafir rus-bolşevik istilasına, nə də rusla birlikdə Qarabağı zəbt edən ermənilərə qarşı bizi təşkilatlandıra bilib.

Əksinə, Ermənistana Rusiyadan sonra ən ciddi dəstəyi erməni terrorçularının bəsləndiyi müsəlman ərəb ölkələri verdi. Fələstin hərb düşərgələrində ASALA-nın təlimlər keçməsini, Qarabağda qırğınlar törədən Monte Melkonyan kimi terrorçuların hazırlanmasını, Yasir Ərafatın erməni sevdasını unutmamışıq.

Ermənistana həyat yolu açan şiə İran xüsusi qeyd olunmalıdır. 44 günlük İkinci Qarabağ müharibəsindəki qələbəmiz rəsmi İranın əsl simasını gizlətdiyi maskanı cırıb atdı. Rəisinin Paşinyanla qardaşcasına öpüşüb görüşmə fotoları, imamlara yas saxlyan xristian ermənilərin

Aşura günündə çıxardıqları şəbih tamaşaları bizim sinə vurub, baş yaran İran aşiqlərimizin, nəhayət, gözünü açar. Ermənistan sərhədinin toxunulmazlığını qırmızı xətt sayan İran paytaxt Tehranda Azərbaycan səfirliyində qanlı terror hadisəsi törətməsini də unutmayacağıq.

Dediyim odur ki, İslam bizim milli kimlik axtaracağımız ünvan deyil!

Türk dünyası, Turan anlayışlarına klassik Turançılıq (Ziya Göyalp) baxımından yox, Məhəmməd Əmin Rəsulzadənin irəli sürdüyü yeni Turançılıq – türk dövlətləri/millətləri liqası, yəni müstəqillikdən sonrakı dönəmlərin bir şüurlu strateji addımı kimi yanaşmaq gərəkdir. 5 türk dövlətinin yaratdığı Türk Şurası bəlkə gələcəkdə söz açdığım birlik üçün təməl olacaq. Amma o zamanacan milli kimliyimiz işini bitirməyimiz lazımdır. Bu işdə Turançılıq yalnız və yalnız bir zamanlar bəşər sivilizasiyalarından birini yaratmış, amma yaratdığını qoruyub sahiblənə bilməyən qədim qövmün bir parçası olduğumuzu anlamaqda yardım edə bilər. Hələlik başqa heç nə!

***

Azərbaycan siyasi və coğrafi kimliyimizdir. Milli adımız coğrafi adımızla yox, etnik adımızla çağırılmalıdır. Bizim milli kimlik məsələsində çoxlarından fərqimiz "Azərbaycan milləti"ni formalaşdırası əsas xalqın vahid siyasi-coğrafi məkanda yerləşməməsidir. Bizi bölən tək Araz çayı deyil, 200 il bir-birindən siyasi-ideoloji-mədəni cəhətdən fərqlənən dövlətlərdə yaşamağımızdır.

Dövlətə sahibləndiklərindən milli kimlik qayğısına qalmayan Səfəvilər, Qacarlar sonunda dövlətçiliyi milli kimliyini heç vaxt unutmayan farslara güzəştə getməli oldular. Səttarxanın, Xiyabaninin, Pişəvərinin rəhbərliyində inqilabların uğursuzluğunun səbəbi, fikrimcə, Güneydə milli kimlik probleminin tam çözülməməsinə bağlı idi.

Bir güneyli dostum deyirdi ki, İranda yaşayan türklər indi də "iranlılıq" və "türklük" arasında çaşbaş qalıblar. Onun sözüdür: *"İranlılıq yaxın tarixin propaqandası nəticəsində farslıqla eyniləşdirilib. İran türklərinin bu paradiqmanı dəyişməyə gücləri olmayıb"*.

Millətləşmə prosesi 150 il əvvəl, XIX əsrin ikinci yarısından artıq 50 ildir Rusiyanın tərkibinə qatılıb, onun vasitəsilə Avropada gedən millətləşmə hərəkatının havasını alan Quzey Azərbaycanda başladı. Bəzi xalqlarda bu proses başa çatdı, bizdə isə obyektiv və subyektiv səbəblərdən hələ də bitməyib.

1789-cu il inqilabı Fransada fransız millətini yaratdığı kimi, 1918-ci il cümhuriyyəti də Quzey Azərbaycanda türk milləti anlayışını tarix meydanına çıxardı. Azərbaycan Cümhuriyyəti millətləşmə prosesinin sonu olmalıydı. Sovetlərin gəlişi işi yarıda qoydu.

Türkcəni rəsmi dil kimi qəbul etmiş ilk respublikanı biz qurmuşuq. Rus-bolşevik işğalı nəticəsində əldən verdiyimiz "türklüyü" Atatürk yaratdığı yeni dövlətin milli kimliyinə çevirdi. Türkiyədə "Osmanlı" dönüb "türk" olduğu halda Azərbaycanda "türk" dəyişib "azərbaycanlı", ya da türkiyəlilərin diliylə desək, "azəri" adlandı.

Azərbaycançılıq ideyası hazırkı sərhədlərimiz daxilində yaşayan bütün xalqları bir millətdə - "Azərbaycanlı milləti"ndə birləşdirib. Bu, müstəqil Azərbaycanın ən böyük uğurlarından biridir. Amma bu milləti formalaşdıran digər xalqlar kimi çoxluq təşkil edən xalq da öz adı ilə çağırılmalıdır.

Etnik kimliyin ana təməli milli addır. Ona görə addan uzun yazıram. Azərbaycanda türkcəmizi qanuniləşdirməsək, kimlik məsələsi indiki kimi yarımçıq qalacaq. Adın bərpası qəti şəkildə Türkiyə türkcəsiylə qarışıqlıq yarada bilməz. Amerika ingiliscəsi Britaniya, yaxud Avstraliya ingiliscələriylə qarışdırılmadığı kimi.

Milli kimlik tək "Biz kimik" və "Hardan gəlmişik" suallarına deyil, "Hara gedirik" kimi suala da cavab tələb edir. Yəni tək bu günü yox, sabahı da düşünməliyik.

"Azərbaycanlılıq" bizi indiki Azərbaycan Respublikası sərhədləriylə məhdudlaşdırır. Milli şüurun oyandığı güneydəkilər necə, özlərinə başqa milli kimlikmi düzəltməlidirlər?

Odur ki, bu gün biz Quzeydəki çoxluğun etno-milli adını elə seçməliyik ki, sabah o, Güney Azərbaycanda yaşayan 10 milyon və daha artıq soydaşımızın milli kimlik məsələsində indiki kimi qarışıqlığa səbəb olmasın. Mən say məsələsində hər cür pafosdan uzaq durmağın tərəfdarıyam. Əsas say yox, milli şüurun olmasıdır.

Bu qrafikdə hazırda İranın 4 əyalətində yaşayan soydaşlarımızın sayı verilib. Bu, Pişəvərinin rəhbərliyi altında Azərbaycan Milli Hökumətin mövcud olduğu həmin 4 əyalətdir. Assimilyasiya siyasəti və mühacirət səbəbindən sayı 9,5 milyondur. Soydaşlarımızın sıx yaşadığı və Azərbaycan adına iddia edə biləcəyimiz Həmədan və Qəzvin kimi əyalətlər də var. Başqa əyalətlərdə, Tehran qarışıq neçə şəhərdə də soydaşlarımız yaşayır. Amma bunun nə qədəri özünü iranlı, nə qədəri azərbaycanlı sayır – açıq qalan sualdır!

| Əyalət/ ölkə | Əhalinin sayı | Iranın toplam nufusundan payı | Ərazi KVKM | Iranın toplam əarzisindən payı | Ümumi milli məhsul milyon dollar | İranın ümumi milli məhsulundan payı |
|---|---|---|---|---|---|---|
| Şərqi Azərbaycan | 3 909 652 | 4,71 | 45 650 | 2,77 | 8 104 | 3,5 |
| Qərbi Azərbaycan | 3 265 219 | 3,93 | 37 411 | 2,27 | 4 631 | 2 |
| Ərdəbil | 1 270 420 | 1,53 | 17 800 | 1,08 | 2 315 | 1 |
| Zəncan | 1 057 461 | 1,27 | 21 773 | 1,32 | 2 315 | 1 |
| 4 əyalət | 9 502 752 | 11,4 | 122 634 | 7,4 | 17 365 | 7,5 |
| İran | 83 000 000 | | 1 648 195 | | 231 548 | |
| Azərbaycan Respublikası | 10 172 000 | | 86 600 | | 54 622 | |

Milli düşüncənin yolu özünüdərkdən keçir!

Perspektivdə özünə real yeretmə ehtimalı yüksək olsa da, Bütöv Azərbaycan ideyası bu gün dadımıza çatmaya bilər. Amma unutmayaq ki, bu gün bizdə türk davası səngisə də, Güneydə Azərbaycan davası oyanış mərhələsindədir, qalxan xətlə gedir.

"Bütöv Azərbaycan" bəlli səbəblərdən ümummilli ideyaya çevrilməyibsə, bu, sabah da belə olacağı anlamına gəlməməlidir. Bu ideyaya antitezislər vermək istəməzdim, amma gün işığı torpaqla örtülmür, güneylilərlə siyasi kimlik fərqimiz həqiqətdir. Bu da təbiidir, üstündən keçən 200 illik ayrılıq yelləri siyasi coğrafiya, düşüncə, psixoloji özduyum, dünyagörüşü, məişət landşaftımızdan izsiz ötməyib.

Mənə qalsa, əminəm ki, adımızı "Azərbaycan türkü" çağırmalı, dilimizə "Azərbaycan türkcəsi" deməliyik! Azərbaycan türkü etnik kimliyinə sahiblənərsə, "Azərbaycanlı milli kimliyi" formalaşdıran 10 milyonluq əhali 100 il öncə başladığı missiyanı davam etdirə,

İranda və başqa ölkələrdə yaşayan milyonlarla Azərbaycanlının avanqardına, səmt ulduzuna çevrilər.

***

Milli kimliyin yaşam qaynağı davamlı uğurlardır. O, milli qürur duyğusu, pozitiv anlamda patriotizm, vətənsevərlik aşılayır.

Əsas özümüzü tapmaqdır. Sayca bizdən qat-qat çox olan, amma dövlət qura bilməyən nə qədər xalq mövcuddur. Bizimsə dövlətimiz var! Hələ yeni dövlət qurmağa potensialı olan milyonlarla güneyli soydaşımızı demirəm.

Bu gün Güneydə milli şüur 30 il əvvəllə müqayisəyə gəlməyəcək qədər inkişaf edib, buna bir səbəb tarixi Azərbaycanın quzeyində müstəqil dövlətin bərpası, ordumuzun Qarabağda qələbəsidirsə, o biri səbəb Türkiyədir. Güneydə məşhur olan "Təbriz, Bakı, Ankara…" şüarı boş yerdə yaranmayıb.

İran böyük dəyişiklik ərəfəsindədir. Bu dəyişikliyə Güneylə yanaşı biz də – müstəqil Azərbaycan da hazır olmalıdır!

Təbriz stadionunda "Traktor" futbol komandasının azarkeşlərinin səsləndirdiyi "Azərbaycan" hayqırtısı nə qədər qanımızı coşdursa da real vəziyyəti soyuq başla təhlil etməliyik. Milli oyanışa təmkinlə, ardıcıl, real dəstək verməliyik. Amma dövlətimizi qoruyub saxlamaq, vaxtsız və yersiz riskə atmamaq şərti ilə.

Yazının əvvəlində verdiyim suala sonda bir də qayıdıram*: "Şah İsmayıl bu gün özünü iranlı sayardı, ya azərbaycanlı?"* Quzeyli dostum Əlirza Ərdəbili bu suala dəqiq cavab verib. *"Şah İsmayılın şah olduğu dövrdə türklər bütün İrana hakim idilər, odur ki, o vaxt özünü iranlı, müsəlman, şiə etiketləriylə tanıtması təbii idi. Amma bu gün türklər nəinki hakimdirlər, heç ana dilində təhsil hüquqları yoxdur. Odur ki, Şah İsmayıl bu gün özünü azərbaycanlı və türk sayardı".*

İranı dərindən tanıyan dostlarla söhbətdən gəldiyim qənaətə görə, güneyli soydaşlarımız arasında İranı öz dövləti kimi görənlər də var, hədəfi milli muxtariyyət olanlar da. Az qisim soydaşımız da var ki, Güneydə müstəqil dövlət qurmaq və gələcəkdə bizim Azərbaycanla birləşməyi arzu edir.

Mənim müşahidələrimsə onu deyir ki, bu gün Güneydə yaşayan azərbaycanlıların böyük əksəriyyətinin istəyi başqa xalqlarla əl-ələ verib molla rejimindən qurtulmaqdır. Sonrası allaha pənah…

Sonrası həm də bizə bağlıdır. Biz, müstəqil Azərbaycan dövləti və xalqı olaraq Güneydəkilərə öz kimliklərinə, talelərinə, hüquq və haqlarına sahib çıxmaları mübarizəsinə biganə qalmamalıyıq, əksinə, yanlarında durmalıyıq.

Fevral 2023

*P.S. "Milli kimlik harayı" essesi əsasında xüsusi olaraq, "Tribun" dərgisi üçün hazırlanan bu yazı dərginin III dövrə 1-ci sayında (7) nəşr olunub. "Tribun" dərgisinin yeni sayı ABŞ, Almaniya, Danimarka, Fransa, İran, İsveç, Kanada və Türkiyənin elmi dairələrində çalışan tanınmış tarixçi alimlərdən təşkil olunmuş 17 nəfər redaksiya heyətinin iştirakı və qərarı ilə çapa hazırlanmışdır.*

# Qumla London arasında Bakı

Londondakı səfirliyimizi ələ keçirən "Mehdinin nökərləri"nin hərəkətləri o gündən bəri təkrar-təkrar gözümün qabağında canlanır. "Şər deməsən, xeyir gəlməz", bəzən qarabasma da olur – səfirlik binası yerinə bizim Prezident Aparatı, Milli Məclis görünür. Mənzərədən ətim ürpəşir.

İki gün gözlədim, emosiyalar bir az soyuyar, bəlkə təxribatın arxasında hansı qüvvənin durduğu, məqsədinin nə olduğu barədə aydınlıq yaranar deyə. Aydınlıq yaranmasa da indi soyuq başla düşünmək olur. İndi soyuq başla düşünürsən: bəlkə heç deyildiyi kimi deyil, o hadisənin ölkəmizin imicinə mənfi yox, müsbət təsiri var? Azərbaycanda mövcud sekulyar avtoritarizmin alternativi kimi radikal islamın ola biləcəyi mesajı verilir? Ölkənin şəriət qanunları ilə idarə olunmasını istəyən siyasi islamla mübarizəyə zəmin yaratmaq – beynəlxalq ictimai rəy hazırlamaq üçün təşkil olunub? Belə deyilsə, olay yeri niyə hakimiyyətimizin ən böyük xarici dəstəkçisi olan BP kimi nəhəng gücün vətəni seçilib? London polisi bir ölkənin səfirliyinin dağıdılmasına niyə 2 saat qıraqdan durub tamaşa edib?

Siyasətdən, özü də beynəlxalq siyasətdən başım çıxmadığına görə cavablarla işim yoxdur, köhnə jurnalist kimi mənim işim suallarladır.

Dövlətçiliyimizə xarici təhlükə öz yerində, bu, həmişə olub, olacaq! İstər yaxın qonşu, istər uzaq dost bildiyin ölkə olsun. Məni toplumun cəhalət qarşısında immunitetinin ilbəil zəifləməsi narahat edir.

"Mehdinin nökərləri"nin başçısı Qumda təhsil alanlardanmış. Qum dini təhsil mərkəzinin dövlətimiz üçün nə qədər təhdid mənbəyi olduğunu bilənlər bilir. Odur ki, məni daha çox qayğılandıran özünü ölkəmizdəki Mehdi, Zeynəb "nökərləri" kimi aparanlar və onların dinlə pərdələnmiş siyasi məramlarını anlamayan məsum mömin kütlədir. Aşağıda hələ 7 il qabaq yazdığım "Əmmaməli gələcək" yazısından bir parça bölüşürəm:

*"Evindəki televizoru "haramdı" deyib çölə atan bir qohumum övladının toyuna çağıranda getmədim. Musiqi, çalıb-oynamaq necə haram ola bilər? Sualıma ağlabatan cavab verə bilməmişdi.*

*Qonum-qonşuda, qohum-əqrəbada neçə qız-gəlini çarşabda görüb indi tanıyı bilmirəm.*

*20 ildi Qarabağdan qaçqın düşüb hələ də sərgərdan həyat yaşayan bir tanışımın bankdan kredit götürüb Məkkə ziyarətgahına getdiyini eşidəndə dərin kədərə daldım.*

*"İslamçılara qoşulan oğlum deyir ki, içki içdiyinə görə səni öldürsəm, qanın mənə halaldı". Bunu bir soydaşımız başılovlu danışırdı. Oğlunu Avropaya xoşbəxtlik dalınca gətirmişdi, dini fanatizmin qurbanı olduğundan gec xəbər tutub.*

*"Əli və Nino" romanında məni təsirləndirən səhnələrdən biri də Aşura günü Əlinin sinə döyüb, baş yaran kütləyə qoşulması, ələlxüsus da bu səhnəni Ninonun görməsidir!*

*İndi Ninoları olmayan nə qədər Əliləri kütlə havasına xürafat izdihamına qoşulan görürəm.*

*Sekulyar avtoritarizm quruculuğunda tər tökmüşlərdən, məsələn, Zahid Oruc parlament seçkisinə indi dini şüarlarla gedir: "Dində mübarək Oruc, namizəddə Zahid Oruc", "Sizə vəkil olmaq Allaha ibadət qədər gözəldir".*

*Buyurun, gəlib çatdıq!*

*Bu gün parlamentin qapısını "döyən" şüar, sabah prezident kürsüsünə yol alacaq, birisi gün də konstitusiyaya dəyişiklik referendumu keçirəcək. Küçələrə axışıb inqilab bağırtısına dönəcəyini demirəm heç! Qorxumdan!"*

Cəhalət qaranlığının sərhədləri indi nə qədər böyüyüb, özünüz təsəvvür edin.

Sözümün canı nədir?

Dövlətin vəzifəsi cəhalətə meydan açan təhsilsizliyə, savadsızlığa qarşı mübarizə aparmaqdır, təhsili bərbəd günə qoymaq deyil. Dövləti idarə edənlər, nəhayət, anlamalıdırlar ki, Azərbaycan reallığında demokratik, sekulyar dəyərlərin daşıyıcısı olan kəsimi ictimai-siyasi həyatın künc-bucağına sıxışdırmaq meydanı dini radikallara vermək deməkdir.

Meşşan həyatın gözünü pərdələdiyi iqtidarla, hakimiyyətə gəlmək üçün "şeytanla" (dini şarlatanlarla) belə əməkdaşlığa hazır müxalifətlə ölkəni sarmaqda olan dini cəhalətin üstünə getmək nə qədər effektlidir, ümidvericidir, açığı bilmirəm. Mənə görə hər iki zümrənin fövqündə durası ziyalı – düşünən və düşündürən vətəndaşlar – təbəqəsinin nazilib-süzülüb yox olma həddinə çatması da bir başqa qorxunc mənzərədir.

Amma yenə ümidliyəm! Əminəm ki, gözümə səfirlik binası yerinə Prezident Aparatının, Milli Məclisin görünməsi halüsinasiyadan başqa bir şey deyil! Ümid edirəm ki, London olayını bir siqnal kimi qəbul edəcəyik; iqtidarlı, müxalifətli, xalqlı dini fanatizmi dövlətçiliyə təhlükələr sırasında görüb, ondan merkantil maraqlar üçün istifadə yox, ona qarşı ciddi mübarizə – maarifçi mübarizəyə başlayacağıq.

Viktor Hüqo "Səfillər" romanında yazırdı: *"Cahillərə bacardığınızı öyrədin. Onlara pulsuz təhsil verməməkdə cəmiyyətin özü müqəssirdir. Cəmiyyət yaydığı cəhalət üçün məsuldur. Qaranlıq içində olan qəlbdə günah doğar. Müqəssir günah edən deyil, bu qaranlığı yaradandır".*

Azad, ədalətli, sekulyar Azərbaycan ümidiylə...

6 avqust 2022

# Türkiyədə islam inqilabı?

Bəlkə siz də Atatürk sekulyarizminin keşiyini çəkən ordunun siyasiləşən dinə necə dözdüyünü özünüzə sual vermisiniz. Sizi bilmirəm, mən dəfələrlə düşünmüşəm bu haqda. Xüsusilə ötən ilin yayında İstanbula son səfərimdən aldığım təəssürat ovqatımı təlx eləyəndə.

O səfərdə İstanbulu bir başqa yandan gördüm. Təəssüf qarışıq qəribə, anlaşılmaz duyğularla döndüm ordan. Əvvəllər min bir rəngə çalan şəhər boyası qaçmış gəldi mənə. Bozun tünd çaları kimiydi. Gözəlim İstanbul dindar əyalət şəhərinə çevrilmişdi elə bil.

15 iyul axşamı hadisələri sosial şəbəkədə yazılanlardan, bir də Euronews kanalından izlədim. “Ordu TRT-ni tutdu” xəbəri gələndə Feysbuk səhifəmdə bir kəlmə yazdım: *“Nəhayət!”*

Yəqin bəziləri bunu sevinc nidası kimi anladı. Əslində isə bu, səksəkə içində gözlədiyin xəbərin qəfil çıxardığı səsə daha çox oxşayırdı.

Növbəti günün axşamı İstanbulda yaşayan türk aydını bir dostuma zəng elədim. Deyəsən səsimi eşidib ağladı. Bir-iki dəfə hıçqırdı deyə, mənə elə gəldi. Dərinə getmədim. Evinə çəkilib, görüb eşitdiyinin şokunu yaşayırdı.

O, küçəyə çıxmağa qorxurdu! O, ölkəsinin haralara gəlib çatdığını ağlına sığdıra bilmirdi, dəhşətə gəlmişdi.

Türk dostumla söhbəti ürəyimə çökən ağır bir yüklə bitirdim. Mixail Bulqakovun qəhrəmanı Aleksey Turbinə bənzətdim onu, “Ağ qvardiya” romanını oxuyanlar onu xatırlayar yəqin. Proletar inqilabının məhv elədiyi rus intelligensiyasının faciəli personajlarından biri kimi gördüm dostumu.

Türk aydınlarının rus intelligensiyasından bir fərqi var. Onlar həm də şərqlidilər və Şərq bağlarından qopmadan Qərb dəyərlərini mənimsəməyi bacarmış OKUMUŞLARDI…

*“Sən bizi okumuşların şerrinden muhafaza eyle, ya rabbi!”* Bu sözlər Yutubda izlədiyim bir dəfn mərasimində imamın dua kimi söylədiklərdir. İmam bunu ölkə prezidenti Ərdoğanın yanında durub deyirdi.

Bu günlərdə cürbəcür heyrət doğuran başqa videolar, xəbərlər də yayıldı. Baş kəsmək, linç etmək kimi kadrlar da gördük. İŞİD paytaxtı Rakkaydı sanki İstanbul. Kitab mağazasını dağıdanlar da elə bil Əmr bin Asın İsgəndəriyyə kitabxanasını yandıran əsgərləriydi.

Sonra türk ordusunun generallarını döyülmüş, alçaldılmış şəkildə göstərdilər bütün dünyaya.

Nə qədər bir-birinə bənzəyirlər içində diktatorluq yaşadanlar!

Eynən Stalin kimi! O da neçə-neçə marşalı, generalı beləcə “vətən xaini” deyib tutmuş, güllələmişdi. Marşal Tuxaçevskini xatırladım ordu generalı Akın Öztürkün o halını görəndə.

Şübhəli çevriliş cəhdindən dərhal sonra total repressiyalar başlandı, fövqəladə vəziyyət elan olundu. “Okumuşlar”a qarşı!

*“Qiyam yıxa bilmədiyi hökuməti möhkəmləndirir”.* Viktor Hüqo “Səfillər” romanında yazıb bunu. Möhkəmləndimi Ərdoğan hökuməti?

Ümumiyyətlə, bu baş verənlərin adı nədi? Çevriliş cəhdimi? Yoxsa hərbçilərin qiyamı?

Bəlkə Türkiyədə inqilab baş verib? Bəlkə 15 iyul deyilən kimi "demokratiyanın xilası" yox, "Türkiyə islam inqilabı" günüdür?!

Nədənsə mən bunu 1979-cu il İran islam inqilabına daha çox bənzətdim. Xomeyni də var. Xomeynini gətirən təyyarə də. Onu qolları üstə daşıyan kütlə də.

Bütün yaxşı başlananlar heç də həmişə yaxşı sonuclanmır. AKP iqtidarının uğurlu iqtisadi siyasəti Türkiyəni dünyanın 20 ən güclü dövlətindən biri elədi. Bəs sonra?

Hakimiyyətlərin əvəzlənməməsi sonunda faciələr doğurur. Ya diktatura qurulur, ya vətəndaş müharibəsi başlayır, ya da…

Uzun müddət hakimiyyətdə qalmaq ən ləyaqətli insanı belə dəyişdirir, özünəvurğuna çevirir. Ətrafını heyranları ilə əhatələyən belə rəhbərlərin sonra başqa böyük iddiaları da yaranır.

Deyirlər ömrünün son illərində Atatürkdə də yaranıbmış belə hal, diktatora dönübmüş. Bunu qabardan anti-kamalistlərə ən tutarlı cavab elə Atatürkün özündən sonra qoyduğu sekulyar, demokratik dövlət oldu.

Ərdoğandan nə qalacaq? Sonra nə olacaq? "Təkbir", "Allahu əkbər" sədaları ilə "demokratiyanı müdafiə"mi edəcək?

***

Üfiqdə iki yol görünür:

Ya türk aydınları evlərdən çıxıb toparlanacaq, xalqı inandırıb seçkiyə, sandıq başına gətirib "demokratiyanı xilas" edəcək!

Ya da *"ca ceyli cala cula cumbur leydi cap cup*"la müasir tipli xəlifəli sultanlıq qurulacaq!

İyul 2016

# Avropada yeni kabus dolaşmaqdadır!

Sentyabrın 27-də İsveç millətçilərinin "İslamda tolerantlıq varmı?" adlı bir tədbirinə getdim. Təzə deyil, çox düşmüşəm bu söhbətə. Mövzudan daha çox məni İsveç kimi tolerant bir ölkənin son illər durmadan artan reytinqləri hesabına ictimai rəy sorğularında ölkənin birinci partiyasına çevrilmiş millətçi İsveç Demokratları Partiyasının məsələyə baxışı maraqlandırırdı.

Partiyanın yerli şöbəsi məruzəçi kimi islam üzrə ekspert Bertil Malmberq və xristianlığı qəbul etmiş keçmiş müsəlman Mona Valter adlı xanımı dəvət eləmişdi.

Birinci hissədə çıxış edən Malmberq "Quran", şəriət, sünnə və hədislərdən nümunə gətirərək tədbirin adına çıxarılan suala "Yox!" cavabını əsaslandırmağa çalışırdı.

İkinci hissədə çıxış edən Valter isə özünü vətəndaş müharibəsi nəticəsində sekulyar sosialist diktatura rejimindən islamlaşaraq bir başqa diktaturaya çevrilən Somalidən qaçmış ailənin qızı kimi təqdim elədi. *"Ailəmin qoyduğu dini qadağalarla İsveç həyatının azad reallıqları məni islam dinini dərindən öyrənməyə sövq elədi".*

Onlar çox şey dedilər, burada sadalamağın mənası yoxdur. *"Özünü dünyəvi dövlət kimi göstərməyə çalışan Türkiyədə son yüz ildə bir kilsə belə tikilməyib. Sizsə turist kimi gedib oranın büdcəsinə xeyir verirsiniz"* kimi avantürist fikirlərlə yanaşı kifayət qədər məntiqli görünən fikirləri arqumentləşdirməyi də bacarırdılar.

Qulağım çıxışçılarda olsa da, gözüm zaldakı adamlarda idi. Onların reaksiyasını müşahidə edir, suallarını tam anlamağa çalışırdım. Gəldiyim qənaət budur ki, Avropaya gələn qaçqın axını özüylə islam qorxusu da gətirir.

Saumel Hantinqtonun *"Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması"* tarixi-fəlsəfi traktatında irəli sürdüyü tezislər heç iyirmi il keçməmiş reallığa çevrilməkdədir.

Düzdür, bu gün İsveçin hakim Sosial Demokrat Partiyası və hökuməti qaçqınlara daha çox yardım etməyin yollarını arayır, "Bütün İsveç birlikdə" adlı ümummilli yardım paketiylə çıxış edir. Amma əksər Avropa liderləri multikulturallığı daha Avropanın zənginliyi deyil, problemi kimi görürlər. Hətta təbil çalırlar!

Tədbir iştirakçılarını düşündürən əsas suallar bunlar idi: Avropa mədəniyyətinə inteqrasiya oluna bilməyən və istəməyən mədəniyyət konflikt ocağına çevrilməzmi? Özləri ilə bərabər şəriət qaydalarını da gətirən və o qaydaları Avropada da tətbiq eləmək istəyən islami kəsim niyə şəriət qaydaları ilə idarə olunan ölkələrə yox, buna tamamən zidd olan cəmiyyətlərə üz tutur? Niyə 57 islam dövləti müsəlman qaçqınlarına sahib çıxmır və s.

Bunlar tək zala rekord sayda adam topladıqlarını deyən İsveç millətçilərini deyil, bütün Avropanı düşündürən və QORXUDAN suallardır!

Yazımın canı odur ki, Avropada yenə kabus dolaşmaqdadır! Və bu kabus əvvəlkindən heç də az olmayan qorxulu fəsadlar vəd edir!

28 sentyabr 2015


ПАПА!
ПАПА!
В.СЫСОЕВ 1980-81

# İsveçin Rusiya qorxusu

Feysbukda İsveçin NATO-ya üzvlüyü ilə bağlı status paylaşmışdım. Yazmışdım ki, heç bir hərbi ittifaqa qoşulmamaq siyasəti ilə iki dünya müharibəsindən yan keçməyi bacaran, 200 il müharibə görməyən İsveç NATO-ya üzv olmaq üçün rəsmi müraciət edib. Bu tarixi olaydan İsveçin öz təhlükəsizliyinə son 200 ildə ən böyük təhdidlə üzləşdiyi qənaətinə gəlirsən.

Rusiyanı nəzərdə tutmuşdum.

Statusa yazılan çoxsaylı şərhlərdə dostlar sual verirdilər ki, bu qədər təlaş nədəndir, NATO-ya üzvlük ərizəsinə görə Rusiyadan İsveçə nə kimi təhlükə ola bilər?

Sual bir neçə yüzillik dövrü əhatə etdiyinə görə ayrıca yazı yazmağa ehtiyac duydum.

Yox, tarixin çox da dərinliyinə baş vurmaq istəmirəm. Məsələn, isveçlilərin 1709-cu ildə Poltava döyüşündə ruslara məğlub olmasından, I Pyotra uduzan XII Karlın qaçıb Osmanlıya pənah aparmasından yazmıram. Amma yeridir, mövzudan çox da uzaqlaşmadan bir vacib nüansı gərək deyim.

Tarixi analiz edən ciddi fikir adamları qeyd edir ki, İsveçin Poltavadakı ağır məğlubiyyəti strateji baxımdan onun qələbəsi oldu. Yəni uduzan İsveç başqa ölkələrin torpaqlarından gözünü yığdı, ordusunu öz sərhədləri içərisinə çəkdi və milli dövlət quruculuğu işinə başladı. Bütün dünyaya nümunə olası indiki rifah cəmiyyəti beləcə yarandı.

Rusiya isə, əksinə, imperialist siyasətini davam etdirdi, tuta bildikcə çox torpaq tutdu, Mərkəzi Avropadan Yaponiyayacan ərazilər işğal elədi, xalqları əsarətə aldı. Nəinki o xalqlara göz verib işıq vermədi, heç öz xalqına da gün ağlamadı. Feodalizmi xatırladan bu günün Rusiyası əsrlərlə yürüdülən işğalçı siyasətin nəticəsidir.

***

Baltik ləpələrinin döyəclədiyi cənub-şərq bölgəsində İsveçin Karlskrona adlı şəhər var. Altı iləcən ailəmlə o şəhərdə yaşadım. Şəhər çoxsaylı adalar üzərində salınıb. Ölkənin hərbi dəniz donanmasının əhəmiyyətli hissəsi orada yerləşir. Soyuq müharibə illərində qapalı şəhər olub. Sovetin süqutundan sonra statusu dəyişib deyə yaşamaq istəyən hər kəsə qapısını açıb.

Bir gün şəhərin küçə afişalarının birində maraqlı poster gördüm. *“Om ryssen kom”* – “Əgər ruslar gəlsə” adlı ekskursiya elanı idi. Öyrəndim ki, sən demə, çox yerdə rastıma çıxan ağzı bağlı dəmir-beton qapılar yeraltı bunkerlərin imiş. Ekskursiyanın adı özündən də maraqlı gəldi, odur ki, uşaqlara da bilet aldım, getdik.

Şəhərdən kənardakı bunkerlərin birinə apardılar bizi. Gözünüzün qabağına dağın altında bir şəhərcik gətirin. Tibbi ləvazimatlarla, yatacaqlarla, yeməkxana (konservləşdirilmiş yeməklər), telefon qovşağı, radio, hətta kitabxana ilə təchiz olunan, minlərlə adamın yerləşə biləcəyi böyük sığınacaq.

Sonra bildim ki, yaşadığımız Trossö adasının altında da 6 min adamlıq sığınacaq varmış.

2016-cı ilin məlumatına görə, İsveçdə 7 milyon insanın yerləşə biləcəyi 65 min yeraltı sığınacaq olub (Finlandiyada isə 4 milyonluq insan üçün 40 min yeraltı sığınacaq tikilib). O vaxt ölkə əhalisinin sayı 9,5 milyon idi. Mövzunu müzakirə edən ekspertlər narahatlıqla sual verirdilər: qəfil müharibə başlasa, 2,5 milyon insanın taleyi necə olacaq?

1990-cı illərin əvvəlində bu sığınacaqların tikintisi dayandırılan zaman İsveçin əhalisi elə 7 milyon idi. Əhalinin sayı qədər sığınacaq yeri tikilibmiş.

Bu ölkədə sığınacaqları İkinci Dünya müharibəsindən sonra tikməyə başlayıblar. Proses SSRİ-nin süqutunadək davam edib.

İsveç müharibə başlayacağı təqdirdə əhalisinin böyük hissəsini yeraltı sığınacaqla təmin edə biləcək ölkələr sırasında dünya liderlərindəndir.

***

Qayıdım dostların sualına: Rusiyadan bu qədər ehtiyatın səbəbi nədir?

İsveç tarixi boyu əsasən iki ölkə ilə müharibə aparıb: Danimarka və Rusiya. Danimarka ilə məsələni çoxdan çürüdüblər, aralarından indi su da keçmir. Baltiklə Şimal dənizlərini birləşdirən, eyni zamanda bu iki ölkəni bir-birindən ayıran Öresund boğazını bu kontekstdə su deyə nəzərə almıram.

Rusiyanın qorxunc hənirtisini isə İsveç həmişə duyub.

Ötən il Qotland adasında idim. Belə deyirlər ki, Qotland kimindirsə, Baltik dənizinə də o nəzarət edir. Strateji baxımdan çox vacib yerdir. Adanın əsas şəhəri Visbini dolaşanda gözüm bir küçənin adına sataşdı – “Ryska gränd”, yəni “Rus dalanı”. Elə oradaca internetdən öyrəndim ki, XIX əsrin əvvəllərində Rusiya Azərbaycan torpaqlarını işğal etdiyi bir vaxtda, 5 min kilometr uzaqda da müharibə edirmiş – İsveçin Baltik dənizindəki ən strateji adasını da tutubmuş. Hadisə 1809-cu ildə olub.

Karlskrona şəhərindəki Hərbi Dəniz muzeyində olanda da xəbər öyrənmişdim ki, sən demə, 1981-ci ildə SSRİ-nin bir sualtı qayığı Karlskrona sularında qayaya çırpılaraq qəzaya uğrayıbmış. Nə iti azıbmış burda? Ölkə əhli atom silahı ola bilər deyə bərk qorxuya düşübmüş.

Onlarca belə hadisə olub. Rusiya dəfələrlə İsveçin hava və su sərhədini pozub. Yiyəsiz bostan kimi istədiyi vaxt girib. Amma bütün bunlar İsveçi öz təhlükəsizliyinə qarant axtarmağa məcbur etməyib. Ta bu ilin 24 fevralınacan. Rusiyanın Ukraynaya qoşun yeritməsinəcən. Onun NATO-ya üzv olmaq istəyinin səbəbi hazırkı reallıqdır.

***

Hələ 2016-cı ildə Karlskrona bunkerlərinə ekskursiyaya “Əgər ruslar gəlsə” adının verilməsi bu ölkədə Rusiya qorxusunun həmişə diri olduğunun göstəricisiydi. Poltava məğlubiyyəti İsveç xalqının ictimai şüurunda qalmayıb, amma genetik yaddaşda durur.

Soyuq müharibə dövründə belə neytrallığını qorumuş Finlandiyanı, İsveçi NATO-ya qoşulmağa vadar edən Putinin Ukraynanı işğal eləmək istəyi oldu.

Öz slavyan qardaşı ilə o cür vəhşicəsinə davranırsa, deməli, Putin Rusiyası hər kəsə potensial düşməndir.

Düşməndən qorunmağın yolunu isə hərə bir cür seçir.

May 2022

# Rus ordusu haqda mifin sonu

Rəşadətli rus əsgəri haqda yazılanlar, göstərilənlər mifdir! Bu mif rus əsgərinin qəhrəmanlığına görə yaranmayıb, əsgərinə dəyər verməyən, onu güllə ağzına cəmdək kimi atan dövlət rəhbərlərinin, generalların amansız əmrləri yaradıb bu mifi.

*“Пушечное мясо!”* Bu sözün birbaşa tərcüməsi “top yemi” olsa da, əsgərlərin kütləvi şəkildə mənasız ölümə göndərilməsi anlamında işlədilir.

Rusların sevimli sərkərdəsi Jukovun sözüdür: *“Бабы новых нарожают”,* yəni “arvadlar yenilərini doğub-tökəcək”. Onun hərbi istedadı yalnız əsgəri güllə ağzına atmağa çatırdı. Döyüşə iki əsgəri bir silahla göndərməklə qazanırmış qələbəni, sağ qalan ölənin silahını götürürmüş.

Deyilənə görə II Dünya Müharibəsi vaxtı rus komandanlığının öz əsgərlərini dirigözlü ölümə göndərməsi alman generallarını dəhşətə gətirirmiş. Elə odur ki, iki cəbhədə vuruşan Almaniya müharibədən 9 milyon itki ilə çıxdığı halda, SSRİ 27 milyon qurban verdi.

Stalin haqqında çox bəyəndiyim bir film var. Qızı Svetlananın dedikləri, real hadisələr əsasında İvan Passerin 1992-ci ildə çəkdiyi ”Stalin” filmini deyirəm.

Filmdə bir yer var – marşal Voroşilov Hitlerin hücum şokundan üç gün sonra ayılan Stalinə cəbhədəki vəziyyəti izah edir, xəritədə son durumu göstərir. Bütün cəbhə boyu ordunun bir hissəsi əsir düşüb, yerdə qalanlar qaçır. Bu yerdə Stalin ”Beriya!!!” deyib bağırır. Beriyaya NKVD qoşunlarını cəbhəyə göndərməyi, qaçan əsgərləri yerindəcə güllələməyi əmr edir!

Ordunu qarşıda düşmən, arxada özününkülər əldə silah gözləyir. Belə şəraitdə düşmən tərəfə könüllü keçənlər də az deyildi. Almanlarla əməkdaşlıq edən general Vlasovun "Rusiya Azadlıq Ordusu"nda 500 minəcən əsgər və zabit varmış. Bu ordu rus-sovet əsirlərindən formalaşdırılmışdı.

*“Бабы новых нарожают”* ibarəsini rus hərb tarixinin bütün zamanlarına aid etmək olar!

Sən demə, Napoleon ordusunun Moskvaya qədər gəlməsinin səbəbi də rus əsgərinin döyüşdən qaçması idi. İndi məlum olur ki, fransızları geri oturtmağa çar I Aleksandra köməyə qıpçaq çöllərindən bugünkü qazaxların, qırğızların, tatarların, başqırdların ulu babaları at belində gəlibmişlər. Bunu qazax tarixçiləri Fransa arxivlərində tapılan sənədlərə əsaslanaraq, iddia edirlər. Rus tarixi isə bu haqda, təbii ki, susur.

Deməк, Napoleonun aforizmə çevrilmiş *“Rusu sıyırsan altından tatar çıxar”* fikrinin əsasları varmış.

Tarix boyu rus əsgərini döyüşə iki şey aparıb – qorxu, bir də araq.

Qorxudan danışdım, indi rusların vodkasından deyim. Bir dəfə oxumuşdum ki, müharibə vaxtı hər əsgərin çörək, qənd kimi, araq norması da varmış, günə 100 qram, döyüşə gedənlərə 200 qram. O müharibədə yaralanan Salman babam sonralar deyirmiş ki, araq payını qəndə dəyişərmiş.

Bax o arağın spirtini bilirsiniz, nədən hazırlayırmışlar? Sibirdə “xalq düşmənləri”nə qırdırılan meşələrdəki ağac yonqarından. O zəhərin insan orqanizminə zərəri, xəstəliklərə, xüsusən korluğa səbəb olması isə ölkə, ordu rəhbərliyinin vecinə də deyildi.

Bunları niyə yazıram?

Rusiya prezidenti V.Putin səfərbərlik əmri imzalayandan sonra ruslar ölkədən kütləvi halda qaçmağa başlayıblar. Ayağı yer tutan Rusiya ilə sərhədi açıq olan ölkələrə üz tutur. Monqolustandan Gürcüstanacan.

14 il öncə Gürcüstana tankla girən ruslar bu gün ora sığınacaq yeri kimi pənah aparırlar!

Döyüşməmək üçün vətəndən kütləvi qaçmaq da varmış dünyada ən böyük ərazi işğal edən xalqın taleyində.

Bunları həm də ona görə yazıram ki, rus ordusu, rus əsgəri haqda bizdə də formalaşmış qorxunc obrazın mif olduğunu anlayaq – Xankəni qarışıq Qarabağın rus işğalında qalan hissəsinin azad edə biləcəyimizə inanaq.

Və azad edək!

25 sentyabr 2022

# Rusiya sindromu

*Rus-bolşevik işğalından 100 il keçir*

Arif Əliyev "Yalama" sənədli povestində 100 il bizdən gizlədilən bir həqiqəti gün işığına çıxarıb. Elə bir həqiqəti tapıb ki, xəbər tutan hər vətənsevərin fərəhdən ürəyi coşur, gözü yaşarır.

Həm də qəlbi sızlayır…

Yalama Azərbaycanın Rusiya ilə sərhədində sonuncu stansiyanın adıdır.

Müəllifin tapıntısı bilirsən nəyə bənzəyir?

Təsəvvür elə, uzun illər səni inandırıblar ki, anadangəlmə sağalmaz xəstəliyin var. Sən də ömrün boyu uğursuzluqlarının səbəbini bunda görmüsən. Gün gəlir, sapsağlam olduğunu öyrənirsən.

"Yalama" yaddaşları diriləndən kitabdır. Oxuduqca anlayırsan ki, kommunistlər tariximizi həyasızcasına yalan yazıbmışlar, bütöv xalqı ləkələyibmişlər. Sən demə, ən ağır anda xalq şərəfi, ləyaqəti naminə ayağa qalxıbmış, onun oğulları Vətən yolunda qorxmadan, dirigözlü ölümə gedibmişlər.

Sən demə, biz, Rusiyanın XI Qızıl Ordusunu 1920-ci ilin aprelində gül-çiçəklə, duz-çörəklə qarşılamamışıq. Bizim bu orduyla vuruşanlarımız olub. 350 əsgərimiz Yalama sərhəd məntəqəsində 70 minlik ordunun qabağına çıxıb, ölümün gözünə dik baxıb.

Sən demə, Rusiya Azərbaycanı təzədən işğal edəndə milli ordumuzun əsas qüvvələri Qarabağda elə Rusiyanın təhrikiylə başlayan erməni qiyamlarını yatırmaqla məşğul imiş. Ona görə şimal sərhədimizdə cəmi 350 nəfərlik qarnizonumuz qalıbmış.

Deyərsiniz yenə ermənilərdən yazıram! Bu yerdə ermənilərin rolundan – Rusiyanın Qafqazdakı 200 illik layihəsindən necə yazmayım axı!

SSRİ dağılandan sonra bilmişik ki, Rusiya 1805-1828-ci illərdə işğal etdiyi Qarabağ, İrəvan xanlıqlarının ərazilərinə erməniləri başqa ölkələrdən köçürürmüş, öz cənub sərhədlərini onların hesabına möhkəmlədirirmiş. Çar Rusiyasının bu siyasətini sovet Rusiyası daha amansız davam etdirirmiş. Etnik təmizləmə siyasətiylə bizi torpaqlarımızdan qovub erməniləri yerləşdirirmiş.

Bu gün Ermənistan mənə dənizdə yaradılan süni adanı xatırladır. Ermənistan Azərbaycanın 20 faiz torpağını işğal edibsə, ermənilər də Rusiyanı tam zəbt etmiş kimi görünür. İnanmırsınızsa, baş nazir, xarici işlər naziri postunu tutan, media maqnatına çevrilən, ölkənin siyasi, iqtisadi idarəetmə rıçaqlarında kök salan ermənilərə baxın. Yaxın gələcəkdə Rusiyanın cənub torpaqlarında erməni muxtariyyəti tələbi elan olunarsa, təəccüblənməyin.

Amma bu yazıda ermənilərdən yazmıram, Rusiyanın 100 il əvvəlki işğalından yazıram.

Bizim tarixi bəlalarımızın baiskarı Rusiyadır! Tarix öz yerində, məni bu günümüz düşündürür. Müstəqilliyimizin bərpasından 29 il keçib, müstəmləkə boyunduruğu görməyən

yeni nəsil də yetişib. Bəs Rusiyadan necə, azad ola bilmişikmi? Öz xalqının azadlığını boğan, qonşu ölkələri işğal təhdidində saxlayan bir dövlətə bel bağlamaq olarmı?

Bütün ölkələr, kim necə bacarır, Rusiyadan uzaq durmağa can atır, bu dövlətə şər yuvası kimi baxır. Bizim siyasət yürüdənlərimiz ondan beləmi qorxur ki, Azərbaycanı az qala rusca danışanlar ölkəsinə çeviriblər. Bu qədər dövlət hesablı rus məktəbləri dünyanın başqa hansı ölkəsində var? Müstəqil Azərbaycanda doğulan uşaqları hansı "uzaqgörən" siyasətlə "rusca" böyüdürlər?

***

Psixologiyada "Stokholm sindromu" deyilən termin var. Zora məruz qalıb şok yaşamış adamlar onlara zülm edənə duyğusal hisslər bəsləyirlər. Bu termin həbsdən qaçmış bir soyğunçunun 1973-cü ildə Stokholmda "Kreditbank"ın dörd içşisini altı gün girov saxlaması olayından sonra yaranıb. Azad olunanlar onları girov götürmüş şəxsi məhkəmədə müdafiə edirlər. Deyilənə görə, girov qadınlar sonra həbsxanaya məktublar da göndərirmişlər. Bir qadın hətta sevgilisini atıb, türmədən çıxanacan onun yolunu gözləyibmiş.

Qəribə haldır insanın ona zülm edənə pərəstişi!

Bizim Rusiyaya münasibətimiz də bu sindroma bənzəyir. Bizimkinin adı "Rusiya sindromu" olsun gərək – xilas ola bilmirik.

***

Rusiyadan qurtulmağın yolu Rusiyanın demokratikləşməsindən keçir!

Bu belədirmi? İnanmaq istəyirəm. Amma ha fikirləşirəm, demokratik Rusiyanı göz önünə gətirə bilmirəm. Sonacan demokrat qalan bir rusiyalı siyasətçi tapmaq çətindir, bəlkə də mümkünsüzdür. Hansısa anda ya imperialist, yaxud şovinist düşüncələrinə rast gələcəksiniz.

Boris Nemtsovun Kreml yaxınlığında qətlinin səhəri günü isveçli bir tanışım rus xalqının xarakteri barədə məni söhbətə tutdu. Xeyli sual verdi. Keçmiş sovet ölkəsindən olduğumu bildiyindən elə zənn eləyirdi ki, bu mövzuda xeyli bilgim var. Ürəyimdə deyindim: *"Rəhmətliyin qızı, neçə yüz ildi bütün dünya "загадочная русская душа" mifindən baş aça bilmir, mən sənə bu dar macalda onu necə izah edim!?"*

Rus şairi Tyutçevin məşhur "*Rusiya ağılla dərk olunmaz!"* misrasını ona söyləyib dedim ki, mənim fikirlərim səndə tam təsəvvür yaratmaya bilər, gəl sənə bir məsləhət verim. Ona Karlskrona şəhər kitabxanasının rus bölməsindən Aleksey İvanovun ötən il oxuduğum "Coğrafiya müəllimi qlobusu gillətdi" romanını götürüb oxumağı, sonra da "Durak" və "Levifian" adlı rus filmlərinə baxmağı tövsiyyə elədim. *"Kitab rus insanını duymağa, filmlər də Rusiyanı dərk eləməyə kömək edər"*, dedim. Danışıq ruscası sən deyən yaxşı olmasa da, rus ədəbiyyatını rus dilində oxuya bilirdi tanışım.

Bir müddət sonra onunla rastlaşanda kitabı oxuduğunu, filmlərə də baxdığını söylədi. *"Doğrudan da Rusiya ağılla dərk olunmazdır!",* sözlərinə belə cavab verdim: *"Hər halda öz klassikləri anlayıbmışlar. Saltıkov-Şedrininmi, ya Zoşşenkanın sözüdür: "Yatsam, bir də yüz il sonra oyansam və məndən soruşsalar ki, Rusiyada nə baş verir, deyərdim: İçirlər və talan edirlər".*

Üzünü hələ də Rusiyaya tutanlara isveçli tanışıma söylədiklərimi də demək istərdim...

Son iki əsrin cəmi 3 ilini Rusiyasız yaşamışıq: 1918-1920, bir də 1992-1993-illərdə. Bu gün Azərbaycan tarixi növbəti ”rusiyalı” dönəmini yaşayır. Cəmiyyətin bunu dərk və dərd edən kəsimi mətbuatda, sosial şəbəkələrdə müzakirələr açır. Rus dilinin qeyri-rəsmi dominanta çevrilməsindən, xarici və daxili siyasətimizdə Rusiya xəttinin aydın sezilməsindən narahatlığını dilə gətirir. Bu kəslər bilirlər ki, biz hətta rus dilini dövlət dili eləsək belə, Rusiya bizə Qarabağı qaytarmağa imkan verməz, sivil dünyaya inteqrasiya etməyimizlə barışmaz!

***

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan 100 il keçir. Müsəlman Şərqinin ilk dünyəvi respublikasına bolşevik Rusiyası son qoydu. Amma AXC-ni tarix səhnəsindən silə bilmədi. Biz onu yenidən bərpa etdik.

Azərbaycanı azad, demokratik, Qarabağı xilas etmiş bir dövlətə də çevirəcəyik. Bunu ”Rusiya sindromu”na yoluxmayan insanlarımız edəcək.

Aprel 2020


1979-81

# Dərkolunmaz Rusiya

Boris Nemtsovun Kreml yaxınlığında qətlinin səhəri günü bir görüşdə isveçli bir tanışım rus xalqının xarakteri barədə məni söhbətə tutdu. Xeyli sual verdi. Keçmiş Sovet ölkəsindən olduğumu bildiyindən elə zənn eləyirdi ki, bu mövzuda çox bilgim var. Ürəyimdə deyindim: “Rəhmətliyin qızı, neçə yüz ildir bütün dünya “загадочная русская душа” (sirli rus ruhu) mifindən baş aça bilmir, mən sənə bu dar macalda onu necə izah edim!”

Rus şairi Tyutçevin məşhur “Rusiya ağılla dərk olunmaz!” (“Умом Россию не понять”) misrasını ona söyləyib dedim ki, mənim fikirlərim səndə tam təsəvvür yaratmaya bilər, gəl sənə bir məsləhət verim. Ona Karlskrona şəhər kitabxanasının rus bölməsindən Aleksey İvanovun ötən il oxuduğum “Coğrafiya müəllimi qlobusu “gillətdi” (“Географ глобус пропил”) romanını götürüb oxumağı, sonra da “Durak”, “Levifian” adlı rus filmlərinə baxmağı tövsiyyə elədim.

“Kitab rus insanını duymağa, filmlər də Rusiyanı dərk eləməyə kömək edər”, dedim. Danışıq ruscası sən deyən yaxşı olmasa da, rus ədəbiyyatını rus dilində oxuya bilirdi tanışım.

***

Nemtsovun ölümü tək Rusiya yox, bütün dünyada son illərin ən ciddi siyasi qətllərindəndir. Dünya mətbuatının müzakirə mövzularından olan bu cinayət çoxlarında soyuq duş effekti yaratdı. Amma nə qədər səs-küylü hadisə olsa da, məni təəccübləndirmədi. Nemtsova başqa rus siyasətçilərindən yaxşı mənada fərqli münasibətim olduğundan sadəcə ürəyim ağrıdı.

İstənilən rus intellektualı, liberalı, canım sənə desin, demokratını danışdırsan müəyyən mərhələdə təfəkkürünün imperialist qatına çatacaqsan. Soljenitsından üzü aşağı hər kəsdə belədir. Nemtsovda isə mən bilən bu qat yox idi. Bəlkə də vardı, mən rastlamadım.

Niyə təəccüblənmədim bu qətlə? Səbəbi haqda düşündükcə təsəvvürümdə Rusiyanın qorxunc şəkli daha da qatı rəng alır. Bu nədir, Rusiyada insan ağlına sığmayan elə olaylar baş verər ki…

Fantaziyamda xeyli uzaqlara getdim.

Məsələn, bir gün eşitsəm ki, faşizmə qələbənin 70 illiyi münasibətiylə Moskvaya gələn Almaniya kansleri Angela Merkel öz məlahətiylə Kremldə kimisə 1945-ci ildə sovet əsgərlərinin milyonlarla alman qadını üzərində tarixi “şücaət”ini (kütləvi zorlama) xatırladaraq vəcdə gətirib, o kimsə keflənib xanım kanslerə elə Kremldəcə şəhvani təcavüz edib, təəccüblənmərəm. İnanaram!

Əsgərliyini sovet Rusiyasında keçirmiş, ömrün şüurlu çağlarında dəfələrlə bu ölkəyə səfər etmiş biri kimi gördüklərimə müasir Rusiya həyatını əks etdirən oxuduğum kitabların, baxdığım filmlərin təəssüratını, prezident Putinin atkeçməz işlərini də əlavə etsəm, belə bir qətlə təəccüb eləmədiyimin səbəbini daha aydın izah etmiş olaram, zənnimcə.

İndiki Rusiyanı nə onun mətbuatından, nə televiziyasından görmək mümkündür. Qərb analitiklərinin təhlili yazılarından da boy vermir Rusiya həqiqətləri. Məncə, Rusiya özünün əsl üzünü son iyirmi ildə yazılan roman, çəkilən filmlərində göstərir.

İctimai-sosial əxlaqın abortundan bəhs edən kitabları, filmləri deyirəm.

***

Dünən isveçli tanışımla yenə rastlaşdım. Atüstü söhbətdə kitabı oxuduğunu, filmlərə də baxdığını söylədi. “Doğrudan da Rusiya ağılla dərk olunmazdır!”, dedi.

“Amma Saltıkov-Şedrin Rusiyanı anlamışdı”, dedim. Səhv etmirəmsə, onun sözüdür: “Əgər yatsam, bir də yüz il sonra oyansam və məndən soruşsalar ki, Rusiyada nə baş verir, deyərdim: İçirlər və talan edirlər”.

Tanışımın daha mənə sualı yox idi. Hər şeyi, mənim Nemtsovun qətlini sakit qarşılamağımı da anlamış kimi görünürdü! Heç Putinin yoxa çıxması da ona qəribə gəlmədi. Guya Rusiyada prezidentin on gündür itməkliyində qeyri-adi bir şey yoxmuş. Hətta kansler Merkel söhbətim də ağlına batdı.

Ondan ayrılanda ağlıma gəldi ki, nə yaxşı tanışım məndən müasir Azərbaycan haqda təsəvvür yaradası roman, film istəmədi. Neyləyəcəkdim? Buna da başqa isveçlilər kimi hələ 1973-cü ildə Stokholmda nəşr olunmuş “Ali och Nino” kitabını oxumağı tövsiyyə edəcəkdim? Vətənin 100 il əvvəlinə işıq tutan romanı!

Bir də ki, bu 100 ildə çoxmu dəyişib, vətən?! Saltıkov-Şedrinin sözü olmasın…

15 mart 2015

## Rusiya səfirinə məktub

Rusiya Federasiyasının Azərbaycandakı səfiri cənab Vasili İstratova

Cənab səfir!

Bu kiçik məktubu kimə ünvanlamaq barədə çox düşündüm: Rusiyadakı dostlaramı, hər cür hörmətə layiq ictimai xadimlərəmi, yoxsa dövlət rəsmilərinəmi? Darmacalda son əlçatan Sizi bildim.

Mənim polisim bu məktubu Sizin səfirliyin qarşısında oxumağa və şəxsən Sizə təqdim etməyə imkan vermir. Odur ki, mətbuatla çatdırıram. Mən nə dövlət adamıyam, nə də diplomat – fikirlərimi heç nəyə bükmüdən çılpaq deyəcəm.

Sizin təmsil etdiyiniz dövlət Gürcüstana qoşun yeridib, yenidən Qafqazı işğal etmək fikrinə düşüb. Gürcüstan "vilayət statuslu" torpaqlarının zəbt olunması bir azərbaycanlı kimi məni narahat edir, çünki mənim də Qarabağ adlı belə "yaralı" torpağım var. Bir qafqazlı kimi isə qüruruma toxunur.

Artıq üçüncü dəfədir ki, Kremldən Qafqaza qoşun yeritmək əmri verilir. Kreml deyəndə mən Rusiya imperiyası, bolşevik Rusiyası və Rusiya Federasiyasını nəzərdə tuturam. Hər üçünün qonşulara münasibəti mahiyyətcə oxşardır.

Rusiya Qafqazı uzun illərin müharibəsindən sonra zəbt edə bildi. Şeyx Şamil, onun kimi yüzlərlə insan bu işğalla barışmadı. Sovetlərin də işğalı asan olmadı. Minlərlə insan əldə silah dağlara çəkildi, 1940-cı illərədək vuruşdu. Qafqazlılar hər fürsətdə azadlıq mücadiləsinə başlayıblar. Bunu Siz məndən də yaxşı bilirsiz.

Sizə indi də asan deyil. Blmirəm niyə bizim azadlığımızı həzm edə bilmirsiz? Biz azadlığı sevirik, çünki onun nə demək olduğunu bilirik. Bəlkə də bu bizim "təhkimçi" və "proletar" ola bilməməyimizdəndir. Məgər aydın deyilmi ki, Siz bu 200 ildə Qafqazı məğlub edə bilməmisiz?! Torpağı zəbt, minlərlə insanı məhv etmək olar, ruhu yox. Siz Qafqazın ruhuna qalib gələ bilmədiniz. Amma Qafqazı sevgi və hörmətlə ram etmək olardı. Siz lap əvvəldən, 200 il qabaqdan səhv etdiniz.

Hələ 1980-ci illərin sonunda Soljenitsin Qafqazı Rusiyanın "kəsilib atılması" vacib olan "qara yarası" adlandırırdı. Mən bu böyük insanın Puşkin, Lermontov və sairələrin heyran qaldığı bir diyarı niyə "qara yara" adlandırmasının səbəbini bilirəm. Bədəndə yad cism yaşaya bilmədiyi kimi Qafqaz da bu 200 ildə Rusiya ilə vahid orqanizm olmadı. Siz hələ də 20-ci əsr rus patriaxının nəsihətini eşitmirsiniz.

Qafqazda "oyuncaq dövlətləri" yenə 5-10 ildə əldə saxlayın, sonra nə olacaq? Bu torpaqları, orada yaşayanları Sibirə, ya Tayqaya aparası deyilsiz. Əvvəl-axır özünüz çəkilib gedəcəksiz, Mərkəzi və Şərqi Avropadan getdiyiniz kimi. Mən bu xalqların yenidən bir yerdə firavan yaşayacağına əminəm. O vaxt sizlər heç də xoş təəssüratla xatırlanmayacaqsız. Hifrəti qazanmaq onu unutmaq qədər çətin deyil. Biz hələ də 1989-cu ilin 9 aprelini, 1990-cı ilin 20 yanvarını unuda bilməmişik.

Cənab səfir!

Bizi ram etmək haqda düşünməyin, bizimlə dost olun. Siyasətinizi 180 dərəcə dəyişsəz görərsiz ki, biz nə qədər mehriban, qonaqpərvər və dostcanlıyıq. Bu torpaqlardan heç kim köçüb getməyəcək. Siz bizim mehriban qonşumuz olsanız biz özümüzə dünyanın o başında dost axtarmarıq.

Bir qədər acı sözlərimdən inciməyin. Axı, yazmışdım ki, mən diplomat deyiləm.

Mehriban qonşu olmaq arzusu ilə,

Vahid Qazi

“İnam” Plüralizm Mərkəzinin sədri

10 avqust 2008

# Çernobıl, xilaskar ata, bir də mən

Sovet deyəndə dodağı dörd yerdən çatlayanlara təzəcə çəkilmiş ”Çernobıl” serialına baxmağı məsləhət görürəm. Müstəqillik illərində doğulan gənclərə isə baxmağı ona görə tövsiyyə edirəm ki, hansı mənəvi-siyasi irsin daşıyıcısı olduğumuzu bilsinlər. 28 ildir insan yönlü cəmiyyət qura bilməməyimizin səbəbi haqda düşünəndə bu bilgi gərəkləri olar.

”Durak” nə qədər sovetin rəsmi varisi indiki Rusiyaya güzgü tutan filmdirsə, o serial da bizim bəzən xoş xatirələrlə andığımız, hərdən lap nostalji duyğular yaşadığımız, əslindəsə gerçək simasını görmədiyimiz Sovetin mahiyyətini sərgiləyir.

Filmdə o dəhşətli səhnələri seyr edərkən, xüsusən də bəxtsiz sovet əsgərlərinin faciəli durumuna baxarkən istər-istəməz öz əsgərlik çağım yadıma düşdü. Atamın Çernobıldan məni necə xilas etməsini xatırladım.

Söz vaxtına çəkər, 1986-cı ilin iyun ayı idi, atam, dayım, əmim məni əsgərliyə yola salmaq üçün Biləcəriyə gəlmişdilər. Maraqlanıb öyrəndilər ki, bu günkü çağırışçıları Ukraynaya aparırlar. Bunu eşidəndə atamın düşdüyü halı kaş təsvir edə biləydim. Onun ”Çernobıla aparırlar!” nidası hələ də qulağımdadır. Atamın üzündə əvvəllər heç vaxt şahidi olmadığım bir təşviş gördüm. İki ayağını bir başmağa dirədi: ”Olmaz, ora olmaz!”

Kiminlə nə danışdıqlarını bilmədim, tək onu bildim ki, məni bir həftə sonrakı ”otpravka”ya saxladılar. Dayım dost-tanışı işə saldı, atam kiməsə görüm-baxım elədi, nəhayətdə, Kuybışevə, indiki Samara şəhərinə gedənlərin siyahısına düşdüm.

Çernobıl qəzasından iki ay keçmişdi. Oradan təzadlı xəbərlər gəlirdi. Faciənin miqyasından heç kimin xəbəri yox idi, heç atam da əslində orada nə baş verdiyini sonacan kəsdirmirdi. Amma elə bil serialdakı dərisi əriyib paltarına qaynaq olan əsgərləri gözüylə görmüşdü.

Bir sözlə, o vaxt atamın panik təkidiylə atom şüalanmasından uzaq bir yerə göndərildim. Buna nəyin ironiyası deyim, bilmirəm – Kuybışevdə təlimlərdən sonra Orenburqun Totsk deyilən səhrasında piyada motoatıcı diviziyaya düşdüm. Qışda mənfi 50 dərəcə şaxta, çöllü-biyaban, köhnə sovet tankları, bir də arıq, çəlimsiz sovet əsgəri bəndəniz…

Bura 1954-cü ildə atom bombası atılmış Totsk poliqonudur.

Taledən qaçmaqmı olar, illah da SSRİ kimi ölkədə!

Sonralar biləcəkdim ki, poliqonunda tank sürməyi öyrəndiyim Totskda 1954-cü ildə marşal Jukovun komandanlığı altında atom silahı sınaqdan keçirilibmiş. Dünya hərb tarixində misli görünməyən qorxunc bir təlimdən danışıram. On minlərlə atı, inəyi, donuzu, it-pişiyi, toyuq-cücəni… və 45 min əsgəri – öz vətəndaşını hərbi sınağa görə qurban verən bir dövləti gözünüzün qabağına gətirin!

Nəyə görə o seriala baxmanızı istəyirəm?

Bilirəm, Svetlana Aleksiyeviçin Nobel mükafatlı ”Çernobıl duaları. Gələcəyin xronikası” kitabını oxumağa vaxt yoxdur. Ciddi kitabların pop-kültür kölgəsində qaldığı zamanədə yaşayırıq. Baxsanız, görəcəksiniz ki, “Çerbonıl” mini-serialı insanı ”adam yerinə qoymayan”

bir siyasi sistemdən danışır. Belə ölkələrdə vətəndaş insan yox, statistik rəqəmdən başqa bir şey deyil.

”Hər şey insan üçün” prinsipiylə qurulan cəmiyyətlərdən fərqli olaraq, insanın dəyərsiz olduğu siyasi sistemlər bir-birinə oxşayırlar. Belə sistemlər hələ də var və biz buna indi də şahidik.

Bəşər tarixinin ən dəhşətli texnogen fəlakəti haqda xəbəri kommunistlər siyasi propoqanda naminə gizlətməyə çalışdılar. Gizlədə bilməyəndə miqyasını kiçiltməyə can atdılar.

“Çernobıl” serialının tamaşaçıya bir mesajı da odur ki, vicdanı deqradasiya uğramışları hakimiyyətə yaxın buraxmaq olmaz!

Tək Rusiya deyil, əksər keçmiş Sovet ölkələri də sosializmin mənəvi varisləri, irs daşıyıcılarıdır. Serialda sadə insanların fədakarlığı, on minlərlə əsgərin, yanğınsöndürənin, şaxtaçının qəhrəmanlığı fonunda öz vətəndaşlarının taleyinə biganə ölkə rəhbərliyi də yer alıb. Xalqa, sadə insanlara keçmiş kommunistlərin münasibətini sonralar da az görmədik.

Azad cəmiyyətlərdə olduğu kimi azad olmayan ölkələrdə də adamlar bərabərdilər. Amma birində hər şeydilərsə, o birində heç nədilər!

Onda atam məni xilas etdi, əks halda o serialdakı qurbanlıq əsgərlərdən biri olmaq ehtimalım çox böyük idi.

İndi atam yaşdayam. Mən də xilaskar olmaq istəyirəm! Xilası balalar üçün insanın ən ali varlıq sayıldığı bir cəmiyyət qurmaqda görürəm.

Mənim nəslim müstəqilliyə nail olsa da, insansevər bir cəmiyyət qura bilmədi. Çünki özündən, daşıyıcısı olduğu müti irsdən azad deyildi.

“Çernobıl” serialına baxın, illah da gənclər! Ataların bir vaxt yaşadığı ölkəni görüb başınıza çarə qılın – özünüzə insan üzlü ölkə düzəldin!

7 iyun 2019

# 103 yaşlı siyasi oyun aləti

Erməni məsələsi Rusiya, ABŞ, Fransa, İran kimi bir-birinə rəqib, hətta düşmən dövlətləri birləşdirən maraq nöqtəsidir. 1915-ci il olaylarına "soyqırımı" deməklə Co Bayden təzə bir iş görmür, sələfi Vudro Vilsonun 100 il qabaq başlatdığı siyasəti davam etdirir.

"Qəsb olunmuş Ermənistan" ("Ravished Armenia") adlı film 1919-cu ildə ABŞ-da çəkilib. Amerikaya yenicə gələn qaçqın ermənilərdə belə bir filmi çəkməyə heç pul demirəm, hay nə gəzirdi.

Bəs bu filmi kim çəkib, nə məqsəd güdüb?

Vaşinqtona son səfərimdə dostum İrena Lasota mənə Günter Levinin "Osmanlı Türkiyəsində erməni qırğını: mübahisəli soyqırımı" (Guenter Lewy, "The Armenian Massacres in Ottoman Turkey: A Disputed Genocide") kitabını bağışlamışdı. Həmin kitabda müəllif yazır ki, ermənilərin Şərqi Anadoludan deportasiyası genosid siyasəti yox, müharibə dövründə düşmənlə separat işbirliyinin, üsyanların, türklərə edilən qətliamların qarşısını almaq məqsədi güdüb. Qətllər genosid xarakteri daşımayıb, çünki onları hökumətin təşkil etdiyi sübuta yetirilməyib: *"Deportasiyanın həqiqətdə Türkiyə ermənilərini qabaqcadan düşünülmüş plana əsasən qırmaq məqsədi daşıdığı bir çox aspektlərə və köçürmənin xüsusiyyətlərinə uyğun gəlmir".*

Rusiyaya sərhəd bölgələrdə, şərqi və mərkəzi Anadoluda yaşayan ermənilər köçürülüb. İstanbul, İzmir və Hələb kimi şəhərlərdən ermənilər deportasiya edilməyib. Ölkənin dəmiryolu olmayan şərq rayonlarından piyada köçürmə zamanı yolda ölənlər heç bir vəchlə soyqırımı prinsiplərinə uyğun deyil. *"Osmanlı hökuməti nizamlı proses təşkil etmək istədi, ancaq onu həyata keçirmək üçün vasitəsi yox idi".*

Başqa bölmədə o, Çarlz Dovset və Malkolm E.Yapp (Charles Dowsett, Malcolm E.Yapp) kimi tarixçilərin mənbələrinə, ABŞ-ın Paris Sülh Konfransında Yaxın Şərq üzrə rəsmisi Corc Montqomerinin (George Montgomery) cədvəllərinə, həmçinin İstanbuldakı Erməni Milli Şurasının rəqəmlərinə əsaslanaraq sübut edir ki, həmin dövrdə ölənlərin sayı iddia edildiyi kimi milyon yarım olmayıb. *"Həmin dövrdə heç bir ölüm statistikası mövcud deyildi".*

Bu kitabda ən vacib məqamlardan biri də Henri Morgentaunun məktublarıdır. 1912-ci ildə Vudro Vilsonun prezident seçkisi kampaniyasına rəhbərlik etmiş Henri Morgentau 1913-cü ilin noyabrından 1916-cı ilin fevralınadək İstanbulda ABŞ-ın səfiri olmuş, eyni zamanda Türkiyə ilə müharibə aparan Antantanın marağını təmsil etmişdi.

Morgentau ABŞ dövlətinin müharibə siyasətində qələbə çalmasına yardım etmək üçün öz təklifini prezident Vilsona 1917-ci il noyabrın 26-da yazdığı məktubla bildirir. Burada Morgentau müxalifət və müharibəylə bağlı ümidsizliyini ifadə edir və bu vəziyyətdə dəyişiklik yarada biləcək bir kitab dərc etmək istədiyini yazır: *"Elə bir kitab yazmaq istəyirəm ki, təkcə Almaniyanın Türkiyə və Balkanlara nüfuz etməsini deyil, eyni zamanda dünyanın istənilən ölkəsində meydana gələn bu tipli sistemi faş edə bilim. Türkiyəyə gəldikdə, burada biz Almaniyanın ən zəhərli halda ziyanlı təsirini görürük – bu isə yaşından asılı olmayaraq hər bir kəsin qətlə yetirilməsində, köməksiz erməni və suriyalıların dəhşətli şəkildə öldürülməsində kulminasiya nöqtəsinə çatdı. Bu əhvalatın belə bir ayrıca detail, Almaniyanın*

*bu işi təşviq etməsinə gəlincə, kiçik şəhərlərdə, rayonlarda yaşayan amerikalılara müraciət onları nəticəsi qələbə olacaq müharibə aparmaq siyasətinə inandırmağın ən uğurlu vasitəsi olardı".*

Burada erməni qırğınlarının miqyası və mahiyyəti qəsdən təhrif edilir. Türkiyənin, xüsusilə Almaniyanın düşmən obrazı ABŞ hökumətinin okeanın o tayında müharibə siyasətinə bəraət qazandırmış olur.

Təklif qəbul edilir və sonralar ermənilərin erməni soyqırımına görə istinad edəcəkləri əsas sənəd 1918-ci ildə "Səfir Morgentaunun xatirələri" ("Ambassador Morgenthau's Story") adlı kitab şəklində nəşr olunur. Onun bu təklifi sonralar başqa ölkələrə münasibətdə də təzyiq siyasəti kimi istifadə olunan yeni üsula, "soyqırımı" terminli siyasi oyun alətinə çevrildi.

Yuxarıda söz açdığım film nə məqsədlə çəkilib? Bu suala ABŞ diplomatı Henri Morgentau filmin baş rollarından birinə çəkilməsi ilə özü aydın cavab verir.

26 aprel 2021


HUMAN RIGHTS


HUMAN RIGHTS


HUMAN RIGHTS

# Demokratiyanın yarımçıq təbəssümü

*“Yaddaş ləpirləri” silsiləsindən*

Hələ 10 il əvvəl Varşavada Polşanın xarici işlər naziri Bronislav Geremekin, ABŞ-ın dövlət katibi Madlen Olbraytın təşəbbüsü ilə yaradılan Demokratiyalar İcmasının imzalanma törənində bəxtəvər-bəxtəvər gülümsəyib əl çalanda demokratiyanın dünya dolusu böyüyüb icma-icma bütün Yer üzünü tutacağına inanmışdım. Bəlkə (həm də) ona görə ki, dünyanı yönləndirməyə iddialı dövlətin xanım təmsilçisinin mühafizəsindəki boynuyoğun, laydivar oğlanlarla yanaşı, yalan olmasın, bir metr boyunda vahiməli itlər basılmaz qoruqçu təsiri bağışlayırdı. Düşünürdüm ki, demokratiyalar da beləcə mühafizə olunacaq.

İyulun əvvəlində Polşanın bu dəfə başqa bir şəhərində – Krakovda Demokratiyalar İcmasının 10 illik yubileyində iştirak edəndə ta o itləri görmədim. Heç o boynuyoğun, laydivar oğlanlar da gözə dəymədi. Onların yerini adi mühafizəçilər tutmuşdu. Baxmayaraq ki, xanım Madlen Olbrayt da orada idi, onun xələfi, indiki dövlət katibi xanım Hillari Klinton da gəlmişdi, “xalqa çağırış” üslubunda çıxış da elədi. Maraqlı, düşündürücü, lap 10 il əvvəlki sələfinin çıxışı kimi.

***

Demokratiya münbit olmayan torpaqda kövrək bir ağacı bəsləməyə bənzər. Köksüzdür, gücsüzdür, həssasdır, qayğıya ehtiyacı var. Amma tutdumu, cücərib yarpaqladımı, min-min köklü-budaqlı ağacdan da sevimli olacaq. Balasını gec tapan ailənin sevinci kimi.

Demokratiya qarşılıqlı münasibətdə, daim ünsiyyətdə olanların harmonik davranış məkanıdır. İncəlik sevər, qabalıq ona yaddır. Demokratiya elə mexaniki düzümdür ki, iştirakçıların hamısının bu prosesdə rolu, payı var: saat zəngi saatın içindəki irili-xırdalı neçə-neçə detalın bir-birinə bağlı hərəkətinin, “birgə əməyinin” məhsuludur, bir nəfərin qol gücü ilə hərəkətə gəlib çalınan kilsə zəngi deyil.

Demokratiyanın problemi, çətinliyi ondadı ki, o, insanları inandırmalıdır. İnandırmaq demokratiyanın mahiyyətindədir. Avtoritarizm buna ehtiyac duymur. Adamları inandırmaq aldatmaqdan çətindi (adamların inanmağa yox, aldanmağa meyilli olması başqa mövzudur, bunu demirəm). Odur ki, avtoritar idarəetmə demokratik idarəetmədən asandır…

***

Yalnız demokratiya sabit inkişafa, nəsillərdən-nəsillərə ötürülən rifaha təminat verir. Demokratiyasız bazar iqtisadiyyatı mümkün deyil. Bazar iqtisadiyyatı model olaraq başqa yerlərdə də tətbiqə güvənli görünməlidir. Çinin son 30 ildəki nəhəng inkişafı mifdir. Zəngin ərəb ölkələrinin də rifahı “beli bağlı” deyil. Çünki model olaraq ixraca yaramır. Azad, demokratik olmayan ölkə rifah modeli yarada bilməz.

İqtisadi inkişaf ölkədə urbanizasiyanı gücləndirir. Buna görə avtoritar rejimlər kənddə daha güclüdür. Urbanizasiya avtoritar rejimləri çökdürür. Çinin qüdrətli gələcəyi iqtisadi yüksəlişlə demokratiyanın simbiozundan (biologiyada simbioz belə başa düşülür: iki orqanizmin bir-birindən istifadə edərək müştərək yaşaması) keçir.

***

Bu günün bəlası korrupsiyadır. O, artıq epidemiyaya çevrilib. Kimi bu xəstəliyin daşıyıcısıdır, kimi də yenicə yoluxub. Kimi epidemiyanın kənarında, kimi episentrindədir, biz də elə bura yaxınıq. Korrupsiya demokratiyanın düşmənidir, şoran torpaq bitkilərin qənimi olan kimi. Demokratiyanın kökünü qazsa, korrupsiya qazacaq.

Rusiyanın keçmiş oliqarxı, indiki siyasi məhbusu Mixail Xodorkovski "Vaşinqton Post" qəzetinə göndərdiyi məktubunda belə yazır: *"Dünya üçün təhlükə nüvə müharibəsi deyil, korrupsiyadır. Əgər dünya korrupsiyanın qarşısını almasa, korrupsiya dünyanın inkişafını durduracaq".*

Mənim qorxum da elə demokratiyanın korrupsiyalaşması qorxusudur…

***

Konfransda neçə-neçə ölkənin indiki, keçmiş lideri, dünya çaplı siyasətşünaslar, iqtisadçılar, demokratiya fədailəri çıxış edirdi. Bu çıxışlardan son illər dünya boyu demokratiyaya qarşı təhdidlərin nə qədər artdığı aydın görünürdü. Mövqeyi xeyli zəifləsə də, yenə ümid demokratiyayadır. Üzü Birmadan bəri, yönü Kubaya qədər danışanlara mən də qulaq kəsilmişdim. Onlara baxıb 10 il əvvəlimi – demokratiyanın dünya dolusu böyüyüb icma-icma bütün Yer üzünü tutacağına inandığım vaxtı xatırladım. Onlar mənim kimi ümidli görünmürdülər. Dünyanın ən qapalı ölkələrinin təmsilçilərinin üzündəki yarımçıq təbəssümü görəndə demokratiyanın minlərlə tərifinin biri də beləcə yarandı: "Demokratiya ümiddir".

…Krakova səfər xərclərimi Soros Fondu ödədiyindən (sağ olsun) hesabat yazmalı idim. Əvəzində bu yazı alındı…

16 iyul 2010

# Pavian diktaturası

*Kopenhagen zooparkından reportaj*

Kopenhagen zooparkında diqqətimi ən çox çəkən pavian meymunları oldu. Qəfəsdə pişiyə dönən pələnglər, naz-qəmzəli astagəl zürafələr, cəngəllik xiffəti çəkən fillər, dünyanı eyninə almayan gönüqalın kərgədanlar, minilmədiyindən beli ceyran beli kimi zərifləşən dəvələr bu meymunlar qədər maraqlı deyildi. Yalan olmasın, düz bir saat tamaşalarına durdum.

Nəhəng qəfəsdə analı-balalı onlarla meymun vardı. Burada həyat sanki xüsusi yazılmış qayda-qanunla tənzimlənirdi. Cəmiyyət dəqiq qurulmuş mexanizm üzrə idarə olunurdu. Böyük ailə ata meymunun iradəsinə tabe idi. Onun nəzarətindən kənar nəyinsə baş verməsi mümkünsüz görünürdü. O, istədiyi meymunu mükafatlandıra, istədiyini cəzalandıra bilirdi.

Tamaşa elədiyim müddətdə pavian cəmiyyəti gündəlik həyatını yaşayırdı: ana meymunlar körpələri əmizdirir, balalar oynaşırdı. Biri qayalara dırmaşır, o biri ağacdan sallaşır, başqası yanını qaşıyır, zirəyi fağırın əlindəkini qapıb yeyir, sonra da ona acıq verirmiş kimi irişir, küsdürülmüşü küncə çəkilib dalğın baxışlarla harasa baxır, qarınqulusu əliylə yumurta soya-soya ayağıyla bananı bərk-bərk tutur – bir sözlə, meymunluq edirdilər.

Ana meymunlar təzəcə doğulmuş balalarını quyruqlarından tutaraq aralanmağa qoymurlar. Özləri də bir yana gedəndə balalarını gah dallarına alır, gah da quyruqlarından yapışıb sürüyürlər. Sanki balalarını başqa ana meymunlardan qoruyurlar, qəfəs içində başqa qorxulu nə ola bilərdi ki?! Bəlkə də genetik yaddaşında bir vaxtlar yaşadığı təbiətdən qalma qorxulu bir şeylər vardı. Amma bəzən qapalı qəfəs içində olan qorxunc olaylar min bir təhlükənin dolaşdığı cəngəlliklərdə də olmur.

Burda da insan cəmiyyətində olduğu kimi gizli-açıq mübarizə gedirdi. Uzun müddət seyr edəndə bunu duyursan. Kaş onları anlaya biləydim – dünyanın ən maraqlı reportajını yazardım.

Ata meymun adətən qəfəsin ən hündür yerində, qayaların başında oturur, ailəsinə oradan nəzarət edirdi. Səs-küy artanda, meymunlar səslərini başına alanda Ata meymunun qışqırığı bəs edirdi – bir anlıq elə bilirdin qurbağa gölünə daş atdılar. Artıq səs salan, "qaydalar"dan kənara çıxan ana meymunların cəzası ağır olurdu. Onlar Ata meymunun cinsi təcavüzünə məruz qalırdılar. Tək bir saat ərzində üç belə cəzalandırma prosesinə şahid oldum. Proses zamanı ana meymun müti halda Ata meymuna tabe olur, onun istəkləri qarşısında sükut edirdi. "Cəza prosesi"ndən sonra ana meymun elə lal-dinməz olurdu, elə büzüşüb bir kənara çəkilirdi ki, deməzdin az öncə qara-qışqırıq eləyib səsini başına alan bu imiş (Amma bu dekadentlik elə də çox çəkmirdi, tezliklə o yenə əvvəlki ovqatını bərpa edəcəkdi). Ata meymunsa nərildəyib-guruldayıb öz yerinə – hündürdəki taxtına qayıdırdı.

Başqa bir cəza növü isə arxa qəfəsə sürgün idi. Zooparkda pavian ailəsi üçün iki böyük qəfəs ayrılıb. Biri bizim tamaşa elədiyimiz açıq havadakı idi, o biri qəfəs isə üstü bağlı tikilidə yerləşirdi. Meymunlar qəfəsdən qəfəsə bir neçə balaca deşik-qapıdan keçirdilər. Ata meymunun qəzəbinə tuş gəlmiş pavian cəza yeri kimi isti havada tamaşaçısı tək-tük olan bağlı qəfəsə girirdi.

Diktaturalarda ədalət olmur, istər heyvan, istərsə də insanların yaratdığı cəmiyyət olsun. Zoopark işçisinin gətirdiyi yemək uğrunda meymunların mübarizəsi ədalət prinsipindən tamamən uzaq idi. Güclü zəifin payını yeyirdi. Yeməyin ədalətli bölgüsü mütləq hakim Ata meymunu da düşündürmürdü. O, təmin olunmuşdu, bəs deyincə yeməyi vardı.

Pavian ailəsi mənə Çarlz Darvini, xüsusilə də onun "İnsan və heyvanlarda emosional ifadə" kitabını xatırlatdı. 80-ci illərin Bakı bukinistlərində rastlaşdığım o kitab şəkilləriylə daha çox yadımda qalıb. Burda da meymunları izlədikcə bir daha əmin olursan ki, insan cəmiyyəti öz quruluşunu təbiət qanunlarından əxz edib. Bəzən unudub o qədər uzağa gedirik ki, təbiətin bir parçası, onun canlılarından biri olduğumuzu unuduruq. Bax, meymunlar mənə məhz bunu xatırlatdı – biz də təbiət canlılarından biriyik.

Əzab çəkən insanın sifət cizgiləriylə təcavüz olunan meymunun üzündə əmələ gələn ifadə necə də oxşardır. Gözlərini döşündən süd əmən balasına zilləyən ana meymunun razılıq təbəssümü Leonardo da Vinçinin "Madonna Litta" tablosundakı uşaq əmizdirən ananın təbəssümünün eynidir sanki. Təcrid olunan meymunun keçirdiyi hiss üzündən oxunurdu, əzabı kölgə təki üzünə çökən insanın yaşadıqları kimi. Xoşbəxt gülüşlərlə budaqdan budağa tullananların sevinci də bəxtəvər insan sevincindən heç nəylə fərqlənmirdi. Cəza verməkdən zövq alan Ata meymunun emosiyası gücü, hökmü çatana zülm edən insanın yaşadığı sadist duyğulara necə də bənzəyirdi.

Qəfəsdəki mövcud həyat özündən olanlar üzərində hökmranlıq eləyən insanların qurduğu rejim kimiydi. Yeni doğulan körpədən tutmuş başçıya kimi hamı dəqiq mexanizmlə idarə olunan sistemə tabe idi. Elə bil başçı hökm etmək, yerdə qalanlarsa tabe olmaq üçün doğulubmuş.

Tarixinin ilkin dövrlərində insanların yaratdıqları bütün cəmiyyətlər heyvanların mövcud birgəyaşayış modelləri əsasında qurulub. Bu eynilik canlıların hamısına hakim olan bir duyğudan qaynaqlanır – "güclünün zəif üzərində hökmranlıq istəyi". Bu, canlı məxluqatın intuitiv olaraq yaratdığı birgəyaşayış modelinin baş prinsipidir.

Bu hiss bütün canlılarda var. Ən çox da insanda. İnsanın özündən olan varlıqlara zülm verməkdə tayı yoxdur. Bənzərinə heç bir canlıda rast gəlməzsən.

Sonra tarixin min bir kəşməkəşindən keçən bəzi insan toplumları fərqli modellərlə "bərabər imkanlar cəmiyyəti" qura bildilər.

Bəziləri isə hələ də Kopenhagen zooparkında izlədiyim pavian diktaturasına bənzər cəmiyyətdə yaşamaqdadırlar.

19 avqust 2013

# Görünənin görünməyən üzü

*Yaxud Boris Yeltsinlə görüşü xatırladan "Satqınlar"*

2004-cü ilin sentyabr ayında yazıçı dostumuz Fəxri Uğurlunun toyuna yığışmışdıq. Tanıdığım qələm əhlinin çoxu gəlmişdi.

Dostlarla zarafatlaşıb dilxoşluq eləməkdən zövq alan vaxtlarım idi. Toyun axırına yaxın dostlarla havamızı dəyişib yenə sarayın ikinci mərtəbəsinə qalxırdıq. Ayağımı sonuncu pilləyə qoyanda qarşımda şair Qabili gördüm. Xumarlanan iri gözləri, dağınıq saçı, üzündəki ifadə, yerişi – tanımayanda da deyərdi ki, şairdir.

Umud Mirzəyev qolundan yapışıb yola salırdı. Qaçırılası mənzərə deyildi: "Umud, bu kimdir? Səməd Vurğun?"

Elə həyəcanla dedim ki, Qabil məəttəl qaldı. Umud əlini boğazına çəkdi, yəni mən ölüm, qoy yola salım. Rəhmətlik Qabil duruxmuşdu: "Nə Səməd Vurğun, əəə! İndiyə Səməd Vurğun qalar? Mənəm, şair Qabil!".

Üzümə heyrətlə baxdı, sonra Umuda çevrilib "Bu kimdir belə, məni tanımır?" dedi…

Zarafatım alındı, zala keçdim…

***

"Yutub"da Mariya Pevçixin "Satqınlar" sənədli serialının Boris Yeltsindən bəhs edən birinci hissəsinə təzə baxmışdım. Təsadüfdür, ya nədir, bilmirəm, Helsinqborq şəhər kitabxanasında oxumağa kitab gəzirdim ki, Aleksandr Korjakovun "Борис Ельцин: от рассвета до заката" ("Boris Yeltsin: sübhdən toranadək") kitabına rast gəldim.

Filmdə dünyaya liberal siyasi lider kimi təqdim olunmuş birinin hakimiyyətin elə ilk günlərindən, bütöv bir ölkənin aclıq keçirdiyi zaman şəxsi rifahı üçün elədiyi korrupsiya fırıldaqlarından, mayası kommunist xəmiriylə yoğurulmuş adamın demokrat obrazının necə yaradılmasından və bu sayaq söhbətlərdən sənədlərin diliylə danışılır.

Kitab haqqında çoxdan eşitmişdim, 1990-cı illərin sonuna yaxın bütün postsovet məkanı ondan danışırdı. Korjakov Rusiyanın ilk prezidenti Yeltsinin şəxsi cangüdəni, təhlükəsizlik xidmətinin rəisi olub. O sənədli filmdən sonra kitab daha da maraqlı gəldi.

Yeltsinin, ailəsinin şəxsi həyatı ilə yanaşı onların iştirakı ilə cərəyan etmiş siyasi olaylar, intriqalarla dolu kitab həm də yaşadığımız burulğanlı tarixin qaranlıq yerlərinə – SSRİ-nin süqutu, müstəqilliyin faciələrlə dolu ilk illərinə işıq tutur, olmuşlar DTK zabitinin müşahidələriylə təsvir edilir.

Hər görünənin görünməyən tərəfi də var. Bu, tək yerdə dağa, göydə aya deyil, hər şeyə aiddir. İllah da tanınmış adamların həyat gizlinlərinə. Sadə adamlara maraqlı gələn də məşhurların o görünməyən, bilinməyən üzüdür.

Qorbaçova müxalif lider kimi siyasi səhnəyə çıxan, "QKÇP" deyilən çevrilişə cəhd zamanı tank üstündə tarixi çıxışını edən, Belovejsk sazişiylə Sovetin iliyini vuran, demokrat, liberal imicli keçmiş kommunist rəhbərin görünməyən üzü kimi.

Yeltsinin simasında siyasətin görünməyən üzünü görmək üçün dediyim kitabı oxumaq, ələlxüsus da “Satqınlar” sənədli serialının “Böyük sui-qəsdin tarixi. Rusiyanı kim və necə işğal etdi” adlı birinci bölümünə (elə hamısına) baxmaq yetər.

Fikrim kitabdan və filmdən ətraflı danışmaq deyil, istəyim bir qənaətimi sizinlə bölüşməkdir. “Keçmiş çekist olmur” deyimi var, mən o deyimi belə davam etdirərdim: keçmiş kommunist də olmur.

***

Fəxrinin toyundan bir ay sonra İssık-Kula, Beynəlxalq Plüralizm Mərkəzləri Şəbəkəsinin növbəti görüşünə getmişdim. Üçgünlük görüş bir vaxtlar Kremlin kommunist boslarının dincəldiyi “Avrora” sanatoriyasında keçirilirdi. Neçə-neçə ölkədən demokratiya fəalı gəlmişdi. O vaxtlar ildə iki dəfə müxtəlif ölkələrdə yığışdığımızdan əksər iştirakçını tanıyırdım, çoxuyla xoş münasibətim vardı, dilxoşluq edəcək qədər yaxın olduqlarım da.

Dedim axı, ömrün oğlan çağlarında çılğın hərəkətlərim az olmayıb. Film də, kitab da öz yerində, o çılğın vaxtların dilxoşluq olaylarından birini də deyim – İssık-Kul sahilində Boris Yeltsinlə görüşdən danışım.

Tədbirin ikinci günüydü, eşitdik ki, Yeltsin gəlib, sanatoriyanın o biri korpusundadır. Axşam yeməyindən sonra yeməkxananın qabağında bir dəstə durub söhbət edirdik. Sanatoriyanın həyətində tünlük idi. Təcili yardım briqadası, milislər, bir neçə xüsusi mühafizəçi maşını vardı. Onda Yeltsin keçmiş prezident kimi xüsusi qorunurdu.

Bir də gördük Qırğızıstanın prezidenti Əsgər Akayevin xanımı Mayram Akayevanın müşayiətiylə gəlir. Ayaqları ataksiya xəstəsi kimi sözünə baxmırdı. Elə uzaqdan babat dəm olduğu bilinirdi. Qələbəliyi görüb səmtini dəyişdi, maşına yox, bizə sarı gəldi. Yaxınlaşıb salam verdi.

Üzümü yanımdakı gürcü dostum İvlian Haindravaya tutub hamının eşidəcəyi səslə soruşdum: “İvlian, kto on? Leonid İliç Brejnev?” Yəni, İvlian, bu kimdir, Brejnevdir?

Bilmirəm Brejnev 22 il qabaq gurultu ilə düşdüyü qəbirdə çevrildi, ya yox, amma dəstəmizin yaşlı üzvləri pıqqıldaşdı, Yeltsin isə üzünü turşudub mənə belə cavab verdi: “Kakoy Brejnev? Vı şto? Ya Yeltsin, Boris Nikolayeviç”. Yəni Brejnev nədir, mən Yeltsinəm, Boris Nikolayeviç.

“Salam, cənab prezident, bilirəm siz də zarafatcılsınız, dedim zarafat edim, əlbəttə, tanıyıram. Sizi tanımayan yoxdur” dedim.

Bizimlə xeyli söhbət elədi. Düzü, danışdıqlarından heç nə anlamasaq da – özbək dostumuza Saakaşviliylə voleybol oynadığını, gürcüyə Lukaşenko ilə əsgərlikdə birgə xidmət etməsini deyirdi – maraqlı idi.

Sonra zavallı Mayram xanım onu maşına apardı.

Biz isə maşın karvanı gözdən itənədək, görünənin görünməyən üzünə keçənədək baxdıq.

İyun 2024

Helsinqborq, İsveç

# Həyatdakı ”Vətəndaş A”lar

Vətəndaş – cahil düşüncənin, arxaik ənənələrin, zorakılığın, haqsızlığın Qanun, Ədalət, Haqq üzərində hakim olduğu cəmiyyətdə etirazçı-tənqidçi-maarifçi mövqe tutan, əməl sərgiləyən şəxsdir.

Vətəndaşlıq – yaxanı kənara çəkmənin tam əksi olaraq toplum, yeri gəlsə, bəşər qarşısında insanın məsuliyyət, cavabdehlik duyğusudur!

Hamı “Vətəndaş A” serialından danışır deyə maraqlı gəldi, mən də baxdım. Uğurlu aktyor oyunları – xüsusən Almaz, Hacı Əhməd obrazlarını canlandıranlar – öz yerində, fikrimcə, filmin tamaşaçı rəğbəti qazanmasına səbəb aktual mövzusudur. Süjeti reallıqlar üzərində qurulan bütün filmlər bəyənilir.

Adama qəribə gələn bu deyil!

Filmə baxıb düşünürsən: tamaşaçı haqqı boğulmuş cahil düşüncəli toplumda ədalət savaşı açan Vətəndaş A-nı – Almaz müəllimәni bu qədər sevirsə, onun kinoda yox, real həyatda prototipi olan “Vətəndaş A”ların həbsinə niyə biganədir?

Onlarla vətəndaş cəmiyyəti fəalı, jurnalist o filmdəki “Vətəndaş A”nın real həyatdakı əksidir. Onlar məhz vətəndaş mövqelərinə görə həbs olunublar. Buna kiminsə şübhəsi varmı?

Yekə çıxmasın, ömrün az qala 20 ilini vətəndaş cəmiyyətinin bərqərar olması yolunda “rus Əhmədlik” edərək kəndbəkənd, rayon-rayon maarifçi gənc vətəndaşların yetişməsinə sərf etmiş biri kimi Vətəndaşı kütlədə gözüm anında alır, qırımından seçirəm onu. Ona görə əminliklə deyirəm, bu gün dəstə-dəstə həbs olunan gənc fəalların, jurnalist həmkarlarımın çoxunu üzbəüz görməsəm də, tanıyıram. Tanıdığım üçün də o ittihamların heç birinə inanmıram.

Düz 10 il qabağın “Azərbaycanda vətəndaş cəmiyyətini kim öldürdü?” yazımda belə cümlə var: “Bir şeyi dəqiq bilirəm, bizdən, bizim nəsildən – bu materiyadan vətəndaş cəmiyyəti yaratmaq alınmayacaq, yeni materiya lazımdır. Yeni nəsil – gənclər edə bilər bunu. Gümanım onlara gəlir”.

10 il sonra da davam edən Vətəndaş mücadiləsində bizim buraxdığımız yükə çiyin verən gəncləri bu durumda görmək çox ağırdır, acıdır, üzücüdür.

Haqsız tutulan ictimai-siyasi fəalların, azad söz, ədalət carçılarının həbsdən buraxılmasını istəyirəm. Tələb də edirəm, xahiş də. Çünki onlar qaramat mühitdə ümid çırağıdırlar.

Çırağı sönən xalq qaranlığa məhkumdur!

İnanmaq istəyirəm, realda da filmdəki kimi olacaq – dövlət, məhz dövlət özünü yetirib ədalət işığını sönməyə qoymayacaq!

Sonda təşəkkür də edirəm! Belə aktual mövzunu ekrana gətirdikləri üçün yaradıcı heyətə, bir də nümayiş etdirdiyinə görə İctimai TV-yə.

12.12.2024

# Əraf

Fantasmaqorik hekayə

*"Qəfil gün doğsa bir gecə..."*

*Ramiz Rövşən*

Hasarın üstündə yerini rahatlayanda artıq gün günorta olmuşdu.

Ətraf ovuc içi kimiydi. Ucu-bucağı görünməyən yamyaşıl Bağda dünyanın dörd bir tərəfindən heyvan, ağac, gül, çiçək vardı.

Uzaq küncdə Arktika ayısını, ortada qaçışan Savanna antilopunu, tənha baobab ağacını, sağdakı "cəngəllik"də hind filini, sol yanda Amazon tutuquşusunu gözü dərhal almışdı. Fəvvarələr artezian kimi gur suluydu.

Bağın o biri başındakı nəhəng, yaraşıqlı Saray Tac Mahalı xatırladırdı, ondan da böyük idi. Ayrı-ayrı səmtdən baş alan üç yol Saraya uzanırdı. Hər yolun üstündə çoxlu Qapı sıralanmışdı. Əslində bunlara qapı demək də olmurdu, təkcə çərçivəsi vardı. Aeroportlarda, rəsmi binalarda təhlükəsizlik girişləri olur, onun kimiydi. Amma burda adamları yoxlamırdılar.

Yolların biri Hasarın o durduğu yerindən – sərhəd buraxılış məntəqəsinə oxşayan köşədən başlayırdı.

O biri yol üzübəri gəldikcə Qapılar böyüyürdü, bu yolda isə get-gedə balacalaşırdı.

Hasara yaxın birinci Qapı adama boy versə də, sonrakılardan keçəndə əyilmək lazım gəlirdi. Saraya çatan sonuncu Qapı isə çox balacaydı, uzaqdan çətin görünürdü.

Bağın giriş-çıxışı yoxuydu, içəri keçməkdən ötrü gərək Hasara çıxaydın. Burdan Bağa düşməyə pilləkən olsa da, Çöl tərəfə heç nərdivan da qoyulmamışdı, Böyük Çin Səddi kimi hündür, enli olan Hasar qədim qalaları xatırladırdı. Bağ xidmətçiləri yuxarı dırmaşmaları üçün dəvət edilənlərə kəndir nərdivan atırdılar.

Hasarın Çöl dibində həmişə basırıq olur. İndi də qalstuklu kişilər, rəsmi libaslı qadınlar yuxarı dırmanmağa girəvə gəzirlər. Tək-tək adam dəvət olunmuşdu, yerdə qalanlar uzun illər boyu divarı kəsdirib talenin bir gün üzlərinə güləcəyinə ümid edirdilər. Onlar Hasarın o tayı haqda sadəcə eşitmişdilər. Bağ təsəvvürləri kasadıydı. Saray barəsində isə, demək olar, heç nə bilmirdilər. Bildikləri tək oydu ki, xoşbəxtlik Hasarın o üzündədi. Bütün dünyanın xoşbəxtliklərini daşıyıb Hasarın o üzünə yığıblar, Çöldə heç nə qalmayıb.

Yaraşıqlı xidmətçilər kəndir nərdivanla yuxarı çıxardıqları adamları Hasarda təbəssümlə qarşılayıb xüsusi ayrılmış gözləmə zalına dəvət edirdilər. Qonaqlar burada növbəylə bağa düşmək üçün buraxılış vərəqini gözləyirdilər.

O da qonaqlar arasındaydı. Dəvət məktubu qəfil gəlmişdi, yatsa yuxusuna girməz, dursa ağlına gəlməzdi. Əvvəl rədd eləmək istəsə də, günlər keçdikcə maraq güc gəlmişdi. Onu bura gətirən də elə marağıydı. O üzdəkiləri görmək dini kitabların "o biri dünya" adlandırdığı cənnətə getmək qədər cəzbediciydi.

Hasarın üstündəkilər dibini kəsdirən Çöl əhli arasından seçilsələr də, onlardan xeyli fərqliydilər. Burda çirkin adama rast gəlməzsən, kişilər boy-buxunlu, yaraşıqlı, qadınlar bir-birindən gözəl. Çöldə hörmət-izzət sahibi olan bu adamlar ağıllı gözləriylə adamı sanki sehrləyirdilər. Elə bil üzlərində şeytan tükü vardı.

O, çoxunu Çöldə görmüşdü. Şəxsən tanıdığı da vardı. Bəzilərini lap cavanlıqdan, hələ Böyük Təlatüm İllərindən tanıyırdı, bir yerdə çox olmuşdular.

Salamlaşa bilməzdilər, burda görüşmək olmazdı. Sanki heç kəs heç kəsi tanımır, üz-üzə gələndə də ya baxışlarını qaçırır, ya da üzlərini çevirirdilər.

Hasarda elə bir qeyri-adi hadisə baş vermirdi. Hamı düşürüləcəyi saatı gözləyirdi, biri Çölə, o biri Bağa gedəcəkdi. Əsas Bağa düşməkdi. Düşən kimi axına qarışacaqsan.

Bağa hazırlaşanların cazibədar görünüşü belə Saray xidmətçilərini qane eləmirdi, qonaqları xüsusi qrimçilərin əliylə cənnət mələklərinə çevirəndən sonra birinci Qapıya ötürürdülər.

Bundan sonrakı gedişat bütün cazibəsiylə onun marağına hakim kəsilmişdi. Dəvətlilər birinci qapıdan üzdə xoşbəxt təbəssümlə keçirdilər. Bəs necə? Hər kəsə qismət olmayan, bütün Çöl əhlinin arzuladığı bir gün yaşayırdılar.

Növbəti Qapı bir baş aşağı olduğundan başı əyməli olurdular. Üçüncüdə beli bükür, dördüncüdə iki qatlanırdılar.

Sonrakı Qapıları ayaq üstə keçmək mümkün olmadığından hamı dizini yerə qoyurdu. Bir-iki Qapını dördayaqlı keçəndən sonra sıradakını yalnız sürünərək keçmək lazım gəlirdi. Gün işığı düz gözünə şığıdığından sonuncu Qapıda baş verənləri aydın görmürdü. Günəşin şüaları gözünü tutmuşdu.

Bərk-bərk ovuşdurub, yumub-açınca gözünün nuru özünə qayıtdı. Qapılardan keçənlərə bir də baxdı. Bu Qapılardan keçdikcə Ay parçası oğlanların, mələk çöhrəli qızların, nurlu kişilərin, qadınların bədəni dəyişirdi. Hər keçiddə fərqli-fərqli canlılara çevrilirdilər. Bu orqanizmləri ayırd eləmək olmurdu. Dik gəzən meymunu xatırladan varlıq növbəti Qapıdan dördayaqlı canlı kimi keçirdi. Əllərini yerə qoyub ikiqat əyiləndə dallarından çıxan quyruq uzun, qalınlığından tülkü, dik durub əsməyindən isə it quyruğuna oxşayırdı.

Daha balaca Qapıya çatanda kərtənkələ kimi sürünürdülər. Bu dördayaqlılar, sürünənlər onun tanıdığı canlılara oxşasalar da, ondan deyildilər. Əcaib mutant varlığıydılar. Bağın o üzündəki Çöldə belə orqanizmlərə rast gəlməmişdi. Hasarda gördüyü yaraşıqlı xidmətçilər də Bağda əcaib, Yerdənkənar canlılara çevrilirdilər.

Günəş Sarayın arxasından çəkiləndə sonuncu Qapıdan çıxanları gördü. Ürəyi ağzına gəldi – qorxunc varlıqlar ən sonuncu Qapıdan buynuzlu ilbiz kimi sürünüb çıxırdı.

Selikli ilbizlər ətrafa ürkək-ürkək baxa-baxa Saray pilləkənləri boyu sürünür, keçdikləri yerdə parlaq iz qoyurdular. Onların cızdığı izlər reklam sözləri kimi aydın oxunurdu.

İlbiz izləri pillələrdə sahibinin adını yazırdı! Hasarın başından aydın görünən bu yazılar – adlar onu şoka salmışdı. O, iz sahiblərinin çoxunu tanıyırdı. Burda kimlərin adı yoxuydu!

İlbiz sürüsü Saraya aşağı qapıdan girib o biri başdan, hündür alaqapıdan çıxırdı. Geri dönən ilbiz hər iki buynuzu kəsik qayıdırdı.

Saraya gedən axın kimi Saraydan qayıdan axın da eyni qaydada hərəkət edirdi. İlbizlər sürünüb həmin Qapılardan keçir, vücudlarını dəyişir, quyruq alıb-salır, bu dəfə hər keçiddə bir baş dikəlirdilər. Adama boy verən Hasara yaxın sonuncu qapıdan çıxanda əvvəlkindən də əzəmətli görkəm alırdılar. Eybəcər mutant orqanizmdən mələk üzlü varlığa çevrilmə zamanını hesablamaq mümkün deyildi. Bəlkə də bəşəriyyətin meymundan müasir insana qədərki təkamül zamanı bundan qısaydı – ona belə gəlirdi.

Hündürboy Bağ xidmətçiləri qonaqları Hasarın pillələri ilə yuxarı qaldırıb, Çölə düşmələri üçün günün batmasını gözləyirdilər. Hasarın o üzü ilə təmas yalnız gecələr olurdu, yeni qonaqları qarşılama, köhnələri yolasalma günün yalnız qaranlıq saatlarında baş verirdi. Bu qayda uzun illərdi dəyişməz qalmışdı. O, Hasarın üstündə Çölə qayıtma saatlarını gözləyənləri diqqətlə süzürdü. Daha qadınlar üzünü çiyinlərinə saldıqları ipək yaylıqla, kişilər pencəyin yaxalığı ilə gizlətməyə çalışmırdılar. Bəxtəvər gülüşlə işıq saçırdılar.

Nəhayət, gecə növbətçiləri gəldi. Gedənləri Çölə düşürdülər, gələnləri Bağa yola saldılar, sonra çəkilib getdilər. O, Bağa düşmədi, Saray xidmətçisinin onun arxasınca gələcəyini deyib sabahacan gözlədi.

Bütün gecəni yuxuya gedə bilmədi. Bağı tərk edənlərin fikri onu rahat qoymurdu. İlbiz izləri ilə yazılan adlar sanki beyninə mismarla sancılırdı. Neçə illər öncə bu Bağa kimlər gəlibmiş, Qapılardan keçib Saraya kimlər giribmiş!!! Çöldə hamının qəhrəman bildiyi nə qədər adam Bağda Qapılardan dördayaqlı keçib Saraya ilbiz kimi sürünübmüş…

Çaş-baş qalmışdı. Gördükləri yuxu kimiydi. Necə davranmalı, nə etməli olduğunu bilmirdi. O, qaydaları pozmuşdu. Hasara gecə yox, günün günorta çağı çıxmışdı. Şərtinin birincisi elə bu idi: *"Hasara günorta vaxtı, hamının gözü qabağında çıxacam!"* Onu hamı görmüşdü. Bu onu narahat eləmirdi. Hasara çıxmaq, haqqında əfsanələr dolaşan Bağa baxmaq marağı hər şeyə güc gəlmişdi. Hamının diqqəti ordaykən Hasara gündüz çıxması səhv idi, ya düz, bilmirdi…

Ora elə məhz gün işığında, hamının gözü qabağında çıxmasının düz hərəkət olduğunu sonra biləcəkdi.

Onu Hasara çıxmaqda, hətta Bağa düşməkdə, Saraya girməkdə ittiham edəcəkdilər. Saray pillələrində adını oxuduğu neçə-neçə qələm əhli bunu qəzetdə yazacaq, siyasət, elm-sənət adamı, ictimai xadim söz atacaq, ağız büzəcəkdi. Bircə onu tanıyan dostları Bağa düşmədiyinə, Saraya girmədiyinə, elə Hasardanca geri döndüyünə inanacaqdılar.

Günlərin birində hörmət elədiyi İnsanla küçədə rastlaşacaqdı. Həmişəki kimi hal-əhval tutacaq, söhbətləşəcəkdilər. Ayrılanda İnsan indicə xatırlayırmış kimi qəfil soruşacaqdı: *"Deyirlər Hasara çıxmısan, düzdümü?"* Bu qəfil sual damarında qanı donduracaq, boğazında nitqini tutacaqdı. Sual verə bilmədiyi cavabla birlikdə ürəyindən bir cüt daş olub asılacaqdı. Ağırlığa ürəyi dözməyəcəkdi, parça-parça olacaqdı. Paralanmış ürəyindən qapqara qanı damacaq, süzülüb bir yerdə laxtalanacaqdı. Sonra qan laxtasını təmizləmək istəyəndə yeri göynəyəcəkdi. Ağrıyan yerin Vicdan olduğunu onda biləcəkdi.

Sual Saray pillələrində adlarını oxuduğu Çöl qəhrəmanlarının tənəsi deyildi ki, ironik gülüşlə vec verməsin. Dostların inamı da deyildi təsəlli tapsın. Bu, hələ Bağa düşmək, Saraya girmək yox, Hasara çıxmağın belə günah olmasını anladan İnsanın təəccübüydü.

Belədir, insan özünü başqası dəyər verəndə tapır!

Bunlar sonra olacaqdı. İndi isə o, Hasardaydı. Səhəri dirigözlü açmışdı. Yollarda hərəkət, Qapılarda keçid prosesi dayanmamışdı. İndi gəlib onu da bağa düşürəcəkdilər. O da mələkdən ilbizə, ilbizdən mələyə gedən yolu keçməli, Saraya girib-çıxmalı, Çölə başıdik, vüqarlı görkəmiylə qayıtmalıydı.

Həyəcan sancısı qarnını doğrayırdı. Cavabını bilmədiyi suallar mancanaq qarmağı kimi ruhunu didirdi. Onu Hasara çıxmağa sövq edən səbəblərə bəraət axtarırdı. Amma tapmırdı.

Hasarın o gələn üzündəki həyat tamam boşalmışdı, orda heç kimə lazım deyildi, özünü anladacaq adam qalmamışdı. Ümidləri ölmüşdü. Yaşaya biləsi dünya daralıb, daralıb… yox olmuşdu. Xilas yolunun Hasarda olmadığını da bilirdi. Amma lənətə gəlmiş marağı ona güc eləmişdi. Burda, Bağda gördükləri isə onu dəhşətə gətirmişdi.

Səhəri üzü-gözü tər içində açdı, nəfəsi kəsik-kəsik gəlirdi. Saray səmtdən əsən meh özüylə kəsif qoxu gətirmişdi. Bu, uşaq vaxtı yaşadığı şəhərin aşağı başındakı ət kombinatında yandırılan sümük qoxusunun eyniydi.

Sarayda kəsilmiş ilbiz buynuzlarını yandırırdılar!

Onu Bağa düşürməyə Sarayın baş xidmətçisi özü gəlirdi. Qorxunc varlığıydı. İnsan kimi yerisə də, insan deyildi, cürbəcür canlıların qarışığına oxşayırdı. Sifəti yüz ilin mamır basmış ağac qabığı tək qartımışdı. Qıpqırmızı gözlərinə baxmaq olmurdu, elə bilirdin səni batıracaq qan gölüdü. Hasar pillələrini qalxdıqca bədheybət xidmətçinin bədəni dəyişirdi, yavaş-yavaş adama çevrilirdi. Çatanda gələnin üzündən nur tökülən yaraşıqlı, nəzakətli, alicənab biri olmasına heyrət elədi.

*"Deyirlər sən də Hasara çıxmısan, düzdümü"* Sualı sabahın məşhər sorğusu kimi boğazından yapışıb onu üzüaşağı çəkməyə başladı. Saray xidmətçisi əl atıb nəzakətlə onu tutdu, qoluna girib yıxılmağa qoymadı. Ehtiramla Bağa sarı yol göstərdi. Amma o, addım ata bilmədi. Hər cəhdində boynundakı Sual zənciri dartılırdı. Boğazı zəncirdə, əli Saray xidmətçisindəydi. Köməyə başqa xidmətçilər də gəldi. Zəncir qırılmırdı. Sualın titrək əllərindəki gücə məəttəl qalmışdı. Yorulsa da, titrəsə də, qopmurdu, bərk-bərk tutub onu aşağı dartırdı.

Nəhayət, yayından çıxan ox kimi sıçradı. İlk anda kimin əlindən qopduğunu kəsdirə bilmədi. Yerə dəyib huşunu itirdi.

Ayılanda özünü Hasar dibində gördü. Çölə düşmüşdü!

…Qalxıb üstünün tozunu çırpdı. Çöldə həyat əvvəlki axarıyla davam edirdi. Şəhərin küçələriylə addımladıqca, tinlər, döngələr arxada qalırdı.

Küçələr adamla doluydu. Üz-üzə gəldiyi, ötüb kecdiyi heç kəs ona əhəmiyyət vermir, görmürdü. Məşhur əsərin qəhrəmanı "gözəgörünməz adam"a bənzəyirdi. Özünü lüt hiss edirdi, ayıb yeri görünürmüş kimi qısılırdı. Amma ona baxan yoxuydu. O isə hamını görürdü. Adamların üzünə sərhədçi pasporta baxan kimi baxırdı, elə bil Saray pillələrində gördüyü adları indi onların üzündə oxuyacaqdı.

Şəhərin baş küçəsində qol-qola qadınlar, kişilər gəzirdi. Saraydan qayıdan neçə adama rastladı burda. Onların üzündə xoşbəxt təbəssüm vardı, amma adamlara baxmırdılar, baxışları bir yerdə qərar tutmurdu. Qəribəydi, onlar da onu görmürdülər.

Gözü reklam şitində bir afişaya sataşdı. Şəhərin baş teatrında yeni tamaşanın premyerası olacaqdı. Gəncliyindən tamaşalarına sevə-sevə baxdığı dramaturqun yeni pyesi səhnələşdirilibmiş. Afişada adları oxuduqca gözü qaraldı. Ölkənin ən məşhur rejissoru, korifey aktyor, gözəl aktrisa, sevgi mahnılarıyla könülləri fəth edən bəstəkar. Elə bil, bu adları afişada yox, Saray pillələrində oxuyurdu.

…Yanından ötdüyü meydanda böyük bir izdiham vardı. Camaat etiraza yığılmışdı. Tribuna Çölün məşhur adamlarıyla doluydu. Kütlə Çıxışçının *"Rədd olsun xalqa divan tutan Saray əhli!"* sözlərini hayqırtıyla alqışlayırdı. Çıxışçı adını Saray pillələrində oxuduğu adam idi. Kütlə onu tanıyırdımı? Bəs, tribunadakı silahdaşları necə?

İnsanlar ehtiraslı gözlərində parlayan ümidlə ətrafa şölə saçırdılar. Hamı tribunaya baxırdı, üzlər yalnız bir səmtə – qabağaydı. Onlar daha gələcəkdən qorxmurdular. Daha onların Çıxışçı kimi yolgöstərənləri vardı.

*"Dərdli adamlar geriyə baxmazlar. Onlar qara talelərin dallarınca gəldiyini çox gözəl bilirlər… "Ümid" Dantenin cəhənnəm qapılarından sildiyi, Tanrının isə hər bir insanın alnına yazdığı sözdü"* – böyük Hüqo, sən bu həqiqəti necə dərk etdin!

İzdihamın axırında bir topa adam hansısa qəzet yazısını müzakirə edirdi. Yaxınlaşdı. Məşhur Yazarın yazı başlığını gözü aldı: *"Saray başçısı Çölün qanını sümürür!"* Saray pillələrində parlaq ilbiz iziylə yazılan müəllif adını indi qəzetdə qara, iri hərflərlə oxuyurdu.

Başqa bir dəstədə isə Çölün tanınmış xadimləri bir yerdə dairə qurub durmuşdular. Mitinqçilərə qarışmayan bu adamlar gah çıxışçıları dinləyir, gah kütləyə baxıb öz aralarında xısınlaşırdılar.

O, son kərə izdihamın sonunacan insan selinə tamaşa elədi.

Bütün ömrünü Sarayla mübarizəyə həsr edən zavallı insanları xəyalən bir-bir bağrına basdı.

Sonra Meydanı tərk elədi!

Başında cürbəcür fikir bir-birinə qarışmışdı, heç bir yana gedib çıxa bilməyən bu fikir sürüsü eləcə havadan asılı qalmışdı – şüşə qabda suya kök buraxmış pöhrə kimiydi. Yapışmağa dayaq tapmayan köklər bir-birinə sarılıb düyün düşmüşdü.

Sonuncu küçəni də keçib şəhərdən çıxdı.

Qürub çağıydı, səmada günəşin son işartıları üfüqü al-qırmızı qızartmışdı.

Ürək sabahdan arxayın olanda rahatladığı kimi göz də uzağa baxanda dincəlir. İndi baxdığı uzaqlıqda bir azdan o qədər ulduz parlayacaqdı ki. Tanrı ayaqları altında xırçıldayıb sönən ulduzların izinə düşəcəkdi.

Sonra mütləq Günəş doğacaqdı.

…Çölün axırında yoxuşa dikələn yolla qalxdı, qalxdı, qalxdı… üfüqün o üzündə yox oldu.

Oktyabr 2012